

*Mən dəfələrlə deyirdim, bu gün də deyirəm, biz böyük ailəyik. Azərbaycanda yaşayan bütün xalqlar bir böyük ailənin üzvləridir. Yaxşı günlərdə, ağır günlərdə bir yerdəyik və bu birlik dünya miqyasında nadir dəyərdir. Baxın, biz başqa ölkələrin timsalında milli, dini, etnik zəmində narazılıq, toqquşma, inamsızlıq görürük. Azərbaycanda nə görürük - birlik, qardaşlıq, dostluq! Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda ölümə gedirdilər. Bu, bizim böyük dəyərimizdir. Biz bunu, bu dəyəri daim qoruyub saxlamalıyıq, gücləndirməliyik.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2022**
**4 (80)**

DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI
BAKI – 2022

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2022, №4(80).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2022, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2022*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2022
4 (80)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2022

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2022, №4(80)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2022, 336p.*

*© Academy of Public Administration, 2022*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Oktyabr - noyabr - dekabr 2022-ci il*

## Oktyabr

**1 oktyabr**
- Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Bolqarıstanın paytaxtı Sofiyada Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşmüşdür.
- Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Bolqarıstanın paytaxtı Sofiyada Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşmüşdür.
- Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində keçirilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində iştirak və çıxış etmişdir.
- Bolqarıstan Respublikasına rəsmi səfəri başa çatmışdır.

**3 oktyabr**
- Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçi qəbul etmişdir.
- İsrailin müdafiə naziri Benyamin Qansı qəbul etmişdir.

**4 oktyabr**
- Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysal bin Fərhan Al Səudu qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonuna səfər etmişdir.
- Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə atlara baxış keçirmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonunun Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonunun Kəngərli kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərində «City Hotel Agdam» mehmanxanasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanış olmuş, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin üzərindəki ağ örtüyü götürmüş, önünə gül dəstələri qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Ağdam rayonunun Sarıcalı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.

**5 oktyabr**
- Ağdamda BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda «Dayanıqlı İnkişaf Məqsədləri» və «Yeni Şəhər Gündəliyi» – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi» mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində iştirak və çıxış etmişdir.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona zəng edərək onu yubileyi münasibətilə təbrik etmiş, ona Tacikistan xalqının firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.

**6 oktyabr**
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə «Avropa siyasi birliyi» Zirvə Toplantısında iştirak etmək üçün Praqaya səfər etmişdir.
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olmuşdur.
- Çex Respublikasının paytaxtı Praqada «Avropa siyasi birliyi» Zirvə Toplantısının açılış plenar iclasında iştirak etmişdir.

- Praqada «Avropa siyasi birliyi» Zirvə Toplantısı çərçivəsində keçirilən «Avropa qitəsində sülh və təhlükəsizlik» mövzusunda dəyirmi masada iştirak və çıxış etmişdir.
- Praqada Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilən görüşdə iştirak etmişdir.
- Praqada «Avropa siyasi birliyi» Zirvə Toplantısı çərçivəsində işçi nahar formatında keçirilən bağlanış plenar iclasında iştirak etmişdir.
- Praqada Azərbaycan televiziya kanallarına müsahibə vermişdir.
- Praqada Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə yenidən görüşü olmuşdur.

**7 oktyabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.
- Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak etmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri başa çatmışdır.

**10 oktyabr**

- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun etimadnaməsini qəbul etmişdir.
- Ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa ilə təkbətək görüşü olmuşdur.
- Ölkəsinin milli bayramı münasibətilə İspaniyanın Kralı Əlahəzrət VI Felipeni təbrik etmişdir.

**11 oktyabr**

- Qırğız Respublikasına dövlət səfərinə gəlmişdir.
- Bişkek şəhərinin «Manas» Beynəlxalq Hava Limanında onu Qırğızıstan Prezidenti Sadır Japarov qarşılamışdır.
- Bişkekdəki «Ata-Beyit» Milli Tarixi-Memorial Kompleksini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- Sonra görkəmli Qırğız yazıçısı Çingiz Aytmatovun məzarını da ziyarət etmiş, məzarı üzərinə gül dəstəsi qoymuşdur.
- Bişkekdəki Ala-Arça dövlət iqamətgahında rəsmi qarşılanma mərasimindən sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclasında iştirak etmişdir.
- Bişkekdə Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclasında iştirak etmişdir.
- Geniş tərkibdə iclas başa çatdıqdan sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Birinci Dövlətlərarası Şuranın iclasının Qərar"ını imzalamışdır.
- Sənədlərin imzalanma mərasimindən sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Bişkekdə Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışında iştirak və çıxış etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarovun adından onun şərəfinə təşkil edilmiş rəsmi qəbulda iştirak etmişdir.
- Konsert proqramının təqdim olunduğu rəsmi qəbulda Qırğızıstan Prezidenti Sadır Japarov Ulu Öndər Heydər Əliyevlə bağlı fotoalbomu ona təqdim etmişdir.

**12 oktyabr**

- Bişkekdə, Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılış mərasimində iştirak və çıxış etmişdir.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə məktəblə tanış olmuşdur.
- Bişkekdə, Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Nizami Gəncəvi adına 103 saylı məktəbin açılış mərasimində iştirak etmişdir.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə məktəblə tanış olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Bişkekdəki "Ala-Arça" Dövlət Təbiət Parkında təşkil olunan mədəni proqramda iştirak etmişdir.
- Sonra burada Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə milli geyim kolleksiyalarından ibarət sərgiyə baxmışdır.
- Qırğız Respublikasına dövlət səfəri başa çatmış, Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında onu Qırğızıstan Prezidenti Sadır Japarov yola salmışdır.
- Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında və MDB Dövlət Başçılarının iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfərə gəlmişdir.
- Astanada Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşü olmuşdur.

**13 oktyabr**

- Astanada keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı

Zirvə Toplantısının plenar iclasında iştirak və çıxış etmişdir.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısında iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Astanada İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olmuşdur.
- Astanada Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olmuşdur.
- Astanada MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş qeyri-rəsmi naharda iştirak etmişdir.

**14 oktyabr**
- Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında iştirak və çıxış etmişdir.
- Sonra Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilən iclasında iştirak etmişdir.
- Astanada MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Qazaxıstan Respublikasına işgüzar səfəri başa çatmışdır.

**15 oktyabr**
- Bartın vilayətindəki mədəndə baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir.

**19 oktyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cəbrayıl və Qubadlı rayonlarına səfər etmişdir.
- Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində iştirak etmişdir.
- Cəbrayılda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.
- 330/110 kilovoltluq “Cəbrayıl” Qovşaq Yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Qubadlı rayonu ərazisində yaradılacaq “Zabuxçay” və “Bərgüşadçay” su anbarlarının layihələri ilə tanış olmuşdur.
- Qubadlıda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qubadlı şəhərinin Baş planı ilə tanış olmuş, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunda olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunun Ağalı kəndində olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlər ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak etmişdir.
- 2-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” – “Rebuild Karabakh” Sərgisinin və 27-ci Azərbaycan Beynəlxalq İnşaat Sərgisinin iştirakçılarını təbrik etmişdir

**20 oktyabr**
- Zəngilan Beynəlxalq Hava Limanında Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Zəngilan rayonunda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdir.
- Sonra burada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə jurnalistlərin suallarını cavablandırmışdır.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə komplekslə tanış olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə “Dost Aqropark”ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə “Made in Qarabağ” etiketlərinin ilk nümunələrini vurmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə “Dost Aqropark”ın nəzdində

yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılış mərasimində iştirak etmişdir.
- Açılış mərasimində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları ilə söhbət etmişdir.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə burada təqdim edilən konsert proqramında iştirak və çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoymuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə ərazidə ağac əkmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə əraziyə ceyranlar buraxmışdır.
- Cəbrayıl şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Görüş başa çatandan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata birgə bəyanatlarla çıxış etmişdir.
- Azərbaycan Respublikasına rəsmi səfəri başa çatan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı Zəngilan Beynəlxalq Hava Limanında yola salmışdır.
- Ölkəsinin milli bayramı münasibətilə Macarıstanın Prezidenti xanım Katalin Novakı təbrik etmişdir.

**21 oktyabr**
- Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyevi qəbul etmişdir.

**22 oktyabr**
- Ökəsinin milli bayramı – Respublika Günü münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.

**24 oktyabr**
- Gürcüstana işgüzar səfərə gəlmişdir.
- Mçxeta rayonundakı Muxrani sarayında (Château Mukhrani) Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olmuşdur.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə Mçxeta rayonundakı Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olmuşdur.
- Sərgi ilə tanışlıqdan sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə Gürcüstanın Mçxeti rayonundakı Muxrani saray kompleksində təqdim olunan mədəni proqramda iştirak etmişdir.
- Mçxeta rayonundakı Muxrani sarayında Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə işçi naharı olmuşdur.
- Gürcüstana işgüzar səfəri başa çatmışdır.

**26 oktyabr**
- Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.
- Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkelini qəbul etmişdir.
- Azərbaycan yazıçılarının XIII qurultayının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunakı təbrik etmişdir.
- Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**27 oktyabr**
- BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.
- Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.

**28 oktyabr**
- Rusiya Federasiyası Baş nazirinin birinci müavini Andrey Belousovu qəbul etmişdir.

**29 oktyabr**
- Ölkəsinin milli bayramı – İnqilab Günü münasibətilə Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunu təbrik etmişdir.

**30 oktyabr**
- Seul şəhərində yaranmış izdiham nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması ilə əlaqədar Koreya Respublikasının Prezidenti Yun Sok Yola başsağlığı vermişdir.

**31 oktyabr**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.
- Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə ikitərəfli görüş keçirmişdir.
- Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.
- Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri başa çatmışdır.

## Noyabr

**1 noyabr**
- Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə Zirvə toplantısında Fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkəyə səfərə gəlmişdir.
- Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmiş, abidə önünə əklil qoymuşdur.
- Sonra muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.
- Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində Fəxri qonaq statusunda iştirak etmişdir.
- Əlcəzair Xalq Demokratik Respublikasına səfəri başa çatmışdır.

**2 noyabr**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası “Togg”un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırmış və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirmişdir. Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış birgə bəyanat müzakirə olunmuşdur.

**4 noyabr**
- Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayı qəbul etmişdir.
- Bakının Xəzər rayonunun Zirə qəsəbəsində “Abşeron Zeytun Bağları” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) regionda ən böyük zeytun yağı və süfrəlik zeytun məhsullarının emalı zavodunun açılışında iştirak etmişdir.
- Prezident İlham Əliyev əvvəlcə zeytunçuluq kompleksinin yaradılması ilə bağlı görülən işlər barədə videoçarxı izləmişdir.
- “Abşeron Zeytun Bağları” MMC-nin nümayəndəsi Rəmzi Şükürov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat vermişdir.
- Sonra ərazidə zeytun ağacı əkmişdir.
- Avtobusla kompleksin ərazisini gəzmişdir.
- Daha sonra müəssisədə istehsal olunan zeytun yağlarının nümunələri ilə tanış olmuşdur.
- Zavodu işə salmış, istehsal prosesi və laboratoriyaların işi ilə tanış olmuşdur.
- Müəssisənin süfrəlik zeytun emalı sahəsi ilə də tanış olmuşdur.
- İtaliyanın “Pieralisi” şirkətinin nümayəndələri ilə görüşmüşdür.

**7 noyabr**
- Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.
- Hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoymuş, burada ağac əkmişdir.
- Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərciyin qərargah binası ilə tanış olmuşdur.
- Hərbçilərlə birgə foto çəkdirmiş, onları 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik etmişdir.
- Hərbi şəhərcikdə əsgər yataqxanası, əsgər yeməkxanası və idman zalı ilə tanış olmuşdur.
- Sonra mənzillərdə yaradılmış şəraitlə tanış olmuşdur.

**8 noyabr**
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak etmiş, hərbçilər qarşısında çıxış etmişdir.

**10 noyabr**
- Avropa Olimpiya Komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul etmişdir.
- Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün Özbəkistan Respublikasına səfərə gəlmişdir.
- Səmərqənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur.
- Səmərqənddəki “Əbədi şəhər” kompleksində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimatında iştirak etmişdir.
- Səmərqənddə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

**11 noyabr**
- Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak və çıxış etmişdir.
- Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının “Yaşıl məkan” layihəsi çərçivəsində Səmərqəndin “Registan” meydanında ağacəkmə mərasimində iştirak etmiş, həmin meydanda ağac əkmişdir.
- Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Səmərqənddə Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Özbəkistan Respublikasına səfəri başa başa çatmışdır.
- Yaranmasının 30 illiyi münasibətilə Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin üzvlərini,

eləcə də ölkəmizin bütün idman ictimaiyyətini təbrik etmişdir.

**12 noyabr**

- Ölkəsinin milli bayramı münasibətilə Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir.

**13 noyabr**

- İstanbulun mərkəzində törədilmiş xain partlayış nəticəsində insanların həlak olması və xəsarət alması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir

**15 noyabr**

- Albaniya Respublikasına dövlət səfərinə gəlmişdir.
- Albaniyanın paytaxtı Tiranadakı "Brigades" Sarayında rəsmi qarşılanma mərasimindən sonra Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatdıqdan sonra Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olmuşdur.
- Tiranada "Mother Albania" abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- Sonra şəhərin mənzərəsini seyr etmişdir.
- Tiranada Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.
- Tiranada onun şərəfinə Albaniya Respublikasının Baş naziri Edi Rama tərəfindən verilən naharda iştirak etmişdir.
- Albaniya Respublikasına dövlət səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Latviya Respublikasının Prezidenti Egils Levitsi təbrik etmişdir.

**16 noyabr**

- Azərbaycan Respublikası ilə Gürcüstan arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilini təbrik etmişdir.
- Azərbaycan Respublikası ilə Gürcüstan arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini təbrik etmişdir.
- ABŞ dövlət katibi Antoni Blinken ona zəng edərək, bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulamışdır.

**17 noyabr**

- Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərək, iqtisadi-ticari və enerji sahələrində əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

**18 noyabr**

- Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olmuşdur.
- Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə çay masası əsnasında təkbətək görüşü olmuşdur.

**21 noyabr**

- Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının (AK Parti) sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuşu qəbul etmişdir.
- Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) Baş katibi Cho Byunq-jaeni qəbul etmişdir.
- Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə iştirak və çıxış etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə növbədənkənar seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edərək, onu prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik etmiş, ona Qazaxıstanın inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində, o cümlədən aparılan islahatların həyata keçirilməsi işində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**22 noyabr**

- Formula 1 Qrupunun idarə heyətinin sədri və prezidenti Stefano Domenikalini və Formula 1 Qrupunun məsləhətçisi Flavio Briatolini qəbul etmişdir.
- İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ona zəng edərək, İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərara görə ona təşəkkürünü bildirmiş və bunun, İsrail üçün mühüm dost ölkə və strateji tərəfdaş olan Azərbaycanla çox gözəl münasibətlərdə irəliyə doğru böyük bir addım olduğunu qeyd etmişdir.

**23 noyabr**

- Serbiya Respublikasına rəsmi səfərə gəlmişdir.
- Belqrad şəhərinin "Nikola Tesla" hava limanında onu Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşılamışdır.
- Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimindən sonra Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olmuşdur.
- Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü olmuşdur.

- Geniş tərkibdə görüşü başa çatdıqdan sonra Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə sənədlərin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə mətbuata bəyanatla çıxış etmişdir.
- Belqradda Serbiya Respublikasının Baş naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olmuşdur.
- Paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etmiş, abidələrin önünə əklil qoymuşdur.
- Belqradda onun şərəfinə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç tərəfindən verilən rəsmi lançda iştirak etmişdir.
- Serbiya Respublikasına rəsmi səfəri başa çatmış, Belqrad şəhərinin "Nikola Tesla" hava limanında onu Serbiya Prezidenti Aleksandar Vuçiç yola salmışdır.

**24 noyabr**

- Moldova Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Aleksandr Esaulenkonun etimadnaməsini qəbul etmişdir.
- Liviya Dövlətinin Azərbaycan Respublikasında yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ali Salem Naserin etimadnaməsini qəbul etmişdir.
- Müqəddəs Taxt-Tacın Azərbaycan Respublikasında yeni təyin olunmuş apostol nunsisi arxiyepiskop Marek Solçinskinin etimadnaməsini qəbul etmişdir.
- Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul etmişdir.

**25 noyabr**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.
- Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak və çıxış etmişdir.
- Sonra konfrans iştirakçılarının suallarını cavablandırmışdır.

**26 noyabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərək, Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli razılaşmaların kompleks şəkildə həyata keçirilməsi üzrə qarşıdakı addımları, eyni zamanda regionda nəqliyyat və iqtisadi əlaqələrin açılmasının praktiki məsələlərini müzakirə etmişdir.

**28 noyabr**

- ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul etmişdir.

**29 noyabr**

- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Kabinet işləri naziri Məhəmməd bin Abdullah Əl Qərqavini qəbul etmişdir.
- Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Türkmənistanın Baş nazirinin ticarət kompleksi üzrə müavini Batır Atdayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı təbrik etmişdir.

## Dekabr

**1 dekabr**

- Çin Xalq Respublikasının keçmiş Sədri, görkəmli dövlət xadimi Tszyan Tszeminin vəfatı ilə əlaqədar Çin Xalq Respublikasının Sədri Si Cinpinə başsağlığı vermişdir.

**2 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəki rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşdur.
- Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə burada şəbəkə ustası ilə söhbət etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə keçəçi qadın sakin ilə söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Rəsm Qalereyasında görülmüş bərpa işləri ilə tanış olmuşdur.
- Tarix-Memarlıq Qoruğu ilə tanışlıqdan sonra Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Şəki şəhərinin sakinləri ilə söhbət etmiş, xatirə şəkilləri çəkdirmişdir.
- Oğuz rayonuna səfər etmişdir.
- Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak etmişdir.
- Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.
- Sonra bağçanın qrup otaqları, oyun zalı, yeməkxana və həyətyanı sahəsində yaradılmış şəraitlə tanış olmuşdur.
- Oğuz rayonunda "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə tanış olmuşdur.
- Aqroparkın ərazisində ağac əkmişdir.
- "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olmuşdur.
- Aqroparkın torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğuları işə salmışdır.
- Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoymuşdur.

**5 dekabr**

- Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul etmişdir.
- Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul etmişdir.
- Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Dağıstanın görkəmli dövlət və ictimai-siyasi xadimi, Azərbaycan xalqının böyük dostu Maqomedali Maqomedovun vəfatı ilə əlaqədar doğmalarına və yaxınlarına başsağlığı vermişdir

**6 dekabr**

- Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul etmişdir.

**7 dekabr**

- Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir.

**9 dekabr**

- Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalar və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.

**12 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərərk, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr, həmçinin bu il 31 oktyabr tarixli razılaşmalarının reallaşdırılmasının bəzi praktiki aspektlərini, o cümlədən Cənubi Qafqazda iqtisadi və logistik əlaqələrin bərpası planlarını müzakirə etmişdir.

**13 dekabr**

- Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bəhreynin Kralı Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.

**14 dekabr**

- Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirak etmək üçün Türkmənbaşı şəhərinə səfərə gəlmişdir.
- Türkmənbaşı şəhərində Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Türkmənbaşı şəhərində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olmuşdur.

- Türkmənbaşı şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə məhdud tərkibdə keçirilən görüşdə iştirak etmişdir .
- Türkmənbaşı şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə keçirilən görüşdə iştirak və çıxış etmişdir.
- Geniş tərkibdə görüşündən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə birlikdə Azərbaycan-Türkiyə-Türkmənistan sənədlərini imzalamışdır.
- Türkmənbaşı şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur.
- Türkmənbaşı şəhərində Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun adından onun və xanımı Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Türkmənistana səfəri başa çatmışdır.

**15 dekabr**

- Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir. Ölkəsinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.

**17 dekabr**

- Rumıniyanın Prezidenti Klaus Yohannisin dəvəti ilə Buxarestə işgüzar səfərə gəlmişdir.
- Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı keçirilən plenar iclasda iştirak və çıxış etmişdir.
- Buxarestdə, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Macarıstanın Baş naziri Viktor Orban ilə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalamışdır.
- Buxarestdə, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanma mərasimində iştirak edən nümayəndə heyətləri rəhbərlərinin şərəfinə Rumıniya Prezidenti Klaus Yohannes tərəfindən verilən naharda iştirak etmişdir.
- Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olmuşdur.
- Rumıniyaya işgüzar səfəri başa çatmışdır.

**18 dekabr**

- Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**19 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə paytaxtda "The Ritz-Carlton Baku" otelinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə oteldə yaradılan şəraitlə tanış olmuşdur.

**21 dekabr**

- Ölkəsinin milli bayramı münasibətilə Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfini təbrik etmişdir.

**22 dekabr**

- Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul etmiş və ona müvafiq tapşırıqlarını vermişdir.

**23 dekabr**

- Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və "Xocəsən" elektrik deposunun açılışında iştirak etmişdir.

**24 dekabr**

- Özbəkistan Respublikasının Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Cəmşid Xocayevi qəbul etmişdir.
- Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuşdur.
- Bina ilə tanışlıqdan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşmüş, görüşdə giriş və yekun nitqi söyləmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin zəng edərək onu doğum günü münasibətilə səmimi-qəlbdən təbrik etmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev zəng edərək ona ad günü münasibətilə təbriklərini çatdırmış, xalqımızın rifahı naminə fəaliyyətində ona uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart zəng edərək onu doğum günü münasibətilə səmimi-qəlbdən təbrik etmiş, ona cansağlığı və ali dövləti fəaliyyətində yeni-yeni uğurlar arzulamışdır.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ölkəmizin inkişafı naminə fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**26 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının iclasında iştirak etmək üçün Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının iclasında iştirak etmişdir.
- Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak etmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri başa çatmışdır.

**27 dekabr**

- Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında görülən işlərlə tanış olmuşdur.
- Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoymuşdur.

**28 dekabr**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak etmişdir.

**29 dekabr**

- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.
- İsrail Dövlətinin Baş naziri kimi fəaliyyətə başlamağınız münasibətilə İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahunu təbrik etmişdir
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanı təbrik etmişdir.

**30 dekabr**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak etmişdir.

**31 dekabr**

- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

Görüşdə Azərbaycanla Beynəlxalq Şahmat Federasiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Ölkəmizdə idmanın digər növləri kimi, şahmatın inkişafına da dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi bildirildi. Azərbaycanlı şahmatçıların beynəlxalq yarışlarda qazandığı uğurlar qeyd olundu.

Söhbət zamanı ötən ay Şuşada keçirilən Beynəlxalq şahmat turnirinin əhəmiyyətinə toxunuldu, oktyabrın 2-də Arkadi Dvorkoviçin Naxçıvanda keçirilən 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılışında iştirakından məmnunluq bildirildi.

Görüşdə gələcəkdə Azərbaycanda şahmat üzrə nəzərdə tutulan beynəlxalq əhəmiyyətli turnirlər barədə fikir mübadiləsi aparıldı.

***İsrailin müdafiə naziri Benyamin Qansın qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İsrailin müdafiə naziri Benyamin Qansı qəbul edib.

Görüşdə iki ölkə arasında uzun illər davam edən hərbi-texniki əməkdaşlıq və bu sahədə perspektivlər barədə fikir mübadiləsi aparıldı.

***Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysal bin Fərhan Al Səudun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysal bin Fərhan Al Səudu qəbul edib.

Xarici işlər nazirini salamlayan Prezident İlham Əliyev dedi:

– Sizi görməyə şadam, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, səfəriniz məhsuldar olacaq.

Nazir Feysal bin Fərhan Al Səud dedi:

– Çox sağ olun, Zati-aliləri, bizi qəbul etmək üçün vaxt ayırdığınıza görə təşəkkür edirəm. Azərbaycanda səfərdə olmaq böyük şərəfdir və Zati-alinizlə görüşmək böyük məmnuniyyət doğurur. İcazə verin, İki Müqəddəs Ocağın Xadimi, Kral Əlahəzrətin və Vəliəhdin Sizə və Azərbaycan xalqına səmimi salamlarını çatdırım. Bizi bu səhər qəbul etdiyiniz üçün bir daha sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Xahiş edirəm, mənim də salamlarımı Kral Əlahəzrətə və Vəliəhdə çatdırasınız. Mənim qardaş ölkənizə səfərim, Kral Əlahəzrəti və Vəliəhdlə müzakirələr aparmağımla bağlı çox yaxşı xatirələrim var. Əminəm ki, sizin səfəriniz artıq mümkün olan ən yüksək səviyyəyə çatmış münasibətlərimizin daha da inkişafında çox vacib rol oynayacaq. Biz ölkələrimiz arasında mövcud olan bu səmimi münasibətlərə böyük dəyər veririk. Biz hər zaman hökumətinizin və xalqınızın dəstəyini hiss etmişik. İşğal dövründə Səudiyyə Ərəbistanı az sayda olan ölkələrdən biri idi ki, bizim haqlı işimizə davamlı dəstək verirdi. Bunun bariz nümunəsi işğal dövründə Səudiyyə Ərəbistanının Ermənistanla diplomatik münasibətlər qurmaması idi. Bu addımı isə dünyada yalnız üç ölkə atıb və biz buna görə həqiqətən də minnətdarıq.

İndi isə torpaqlarımızı işğaldan azad etdikdən sonra biz irimiqyaslı yenidənqurma proqramı həyata keçiririk və qardaş ölkələrin şirkətlərini tərəfdaşımız olaraq görmək istəyirik. Eyni zamanda, ilin əvvəli də çox yaddaqalan olub – ölkənizdən olan şirkət tərəfindən maliyyələşdirilən böyük elektrik enerjisi stansiyası layihəsinə start verilib. Həmin layihə ilin əvvəli üçün yaxşı start idi və layihə uğurla gedir. Bu yaxınlarda hökumətinizin bir sıra üzvləri ilə görüşüm oldu və mənə layihənin gedişi ilə bağlı məlumat verildi.

Yəni, əlaqələrimiz siyasi və iqtisadi sahələrdə inkişaf edir. Əminəm ki, ölkəmizə daha çox turist gələcək. Çünki COVID-19-la bağlı rəqəmlər artıq aşağı düşüb və vəziyyət əvvəlkinə qayıdıb. Əlbəttə, qardaş ölkələrimiz arasında mədəniyyət sahəsində də əlaqələr

uğurla inkişaf edir. Biz bir-birimizə çox yaxınıq. Bizim vətəndaşlar Səudiyyə Ərəbistanına səfər edir, sizin vətəndaşlar Azərbaycana gəlir və bunu aydın şəkildə görürlər.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq münasibətlərimizin daha bir vacib hissəsidir. Biz BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində göstərilən dəstəyə görə minnətdarıq. Biz bu təsisatlarda uğurla əməkdaşlıq edirik. Əminəm ki, səfəriniz zamanı həmkarlarınızla məsləhətləşmələr çərçivəsində əlaqələrimizi daha da gücləndirmək üçün hansı istiqamətdə irəli gedəcəyimiz müəyyən ediləcək. Bir daha xoş gəlmisiniz.

Nazir Feysal bin Fərhan Al Səud: Təşəkkür edirəm, Zati-aliləri. Həqiqətən də ölkələrimiz arasında dostluq münasibətləri olduqca güclüdür və biz qardaşıq. Biz onilliklər ərzində yaxından əməkdaşlıq etmişik və bir-birimizin yanında olmuşuq. Bu, ölkəmizin rəhbərliyinin mövqeyidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonuna səfər ediblər.

Dövlətimizin başçısı yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda aparılan işlərlə tanış olub. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, City Hotel Agdam mehmanxanasının təməlqoyma mərasimlərində iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri və görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən bu avtomobil yolunun uzunluğu 44,5 kilometr, eni 26,5 metrdir. Birinci texniki dərəcəyə uyğun inşa olunan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, dörd hərəkət zolağından ibarətdir.

Məlumat verildi ki, yol boyu 4 körpünün, o cümlədən 3 yolüstü piyada keçidinin inşası nəzərdə tutulur. Həmçinin avtomobil yolunda 29 avtobus dayanacağı tikilir. Onlardan 14-nün inşası tamamlanıb.

Qeyd edildi ki, layihə üzrə torpaq işləri başa çatdırılıb, ümumi iş həcminin 75 faizi icra olunub.

Oktyabrın 4-də Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım atlara baxış keçirdilər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Atçılıq Nəsilartırma Mərkəzi barədə məlumat verildi.

Qeyd olundu ki, mərkəzin konsepsiyası "Reflect Architechts" şirkəti tərəfindən hazırlanıb. Potensial böyümə hədəfi 30 hektar olan ərazinin 7 hektarında yerləşən mərkəzin tərkibində 120 baş at üçün xüsusi dizayn edilmiş tövlələr, nəsilartırma laboratoriyaları, baytarlıq klinikası və digər zəruri obyektlər yaradılacaq.

Diqqətə çatdırıldı ki, mərkəzdə 60-80 otaqlı mehmanxana, muzey, kafe, restoran və tribunalar nəzərdə tutulub. İstər peşəkar, istərsə də həvəskar çaparlar üçün xüsusi məşq zonaları, qaçış zolaqları və Çövkən yarışları üçün meydança layihələndirilib.

Prezident İlham Əliyev Atçılıq Nəsilartırma Mərkəzinin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam rayonunun Xıdırlı kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verdi.

Kəndin tikintisi və inkişaf planı barədə videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev Xıdırlı kəndinin təməlini qoydu.

Bildirildi ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Qeyd edilib ki, Xıdırlıda tikinti işlərinə bu il oktyabrın 10-da başlanılacaq. Kənddə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

Oktyabrın 4-də Ağdam rayonunun Kəngərli kəndinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlərlə bağlı məlumat verdi.

Kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Qeyd edildi ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Kəngərli kəndinin təməlini qoydu.

Bildirildi ki, kənddə tikinti işlərinin bu il oktyabrın 10-da başlanılması və 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlqoyma mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, dördzolaqlı Bərdə-Ağdam avtomobil yolu Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşir. Şəhərdaxili yolların ümumi uzunluğu isə 191,1 kilometrdir. İlkin mərhələdə 121 kilometr uzunluğunda yolların inşası nəzərdə tutulur.

Qeyd edildi ki, şəhərdaxili yollar eni 55-60 metr olan 1-ci dərəcəli və eni 40 metr olan 2-ci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərdən, həmçinin eni 34 metr olan ümumşəhər əhəmiyyətli və eni 20-24 metr olan yerli əhəmiyyətli küçə və yollardan ibarət olacaq. Yolların 2, 4 və 6 zolaqlı olması nəzərdə tutulur.

Prezident İlham Əliyev Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməlini qoydu

Oktyabrın 4-də Ağdam şəhərində "City Hotel Agdam" mehmanxanasının təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçubaşov dövlətimizin başçısına və birinci xanıma inşa olunacaq mehmanxana barədə məlumat verdi.

Bildirildi ki, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq, rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 130 nömrədən ibarət olacaq beşmərtəbəli hotel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, restoran və açıq terras yaradılacaq.

Prezident İlham Əliyev "City Hotel Agdam" mehmanxanasının təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdamda Pənahəli xanın sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını ediblər.

Əvvəlcə dövlətimizin başçısına və birinci xanıma Pənahəli xanın sarayı və İmarət Kompleksində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar – İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də ermənilər tərəfindən dağıdılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən bu kompleksin bərpası işlərinə başlanılıb.

Qeyd edildi ki, Pənahəli xanın sarayının yerləşdiyi İmarət Kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb.

İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Vurğulandı ki, bu kompleksdə aparılacaq bərpa və konservasiya işlərinə mədəniyyət üzrə beynəlxalq ekspert Alesandro Bianҫi rəhbərlik edəcək. O, İtaliya ilə yanaşı, Türkiyə, Gürcüstan, İsrail, İraq, Albaniya, Efiopiya və sair ölkələrdə bərpa və konservasiya işləri üzrə fəaliyyət göstərib, bir çox beynəlxalq təşkilatların həyata keçirdiyi layihə, treninq və proqramlarda mütəxəssis kimi iştirak edib.

Kompleksin ilkin layihələndirilmə işləri üçün tələb olunan maliyyə vəsaitinin qrant qismində Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etdilər.

Onu da deyək ki, Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq yubiley ilində Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılıb.

Şairənin qəbirüstü abidəsi özünün ilkin görkəmi əsasında heykəltaraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanıb və əvvəlki yerində quraşdırılıb. Ağdamda 1982-ci ildə ucaldılmış və Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonub. Bununla bağlı Rəfi Zeynalovun xatirələrini bölüşdüyü qısa film də hazırlanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin üzərindəki ağ örtüyü götürdülər, önünə gül dəstələri qoydular.

Oktyabrın 4-də keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma məhəllə barədə məlumat verdi.

Bildirildi ki, Ağdam şəhərinin təsdiq edilmiş baş planına uyğun olaraq əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Təməli qoyulan yaşayış məhəlləsinin salınması üçün 6,9 hektar torpaq sahəsi ayrılıb. Ərazi şəhərin şimal-şərqində yerləşir. Şərqdən Üzərliktəpə tarixi arxeoloji abidəsi, qərbdən isə şəhərin tarixi mərkəzi ilə əhatələnib. Həmçinin "İmarət" adlanan tarixi ərazi də məhəllənin yaxınlığındadır.

Qeyd edildi ki, layihə üzrə yaşayış binaları 4-7 mərtəbəli olacaq. Burada 1139 mənzil inşa ediləcək. Yaşayış məhəlləsində 3068 nəfər məskunlaşdırılacaq. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleks barədə məlumat verildi.

Bildirildi ki, iki mərtəbə və terrasdan ibarət olmaqla layihələndirilən kompleksə dəmir yolu vağzalı və avtovağzal daxildir. Kompleks vahid nəqliyyat qovşağı şəklində milli arxitektura üslubunda dizayn edilib. Eyni zamanda, kompleksin tikintisində milli ornamentlər əsas götürülməklə, şüşə elementlərdən geniş istifadə olunacaq. Kompleks Ağdam rayonunun logistik imkanlarını genişləndirəcək. Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək.

Qeyd olundu ki, kompleksdə gözləmə zalları, bilet kassaları, tibb və polis məntəqələri, ana və uşaq otağı, əl yüklərini saxlama kamerası, texniki otaqlar, mağazalar, uşaqlar üçün əyləncə zonası, restoran və istirahət guşələri yaradılacaq.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

Oktyabrın 4-də Ağdam rayonunun Sarıcalı kəndinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Sarıcalı kəndi 1720 nəfər (425 ailə) əhali üçün planlaşdırılır. Layihələndirilən ümumi ərazi 101,9 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 50,3 hektar torpaq sahəsi ayrılıb.

Qeyd olundu ki, birinci mərhələdə 895 nəfərin köçürülməsi üçün 211 fərdi ev tikiləcək. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən Sarıcalı kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 774 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Sarıcalı kəndinin təməlini qoydu.

## *Çex Respublikasına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqada səfərdədir.

Oktyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.

Görüşdə Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində Brüsseldə Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olundu. Prezident İlham Əliyev Şarl Mişelə vasitəçilik missiyasına görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Brüssel formatını dəstəklədiyini qeyd etdi.

Şarl Mişel bununla bağlı dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı gələn ay Brüsseldə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

Görüşdə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Oktyabrın 6-da Çex Respublikasının paytaxtı Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Çex Respublikasının Baş naziri Petr Fiala Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə Toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra plenar iclas keçirilib.

İclas başa çatandan sonra iştirakçılar birgə foto çəkdiriblər.

* * *

Qeyd edək ki, "Avropa siyasi birliyi" qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

Zirvə Toplantısında ümumilikdə 44 ölkənin dövlət və hökumət başçıları iştirak edirlər. İlk dəfə keçirilən "Avropa siyasi birliyi" Zirvə Toplantısı Avropa ölkələrinin liderlərini bərabərhüquqlu və birlik ruhunda bir araya gətirir. Toplantı ərzində liderlər müxtəlif fikir mübadilələri zamanı sülh və təhlükəsizlik, iqtisadi vəziyyət, enerji və iqlim, miqrasiya və hərəkətlilik məsələlərini müzakirə edə biləcəklər

Oktyabrın 6-da Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda dəyirmi masa keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dəyirmi masada çıxış edən Prezident İlham Əliyev bildirib ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yeni vəziyyət yaranıb. Ermənistan tərəfindən 30 illik işğala, işğal dövründə törədilmiş dağıntılara, vəhşiliklərə baxmayaraq, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Dövlətimizin başçısı deyib ki, bu sülh müqaviləsinin əsasını Azərbaycanın təklif etdiyi 5 prinsip - Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq

sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması təşkil etməlidir. Prezident İlham Əliyev bu xüsusda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində və Brüssel sülh gündəliyinin formalaşmasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı və təşəbbüsü ilə keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı xatırladıb ki, oktyabrın 2-də iki ölkənin xarici işlər nazirləri bu xüsusda görüş keçiriblər. Sülh müqaviləsi üzrə danışıqlar uzun müddət davam etməməli, mümkün qısa zaman kəsiyində başa çatdırılmalıdır.

Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib ki, Azərbaycan Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə aparılan prosesi dəstəkləyir. Vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında olan normallaşma prosesi və Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi bir-birini tamamlayacaq proseslərdir, bütövlükdə regionda sülhün və əmin-amanlığın təmin olunmasına xidmət göstərə biləcək haldır.

Dövlətimizin başçısı, həmçinin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması baxımından Azərbaycan-Gürcüstan-Ermənistan, yəni, üçlü formatda vahid müzakirə platformasının yaradılmasının vacibliyini qeyd edib. Deyib ki, burada da enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilə bilər.

Yekunda Prezident İlham Əliyev bir daha dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn prinsiplərinin rolunu qeyd edib, xüsusilə ərazi bütövlüyü prinsipinə diqqət çəkib. Bu prinsipə münasibətdə eyni yanaşmanın və dövlətlərarası münasibətlərdə bu prinsipin üstünlük təşkil etməsinin vacibliyini vurğulayıb. Həmçinin bu prinsipə münasibətdə selektiv yanaşmaların kənara qoyulmasının önəmini qeyd edib.

Oktyabrın 6-da Praqada İlham Əliyevin Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə görüşü keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Praqada Azərbaycan televiziya kanallarına müsahibə verib.

Müsahibə təqdim edilir.

Prezident İlham Əliyev: Buyurun, eşidirəm sizi.

*– Cənab Prezident, ilk növbədə, bizə vaxt ayırdığınıza görə minnətdarlığımızı ifadə edirik. Bu gün kifayət qədər sıx qrafikiniz var idi. İlk görüş Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə oldu. Sülhə doğru daha bir addımın atılması üçün son görüş də onun vasitəçiliyi ilə keçirildi. Daha da yaxınlaşa bilirikmi və bu prosesdə Avropa İttifaqının, şəxsən Şarl Mişelin rolunu necə qiymətləndirirsiniz?*

– Ümid edirəm ki, biz sülhə yavaş-yavaş yaxınlaşırıq və Şarl Mişelin də bu sahədəki fəaliyyətini mən yüksək qiymətləndirirəm. Çünki bildiyiniz kimi, Brüsseldə bir neçə dəfə üçtərəfli görüş keçirilmişdir və hər dəfə biz sülhə daha da yaxınlaşırıq. Bu dördtərəfli görüş Şarl Mişel və Emmanuel Makron tərəfindən təşkil edilmişdir və bu görüş zamanı da önəmli məsələlər müzakirə olunub. Hesab edirəm ki, bu görüşün də sülh müqaviləsinə çatmaq üçün önəmi olacaq.

Hələ ki, təmaslar davam edir. Biz danışdıq ki, şam yeməyindən sonra yenə də bir araya gələk. Hər halda, sülh prosesinə artıq təkan verildi. Bildiyiniz kimi, Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilk görüşü keçirdilər və bizim fikrimizcə, bunun ardı kəsilməməlidir. Tezliklə nazirlər ikinci dəfə görüşməlidirlər və biz təklif etdik ki, ondan sonra hər iki ölkənin işçi qrupları da bir araya gəlsinlər, bəlkə də bir görüş kimi yox, bir neçə gün ərzində sülh müqaviləsinin mətninin hazırlanması ilə məşğul olsunlar. Yəni, bizim niyyətimiz bundan ibarətdir. Hesab edirəm Praqa görüşləri - həm bu gün səhər Şarl Mişellə bir saat yarım görüş keçirdik, bir çox məsələləri müzakirə etdik və indiki görüş, axşam keçiriləcək görüş də bir məqsədi güdür ki, tezliklə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalansın.

*– Cənab Prezident, Azərbaycanın bu tədbirə dəvət olunması ölkəmizin Avropa üçün artan əhəmiyyətini bir daha vurğuladı. Bəs, Azərbaycan-Avropa İttifaqı münasibətləri yaxın gələcəkdə hansı istiqamətlərdə inkişaf edə bilər?*

– Bir sıra istiqamətlər üzrə çox fəal əməkdaşlıq aparılır, əlbəttə ki, ilk növbədə, enerji sahəsində. Buna misal olaraq bu ilin iyul ayında Avropa Komissiyasının Prezidenti ilə Bakıda imzalanmış Anlaşma Memorandumunu qeyd edə bilərəm. Bu gün Azərbaycanın enerji resurslarına Avropada daha böyük tələbat var. Bizim tərəfimizdən həyata keçirilmiş layihələrin əhəmiyyəti bu gün özünü daha da büruzə verir.

Digər istiqamətlər, əlbəttə ki, siyasi dialoq. Avropa İttifaqı bizim üçün çox önəmli tərəfdaşdır və yeni saziş üzərində iş aparılır. Sazişin böyük əksəriyyəti artıq razılaşdırılmışdır və qalan məsələlər o qədər də böyük prinsipial xarakter daşımır. Nəqliyyat sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradılıb. Çünki Azərbaycanın coğrafi vəziyyəti və müasir nəqliyyat infrastrukturu Avropa üçün də çox önəmlidir. Həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərini nəzərdə tuturam. Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaş-

larımızdır. Azərbaycanın geosiyasi məkanda artan rolu, əlbəttə, iqtisadi sahədə də, sərmayə qoyuluşu sahəsində də özünü göstərir. Yəni, bir çox sahələr üzrə - əlbəttə ki, təhsil, humanitar sahə çox önəmlidir. Mən deyə bilərəm ki, son aylar ərzində Avropa İttifaqı ilə Azərbaycan arasında həm təmasların sayı kəskin artıb, eyni zamanda, mahiyyət də yeni müstəviyə çıxıb və qarşılıqlı etimad artıb. Mən bunu çox yüksək qiymətləndirirəm.

O ki qaldı, Azərbaycanın bu tədbirə Avropa tərəfindən dəvət edilməsinə, bunu, əlbəttə, biz yüksək qiymətləndiririk. Bu, yeni platformadır, müzakirələr təzə başlayıb. Hələ ki, bu təşəbbüsün gələcəyi ilə bağlı dəqiq bir şey demək mümkün deyil. Amma hər halda, Azərbaycanı həm Avropa İttifaqı tərəfindən, həm də tədbirin ev sahibi – Çexiya tərəfindən bu Avropa ailəsinə dəvət etmələri deməyə əsas verir ki, bizim əlaqələrimizin çox gözəl perspektivləri vardır.

*– Cənab Prezident, enerji məsələsinə toxundunuz. Bu gün ölkəmizin Avropanın enerji təhlükəsizliyində rolunu necə qiymətləndirirsiniz? Mövcud geosiyasi vəziyyətdə Azərbaycan qazı Avropaya nə vəd verir və qazın həcmini artırmağımız üçün Avropa hansı addımlar atmalıdır?*

– Deyə bilərəm ki, burada da çox dəqiq və açıq gündəlik var. Çünki biz öz enerji layihələrimizi uzun illərdir icra edirik. Sadəcə, indiki dünyada mövcud olan geosiyasi vəziyyət bizim resurslarımıza tələbatı kəskin artırmışdır. Əgər belə demək mümkündürsə, tale elə gətirdi ki, bizim bütün layihələrimiz hazır olan vaxtda Avropada qaza olan tələbat daha da artdı. Bu yaxınlarda Bolqarıstanda Yunanıstan-Bolqarıstan İnterkonnektorunun açılış mərasimində də mən bu barədə məlumat verdim ki, biz ötən il qaz ixracatımızı əvvəlki ilə nisbətən 40 faiz artırmışıq. Bu il təxminən 30-40 faiz artıracağıq. Əlbəttə ki, bu, böyük sərmayə tələb edir və biz buna getməyə hazırıq və buna gedirik. Ona görə Avropa İttifaqı ilə imzalanmış Memoranduma əsasən növbəti illərdə biz Avropaya qaz ixracatını ən azı iki dəfə artırmağı planlaşdırırıq. Yəni, əgər keçən il bu, 9 milyard kubmetr idisə, deməli, 2027-ci ildə bu, ən azı 18 milyard kubmetr olacaq, bəlkə də çox. İndi yeni qaz yataqları istismara düşür, mövcud qaz yataqlarından hasilat artırılacaq. Eyni zamanda, Azərbaycanda bərpaolunan enerji növlərindən istifadə olunması böyük həcmdə təbii qaz ehtiyatı yaradacaq. Həmçinin enerji təsərrüfatının səmərəliliyinin artırılması nəticəsində itkilər müəyyən dərəcədə ixtisar ediləcək, yəni, biz bu qədər itkilərlə üzləşməyəcəyik. Ona görə bu gün mümkün olan qaz ixrac potensialımızı təsəvvür etmək bir qədər çətindir, çünki daha da çox ola bilər. Biz, əlbəttə ki, çox təvazökarcasına bu rəqəmləri səsləndiririk. O rəqəmləri səsləndiririk ki, onların həyata keçməsinə tam əminik. Amma əminəm ki, daha çox olacaq. Bizim həm qazımız, həm neftimiz, eyni zamanda, elektrik enerjimiz də Avropa qitəsinə ixrac ediləcəkdir. Buna nail olmaq üçün indi konkret proqramlar işlənib hazırlanır, bəlkə də bu haqda danışmaq bir qədər tezdir. Amma ümid edirəm ki, yaxın 6-7 ay ərzində bu sahədə də çox ciddi irəliləyiş olacaq. Ona görə Azərbaycan Avropa üçün və təkcə Avropa üçün yox, dünya üçün çox önəmli, strateji enerji tərəfdaşı olacaqdır.

*– Cənab Prezident, Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşün detalları barədə də öyrənmək istərdik. Nəzərə alsaq ki, Azərbaycan ərazisində hələ də qanunsuz erməni silahlı birləşmələri mövcuddur, digər tərəfdən isə Azərbaycan üçün əsas prioritet mina təhlükəsizliyi məsələsidir. Ermənistan isə hələ də təxribatlar törətməyə davam edir. Görüş çərçivəsində hansı məsələlərə toxunuldu və istərdik ki, Siz ətraflı şəkildə məlumat verəsiniz.*

– Bəli, bu məsələ bütün görüşlərdə qaldırılır. Bu gün də Ermənistan baş naziri ilə tədbir çərçivəsində ayaqüstü söhbətim də olmuşdur, bundan sonra da olacaqdır. Ermənistanın bu addımlarının sülhə zərər vurması haqqında Azərbaycan tərəfi hər dəfə öz sözünü deyir. Bu gün dördtərəfli görüşdə də mən qeyd etdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra ermənilər tərəfindən ən azı 1400 mina basdırılıb və bu, bizə qarşı növbəti cinayətdir, növbəti terror aktıdır. Onu da bildirdim ki, 250-dən çox azərbaycanlı müharibədən sonra ya həlak olub, ya da ki, ağır yaralanıb. Yəni, bizə qarşı erməni terroru davam edir və buna son qoyulmalıdır. Minaların basdırılması yeganə cinayət deyil.

Siz də qeyd etdiniz ki, bu günə qədər erməni silahlı birləşmələri bizim torpağımızdan çıxarılmayıb. Biz bunu tələb edirik. Düzdür, onların bir qismi çıxarılıb, amma hələ də onlar torpağımızda mövcuddur və ümid edirəm ki, buna da son qoyulacaq. Çünki bir şeyi artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır! Bunu biz hər dəfə deyirdik, işğal dövründə, müharibə dövründə, müharibədən sonra. Bu gün dünya birliyi bu həqiqəti artıq nəinki dərk edir, həm də bunu tələffüz edir. Qarabağda yaşayan ermənilər, – mən bunu dünən Ağdamda demişəm, – bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda, əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır.

*– Cənab Prezident, Ermənistanın baş naziri Nikol Paşinyanla görüş barədə danışarkən, növbəti belə görüşün noyabrda keçiriləcəyi elan edildi. Artıq gələn ay sülh müqaviləsi bağlana bilərmi, ümumiyyətlə, bu sənədin razılaşdırılması hansı mərhələdədir? Nəqliyyat yollarının açılması barədə maddənin bu sənədə daxil olduğunu nəzərə alsaq, o, region üçün nə kimi əhəmiyyət daşıyır?*

– Prinsipcə, hələ bir müddət bundan əvvəl mən demişəm ki, Ermənistan tərəfindən xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər. Vaxt keçir, bizim təşəbbüslər heç də asan irəliləmir, xarici işlər nazirlərinin birinci görüşü konkret nəticələr verməsə də, hesab edirəm ki, bu, müsbət addımdır. Düşünürəm ki, yaxın vaxtlarda qərar qəbul edilərsə, iki ölkənin işçi qrupları sülh müqaviləsinin mətni üzərində işləməyə başlayacaqlar, biz ilin sonunadək razılaşmaya nail ola bilərik. Deməliyəm ki, bizim tərəfdən elan edilən beş prinsiplə bağlı heç kimin – nə erməni tərəfinin, nə də Avropa İttifaqının heç bir sualı yoxdur. Bu gün Fransa Prezidenti ilə görüş zamanı mən gördüm ki, bu beş prinsip qəbul edilir. Bu, təbiidir, çünki biz yeni heç nə icad etməmişik. Bu, münasibətləri normallaşdırmaq istəyən dövlətlər arasında münasibətlərə əsaslanan prinsiplərdir.

Bizim daxili məsələlərə gəlincə, təbii ki, sülh müqaviləsində bu barədə söhbət gedə bilməz. Qarabağda erməni əhalinin həyatının necə qurulacağına gəlincə, bu, ayrı məsələdir. Biz xarici siyasət blokumuz çərçivəsində məsləhətləşmələri intensivləşdirməyi, eləcə də Qarabağın erməni əhalisinin nümayəndələri ilə qeyri-formal əlaqələri davam etdirməyi planlaşdırırıq. Deməliyəm ki, belə əlaqələr artıq müəyyən müddətdir ki, aparılır. Düşünürəm ki, bu, hələ Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında yaşayan əsas əhali ilə tam anlayışa gətirib çıxaracaq. Çünki Azərbaycan cəmiyyətinə inteqrasiyanın, sadəcə, başqa yolu yoxdur. Əgər kim hesab edirsə ki, onlara Azərbaycan vətəndaşı kimi yaşamaq lazımdır, fikrimcə, onlar peşman olmayacaqlar. Amma əgər bu, hansı səbəblərdən kiməsə münasib deyilsə, onlar özləri üçün başqa yaşayış yeri seçə bilərlər.

Buna görə də sülh müqaviləsinin beş prinsipi mümkün qədər tez paraflanmalıdır, sülh müqaviləsinin mətni üzərində iş bu prinsiplər əsasında başlamalıdır. Əminəm ki, buna tez nail olmaq mümkündür. Çünki hesab etmirəm ki, bu, hansısa çoxcildlik olmalıdır, bu, beynəlxalq hüquq, beynəlxalq təcrübə çərçivəsində parametrləri müəyyən edən bir neçə maddədən ibarət yetərincə yığcam sənəd olmalıdır. Bununla biz müharibə, düşmənçilik səhifəsini qapadacağıq. Əlbəttə ki, kommunikasiyaların açılması – bu, mümkün sülh müqaviləsinin hissəsi deyil, bu, mahiyyətcə artıq olmalı idi. Ona görə ki, bu, Ermənistanın 2020-ci il noyabrın 10-da götürdüyü, amma yerinə yetirmədiyi öhdəlikdir. Bu gün mən Ermənistanın baş nazirinə yenə də müraciət edəndə ki, nəhayət bizə avtomobil yolu üçün marşrut verin, təəssüflər olsun, yenə də cavab ala bilmədim. Bu, hətta gülməli də deyil, çünki orada o qədər də böyük sahə yoxdur. Hamı bilir ki, dəmir yolu və avtomobil yolu haradan keçməlidir. Bizə Naxçıvana könüllü olaraq keçid verilməməsi anlaşılan deyil. Öz öhdəliyini pozmaq, əlbəttə, son dərəcə biabırçı faktdır. Lakin biz hələ səbir edirik, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun. Buna görə də bu suallar fikrimcə, ölkə rəhbərləri səviyyəsində noyabrda planlaşdırılan Brüssel görüşünün gündəliyində də, xarici işlər nazirlərinin tarixi hələ müəyyən edilməyən görüşündə də, bu ay Brüsseldə bizim təklifimizlə təşkil olunacaq delimitasiya üzrə görüşlərdə də üstünlük təşkil edəcək.

*-Cənab Prezident, icazənizlə, iki məsələyə görə Sizə bir daha təşəkkürümüzü bildirək. Qeyd etdiniz ki, bundan sonra da Sizin görüşünüz nəzərdə tutulur. Birincisi, sıx qrafikinizdə bizə vaxt ayırdığınıza görə. İkincisi isə bu gün liderlərin birgə fotosu çox geniş yayıldı, sosial şəbəkələrdə çox geniş müzakirə olundu və qeyd edildi ki, bizim mövqeyimiz mərkəzdə və öndədir. Əslində, Azərbaycanın bu mövqeyinə görə də bir daha təşəkkür edirik.*

Prezident İlham Əliyev: Mən də təşəkkür edirəm. Çox sağ olun

Oktyabrın 6-da Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində işçi nahar formatında bağlanış plenar iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Oktyabrın 6-da Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə yenidən görüşü olub.

## *Rusiya Federasiyasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün oktyabrın 7-də Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib.

Sankt-Peterburq şəhərinin Pulkovo-1 hava limanında dövlətimizin başçısı İlham Əliyevi Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşıladılar.

Oktyabrın 7-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri oktyabrın 7-də başa çatıb.

## *Qırğızıstan Respublikasına dövlət səfəri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Qırğız Respublikasına dövlət səfərinə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hava limanında dövlətimizin başçısını Qırğızıstan Prezidenti Sadır Japarov qarşıladı.

Qırğız Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Dövlətimizin başçısı görkəmli Qırğız yazıçısı Çingiz Aytmatovun məzarını da ziyarət etdi və üzərinə gül dəstəsi qoydu.

Məlumat verildi ki, Qırğız dövlətçiliyinin ən mühüm inkişaf mərhələlərinin tarixi yaddaşının bərpası və qorunub saxlanılması məqsədilə tikilən "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksi 2000-ci il iyulun 8-də açılıb. Memorial görkəmli Qırğız yazıçısı Çingiz Aytmatovun təklifi ilə "Ata-Beyit" – "Ataların məzarlığı" adlandırılıb.

Qırğız memarlığının elementləri nəzərə alınmaqla müasir standartlara uyğun inşa edilmiş kompleks üç hissədən – memorial günbəzdən, qəbirüstü plitələrdən və memorial divardan ibarətdir.

Ümumi sahəsi iki hektar olan kompleksdə 1920-1930-cu illərdə Qırğızıstanın siyasi həyatını əks etdirən sənədlər və fotoşəkillər, digər tarixi materiallar toplanıb. Kompleksin mərkəzində məzarlıq yerləşir, həmçinin burada muzey fəaliyyət göstərir.

Kompleksdə Qırğız xalqının mübarizəsinin rəmzi olan "Urkun" abidəsi də var.

Oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bişkekdəki Ala-Arça dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.

Azərbaycanın və Qırğızıstan Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Qırğızıstan Dövlət himnləri səsləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qırğızıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Sadır Japarova təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Oktyabrın 11-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclası keçirilib.

İclasda çıxış edən Qırğızıstan Prezidenti Sadır Japarov dedi:

-Hörmətli İlham Heydər oğlu, Sizinlə bu dəfə qonaqpərvər Qırğızıstan torpağında yenidən görüşməyimə çox şadam. Qırğızıstan-Azərbaycan qarşılıqlı əlaqələrinə dair məsələləri müzakirə etmək fürsətinə görə də şadam. Mən Azərbaycana səfərimi böyük məmnuniyyətlə xatırlayıram. Bu ilin aprelində mənə və nümayəndə heyətimizin üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Biz Sizin dövlət səfərinizə olduqca böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim qardaş ölkələrimiz arasında əsl strateji tərəfdaşlıq münasibətlərini nümayiş etdirir. Bizim xalqlarımızın dostluğu zamanın və tarixin sınağından çıxmış uzunmüddətli etibarlı və səmimi münasibətlərə əsaslanır. Ölkələrimiz bu il Dostluq və əməkdaşlıq haqqında Müqavilənin 25 illiyini qeyd ediblər. Üç aydan sonra bizim yeni yubileyimiz – diplomatik münasibətlərin qurulmasının 30 illiyi olacaq. Biz bu tarixə yaxşı nəticələrlə yaxınlaşmışıq. Bizim əməkdaşlığımız strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Fərəhli haldır ki, dinamik şəkildə möhkəmlənən və genişlənən əlaqələr ölkələrimizin parlamentləri, hökumətləri və aidiyyəti qurumları arasında aktiv qarşılıqlı fəaliyyətlə nəticələnib. Aprel ayındakı bir sıra razılaşmalarımız hökumətlərarası birgə komissiyanın xətti ilə əməli surətdə həyata keçirilib, İşgüzar Şura yaradılıb, Heydər Əliyev adına, Nizami Gəncəvi adına məktəbləri, Qırğızıstan- Azərbaycan Dostluq Parkını birlikdə açacağıq. Əminəm ki, Sizin səfəriniz və Dövlətlərarası Şuranın iclasının keçirilməsi ikitərəfli münasibətlərə yeni təkan verəcək. Bu, bizim əməkdaşlığımızın siyasi, ticari-investisiya və mədəni-humanitar sahələrdə fəal inkişafının parlaq göstəricisidir. Xüsusilə vurğulamaq istərdim ki, Qırğızıstan qardaş Azərbaycanla sistemli və uzunmüddətli əməkdaşlıq əzmindədir və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırdır.

Hörmətli İlham Heydər oğlu, biz beynəlxalq təşkilatlarda da aktiv qarşılıqlı fəaliyyət göstərir və beynəlxalq strukturlara namizədliklərin irəli sürülməsi zamanı bir-birimizi dəstəkləyirik. Qırğızıstan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə dair mövqeyinə həmişə

tərəfdar olub. Biz Sizə ona görə minnətdarıq ki, Siz Qırğızıstanın bütün təşəbbüslərini beynəlxalq arenada dəstəkləyirsiniz. Bizim ölkələrimiz BMT, ATƏT, ŞƏT, TDT, İƏT və Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq təşkilatlarda və strukturlarda aktiv qarşılıqlı fəaliyyət göstərir. Əminəm ki, əməkdaşlığımızın yüksək səviyyəsi uzunmüddətli olacaq.

Hörmətli İlham Heydər oğlu, Qırğızıstan-Azərbaycan qarşılıqlı fəaliyyətinin aktual məsələlərini müzakirə etməyə hazıram və sözü Sizə verirəm, buyurun.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Çox sağ olun, cənab Prezident. İlk növbədə, qardaş Qırğızıstana dövlət səfərinə dəvətə görə təşəkkürümü bildirirəm. Həmçinin Sizin yarım il bundan əvvəl Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram. Münasibətlərimizin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik. Sizin Azərbaycana rəsmi səfəriniz zamanı ölkələrimiz arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Bu Bəyannamə bizim əlaqələrimizi daha yüksək səviyyəyə qaldırıb. Əminəm ki, mənim səfərimin yekunlarına dair razılaşmalar əldə olunacaq və bu razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək.

Siz bizim ölkələrin həm beynəlxalq arenada, həm də ticari-iqtisadi əlaqələr çərçivəsində əməkdaşlıq istiqamətlərini qeyd etdiniz. Düşünürəm ki, bu gün və sabah həm biz Sizinlə, həm də nümayəndə heyətlərinin üzvləri planlarımızı ətraflı müzakirə etmək və tərəfdaşlığın möhkəmləndirilməsi yollarını müəyyənləşdirmək fürsəti əldə edəcəyik. Mən əmtəə dövriyyəsinin rəqəmlərinə baxdım. Əlbəttə, onlar bizi məmnun edə bilməz. Lakin fikrimcə, bu, bizim nəzərdə tutduğumuz o planlardır ki, qısa zaman kəsiyində qarşılıqlı ticarətin həcmini artırmağa imkan verəcək. Azərbaycan, həmçinin Sizin ölkədə investisiya layihələrində maraqlıdır. Biz bu gün bunu da müzakirə edəcəyik.

Mən Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinə ehtirama görə Sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bişkekin böyük məktəblərindən birinə onun adı verilib. Həmçinin qeyd etdiyiniz kimi, Qırğızıstan-Azərbaycan Dostluq Parkı, Nizami Gəncəvi adına məktəb açılacaq. Bizim əməkdaşlığımızın bütün bu əlamətdar anları, əlbəttə, Azərbaycan xalqının dərin minnətdarlığına səbəb olur və bizim münasibətlərin qardaşlıq xarakterini ifadə edir. Əminəm ki, biz bundan sonra da səmərəli əməkdaşlıq edəcəyik, ölkələrimiz arasında münasibətlər dinamik inkişaf edəcək.

Oktyabrın 11-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclası keçirilib.

İclasda çıxış edən Qırğızıstan Prezidenti Sadır Japarov dedi:

– Möhtərəm İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Hörmətli İlham Heydər oğlu, Sizi və başçılıq etdiyiniz Azərbaycan Respublikasının nümayəndə heyətini Qırğız Respublikasında səmimi-qəlbdən salamlayıram. Bizim dəvətimizi qəbul edib ölkəmizə dövlət səfəri etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Biz Sizin səfərə Qırğızıstanla Azərbaycan arasında strateji tərəfdaşlığın məntiqi davamı kimi xüsusi əhəmiyyət veririk. Bizim qarşımızda gələcəkdə qarşılıqlı münasibətlərimizin strateji hədəflərini və fəaliyyət alqoritmini, eləcə də istiqamət parametrlərini, məzmun və xarakterini müəyyən etmək vəzifəsi durur. Biz dövlətlərarası münasibətlərin yüksək səviyyədə dəstəklənməsinə, mövcud və gələcək əməkdaşlıq üzrə bütün əlaqələri intensivləşdirməyə hazırıq. Məhdud tərkibdə görüşdə biz artıq əməkdaşlığımızın çoxlu mühüm məsələlərini müzakirə etdik, onun başlıca istiqamətlərini, prioritetləri müəyyənləşdirdik və Dövlətlərarası Şuranın iclası çərçivəsində müzakirəni davam etdirəcəyik.

Ticarət və investisiya əməkdaşlığından danışarkən mən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bu gün biz Sizinlə Qırğızıstan-Azərbaycan İnkişaf Fondunun mühüm rolunu nəzərdən keçirdik. Bu Fond Azərbaycan investisiyalarının Qırğızıstana cəlb edilməsində, qarşılıqlı faydalı biznes layihələrinin icrasında sürət katalizatoruna və fəaliyyət mexanizminə çevrilməlidir.

Sevindirici haldır ki, bizim ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılmasının vacibliyi anlayışı var. Onun indiki səviyyəsi hələ ki, potensialdan uzaqdır. Biz Azərbaycan Respublikasının biznes dairələrini bazarımızda salamlayırıq və bundan sonrakı tərəfdaşlığa açığıq. Biz investorların qorunmasına zəmanət veririk və ən əlverişli şəraiti təqdim etməyə hazırıq.

Hörmətli İlham Heydər oğlu. Ölkələrimiz arasında mədəni-humanitar əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bunları qeyd etmək istərdim. Sevindirici haldır ki, biz ortaq tarixə, köklərə, mədəniyyətə, ənənələrə və milli xüsusiyyətlərə malikik. Çox qədim zamanlardan əcdadlarımız bizə dostluq və əməkdaşlıq vəsiyyət ediblər. Biz mədəniyyət, təhsil, elm, turizm, idman sahələrində münasibətlərin inkişafı məsələlərinə böyük əhəmiyyət veririk. Bu kontekstdə bizim Vətənimizin paytaxtı Bişkekdə sabah istifadəyə veriləcək Heydər Əlirza oğlu Əliyevin adına və Nizami Gəncəvinin adına iki ümumtəhsil məktəbinin birgə açılışı kimi ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı anlaşmanın, dostluq və əməkdaşlığın daha da dərinləşdirilməsinə töhfə verən belə əlamətdar layihələrin mühüm əhəmiyyətini xüsusi məmnunluqla vurğulamaq istərdim. Bu gözəl yerlərdə bizim gənclərimizin – Qırğızıstanın gələcəyinin təhsil alacağı fərəh doğurur. Əminəm ki, bizim oğlanlarımız

və qızlarımız qardaş Azərbaycan ilə Qırğızıstan arasında dostluq və əməkdaşlıq körpüsünə çevriləcəklər.

Həmçinin böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, biz tikintisi azərbaycanlı dostlarımızın köməyi ilə bir gün əvvəl başa çatdırılan Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışında iştirak edəcəyik. Ümid edirəm ki, bu gözəl park sakinlərin sevimli istirahət məkanı olacaq.

Xatırlayıram ki, Bakıdakı görüşümüzdə mən "Manas" dastanında əsrlərin dərinliklərindən gələn Qırğız mənəvi irsinin aparıcı mövzusunun birlik olması haqqında bizim dahi həmyerlimiz, yazıçı Çingiz Aytmatovdan sitat gətirdim. Bildiyimiz kimi, o, həmçinin bizim azərbaycanlı dostlarımıza da yaxındır. Biz birliyi, ləyaqəti, ədaləti dərindən qiymətləndirir, onlara ehtiramla yanaşırıq. Sevindirici haldır ki, bu keyfiyyətlər bizim azərbaycanlı qardaşlarımıza da xasdır.

Qırğız və Azərbaycan dillərində "namız" eyni əhəmiyyətə malikdir və "namus", "vicdan", "abır-həya" kimi tərcümə edilir, müxtəlif nitq çalarlarını əks etdirir.

Uzaq 1995-ci ildə "Manas" dastanının 1000 illik yubileyinin qeyd olunması zamanı Qırğızıstana səfər edən Azərbaycan xalqının dahi oğlu və ölkənin Ümummilli Lideri hörmətli Heydər Əlirza oğlunun sözlərindən sitat gətirmək istəyirəm. O qeyd edirdi ki, biz bir-birimizi qəlbimizlə hiss edirik və anlayırıq.

Biz öz tərəfimizdən, həmçinin vurğulamaq istəyirik ki, azərbaycanlı qardaşlarımızla əməkdaşlığın bütün istiqamətləri üzrə səmərəli işə hazırıq.

Hörmətli İlham Heydər oğlu, diqqətinizə görə təşəkkür edirəm. Sizi bir daha salamlamağa şadam və sözü Sizə verirəm, buyurun.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Səmimi sözlərə görə çox sağ olun, hörmətli Sadır Nurqojoyeviç. Həm xalqlarımız arasında qardaşlıq xarakteri daşıyan əlaqələrə, həm də Qırğızıstan-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətinə verdiyiniz qiymətlə tam şərikəm. Qardaş Qırğızıstana dövlət səfərinə dəvətə görə bir daha minnətdarlığımı bildirmək istərdim. Çox şadam ki, bu səfəri həyata keçirirəm. İndiyədək mən iki dəfə qardaş Qırğızıstan torpağında olmuşam, lakin bu səfərlər beynəlxalq tədbirlərdə iştirakla bağlı olub. Amma Qırğızıstana rəsmi dövlət səfərim ilk dəfədir və o, demək olar Sizin rəsmi səfərinizdən yarım il sonra həyata keçir ki, bu da münasibətlərimizi fəallaşdırmaq əzmində olduğumuzu nümayiş etdirir.

Həmçinin bizim xalqlarımızı birləşdirən və dövlətlərarası münasibətlər üçün möhkəm təməl rolunu oynayan ortaq tarixi köklərimizi, mədəni köklərimizi qeyd etmək istəyirəm. Bu gün mən Xatirə Memorialını, Qırğız xalqının dahi oğlu Çingiz Aytmatovun məzarını da ziyarət etdim. Bakıda onunla görüşmək mənə nəsib olub və bu görüşləri səmimiyyətlə xatırlayıram. O, həqiqətən təkcə Qırğız xalqının deyil, bütün Türk dünyasının fəxridir.

Bu gün Türk dünyası yeni potensial əldə edir, həm Azərbaycan, həm də Qırğızıstan türkdilli dövlətlər arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə fəal töhfə verir. Gələn ay keçiriləcək Zirvə Görüşü, fikrimcə, bizim həmrəyliyimizin möhkəmlənməsi işində daha bir addım olacaq. Biz daim müstəqillik və milli ləyaqət yolu ilə getməkdən ötrü öz köklərimizə yaxın olmalı, öz ənənələrimizə, əcdadlarımızın vəsiyyətlərinə söykənməli və xalqlarımızın nadir mədəniyyətini qoruyub saxlamalıyıq.

Artıq yarım ildir ki, Azərbaycan və Qırğızıstan rəsmi şəkildə strateji tərəfdaşlardır. Müvafiq Bəyannamə Sizin səfəriniz zamanı Bakıda imzalanıb və biz bu gün artıq məhdud tərkibdə görüşdə bu Bəyannamənin necə uğurla həyata keçməsi barədə fikir mübadiləsi apardıq. Biz onu daha konkret məzmunla zənginləşdirəcəyik. Düşünürəm ki, Birgə İnvestisiya Fondunun yaradılması barədə qərar belə amillərdən biridir.

Biz artıq o barədə danışmışıq, fondun fəaliyyəti, onun kapital qoyuluşunun istiqamətləri üzrə konkret təkliflər gözləyirik ki, vaxt itirmədən əmtəə dövriyyəsinin yaxşılaşdırılmasına daha tez töhfə verək. Mən Sizin rəyinizlə razıyam, səfər ərəfəsində ikitərəfli münasibətlərin materialları ilə tanış oldum və əlbəttə, gördüm ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi demək olar rəmzidir, lakin yaxşı imkanlar mövcuddur. Qırğızıstanda həyata keçirilən islahatlar əminəm ki, sürətli iqtisadi artıma, biznes və xarici investorlar üçün yeni imkanların yaradılmasına kömək olacaq.

Azərbaycana gəlincə, biz artıq uzun illərdir ki, dost ölkələr üçün investoruq və bizim investisiyalar vəsait qoyduğumuz ölkələrlə əməkdaşlığın möhkəmləndirilməsi işinə həmişə xidmət edib və xidmət edir, bizim qarşılıqlı maraqlarımıza xidmət edir – onlar iş yerləri, biznesin inkişafı üçün yeni imkanlar yaradır. Beləliklə, düşünürəm ki, birgə fondun yaradılması mənim səfərimin ən mühüm nəticələrindən biridir.

Əlbəttə ki, biz ilk dəfə olaraq Dövlətlərarası Şuranın iclasını keçiririk. Biz, əslində, münasibətlərimizi Dövlətlərarası Şuranın hamiliyi altında strukturlaşdırırıq ki, qərarların qəbul edilməsinə, o cümlədən ticari-iqtisadi fəaliyyət çərçivəsində nəzarət üçün daha çox imkanlara və daha çox dinamizmə malik olaq. Artıq qeyd etdiyimiz kimi, bizim hökumətlərarası komissiyanın iclası nisbətən bu yaxınlarda Bakıda təşkil olunub və gələn il Bişkekdə keçiriləcək. Dövlətlərarası Şura, hökumətlərarası komissiya – bunlar o mexanizmlərdir ki, bizə həmişə, necə deyərlər, əlimizi nəbzimizdə tutmaq və qeyd etdiyimiz hədəflərə nail olmaq üçün nə etmək lazım olduğunu görmək imkanı verəcək.

Xalqlarımız arasında münasibətlər, əslində, böyük tarixə malikdir və Siz öz çıxışınızda humanitar sahədə əməkdaşlığı qeyd etdiniz. Biz Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinə yüksək etimada görə

minnətdarıq. Bişkekin böyük məktəblərindən birinə onun adı verilib. Eləcə də Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı başqa məktəbə verilib. Biz bunu xalqımıza hörmət əlaməti kimi dəyərləndiririk və buna yüksək qiymət veririk.

Əziz Qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz Qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat – bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz Qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

* * *

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli nazirlər.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram.

Əvvəlcə, Can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən Qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük Qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın "Ağıllı kənd" konsepsiyasına uyğun inşa edilən Ağalı kəndində məskunlaşmaları ilə Vətən həsrətlərinin, İnşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra artıq kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında "Dost Aqropark"ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində həqiqətən çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasiminə gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən üç min baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən onların kəsimi, digər tərəfdən bəslənməsi, artırılması – bu istiqamətdə görülən işlərlə bu addım həqiqətən də Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli Qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən bizim də gördüyümüz və inandığımız budur.

Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə edilə biləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni, minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edi-

rəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, mühüm addımlardan daha biri olan - Cəbrayılda təməlini qoyduğumuz "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də həmrəyliyimizin rəmzidir.

Hörmətli media nümayəndələri, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

## *İlham Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxış edib*

Noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün biz Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü qeyd edirik. Bu münasibətlə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini ürəkdən təbrik edirəm.

Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı, bir daha demək istəyirəm, tarixi hadisə idi. Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq

idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

Əlbəttə ki, torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, eyni zamanda, hərbi-strateji nöqteyi-nəzərdən böyük faciə idi. Çünki beləliklə, o vaxt "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlandırılan ərazi ilə Ermənistan arasında coğrafi bağlantı təmin edildi. Hər kəs yaxşı görürdü ki, əgər işlər belə davam etsə, Kəlbəcərin də işğalı qaçılmaz olacaqdır. Əfsuslar ki, belə də oldu. Yəni, 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük hissəsi nəzarətimizdən çıxmışdı.

Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir. Çünki onun çalışdığı dövrdə – nə 1969–1982-ci illərdə Azərbaycanda birinci şəxs kimi çalışdığı dövrdə, nə 1982–1987-ci illərdə Moskvada Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə bir dəfə də olsun Qarabağda separatist qüvvələr baş qaldıra bilmədilər.

Halbuki belə meyillər var idi, ondan əvvəlki dövrlərdə də var idi. Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını – uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, tariximizin o qara səhifəsi bağlanmışdır.

Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və əlbəttə, Yeni Azərbaycan Partiyasının üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılmışdır. İlk növbədə, Konstitusiya qəbul edilmişdir. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi. Konstitusiyanın qəbul edilməsi çox önəmli tarixi hadisədir. Dövlətçiliyin əsasları qoyulmuşdur, dövlət təsisatları düzgün zəmində formalaşmışdır. Biz beynəlxalq aləmdə bizə qarşı olan əsassız mövqeyə düzəlişlər edə bildik, tam aradan qaldırmadıq, çünki beynəlxalq müstəvidə bizə qarşı çox ciddi qüvvələr fəaliyyət göstərirdi. Amma hər halda biz beynəlxalq təcridi, o cümlədən informasiya blokadasını yara bildik, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıra bildik.

Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin

ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Yəni, 1993–2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir.

Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

Əlbəttə ki, bu gün hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə - bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar - strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, bizim siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir. Ulu Öndərin yolu ilə gedərək biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq.

Biz yoxsulluğu əhəmiyyətli dərəcədə azalda bilmişik. Hətta pandemiya dövründə yoxsulluq bir qədər artsa da postpandemiya dövründə görülmüş işlər nəticəsində minimum əməkhaqqının, pensiyanın minimum məbləğinin müntəzəm olaraq artırılması nəticəsində yoxsulluğu da biz təqribən 5 faiz ətrafında saxlayırıq. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Burada həm dövlət siyasəti, həm iqtisadi-maliyyə sektorundakı şəffaflıq, eyni zamanda, biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici sərmayələrin bundan sonra da qeyri-neft sektoruna cəlb edilməsi əsas amillərdən biri olacaq.

Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

Bizim hələ 1990-cı illərin ortalarında Ulu Öndərin təşəbbüsü ilə başlanmış neft-qaz layihələri indi görün nə qədər geniş vüsət almışdır. Hətta onun müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri əsas rol oyna-

mışdır. Amma ondan sonrakı layihələr bizim imkanlarımızı böyük dərəcədə genişləndirdi və bu gün Azərbaycan bir çox ölkələr üçün əvəzolunmaz tərəfdaşa çevrilib. Bu gün dünyada gedən proseslər bunu göstərir ki, enerji təhlükəsizliyi təhlükəsizliyin əsas amillərindən biridir. Bu olmadan heç bir ölkə özünü təhlükəsiz saya bilməz. Bizim üstünlüyümüz, əlbəttə, ondadır ki, təbii sərvətlərimiz var. Amma o qədər ölkələr var ki, onların təbii sərvətləri bizimkindən qat-qat çoxdur. Lakin, - mən heç kimlə müqayisə aparmaq istəmirəm, - o sərvətlərdən bütünmü ölkələr səmərəli şəkildə istifadə edir? Əlbəttə ki, yox. Ona görə Azərbaycanda bu sahədə aparılan işlər həm ölkə iqtisadiyyatını gücləndirdi, eyni zamanda, əldə edilmiş gəlirlər ədalətli şəkildə cəmiyyətdə bölüşdürüldü. İlk növbədə ən həssas qruplar bu imkanlardan faydalandılar, o cümlədən keçmiş məcburi köçkünlər. Məhz onlar Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına tikilmiş 300 mindən çox ev və mənzillə təmin edilmişdir. Eyni zamanda, neft-qaz layihələrimiz bizim beynəlxalq mövqelərimizi də gücləndirdi. Çünki xüsusilə indiki şəraitdə, bugünkü gündə Azərbaycanın infrastrukturu, nəqliyyat, enerji infrastrukturu bir çox ölkələr üçün həyati əhəmiyyət kəsb edir. Əlbəttə ki, geosiyasi imkanlarımız artdıqca ölkə maraqları daha da dolğun şəkildə təmin edilir, müxtəlif qitələrdə bizim dostlarımızın sayı artır.

Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir.

Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu haqda çox danışmaq olar, sadəcə olaraq, bir neçə məqamı qeyd etmək istəyirəm. Biz MDB məkanında birinci ölkə olduq ki, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Biz 2019-cu ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədr seçildik və uğurlu sədrliyimizə görə bizim sədrlik müddətimiz bir il daha uzadıldı, gələn ilin sonuna qədər biz sədrlik edəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstəririk. Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Biz bu təşkilatın üzvü deyilik, Ermənistan bu təşkilatın üzvüdür və bu təşkilat xətti ilə Azərbaycana qarşı əsassız iddia qaldırmaq fikrində idi, faktiki olaraq bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribatdır və böyük cinayətdir.

Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər. Yəni, bu, nəyi göstərir? Bu təşkilatda bizim dostlarımız Ermənistanınkından daha çoxdur. Nəyə görə? Siyasətimizə görə, bizim etibarlı tərəfdaş olmağımıza görə. Ermənistana nə üçün münasibət mənfidir? Ona görə ki, onlar hər yerdə yalan danışırlar və öz problemlərini həll etmək üçün daha qapı qalmayıb ki, oraya müraciət etməsinlər. Bütün bunlar göz qabağındadır, hər kəs bunu görür, hər kəs bunu bilir.

Bu yaxınlarda yenə də üzv olmadığımız, amma Ermənistanın bilmirəm hansı səbəbə görə üzv olduğu Frankofoniya təşkilatı çərçivəsində də Azərbaycana qarşı çirkin bir təxribat planlaşdırılırdı. Bu təxribatın müəllifi Fransa idi və Fransa da Ermənistana indi himayədarlıq edir. Onlar bir-birinə "bacı" deyirlər və mən görürəm, yoldaşlar da bunu xüsusi qeyd etdilər. Mən daha demədim ki, "qardaş" da deyə bilərdilər, amma nədənsə bunlar "bacı" deyirlər. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezislər üzərində qurulmuşdur və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın, - onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır, - səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa-Ermənistan tandemi bu imkandan da istifadə edə bilməmişdir. Yəni, bu, onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq yoxdur. Biz xarici siyasət konsepsiyamızda əməkdaşlıq, dostluq prinsiplərini üstün tuturuq və imkan daxilində ehtiyacı olan ölkələrə kömək göstəririk, necə ki, COVID dövründə 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Yəni, bu, böyük məsələdir. Əlbəttə ki, beynəlxalq arenada özümüzü ləyaqətlə aparmağımız bizə əlavə hörmət qazandırdı.

Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi.

Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur – onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri

davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!

* * *

Sonra tədbir çıxışlarla davam etdi.

Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuş AK Partinin Sədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxudu.

Rusiya Federasiyasının "Yedinaya Rossiya" Partiyasının Ali Şurası Bürosunun üzvü, Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədr müavini Andrey Klimov partiyanın sədri Dmitri Medvedevin, Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Xarici əlaqələr komitəsi sədrinin müavini Somfon Siçulun Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Baş katibi, Laos Xalq Demokratik Respublikasının Prezidenti Tonqloun Sisoulizin təbrik məktublarını diqqətə çatdırdılar.

Özbəkistanın Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitov isə Yeni Azərbaycan Partiyasına yazdığı təbrik məktubunu oxudu.

Sonra YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadə, partiyanın Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Mirzəyev, "Azərbaycan Bayrağı" ordenli şəhid Nurlan Mustafayevin anası Rahilə Ramazanova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, YAP-ın Naxçıvan Dövlət Universiteti üzrə ərazi partiya təşkilatının sədri Arzu Abdullayev, YAP Gənclər Birliyinin üzvü Ülviyyə Axundova, Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) Baş katibi Cho Byunq-jaen, Şimali Makedoniyanın Türk Demokratik Partiyasının sədri Beycan İlyas çıxış etdilər.

Natiqlər Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranmasından, partiyanın 30 illik fəaliyyəti dövründə əldə edilən uğurlardan və gələcəkdə atılacaq addımlardan danışdılar. YAP-ın xalqın sevgisini və dəstəyini qazandığını, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirdiyini diqqətə çatdıran çıxışçılar qeyd etdilər ki, bu gün Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası nəinki regionda, eləcə də, beynəlxalq arenada özünün böyük nüfuzu ilə tanınır.

Daha sonra YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin, Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı Partiyasının təbrik məktublarını diqqətə çatdırdı. Yeni Azərbaycan Partiyasının ünvanına təbrik məktublarının gəldiyinin davam etdiyini diqqətə çatdıran YAP Sədrinin müavini bu barədə mətbuata əlavə məlumat veriləcəyini bildirdi. YAP-ın Mərkəzi Aparatı adından tədbirin iştirakçılarını partiyanın 30 illik yubileyi münasibətilə təbrik edən Tahir Budaqov Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları ətrafında sıx birləşərək Prezident İlham Əliyevin siyasətinin bundan sonra da ardıcıl olaraq həyata keçirilməsi istiqamətində hər kəsə uğurlar arzuladı.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başa çatdı.

## *Bakıda keçirilən "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda İlham Əliyevin nitqi*

-Çox sağ olun. Əvvəlcə bizimlə burada olduqları üçün qonaqlarımıza, beynəlxalq ekspertlərə minnətdarlığımı bildirmək istəyirəm. Belə mühüm məsələlərin müzakirəsi üçün bu önəmli tədbirə ev sahibliyi etdiyinə görə ADA Universitetinə də xüsusi təşəkkürümü bildirirəm. Cənab Paşayev dediyi kimi, yaxın tariximizdə artıq üçüncü dəfədir ki, biz burada yığışırıq. Hesab edirəm ki, əvvəl apardığımız müzakirələrimiz və bu dəfə aparacağımız müzakirələr regiondakı reallıqların, Azərbaycanın planlarının və bizim regiondakı qarşılıqlı əlaqələrimizin daha yaxşı qavranılmasına töhfə verəcək. Bu günün mövzusu Orta Dəhliz məsələsinə həsr olunub. Lakin mən bu konfransın necə adlandırıldığını gördükdə, – "geosiyasət, təhlükəsizlik və iqtisadiyyat", - bildim ki, bu nöqteyi-nəzərdən mövzunun əhatəliliyi daha geniş olacaq və bu da təbiidir. Çünki Orta Dəhliz kimi irimiqyaslı layihəni icra etmək üçün təhlükəsizlik və iqtisadi bacarıq məsələləri, əlbəttə ki, müzakirə olunmalıdır. Əlbəttə, təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq. Təbii ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da, həmçinin bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir. Çünki güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaşdırılması - bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb. Buna görə siyasi sabitlik, təhlükəsizlik, iqtisadiyyat - bütün bu amillər çox vacibdir. Bununla yanaşı, Orta Dəhlizin bir hissəsi olan hər bir ölkənin daxildə etdikləri də vacibdir. Başqa sözlə desək, fiziki nəqliyyat və logistika infrastrukturunu yaratmaq üçün onlara aid ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin nə yerdə olması da vacibdir.

Azərbaycanın coğrafiyası yaxşı məlumdur. Bizim açıq dənizə, okeanlara çıxışımız yoxdur. Buna görə istər bizim enerji layihələrimiz, istərsə də nəqliyyat layihələrimiz olsun, hədəfimizə çatmaq üçün biz çox gərgin işləməli idik. Eyni zamanda, bizim coğrafi mövqeyimizin üstünlüyü Avropa ilə Asiyanın arasında yerləşməyimizdir. Əslində, iki qitənin ortasında yerləşirik və bu bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Lakin infrastrukturun fiziki olaraq mövcudluğu ən vacib məsələ idi və biz bu sektora uzun illər ərzində sərmayə yatırmışıq. İndi isə dəmir yolları əlaqələrimizə, yol infrastrukturumuza baxdıqda biz Azərbaycanda hər şeyin hazır olduğunu görürük. Beş il bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışını etdik. İndi isə ölkəmizdən keçən artan yük həcmlərini gördükdə biz Bakı-Tbilisi-Qarsın Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırmağa başladıq. Bu layihə bizə 100 milyon ABŞ dollarından daha baha başa gələcək və biz bu layihəni bir il və ya ola bilsin, bir il yarım müddətində bitirməyi planlaşdırırıq. Eyni zamanda, Şimal-Cənub dəhlizi kimi digər nəqliyyat layihələri Şərq-Qərb dəhlizinə sinerji əlavə edəcək. Azərbaycan hər iki dəhlizin iştirakçısıdır və Azərbaycanda bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturu hazırdır. İndi biz nə işlər görürük. Biz müasirləşdirmə işləri aparırıq. Biz qatarların, yük qatarlarının sürətini artırmaq üçün yeni dəmir yolları tikirik. Eyni zamanda, biz nəqliyyat infrastrukturuna sərmayə yatırırıq, xüsusilə hava ilə yükdaşımaları infrastrukturuna.

Bizim nəqliyyat-kommunikasiya layihələrinin nisbətən yeni elementi olan dəniz ticarət limanımız 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək. Çünki buna zərurət var, çünki dünyada yeni geosiyasi vəziyyət mövcuddur və Azərbaycandan daha çox yüklərin daşınmasına zərurət var. Həmçinin biz hava limanları layihələrinin tamamlanması prosesindəyik. Laçın hava limanı hazır olandan sonra, – hansı ki, işğaldan azad edilmiş ərazilərdə üçüncü hava limanı olacaq, - Azərbaycanda beynəlxalq hava limanlarının sayı doqquza çatacaq. Əlbəttə ki, bu, təkcə sərnişin daşımaları üçün yox, həm də yük daşımaları üçündür. Beləliklə, biz Azərbaycan ərazisindən yükdaşımaların sürətlə artmasını gözləyirik və buna hazırıq.

Bakıda gəmi infrastrukturu və yeni gəmiqayırma zavodlarımızın olması ilə bağlı potensialımızı əlavə etsək, biz, əlbəttə ki, planlaşdırdıqlarımıza nail olacağımızı görəcəyik. Xəzər dənizinin şərq sahillərindən yükləri Azərbaycan ərazisindən nəql etmək üçün bizə sözsüz ki, yeni tankerlər, bərələr və yük gəmiləri lazım olacaq.

Yəqin burada giriş sözümü bitirəcəyəm ki, müzakirələrimiz üçün daha çox vaxt qalsın. Bir daha xoş gəlmisiniz. Bilirəm ki, siz azad edilmiş şəhərlərdən biri olan Ağdama səfər edəcəksiniz. Buna görə də sizə təşəkkür edirəm. Siz Ermənistan tərəfindən otuzillik işğalın nəticələrini öz gözlərinizlə görəcəksiniz. Təşəkkür edirəm.

# D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
# P U B L I C A D M I N I S T R A T I O N

UOT 005; 007; 35; 685; 338
UOT 351

**RƏCƏB RƏHİMLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müdiri,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: rehimli@yahoo.com*

## İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ DÖVLƏT İDARƏÇİLİYİNDƏ İSLAHATLARIN AMİLİ KİMİ

Dövlət sektorunun insan resursları idarəsinin rolunun yenidən müəyyən edilməsi istiqamətindəki çağırışlar dövlət idarəçiliyi ilə bağlı islahatların və bu sahədə innovasiyaların davamıdır. İnsan resurslarının idarə edilməsinin yeni istiqamətləri məsələsinə toxunmazdan öncə, dövlət və özəl sektorda kadr strukturunun təşkilinə qısaca nəzər salmaq vacibdir. Özəl sektorda, hər bir müəssisə və ya təşkilat öz kadr sistemini qurmaqda müstəqildir, lakin onlar məşğulluq haqqında qanunu tənzimləyən orqan tərəfindən qoyulan məhdudiyyətlər çərçivəsində fəaliyyət göstərməlidirlər. Dövlət sektorunda ənənəvi olaraq, qurumlar öz kadr sistemlərini tərtib etmək üçün özəl sektor qədər müstəqil deyillər. Onlar dövlətin müəyyən etdiyi mərkəzləşdirilmiş qurumun nəzarəti altında qanunlar çərçivəsində fəaliyyət göstərməlidirlər. Yəni müxtəlif ölkələrdə müxtəlif adlar altında formalaşdırılan Kadrların İdarə olunması İdarəsi kimi mərkəzləşdirilmiş orqan, yalnız qaydaları müəyyənləşdirmir, işə qəbul və təşviqi, əmək haqqı siyasətini, eyni zamanda, dövlət qulluğuna nəzarət və onun inkişaf sistemini də idarə edir. Bu mərkəzləşdirilmiş təşkilatlar həmçinin qurumların insan resursları idarəsinə nəzarət etmək məsuliyyətini də öz üzərinə götürür. Göründüyü kimi, bu mərkəzləşdirilmiş təşkilatların rolu bir çox yurisdiksiyalarda kadrların funksiyasının derequlyasiyasını və desentralizasiyasını nəzərdə tutan islahatlar nəticəsində dəyişir. Bu isə dövlət idarəçiliyində qurumun insan resursları idarəsinin dəyişən rolunu dərk etmək üçün əsasdır.

Yenidən müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında dövlət quruculuğu və dövlət idarəçiliyi sahəsində islahatlar sürətlə həyata keçirilməyə başlanıldı və dövlət idarəçiliyində insan resurslarının idarə edilməsi islahatların əsas amili kimi ön plana çıxdı. Bu gün dəyişən və qloballaşan dünyada ölkələr dövlət idarəçiliyində müasir innovativ metodları tətbiq etməyə və başqa ölkələrin müsbət təcrübəsindən yararlanmağa çalışır. Azərbaycan da dünya birliyinin bir üzvü kimi dövlət idarəçiliyində yeni idarəetmə formaları tətbiq edir və insan resurslarının idarə edilməsində müasir innovativ metodların tətbiqi yollarını araşdırır. Uzun illər ölkəmiz üzvü olduğu Sovetlər Birliyinin idarəetmə qaydaları ilə, yəni dövlət qurumlarında və müəssisələrdə təşkilati struktur – “piramida prinsipi”- aşağıdan yuxarı daralaraq zirvədə oturan rəhbər tərəfindən idarə olunurdu. Baxmayaraq ki, dövlətdə kollektiv idarəçilik prinsipi də mövcud idi, lakin son nəticədə idarəetmə “piramida”sının zirvəsində oturan rəhbər fəaliyyəti tənzimləyirdi. Üçüncü minillikdə dəyərlər kosmik sürətlə dəyişir. Artıq XXI əsrin idarəetməsi qloballaşır və bir müstəvidə müxtəlif əməkdaşlıq münasibətlərində olan tərəflər hörümçək toru kimi şaxələnərək şəbəkələşmə prinsipi ilə idarə olunur. Bu əsrin

bir özəlliyi də ondadır ki, iri qlobal şirkətlər arasında yüksək rəqabət olduğu kimi dövlətlər arasında da rəqabət mühiti mövcuddur. Yüksək rəqabətli mühitdə şirkətlər daha çevik və daha yenilikçi olmalıdırlar. Dövlətlər də rəqabət qabiliyyətliyini qoruyub saxlamaq üçün yeni idarəetmə metodları tətbiq etməli, "müzakirə və bürokratiya" prinsiplərinə əsaslanan idarəetmə buxovundan azad olmalıdırlar.

### İnsan resurslarının idarə edilməsinin konseptual əsasları

İnsan resurslarının idarə edilməsi elmi istiqaməti bir sıra elmlərin, "idarəetmənin nəzəriyyəsi və təşkili", "psixologiya", "sosiologiya", "konfliktologiya", "etika", "əmək iqtisadiyyatı", "əmək hüququ", "politologiya" kimi elmi istiqamətlərin qovşağında formalaşmışdır. Müasir dövrdə insan resurslarının idarə edilməsi elmi istiqamətini formalaşdıran üç əsas nəzəriyyə qeyd edilir:

Klassik nəzəriyyənin postulatları belədir ki, işçi gördüyü işdən zövq almır və gördüyü iş onu maraqlandırmır, ancaq alacağı maaşı düşünür. Bu halda müəssisə rəhbərinin vəzifəsi işçini ciddi kontrol etmək və işləməyə məcbur etməkdən ibarətdir. Bu halda işçinin işdə qalmasını şərtləndirən amillər isə maaşa qane olması və rəhbərin ədalətli davranışları ola bilər. İnsan münasibətləri nəzəriyyəsinin postulatları isə ondan ibarətdir ki, fərdlər ümumi bir işə inteqrasiya olunaraq faydalı və əhəmiyyətli olmağa, həmçinin kollektivdə şəxsiyyət kimi qəbul edilməkdə maraqlıdırlar. Bu tələbatlar əmək haqqının miqdarından daha çox işçini əməyə motivasiya edir. Bu halda rəhbərin vəzifəsi ondan ibarətdir ki, tabeçiliyində olan işçilər özünü faydalı və tələb olunan şəxs kimi hiss etsin. Rəhbər kollektivdə elə işgüzar mühit yaratmalıdır ki, hər bir işçi maksimum potensialını istifadə edə bilsin.

Keçən əsrin 30-cu illərində kadrlar şöbəsinin işi əmək müqavilələrinin bağlanması ilə əlaqədar danışıqlara, müəssisələrdə kadrların idarə edilməsi sahəsində fəaliyyətə və ümumi nəzarətə yönəlmişdi. Qırxıncı illərdə isə kadrların idarə edilməsi təcrübəsini tənzimləmək üçün qanunlar qəbul edildi. Bu illərdə qəbul edilmiş qanunvericilik aktları sahibkarları həmkarlar ittifaqı üzvlərinə qarşı ayrı-seçkiliyə son qoymağa çağırırdı və kollektiv sövdələşmə qınandı. Keçən əsrin 50-60-cı illərində isə yeni sahələrin inkişafı və köhnə sənaye sahələrinin modernləşdirilməsi, istehsalın dərin texnoloji yenilənməsi, bunun nəticəsində əmək ehtiyatlarının yeni keyfiyyətlərə yiyələnməsinə səbəb oldu. 70-ci illərin əvvəllərində bir çox inkişaf etmiş ölkələrin müəssisələrində kadr axını və absenteizm [vəzifə səlahiyyətlərinin icrasından boyun qaçırma] meylləri nəzərə çarpmağa başladı. Bu, elmi-texniki tərəqqinin inkişaf ehtiyacları ilə ziddiyyət təşkil edən kadr idarəçiliyinin həddsiz bürokratikləşməsinin




**Sxem 1.** İnsan resurslarının idarə edilməsi elmi istiqamətini formalaşdıran nəzəriyyələr

nəticəsi idi. İşçilərin bir hissəsi idarəetmədə iştirak etməkdə maraqlı oldu və idarəetmənin demokratikləşməsi başlandı. 70-90-cı illərdən artıq kadrların idarə edilməsində yeni iş metodları, yeni innovativ yanaşmalar tətbiq olundu ki, bu da kollektivin yaradıcı potensialının reallaşmasına imkan yaratdı. Ümumiyyətlə, insan resurslarının düzgün təşkili və formalaşdırılması bilavasitə ölkədə insan inkişafının səmərəli təşkili ilə bağlıdır. Pitirim Sorokinə görə hər hansı bir cəmiyyətin inkişafı onun üzvlərinin bacarıqlarından asılıdır. Cəmiyyətin savadlı və bacarıqlı şəxsləri daha mükəmməl birgəyaşayış formaları təşkil edirlər. Xalqların yüksəlişi və tənəzzülü də insan potensialının keyfiyyətindən və insan resurslarının düzgün təşkilindən asılıdır [16, s.21].

Cəmiyyətin uğurlu inkişafı onun iqtisadi göstəricilərindən və insanların maddi rifahından yox, insan inkişafının göstəricisi və onun həyata keçirilməsi şərtlərindən asılıdır. Milli səviyyədə insan inkişafı haqqında hesabatlar ilk dəfə 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) İnsan İnkişafı Ofisinin hazırladığı hesabatda əks olundu. Məruzənin əsasını Nobel mükafatçısı, hindli Amati Sena və pakistanlı Məhbub-ül-Xakın milli insan inkişafı haqqında Platonun və Aristotelin “xoşbəxtlik formulası” dəyərlərinə əsaslanan novator konsepsiyası təşkil etdi [12]. BMT 2022-ci ildə İnsan İnkişafı İndeksi üzrə vəziyyətlə bağlı hesabat dərc etmişdir. Hesabatda 2021-ci ilin göstəriciləri qeyd olunub. Hesabatda uzunömürlülük, təhsil və həyat standartları ilə bağlı indeks üzrə Azərbaycanın göstəriciləri ötən il bir qədər artaraq 0,745 olub. 2020-ci ildə bu rəqəm daha az olub: 0,741. Azərbaycan 195 ölkə arasında 91-ci sıradadır [8].

Qeyd etdiyim kimi, cəmiyyətin uğurlu inkişafı onun iqtisadi göstəricilərindən və insanların maddi rifahından yox, insan inkişafının göstəricisindən, insan kapitalından və insan potensialından əsaslı şəkildə asılıdır. Klassiklərdən Şults insan kapitalını təhsil və səhiyyənin inkişafı və iqtisadi artımla əlaqələndirirdi (Schultz, 1961) [26], Beker insan kapitalını “bilik, ideya, təcrübə və sağlamlığın” məcmusu kimi dəyərləndirdi. O müəyyən edir ki, insanın əmək fəaliyyəti kapital və torpaq qədər əsas istehsal faktorudur (G.Becker, 1964) [29]. Bouven isə insan kapitalını qazanılmış bir xüsusiyyət hesab edirdi və bu xüsusiyyətin müəyyən müddət ərzində mal və xidmətlərin yaradılması üçün lazım olduğunu qeyd edirdi. (Bowen, 1978) [31]. T.Davenportun fikrincə isə insanlar fitri qabiliyyətlərə, davranışlara və şəxsi enerjiyə malikdirlər ki, bu elementlər insan kapitalını təşkil edir və işçilər onları öz işlərində tətbiq edirlər. (T. Davenport, 1999) [30]. Alim V.Zombart isə insan potensialının xüsusiyyətlərinin genişləndirilməsinin vacibliyi fikrini irəli sürmüşdür. O, təklif edirdi ki, insan potensialı əhalinin davamlı artıq kök salmış sosial vərdişləri və adətlərinin qiymətləndirilməsi vasitəsi ilə nəzərdən keçirilsin. Zombart xüsusi olaraq qeyd edirdi ki, insan potensialının nəzərdən keçirilən forması sosial və iqtisadi transformasiyalar prosesində tarixən dəyişir. 20-ci illərdə sosioloq Pitirim Sorokin insan potensialını xalqın xüsusiyyətləri kimi təqdim etmişdir. O, yazırdı ki, istənilən cəmiyyətin taleyi hər şeydən öncə onun üzvlərindən aslıdır [22, s.21]. İnsan resurslarının idarə edilməsi ayrılmaz bir funksiya kimi işəgötürənin strateji məqsədlərinə xidmət etməkdə personalın səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuşdur. Müəssisənin aydın idarəetmə strategiyasına malik olması rəqabət üstünlüklərinin yaradılmasında əsas amildir. İdarəetmə istiqamətləri arasında motivasiya menecmenti adlanan idarəetmə növündən istifadə olunur. Ueyn F.Kassio İnsan Resurslarının İdarə edilməsi (Məhsuldarlıq, iş həyatının keyfiyyəti, mənfəət) kitabında bu problemə aydınlıq gətirir. O, əmək qüvvəsinin analitikasının insan resurslarının idarə edilməsinə maddi təsirlərinin olduğunu qeyd edir və fəaliyyətdə olan insan resurslarının idarə edilməsini işçinin artan məsuldarlıq və mənfəətliliklə əlaqələndirirdi. Məlumdur ki, menecment münasibətlə davranış arasında




**Sxem 2.** LAMP modelinin işıqlandırılması (Mənbə: Adapted from Boudreau, J.W., and Ramstad, P. M. (2007). Beyond HR: the New Science of Human Capital. Boston: Harvard Business Scool Press, p. 193.)

əlaqə olduğuna görə işçilərin iş məmnuniyyəti, öhdəliyi və işə bağlılığı kimi münasibətlərdə maraqlıdır. Bərabər şərtlər çərçivəsində işindən məmnun, işinə bağlı və sadiq olmayan işçilər işdən yayınmağa, işə gecikməyə, işdən tez çıxmağa meyilli olacaq və işə münasibəti olanlarla müqayisədə müştəri məmnuniyyətinə daha az əhəmiyyət verəcəklər. Qısası, işə qeyri-qənaətbəxş münasibət aşağı məhsuldarlığa və zəif təşkilati perfomansa səbəb olacaq. Faktlar göstərir ki, bu da özlüyündə arqumentdir və menecmentin narahatlığı əsassız deyil [22, s.35].

**LAMP modeli:** işçi qüvvəsinin ölçülməsi üçün baza LAMP abreviaturasındakı hərflər meyar sisteminin dörd əsas tərkib hissəsi kimi məntiq (logic), analitika (analytics), meyar (measure) və prosess (process) mənasını verir, strateji dəyişikliyə və təşkilatı effektivliyə aparır. Meyarlar bu sistemin yalnız bir komponentini təmsil edir. Onlar əhəmiyyətli olsa da, digər üç komponent olmadan meyarlar və məlumat İR-in meyarlar sisteminin əsas məqsədindən təcrid olunmağa məhkumdur. İR üzrə meyarlar sistemi yalnız qərarların qəbul edilməsinə və təşkilatın effektivliyinə dəstək verə bildiyi qədər qiymətlidir. LAMP mexanizminin dörd komponentinin tam meyarlar sistemini necə xarakterizə etdiyini nəzərdən keçirək. Hər bir elementin qısa izahı belədir:

**Məntiq:** rəqəmləri və nəticələri birləşdirən "hekayə" İnandırıcı məntiq olmadan rəqəmlərin (İR meyarları üzrə məlumat) nə məna kəsb etdiyi ilə bağlı fikirləri harada axtarmaq lazım olduğu aydın deyil. Əksinə, yaxşı əsaslandırılmış məntiq İR-dən kənarda olan liderlərə meyarlar sistemini anlatmaqda və onlardan istedadla bağlı qərarları təkmilləşdirməklə istifadə etmədə kömək edir. "Xidmət-dəyər-mənfəət" kimi bir məntiqi çərçivəni nəzərdən keçirin. O, müştərilərin təcrübəsinə təsir göstərən, öz növbəsində işçinin münasibətinə, işə bağlılığa və işçi dövriyyəsinə təsir edən İR və idarəetmə praktikaları arasındakı əlaqələrə diqqət çəkir. Müştərilərin təcrübəsi onların alış-veriş davranışına, sonuncu amil satışlara, onlar da öz növbəsində mənfəətə təsir göstərir.

**Analitika:** məlumatdan uyğun nəticələr çıxarmaq Analitika İR-in məntiq və meyarlarını ciddi, uyğun fikirlərə çevirir. Analitik strategiyalar olduqda məlumatdan düzgün nəticə çıxarmaq məqsədilə statistika və tədqiqatların formalaşdırılması üçün meyarlar statistik formulları doğuran rəqəmləri özündə birləşdirir. Əsaslı analitika səbəb-nəticə oxunun əslində hansı istiqaməti göstərdiyini ortaya çıxarır.

**Meyar:** rəqəmlərin düzgün götürülməsi LAMP modelinin bir hissəsi olan meyarlar İR-də həddən artıq böyük diqqət çəkir. Faktiki olaraq əgər axtarış motorunda “İR meyarları” yazsanız, 39 milyondan çox nəticə əldə edəcəksiniz! Çoxsaylı qiymətləndirmə kartları, sammitlər, kontrol paneli, məlumatlar, məlumat bazaları və yoxlamalar. Həqiqətən də, İR meyarları üzrə texnologiyaların müxtəlifliyi həddindən artıqdır. İşçi dövriyyəsinin ölçülməsini nəzərdən keçirin. LAMP modelinin məntiq komponenti əsaslı meyar üçün çox əhəmiyyətlidir, o, potensial səbəblər və nəticələr barədə məlumat verir və ən uyğun meyarları müəyyənləşdirir.

**Proses:** praktik mexanizmlərin yaradılması Proses LAMP mexanizminin son elementidir. O, əsas qərarvericilərə təsir göstərmək üçün məlumatdan istifadə prosesinə istinad edir. Bu təsir prosesi meneceri insanlarla bağlı biznes proseslərinin mümkün olduğuna, eyni zamanda informativ xarakter daşıdığına inandırmaqla başlayır. Onun baş verməsinə nail olmaq üçün ən çətin analizləri təqdim etməyə ehtiyac yoxdur. Ən yaxşı yanaşma menecerin artıq istifadə etdiyi məntiqi modellərə uyğun gələn nisbətən sadə meyarları və analizləri təqdim etməkdir [17, s.39].

### İnsan resurslarının idarə edilməsində Türkiyə təcrübəsi

Əksər ölkələrdə insan resurslarının idarə edilməsində idarəetmə üçbucağı adlanan bəzi şərtlər var ki, bunlar da zaman, vəsait və əldə olunan nəticədir. Az vəsait xərcləməklə qısa zaman kəsiyində böyük nəticələr əldə etmək mümkündür. Bunun üçün nə etmək lazımdır. Dünyada idarəetmə elmində çox metodlar mövcuddur. Lakin onların hamısını müəyyən ölkələrdə tətbiq etmək olmur. Bəzi hallarda buna siyasi, sosial və iqtisadi şərait imkan vermir. Lakin inkişaf edən ölkələr öz idarəetmə metodlarında iri həcmli layihələrin kiçik hissələr formasında icra edilməsi üçün onları şəbəkələşdirir və kiçik layihələr şəklində




**Sxem 3.** Türkiyədə İnsan Resurslarının idarə edilməsinin funksiyaları.

icra olunmasına çalışırlar. Məsələn, Türkiyədə autsorsinq fəaliyyəti (layihələrin icrasına ixtisaslaşmış kənar şirkətlərin cəlb edilməsi) daha çox yayılmışdır. Layihələrin icrası üçün iri həcmli şirkətlərin yaradılması və buna sərf olunan vaxt itkisi, böyük vəsait xərclənməsi böyük maliyyə zərərləri yaradır. Hər hansı bir iri həcmli işin icrası üçün böyük şirkətlərlə müqavilə bağlamaq daha sərfəlidir. Müasir dövrün trendlərindən olan "hedhanting" [hedhanting – beyin ovlanması] şirkətləri iri həcmli layihələrin icrasını koordinə edən və xüsusi biliklərə malik olan kadrların komplektləşməsində aparıcı rol oynayırlar. Onu da qeyd edim ki, Azərbaycanla Türkiyəni müqayisə edəndə bizim ölkəmizdə "Heyətin idarə edilməsi" sistemindən "İnsan Resursları" sisteminə keçid daha sonralar olmuşdur. Türkiyədə İnsan Resurslarının idarə edilməsi dünya təcrübəsinə əsaslanmaqla bir sıra funksiyaları yerinə yetirir:

Türkiyə Statistika Orqanının (TürkStat) 2022-ci ilin sentyabr ayına əmək statistikasını açıqlamışdır. Mövsümi təsirlərdən təmizlənmiş işsizlik səviyyəsi 10,1% olmuşdur. Ev Təsərrüfatları İşçi Qüvvəsi Sorğunun nəticələrinə görə; 2022-ci ilin sentyabr ayında 15 və daha yuxarı yaşda olan işsizlərin sayı əvvəlki ayla müqayisədə 120 min nəfər artaraq 3 milyon 482 min nəfərə çatıb. İşsizlik nisbəti isə 0,3 bənd artaraq 10,1%-ə yüksəlib. İşsizlik nisbəti kişilər üçün 8,8% olduğu halda, qadınlar üçün 12,8% olduğu təxmin edilir. Mövsümi təsirlərdən təmizlənmiş məşğulluq nisbəti 47,6% olmuşdur. 2022-ci ilin sentyabr ayında məşğul olanların sayı əvvəlki ayla müqayisədə 54 min nəfər azalaraq 30 milyon 867 min nəfər, məşğulluq nisbəti isə 0,1 faiz bəndi azalaraq 47,6 faiz olub. Bu göstərici kişilərdə 65,0% olduğu halda, qadınlarda 30,6% olmuşdur [14].

Türkiyədə müəssisələrdə işçi qüvvəsinə olan tələbatın ödənilməsinin müxtəlif növləri mövcuddur ki, bura:

1) daxili resurslar hesabına (təşkilatlarda işləyənlərin vəzifələrinin artırılması və ya daxili rotasiya yolu ilə);

2) xarici mənbələr hesabına: müvafiq işlərin icrası üçün peşəkar bilik və bacarığı olan işçilər xaricdən cəlb edilir. Proses KİV-lərdə elan yerləşdirməklə, o cümlədən vasitəçi şirkətlərin xidmətlərindən istifadə etməklə tənzimlənir. Bundan başqa namizədlərdən CV qəbulu və işədüzəltmə şirkətləri vasitəsi ilə yönəldilən namizədlər arasından seçim, həmçinin Türkiyə Cümhuriyyətinin əmək qanununun 25-ci maddəsinin A və B bəndlərinə müvafiq olaraq keçmiş məhkumların da




**Sxem 4.** Türkiyədə işsizlik səviyyəsinin göstəriciləri. Türkiyə statistik kurumu. https://data.tuik.gov.tr/Bulten/Index?p=%C4%B0%C5%9Fg%C3%BCc%C3%BC-%C4%B0statistikleri-Eyl%C3%BCl-2022-45655&dil=1 (Müraciət vaxtı: 16.11.2022)

işə cəlb edilməsi hesabına tənzimlənir. Əlbəttə ki, Türkiyədə işə qəbul prosesi bütün şirkətlərdə eyni bir qayda üzrə aparılmır. Bura müsahibə, test imtahanı, namizəd haqqında məlumatların toplanılması, tibbi yoxlanış və s. daxildir. İnsan Resurslarının idarə edilməsinin tətbiqlərinin qeyd edildiyi Türkiyədə işə qəbulda mənbə, qərar verənlərin kimliyi, seçim metodu kimi müxtəlif kriteriyalar mövcuddur. Bu kriteriyalara aşağıdakı cədvəldə nəzər salaq:

| İş seçimi | Türkiyə |
|---|---|
| Mənbə | Daxili resurslar və xarici mənbələr |
| Üsul | Müxtəlif mərhələli imtahan və müsahibələr |
| Kriteriya | Bilik, bacarıq, təcrübə və s. |
| Qərar verən | Rəhbərlik və işə qəbul komissiyası |

**Sxem 5.** Türkiyədə işə qəbul kriteriyaları.

2003-cü ildə qəbul edilmiş Türk iş Qanununa görə Türkiyədə gündəlik iş saatı ortalama 7,5 saat təşkil edir. Həftəlik 45 saat olmaqla illik 270 saatdan artıq ola bilməz. Fövqəladə hallarda rəhbər öz işçisinə əlavə işlər tapşıra bilər (Türk iş qanunu maddə 43, 43) lakin bu norma günlük 11 saatdan çox ola bilməz.

| Təcrübə illərinin sayı | Ödənişli məzuniyyət günlərinin sayı |
|---|---|
| 1-5 il | 14 gün |
| 5-15 il | 20 gün |
| 15 ildən çox | 26 gün |

**Sxem 6.** Türkiyədə staja görə məzuniyyətin verilməsi.

**Azərbaycanda insan resurslarının idarə edilməsinin innovativ metodları**

Yenidən müstəqillik qazanmasından otuz ildən çox müddət keçməsinə baxmayaraq Azərbaycanda demokratik prinsiplər əsasında sivil dövlət idarəetmə sistemi və modern dövlət aparatı yaradılmış, dövlət idarəçiliyinin və dövlət qulluğunun normativ-hüquqi bazası formalaşdırılmış, vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş demokratik, dünyəvi dövlət quruluşuna müvafiq insan resurslarını idarəetmə institutları təsis edilmişdir. Dövlət idarəçiliyi fəaliyyətinin nəticələrinin proqnozlaşdırılması, daha optimal nəticələrin əldə olunmasına hesablanmış tədbirlərin həyata keçirilməsini, insan resurslarından daha düzgün istifadə mexanizmlərinin işlənib hazırlanmasını asanlaşdırır. Belə ki, bu dövrdə “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)”, eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşdırıldı. Modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsinə başlanıldı və qısa zaman kəsiyində bu xidmətlər geniş vüsət aldı. Azərbaycan Respublikasında “elektron hökumət”lə bağlı ideya ilk dəfə olaraq “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” sənədində ifadə olunub. 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (indiki Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi) məhz bu mühüm strategiyanın həyata keçirilməsi üçün yaradıldı. Belə ki, nazirlik “Azərbaycan Respublikasının

inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyası"nın həyata keçirilməsi istiqamətində 2005-2008-ci illər və 2010-2012-ci illər üçün "Elektron Azərbaycan" Dövlət proqramlarını reallaşdırıb. Bu proqramlar informasiya cəmiyyətinin formalaşdırılması və elektron hökumət quruculuğu istiqamətində mühüm addım olmaqla, Azərbaycanda insan resurslarının idarə edilməsi sistemində innovasiyaların tətbiqi baxımından olduqca əhəmiyyətli idi. İnsan resurslarının idarə edilməsi sisteminin müasirləşdirilməsi, şəffaflığın artırılması və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində mühüm tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması oldu. Agentliyin nəzdində isə "ASAN xidmət" mərkəzləri yaradıldı. Mərkəzlərin yaradılmasında məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi idi. Artıq bu gün Azərbaycanda 24 "ASAN xidmət" mərkəzi vətəndaşlara yüksək keyfiyyətli dövlət və sosial xidmətlər göstərir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə qəbul edilən strateji yol xəritələrində Dövlət Agentliyinə aid olan tədbirlərin icrasına uyğun olaraq Agentliyin 2022-2024-cü illəri əhatə edən Strateji Planı hazırlanmışdır. Mövcud Strateji Planın fəaliyyət istiqamətləri Birləşmiş Millətlər Təşkilatının 2015-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədlərində müəyyən edilən 8-ci (İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək), 9-cu (Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək), 16-cı (Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək) və 17-ci (Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq) məqsədlərinə uyğun formalaşdırılmışdır. Strateji Plan Dövlət Agentliyinin funksiyalarına uyğun olaraq insan resurslarının idarə edilməsində innovasiyaların və qabaqcıl təcrübələrin tətbiqi ilə dövlət xidmətlərini davamlı inkişaf etdirməyə və vətəndaşların sosial, iqtisadi və ictimai rifahının yaxşılaşdırılmasına yönəlmişdir. Dövlət Agentliyi fəaliyyətini təkmil idarəçilik (good goverence) metodları əsasında formalaşdırır və əsasnaməsi və digər normativ hüquqi aktlarla ona həvalə olunmuş vəzifə və funksiyalara uyğun olaraq təşkil edir [6]. Yuxarıda qeyd olunan 01 fevral 2021-ci ildə qəbul edilmiş Azərbaycan 2030: sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərdə də ölkəmizin gələcəkdə dünyada artan rəqabətə hazır olması üçün yüksək rəqabətli insan kapitalının formalaşdırılması qeyd olunmuşdur. Bu baxımdan insan resurslarının səmərəli idarə edilməsi üçün müasir təhsil, innovasiyaların təşviq edilməsi üçün münbit şərait və insanların sağlamlığı əsas şərt olmalıdır.

Bundan əlavə Azərbaycanda dövlət qulluğu sistemində insan resurslarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi məsələsi də dövlət idarəçiliyində islahatların prioritetlərindəndir. Bu istiqamətdə aparılan islahatlardan biri də dövlət qulluğuna kadrların seçilməsi prosesinin təkmilləşdirilməsi olmuşdur. Belə ki, 2016-cı ildə Azərbaycanda dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi və digər məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi yaradıldı. Mərkəzə dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılma-

sında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənmək, dövlət qulluğu məsələləri üzrə beynəlxalq əməkdaşlığı həyata keçirmək, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək, dövlət qulluqçularının reyestrini aparmaq və s. məsələlər həvalə edildi [5].

Dövlət idarəetməsinin mühüm institutlarından biri olan dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri müəyyənləşdirmək məqsədilə 2018-ci il 23 noyabr tarixində Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya” təsdiq edildi. Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, dövlət qulluğunda insan resurslarının idarə edilməsi, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatların həyata keçirilməsini nəzərdə tutur. Strategiyanın icrası 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin edilir. Fəaliyyət planları strategiyada nəzərdə tutulan əsas inkişaf istiqamətləri üzrə müvafiq hədəfləri, həmin hədəflərə çatmaq üçün həyata keçirilməsi tələb olunan konkret tədbirləri, icraçıları və müddətləri özündə əks etdirmişdir.

Azərbaycanda insan resurslarının idarə edilməsinin innovativ metodlarından biri də ölkədə kadr ehtiyatı bankının yaradılması olmuşdur. Bunu təmin etmək məqsədilə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə “Yüksəliş” müsabiqəsi təsis edilmişdir. “Yüksəliş” müsabiqəsi yeni nəsil idarəçiləri, liderlik müstəvisində proqressiv düşüncə, çevik idarəçilik bacarıqlarına malik peşəkarları aşkara çıxarmaq, onların potensialını lazımi sahələrə yönləndirmək, eyni zamanda, peşəkar kadrların dəyərləndirilməsi və dəstəklənməsi baxımından ölkəmiz üçün böyük əhəmiyyətli müsabiqədir. “Yüksəliş” müsabiqəsində iştiraka mülkiyyət formasından asılı olmayaraq ən azı iki il idarəçilik təcrübəsi olan 21-51 yaş arası Azərbaycan Respublikası vətəndaşları buraxılır. Namizədlərin iş icrasının idarə edilməsi, nəticələrə yönəlmək bacarıqları, komandada işləmək bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin idarə edilməsi bacarığı, büdcənin idarə edilməsi bacarığı, sosial məsuliyyət və innovativliklərin tətbiqi səriştələri əsasında ekspertlər tərəfindən qiymətləndirilməsi aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası”nın təsdiq edilməsi haqqında Qərarı da ölkəmizdə dövlət idarəçiliyində insan resurslarının idarə edilməsinə müsbət təsir göstərən amillərdən hesab edilir [9]. Belə ki, bu Qaydalar dövlət qulluqçularının cari fəaliyyətinə nəzarətin həyata keçirilməsinə, onun potensial imkanlarının aşkara çıxarılmasına və səmərəli istifadə edilməsinə imkan yaradır. Bundan əlavə, dövlət qulluqçusunun peşə səriştəliliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirir.

Ölkəmizdə insan resurslarının idarə edilməsinin beynəlxalq təcrübəsinin öyrənilməsi dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxı-

mından mühüm əhəmiyyət kəsb edir. 2021-ci ildə Ankarada Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanan protokol çərçivəsində iki ölkənin dövlət kadrlarının hazırlanması və inkişafı sahəsində işbirliyinə dair qərar qəbul olunmuşdur. Protokola əlavə edilmiş Fəaliyyət Planında təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Bu çərçivədə Türkiyə Prezidenti Administrasiyası İnsan Resursları Ofisinin rəhbərliyinin dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin tanıdılmasına yönəlik Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə fəaliyyəti nəzərdə tutulmuşdur ki, bu tədbirlərin bir çoxu 2022-ci ildə yerinə yetirilmişdir. Eyni zamanda Akademiyada Məşğulluq Strategiyasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planının 2.8 bəndinə əsasən dövlət qulluqçularının əlavə təhsilinin təşkili və peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə il ərzində 3000 nəfər dövlət qulluqçusu təlimlərə cəlb olunur ki, bu da insan resurslarının inkişafında vacib rol oynayır.

Nəticə etibarilə aşağıdakıları qeyd etmək olar:

– idarəetmə fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə insan resurslarından istifadənin bir çox aspektlərinin idarəetmə tapşırıqlarının yerinə yetirilməsi səviyyəsi, resursların bölüşdürülməsi və fəaliyyətin planlaşdırılması, işçilərin təhsili və motivasiyası, rəhbərliklə işçilər arasında əməkdaşlığın səviyyəsi və s. bağlı xüsusiyyətlər təhlil edilməlidir:

– işçilərin inkişafının təmin edilməsi ilə bağlı xüsusiyyətlər işçi heyətinin fəaliyyətinin effektivliyinin artırılması proseslərindən formalaşır və bu halda işçinin gələcək inkişafının stimullaşdırılması, perspektivinin formalaşdırılması xüsusiyyətlərinə daha çox önəm verilir, işçinin fərdi keyfiyyətləri nəzərə alınır və qiymətləndirilir;

– personalın idarəetmə proseslərinin təkmilləşdirilməsi ilə bağlı insan resurslarından istifadənin tənzimlənməsi xüsusiyyətləri əsasən personalın işinə nəzarət metodlarının xarakterindən formalaşır. Bu halda ortaya çıxan problemlərlə əlaqədar olaraq iş analizinin və qiymətləndirilməsinin aparılması, iş prosesinin dəyişdirilməsi, işin sadələşdirilməsi, əməyin təşkilinin və istehsal normasının dəyişdirilməsi, işçinin təhsilinin və ya yenidən təhsil almasının təşkili, işçilərin motivasiyasının yüksəldilməsinə imkan verən yeni proqramların hazırlanması, öz vəzifəsinin öhdəsindən gələ bilməyən işçilərin başqa işlərə keçirilməsi, rotasiya sisteminin tətbiqi, yeni işçilərin işə götürülməsi kimi tənzimləmə mexanizmləri həyata keçirilməlidir;

– inzibati məqsədlərlə bağlı olaraq insan resurslarından istifadənin tənzimlənməsi xüsusiyyətləri hərtərəfli öyrənilməlidir;

– gözləntilərə cavab verən performans dəyərləndirmə sistemi yaradılmalı və sistemin şəffaflığının təminatı üçün işçilərlə yanaşı rəhbərlərin də xidməti fəaliyyətlərinin qiymətləndirilməsi aparılmalı, qiymətləndirmənin dəqiq meyar və ölçüləri hazırlanmalıdır.

Ümumiyyətlə dövlət idarəçiliyində islahatların strateji vizionları, liderliyi, idarəetmə bacarıqlarını, resursları və motivasiyanı, həmçinin siyasi dəstəyi özündə cəmləşdirən çoxistiqamətli bir proses olduğunu nəzərə alsaq dövlət sektorunda çalışanların öyrənmə qabiliyyətinə kömək etmək və onların analitik bacarıqlarını artırmaq insan resurslarının inkişafında əldə olunan uğurun dərk edilməsi üçün vacibdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2022
2. Azərbaycan Respublikasının Əmək məcəlləsi, 1 fevral 1999, 183 səh.
3. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya, 23 noyabr 2018, (elektron resurs: https://e-qanun.az/framework/40748 müraciət vaxtı 10.11.2022)
4. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 21 iyun 2021, (elektron resurs: https://president.az/az/articles/view/52199 müraciət vaxtı 14.11.2022)
5. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 11 aprel 2016-cı il, №860. // http://www.e-qanun.az/framework/32559
6. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin saytı // http://vxsida.gov.az/az/page/Strateji-plan-2022
7. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 02 fevral 2021, (elektron resurs: https://president.az/az/articles/view/50473 müraciət vaxtı 16.11.2022)
8. BMT-nin Ölkə üzrə İllik Hesabatı - Azərbaycan 2021.// https://azerbaijan.un.org/az/188023-bmt-nin-olk-uzr-illik-hesabati-azrbaycan-2021
9. "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli Qərarı. (elektron resurs: https://e-qanun.az/framework/47192 müraciət vaxtı 12.11.2022)
10. "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (№1816), 13 fevral 2020-ci il. (elektron resurs: https://e-qanun.az/framework/44423 müraciət vaxtı 15.11.2022)
11. Ələkbərov U.K., Rəhimli R.Z., Həbibova Z.Z., Həsənov M.İ. İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. – 2018. – 184 s.
12. Kosmin A.D., Kosmina E.A. Rusiyanın demoqrafik təhlükəsizliyinin təmin edilməsi problemləri. – M.: İqtisadiyyat. – 2017. – 212 c
13. Rəhimli R.Z., Həsənov A. Dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin artırılması: kadr hazırlığı və səriştə modelinə keçid // "İnsan və biosfer" (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri. Ekoloji sivilizasiya, davamlı inkişaf, ətraf mühit. – 2020. – №15. – s.165-181.
14. Rəhimli R.Z. Dövlət idarəçiliyində islahatlar və dövlət qulluğu sisteminin formalaşdırılmasının müasir innovativ metodları // Bakı Universitetinin xəbərləri, Sosial-Siyasi elmlər seriyası. – 2021. – №4. – s.19-33.
15. Rəhimli R.Z. Dövlət idarəçiliyinin rəqəmsal gələcəyi: dünya trendləri və müasir dövlət qulluğu // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – №2(70). – Bakı: Təhsil. – 2020. – s.173-186.
16. Həbibova Z., Məmmədov F., İnsan potensialının idarəedilməsi. – Bakı: Təhsil, – 2021. – 208 s.
17. Ueyn F. Kassio. İnsan resurslarının idarə edilməsi. Məhsuldarlıq, iş həyatının

keyfiyyəti, mənfəət. TEAS Press Nəşriyyat evi, 2020
18. Rehimli R., Aliyev E. "Çağdaş Yaklaşımlar Şerşivesinde Kamuda İnsan Kaynakları Yönetiminin Örgütlenmesi" (Organization of Human Resources Management in The Public in The Framework of Contemporary) // Uluslararası Yönetim Akademisi Dergisi (Türkiye)Yıl:2019, Cilt: 2, Sayı: 1, ss 134-141. https://dergipark.org.tr/tr/download/article-file/713608
19. Rehimli R. Azerbeycan Kamu Personel Yönetimi, Anadolu Universitesi Yayınlar, Türkiye, 2016, 275 s.
20. Keçecioğlu T., "Strateji insan kaynakları yönetimi", 2017, 154 s.
21. Onur Ender Aslan, Devlet Bürokrasi ve Kamu Personel Rejimi. İmge Kitabevi Yayınları, Ankara 2019. 521 s.
22. Nuri Tortop, Burhan Aykaç, Hüseyin Yayman, M.Akif Özer. "İnsan kaynakları yönetimi", Ankara, 2012, 576 s.
23. Rahimli R. "Performance appraisal of civil servants for human capacity development in Azerbaijan "Universidad y Sociedad/ Realidades comparadas en América Latina y Eurasia/ Vol.12.Núm.2.2020." Cuba, https://rus.ucf.edu.cu/index.php/rus/article/view/1546/1556 Web of Science Core
24. By John R. Commons, Professor of Economics and Social Science, The distribution of Wealth. Indiana University. New York and London, Macmillan & Co., I893. - Small 8vo, 258 pp.
25. Collings D. G., Wood G. Human resource management: A critical approach // Human resource management: A critical approach / D. G. Collings, G. Wood (Eds.). – London: Routledge, 2009. P. 1–16
26. Investment in Human Capital Theodore W. Schultz The American Economic Review Vol. 51, No. 1 (Mar., 1961), pp. 1-17 (19 pages) Published By: American Economic Association
27. Johnason P. HRM in changing organizational contexts // Human resource management: A critical approach / D. G. Collings, G. Wood (Eds.). – London: Routledge, 2009. P. 19–37.
28. Harter, J.K., Schmidt, F.L., Asplund, J.W., Killham, E.A., and Agrawal, S. (2010). Causal impact af employee work perceptions on the bottom line of organizations. Perspectives on Psychological Science 5 (4), pp. 378-389.
29. Human Capital: A Theoretical and Empirical Analysis with Special Reference to Education, First Edition. Gary S. Becker. Published Date January 1964. Copyright 1964.
30. Human Capital: What It Is and Why People Invest It Thomas O. Davenport ISBN: 978-0-470-43681-3 March 1999 Jossey-Bass 276 Pages
31. Nothing is as Practical as a Good Theory: Bowen Theory and the Workplace — a Personal Application December 2009Australian and New Zealand Journal of Family Therapy (ANZJFT) 30(04) DOI:10.1375/anft.30.4.235 Authors: Megan F. Chambers
32. The Human Resources Funcion by E. Wight Bakke Yale Labor and Management Center Yale University New Haven, Conn. 1958, 24 p.
33. The Practice of Management by Peter Drucker Copyright Year 2007, ISBN 9780750685047, Published May 24, 2007 by Routledge, 370 Pages
34. Алакбаров У.К., Мамедов Н.М., Габибова З.З., Рагимли Р.З. Эволюция государственного управления в странах постсоветского пространства. 1991-2021/ отв.ред. И.Н.Барциц. - Москва: Издательский дом «ДЕЛО» РАНХиГС, 2021.-448 с. Раздел в книге: Азербайджанская Республика, Azərbaycan Respublikası. «Эволюция государственного управления в странах постсоветского пространства. Азербайджанская Республика» с.202-224.

***Açar sözlər:*** *insan resursları, dövlət idarəçiliyində islahatlar, insan potensialı, kompetensiyalar, qiymətləndirmə, motivasiya sistemi*

**Rajab Rahimli**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Head of the Department of Civil Service and Personnel Policy*
*Doctor of Philosophy in Political Sciences, Associate Professor*

## HUMAN RESOURCE MANAGEMENT AS A REFORM FACTOR OF PUBLIC ADMINISTRATION

### ABSTRACT

Although digitalization and the use of artificial intelligence in public administration make life easier for people and access to public services, they cannot completely replace the human factor. The human intellect and its ability to understand the problem and make decisions cannot be replaced by the technology created by man. No matter how great the ideas, the latest technologies, and successful domestic and foreign economic and political conditions are, it is impossible to achieve essential results in public administration without well-trained personnel. A human being is the most important value of society and an essential state resource. Human resources are a combination of various properties that determine the ability of people to work for the production of material and intellectual goods. They are general indicators of the development of social production. At the same time, we can distinguish the human resources of an organization, region, industry, or country and several levels of their management. The purpose of the paper is to review the conceptual foundations of human resource management in the course of reforms carried out in the field of public administration and to identify the main trends that are manifested in the modern system of strategic human resource management. The research reflects on the implementation of institutional reforms in personnel development, staff rotation, the application of a competency model in the field of recruitment, and the creation of a progressive motivation system to achieve state goals.

***Keywords:*** *human resources, public administration reforms, human potential, competencies, assessment, motivation system*

**Раджаб Рагимли**
*Заведующий кафедрой «Государственной службы и кадровой политики» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент*

# УПРАВЛЕНИЕ ЧЕЛОВЕЧЕСКИМИ РЕСУРСАМИ КАК ФАКТОР РЕФОРМ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

## РЕЗЮМЕ

Как бы цифровизация и использование искусственного интеллекта в государственном управлении во всем мире не облегчали бы жизнь людей и доступ к государственным услугам, они не могут полностью заменить человеческий фактор. Человеческий интеллект, его умения чувствовать проблему и принимать решения не может заменить техника, созданная человеком. Какими бы прекрасными ни были идеи, новейшие технологии, успешные внутренние и внешние экономические и политические условия, без хорошо подготовленных кадров невозможно добиться важнейших результатов в государственном управлении. Человек – основная ценность общества и важный ресурс государства. Человеческие ресурсы представляют собой совокупность различных свойств, определяющих способность людей к труду для производства материальных и интеллектуальных благ и являющихся общим показателем развития общественного производства. При этом различают человеческие ресурсы организации, региона, отрасли, страны и соответственно, выделяют несколько уровней управления ими. Целью представленной статьи является рассмотрение концептуальных основ управления человеческими ресурсами в ходе реформ, проводимых в сфере государственного управления и выявление основных тенденций, проявляющихся в современной системе стратегического управления человеческими ресурсами. Для достижения заявленных целей в научном исследовании нашли отражение реализация институциональных реформ в сфере развития кадрового потенциала, ротация кадров, применение модели компетенций в сфере подбора кадров и создание прогрессивной системы мотивации.

***Ключевые слова:*** *человеческие ресурсы, реформы в государственном управлении, человеческий потенциал, компетенции, оценка, система мотивации*

DÖVLƏT İDARƏÇİLİYİ
PUBLIC ADMINISTRATION

UOT 351

**ELNUR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsinin dekanı, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: ealiyev7@gmail.com*

# DÖVLƏT QULLUĞU ÜZRƏ QLOBAL ÇAĞIRIŞLAR VƏ ŞƏBƏKƏ İDARƏETMƏSİNİN PERSPEKTİV İNKİŞAFI

Dövlət qulluğu sistemləri, son iki onillikdə qlobal və regional dəyişikliklərin təsiri ilə davamlı inkişaf prosesində olmuşdur. Bu dəyişikliklərə qloballaşma, elmi və texnoloji dəyişikliklər, rəqəmsal texnologiyalar və informatika, vətəndaş cəmiyyətinin artan rolu, şəffaflıq və hesabatlılıq, davranışda etik normaların rolu daxildir. Qlobal iqtisadi meyllər və liberallaşan bazarlar məhdudiyyətsiz resurs və məlumat axını ilə mürəkkəb yeni qarşılıqlı asılılıqlar ortaya çıxardı ki, bu da səmərəli idarəetmə tələb edir.

XXI əsrdə qlobal sistem, sosial proseslərin sürətində, mürəkkəblik və miqyasında kəskin artımla rəqəmsal, informasiya və kommunikasiya texnologiyalarının sürətli böyüməsi sayəsində şəbəkə formatında quruldu və bu tendensiya idarəetmə sistemlərinə də ciddi təsir edir. Yalnız qanunlar deyil, həm də dövlətin iqtisadiyyatı və siyasəti ortaq bir şəbəkə hökuməti qurularaq daha çox yerli səviyyəli idarəetmə sistemləri tərəfindən yönəldilməyə doğru gedir.

Qlobal əmək bazarında, səriştələr (capacities) sistemində və reform konsepsiyalarında olan dəyişikliklərə adekvat dövlət qulluğu islahatları üçün ilkin şərtlər effektiv sistemin qurulması, sabit və işlək konstitusiya-hüquq sisteminin qurulması, sosial rifah və azad bazar arasında balansı qoruya bilən iqtisadi sistemin qurulması, nizamlı və məqsədli reformları icra etmək üçün maariflənmiş dövlət qulluqçularının formalaşdırılması, dövlət qulluqçularının ilk növbədə vətəndaş məsuliyyətinin olması, idarəetmənin xarakterinə uyğun hüquqların və təminatların olmasıdır.

"Şəbəkə idarəetməsi" fenomeninin ortaya çıxdığı çağdaş cəmiyyətlərdə hökumət, biznes və vətəndaş cəmiyyəti getdikcə daha mürəkkəb sosial problemlər ilə üzləşir. Bu problemlərin öhdəsindən gəlmək cəhdləri, idarə edilməsi daha çətin olan davamlı siyasət qurma, siyasəti tətbiqetmə və ictimai xidmət göstərmə prosesləri ilə nəticələnə bilir.

"Şəbəkə idarəetmə"si haqqında yazan bəzi önəmli müəlliflər idarəetmə və şəbəkə anlayışlarının sıx bağlı olduğunu düşünürlər. İdarəetmə, dövlət və qeyri-dövlət aktorlarının şəbəkələri daxilində baş verir və bu şəbəkələr arasındakı qarşılıqlı təsir idarəetmə proseslərini mürəkkəb və çətin idarə olunan edir [11]. Nəticədə, daha klassik idarəetmə yanaşmaları ilə müqayisədə fərqli idarəetmə strategiyaları tələb olunur. Burada diqqət fərdlər, qruplar və təşkilatlar daxil olmaqla dövlət, özəl və ictimai aktorlar şəbəkəsindəki kompleks qarşılıqlı əlaqə prosesinə yönəldilmişdir.

İdarəetmə şəbəkəsi, dövlət siyasətinin müəyyənləşdirilməsini, həyata keçirilməsini və xidmətin təqdim edilməsini avtonom, lakin bir-birindən asılı olan hökumət, biznes və vətəndaş cəmiyyəti aktorları arasındakı əlaqələr vasitəsilə ortaya çıxarır. Artıq qeyd edildiyi kimi, idarəetmə şəbəkələri, siyasət problemi, siyasət proqramı və resurslar ətrafında toplanan, ortaya çıxan, davamlı olan və bir sıra qarşılıqlı təsirlər nəticəsində dəyişdirilən qarşılıqlı asılı aktorlar arasında az və ya çox dərəcədə

sabit sosial münasibətlərdir. İdarəetmə şəbəkəsi prosesləri, müəyyən bir problemi, siyasəti, proqramı və ya dövlət xidmətini həll edən şəbəkələrdəki bütün qarşılıqlı proseslərdir. Şəbəkə idarəçiliyi, qarşılıqlı təsir proseslərinə və bu şəbəkələrin xüsusiyyətlərinə təsir göstərməyə yönəlmiş idarəetmə şəbəkələri daxilindəki aktorların şüurlu idarəetmə cəhdləri və strategiyaları məcmusu olaraq təyin edilir. Bu strategiyaları tətbiq edərək, şəbəkələr daxilindəki aktorlar siyasi həllər, siyasətlər və xidmətlər baxımından nəticələr əldə edirlər. Onlar bunu qeyri-qismi və ya meta-perspektivdən idarə etmək üçün xüsusi cəhdlər olmadan edirlər və bu mənada bu şəbəkə prosesləri özünüidarəetmə prosesidir [2]. Şəbəkə idarəçiliyi, qarşılıqlı əlaqələri asanlaşdırmaq, istiqamətləndirmək, şəbəkə prosesləri daxilində əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə şəbəkənin xüsusiyyətlərini dəyişdirməyə yönəlmiş bütün düşünülmüş strategiyalar kimi müəyyən edilə bilər.

### Dövlət qulluğu üzrə qlobal trendlər və çağırışlar

BMT yeni dönəmin tələblərinə uyğun olaraq effektiv bir dövlət qulluğunun əsas xüsusiyyətləri üzrə belə bir sıralama təklif edib (12):

- Xidmətdə layiqliyə əsaslanan və təsirlərdən neytral;
- Struktur baxımından yaxşı qurulmuş və resurslar baxımından "ölçüsü" optimal olan;
- Hesabatlı, məsuliyyətli, şəffaf və peşəkar olan;
- Nisbətən qərar qəbul etmə muxtariyyətinə malik olan;
- Məsuliyyətli fərdlər və etik bir sistem;
- Müasir biliklərin transfer edildiyi təlimlər keçilmiş və performans yönəldilmiş;
- Ətraf mühitə qarşı açıq olan və iştirakçı (reprezentativ).

Yeni dövlət qulluğu sistemində səlahiyyətlərin və bacarıqların idarə edilməsi sistemləri ənənəvi kadr idarəçiliyindən dövlət qulluğunda insan resurslarının strateji idarə edilməsinə tədricən keçidi asanlaşdırmaq üçün hazırlanmalıdır. Əsas dövlət qulluğu islahat meyllərinin nəzəri əsasları olaraq isə "yeni dövlət idarəetməsi" (New Public Management) və "yeni Veberian dövlət" (New Weberian State) konseptləri ön plana çıxır [1].

Birinci konseptin tərəfdarları Veberian bürokratik yanaşmanın modernləşməsinə, ikinci konseptin tərəfdarları isə ənənəvi bürokratikləşməyə qarşı özəl sektorda geniş tətbiq olunan yanaşmalara üstünlük verirlər. dövlət xidmətlərinin vətəndaşlara effektiv çatdırılması və dövlətin bütünlüyü içərisində rutin fəaliyyətlərin daha innovativ həyata keçirilməsi üçün dövlət qulluğu sistemi bir çox tərəfdaşın (steykholderin) mövcud olduğu şəbəkənin tərkib hissəsi və mərkəzi elementi kimi qurulmalıdır. Yeni sistemdə peşəkar təcrübələrə maraqlı tərəflərlə münasibətlər və tərəfdaşlığın inkişafı, sosial yenilik imkanlarının üzə çıxarılması, strateji düşüncənin öncəliyi, məqsədlər ilə resursların əlaqələndirilə bilinməsi daxildir.

Bu gün konseptual dəyişikliklər dövlət qulluğu üçün də önəmlidir. Dövlət xidmətlərində yeni nəsil yanaşmalar (Government innovation) tətbiq olunmaqdadır. Buna görə də, dünyada və dövlət idarəçiliyində dəyişikliklərin dövlət xidmətlərinin mahiyyətində əks etdirilməsi zərurəti meydana çıxmaqdadır. 2000-ci illərdən plüralizmi və tərəflərin razılığını əsas götürən və qərar qəbul etmə proseslərini həyata keçirən zaman maraqlı tərəflərin iştirakını önə çıxaran Yeni Dövlət Xidməti (New Public Service) yanaşması artıq qlobal bir trend kimi formalaşmaqdadır.

Dövlət qulluğunda yeni bir trend rəqəmsal texnologiyalar vasitəsilə idarəetmənin həyata keçirilməsidir. Dövlət qulluğuna rəqəmsal texnologiyaların tətbiqi məmur-vətəndaş fiziki təmasını azaldan və dördüncü nəsil sənaye inqilabının dövlət idarəçiliyinə və dövlət qulluğunda təsirləri getdikcə artmaqdadır. Vətəndaşların ictimai həyatının rəqəmsal mühitə daşınması, dolaysıyla idarəetmə alətlərinin bu dəyişikliyə uyğunlaşdırılması zərurətini artırmaqdadır.

**Şəbəkə idarəetməsinin perspektiv inkişafı**

XXI əsrdə qlobal sistem, sosial proseslərin sürətində, mürəkkəblik və miqyasında kəskin artımla rəqəmsal, informasiya və kommunikasiya texnologiyalarının sürətli böyüməsi sayəsində şəbəkə formatında quruldu və bu tendensiya idarəetmə sistemlərinə də ciddi təsir edir. Yalnız qanunlar deyil, həm də dövlətin iqtisadiyyatı və siyasəti ortaq bir şəbəkə hökuməti qurularaq daha çox yerli səviyyəli idarəetmə sistemləri tərəfindən yönəldilməyə doğru gedir. Burada, cəmiyyətin üfüqi şəbəkələri ilə yanaşı, idarəetmə orqanlarının qərarlarını təhlil edə bilən, sıralaya bilən, yəni müxtəlif sahələrdə ölkənin ümumi inkişaf strategiyası və taktikasını sintez edən və hazırlayan şaquli şəbəkələrin elementlərinə də ehtiyac duyulur.

Son illər yenilikçi əməkdaşlıqlar, ittifaqlar, ortaqlıqlar və təşəbbüslər kimi şəbəkələr və buna əsaslanan dövlət tənzimləmələri daxil olmaqla ümumiyyətlə şəbəkələrə maraq sürətlə artıb [10]. Şəbəkə fəaliyyəti idarəetmə vahidinin iyerarxik tənzimləmələrdə rəsmi tabeçiliyin olmadığı bir çox təşkilatı və ya onların hissələrini əhatə edən qarşılıqlı asılılığa əsaslanan struktur kimi müəyyən edilir. Bu mənada təhlil edilən şəbəkələr məqsədyönlü və çoxsahəlidir, onlar assosiativ könüllü qruplardan fərqli olaraq şüurlu şəkildə dizayn edilmiş məhdud qruplaşmalar ola bilər. Xidmətlərin vətəndaşa çatdırılması prosesində "şəbəkə modeli" idarəetmənin yenidən qavranılmasını tələb edir. Şəbəkələr təşkilatlar arasında yüksək dərəcədə qarşılıqlı asılılığın olduğu və iyerarxik əmr və nəzarət formalarının artıq siyasət hazırlamaq və ya həyata keçirmək üçün ən təsirli metod olmadığı vəziyyətlərdə yaranan yeni bir idarəetmə formasıdır [7].

Bu kontekstdə idarəetmə, yuxarıdan aşağıya doğru təşkil edilən bir idarəetmə sistemi ilə özünü təşkilatlararası şəbəkələr vasitəsi ilə yenidən təşkil edən bir sistem arasında dəyişikliyi göstərir. İdarəetmə şəbəkələrini bir-birindən asılı olan aktorlar arasındakı siyasət problemləri və siyasət proqramları ətrafında formalaşan bu və ya digər dərəcədə sabit olan sosial münasibətlərin bir nümunəsi olaraq da anlamaq olar. Buna görə də, çoxsaylı agentliklərin, özəl firmaların və təşkilatların (mənfəət güdən və ya mənfəət güdməyən – "profit-driven or non-profit") daxil edildiyi yeni bir siyasət və idarəetmə anlayışının qurulması önəmlidir. İdarəetmə şəbəkələri paradiqması, dövlət idarəçiliyində və təşkilati nəzəriyyədə bir irəliləyiş kimi, çoxölçülü və lokal problemlərin çevik şəkildə həlli üçün vasitə olaraq yarandı (9).

**İdarəetmə şəbəkələrinin siyasi və demokratik təsiri**

İdarəetmə şəbəkələri özlərinin təsir səviyyələrinə istinad edərək birbaşa siyasi təsir ilə idarəetmə nüfuzunu və iqtisadi resursları bölüşdürməyə imkan verir. İdarəetmə şəbəkələrinin demokratikliyi və qanuniliyi, tərkib elementlərinin şəbəkə tərəfindən həll olunan siyasət problemlərindən sıx təsirlənən maraqlı tərəflər üçün təmsilçi kimi tanınma dərəcəsindən asılıdır. Başqa sözlə desək, idarəetmə şəbəkələri, siyasi prosesləri sıx təsir altına alan hökumətlərin və hökumətlərarası demokratik arenaların çevik, yerləşmiş və problemlərin həllinə əsaslanan sistemli tərkibini formalaşdırır. Çevik və problemlərin həllinə əsaslanan hökumətlərarası demokratik idarəetmə platformalarının tətbiq edilməsinin daha bir müsbət təsiri şəbəkədən kimin xaric olunmalı olduğu məsələsinin siyasiləşdirilməməsidir. Hökumətlərarası idarəetmə şəbəkələrinə, təsirli siyasət formalaşdıran aktorlar tərəfindən təzyiq göstərilsə, bu dağıdıcı təsir göstərə bilər. Hökumətlərin icmalarda siyasi inklüzivlik və kənarlaşdırma nümunələrini fəal şəkildə yenidən nəzərdən keçirmələri onların tələblərini artıra bilər. Bu konsolidasiya edilmiş xaric etmə və daxilolma nümunələrinin daxili sabitliyinin pozulması və yenidən siyasiləşdirilməsi, siyasi çəkişməyə məruz qala biləcək məsələlərin dairəsini genişləndirə və dövlətdaxili demokratiyanı gücləndirə bilər.

### İdarəetmə şəbəkələrinin mürəkkəbliyi

İdarəetmə şəbəkələrinin aktiv elementlərinin ("şəbəkə agentləri") çoxsektorlu və çoxçalarlı tərkibi qarışıq inzibati əlaqələrlə birləşərək şəbəkə quruluşu, şəbəkə funksiyası və şəbəkə idarəçiliyi barədə mürəkkəb mənzərə formalaşdırır. Şəbəkələri öyrənmək və modelləşdirmək üçün mürəkkəblik disiplininin (complexity) parametrlərinə əsaslanaraq dünyada əhəmiyyətli bir elmi marağın formalaşdığını qeyd etmək vacibdir. Bu cür elmi modelləşdirmə yanaşmalarında qeyri-xətti mürəkkəblik, şəbəkə performans keyfiyyətini ölçmək üçün əhəmiyyətli problemlər yaradır [3]. İdarəetmə şəbəkəsi mürəkkəbliyinə baxmayaraq, onlar müəyyən dərəcədə idarə olunandır. Mürəkkəbliklə yanaşı bu cür idarə olunanlığı təmin edən faktorlar, şəbəkə menecerlərinin qərar qəbul etmələri, qurumlar tərəfindən tətbiq olunan qanunlar, qaydalar və qaydalara rəhbərlik, ictimai maraqlara cavab verilməsi, ictimai dəyərləri təmin etmək üçün edilən sistemli dizaynlar və tətbiq olunan siyasət alətləri ilə formalaşır.

### Dövlət idarəetməsində şəbəkə menecerləri, şəbəkə performansları və şəbəkə hesabatlılığı

Dövlət siyasətində və idarəçiliyində "şəbəkə idarəetməsi" modelində şəbəkə menecerlərinin iki rolu vardır: prosesin idarəedilməsi (mövcud şəbəkə elementləri arasında inkişaf etmiş qarşılıqlı əlaqələrin yaradılması) və idarəetmə şəbəkələrinin yenidən qurulması (qaydalara uyğun olan mövcud şəbəkələrdə dəyişikliklər edilməsi). Şəbəkə elementlərinin hansı rolu oynayacağı və bu rolu səmərəli oynaya bilmə qabiliyyəti burada önəmlidir. Şəbəkə nəzəriyyəsinin problem həll etmə və dövlət siyasəti proseslərinin idrak aspektləri ilə əlaqələndirilməsi vacibdir. Fərqli nəzəri yanaşmalar şəbəkələrdən istifadə, performansın təhlili və ölçülməsi üçün fərqli modellər təqdim edilir. Siyasət şəbəkəsi nəzəriyyələri şəbəkələrin içində və şəbəkələr arasında qarşılıqlı təsirlərdə aktorların önəmini nəzərə almadan onların strukturlaşdırılmış qarşılıqlı fəaliyyətini vurğulayır. Halbuki, şəbəkə idarəetmə yanaşması isə nəticələrin qəbul edilməsində aktiv agentlər kimi şəbəkə menecerinin roluna diqqət yetirir. Çoxaktorlu birgə şəbəkələrdə, strateji əlaqələrin qurulması, iştirakçıların bir-birlərini dinləmələrini və dəyərlərini tanımalarını təmin etməklə yeni şərtlərin yaradılması nəzərdə tutulur.

Performans idarəetməsi şəbəkə idarəetməsinin kritik xüsusiyyətidir. Şəbəkə menecerlərinin performans fəaliyyəti və səlahiyyətləri müxtəlif idarəetmə səviyyələrində, şəbəkənin qurucu qaydaları və qanunvericilik, tərəfdaşlıq müqavilələriylə, müzakirələrdən keçən açıq performans standartları ilə müəyyənləşdirilir və limitləşdirilir. Şəbəkə performansı ilə bağlı gözləntilər şəbəkənin fəaliyyətində iştirakı olan hər hansı bir quruma və şəxsə bağlı olaraq formalaşdırılır. İdarəetmə şəbəkələri həm endogen, həm də şəbəkə üçün ekzogen olan açıq və gizli fəaliyyət standartları ilə idarə olunur. Bu standartların şəbəkə strukturlarına və funksiyalarına təsir dərəcəsi dəyişgəndir və bu müşahidə indiyə qədər şəbəkə performansını öyrənən alimlərin çoxunun diqqət mərkəzində olmuşdur. Performans hədəfləri, onları ölçmək və izləmək üçün tətbiq olunan standartlar, yalnız onları istifadə etmək üçün tətbiq olunan sistemlər qədər effektiv ola bilər [4]. Şəbəkə idarəetməsinin çərçivələri daxilində, strateji qərar qəbulu prosesində qərar qəbul edənləri məlumatlandırmaq üçün performans məlumatlarının istifadəsi nəzərdə tutulur.

Performans ölçümləri resurs bölgüsündə, strateji planlaşdırmada və taktiki qərar qəbul edilməsində istifadə olunur. Bunlar idarəetmə prosesini maliyyələşdirənlər, tənzimləyicilər və ya əməkdaşlıq edən partnyorlar tərəfindən şəbəkə agentlərinin məqsədlərinə, istəklərinə və şərhlərinə cavab verən sistem və ya şəbəkələrə uyğun olaraq istifadə olunur. Performans göstəriciləri ilə birbaşa və ya dolayısı ilə əlaqəli olan performans hədəfləri, şəbəkədaxili qərar vermə prosesinə yön verən əsas faktor rolunu oynaya bilər. Şəbəkə performansının

qavranılması, şəbəkə üçün ekzogen olan "agentlər" tərəfindən də gerçəkləşə bilər. Məsələn, vətəndaşlar və seçilmiş məmurlar idarəetmə şəbəkəsinə sosial problemlər və dəyişən şərtlərə uyğunlaşmaq üçün təzyiq göstərə bilər. Bu agentlər rəsmi olaraq şəbəkə daxilində olmaya bilər, ancaq performans hədəflərinin seçilməsi və istifadəsi üzərində təsirləri mövcud ola bilər [6].

Qərar qəbul etmək üçün performans tədbirlərinin istifadəsi bir şəbəkə elementləri və şəbəkədən kənar olanlar arasında mövcud olan hesabatlılıq əlaqələri ilə idarə olunur. Bu cür şəbəkə hesabatlılığı, şəbəkə agentləri arasında davam edən əlaqələr baxımından önəmlidir. Şəbəkə hesabatlılığı, şəbəkələrin idarə edilməsinə və performansına kömək edən «hibrid hesabatlıq rejimləri» kimi təsvir edilmişdir [5]. Demokratik, administrativ və bazar əlaqələrini fərqləndirərək şəbəkə hesabatlılığına hibrid yanaşma şəbəkələrin demokratik əsaslarını, şaquli və üfüqi əlaqələrin davamlılığını və yalnız təşkilatların və qurumların fəaliyyətlərini formalaşdıran bazar hesabatlığının mövcudluğuna deyil, həm də ictimai və qeyri-kommersiya təşkilatlarının fəaliyyətlərinə çox təsir göstərmişdir. Bu hibridləşdirilmiş öhdəliklərin şəbəkə performansı üçün nəticələri dərindir. Hər növ dövlət idarəetməsi modelinin inzibati mühitində hesabatlılıq əlaqələrinin möhkəmliyinin vacib olduğunu qeyd etməliyik. Şəbəkə agentlərinin sayı artdıqca, bu əlaqələrin möhkəmliyi azaldıla bilər və bu trend şəbəkə performansının ölçülməsi, qiymətləndirilməsi və izlənilməsinə əhəmiyyətli təsir göstərə bilər [8].

Məhz "realizm" adlanan nəzəriyyədə "təhlükəsizlik" anlayışı üçün ənənəvi olaraq belə yanaşma qəbul edilmişdir. Yəni yalnız dövlət və ya onların birliyi təhlükə mənbəyi kimi qəbul edilmiş, "təhlükəsizlik" anlayışı belə dar, kompakt tərif əsasında formalaşmışdır. Bu yanaşmada, təhlükəsizlik gücün tətbiq edilməsi və onunla təhdid edilməsi yolu ilə təmin edilir [6]. Maraqlıdır ki, məhz bu cərəyanın davamçıları (yəni "realistlər") təhlükəsizliyi bu anlamda "yüksək" siyasət sahəsinə ("high" politics) aid etdikləri halda, ekoloji problemləri aşağı siyasət sahəsinə ("low" politics) daxil etmişlər. Bir növ "realistlər" ekoloji problemlərin beynəlxalq münasibətlərdə real təhlükə mənbəyi ola biləcəyini inkar etmişlər. Məsələn, bu cərəyanın tanınmış təmsilçisi Mark Leisi (M.Lacy) bu mövzuya aid kitabında [7] qeyd edir ki, "realist"lər təhlükələrin, yəni risklərin iyerarxiyasını bu prinsip əsasında müəyyən etməyə üstünlük vermişlər. Onlar ekoloji və digər bəzi riskləri ümumiyyətlə "təhlükəsizlik gündəliyinə" daxil etmirdilər. Sonrakı mərhələdə konstruktivist və postkonstruktualist alimlər, xüsusən də Kopenhagen Məktəbinə aid olan bir qrup alim tərəfindən realistlərin təklif etdikləri tərifin bir qədər də dar çərçivəyə salınmasına cəhd edilmiş, yəni, faktiki olaraq, təhlükə və risklərin sosial cəhətdən təsnif edilməsi, sosial konstruksiya əsasında aparılması irəli sürülmüşdür. Bu yanaşma əslində elmi dairələrdə böyük mübahisələrə və

etirazlara səbəb olmuşdu. Buna baxmayaraq, Kopenhagen Məktəbinin görkəmli nümayəndələri, o cümlədən Barry Buzan və Ole Waever öz əsərlərində "təhlükəsizlik" anlayışının genişləndirilməsinin [Bu proses müvafiq elmi ədəbiyyatda "təhlükəsizləşdirmə" ("securitization") adlandırılmışdır], o cümlədən ekoloji və digər risklərin, məsələlərin bu anlayışa daxil edilməsinin nəzəri cəhətdən neqativ yan effektlərinin ola biləcəyini vurğulamışlar. Belə ki, onların fikrincə, dar, klassik mənada təhlükəsizlik dövlətlərin varlığı, "ölüm-dirim" məsələsi olduğu halda, ekoloji təhlükəsizlik məsələsi klassik təhlükəsizlik məntiqinə uyğun gəlmir, daha çox siyasi çağırış anlamı kəsb edir və buna görə də siyasi anlayışlara, siyasi fəaliyyət sahəsinə daxil edilməlidir [3].

Fikrimizcə, müasir ekoloji çağırışlarla əlaqədar, belə yanaşma tamamilə yanlışdır, çünki günümüzdə, yalnız iqlim dəyişmələrinin ağır nəticələrini təhlil etsək, görərik ki, bir çox ölkələrdə, xüsusən də kiçik ada-dövlətlərdə dəniz səviyyəsinin artması, yağıntıların qeyri-bərabərliyi və intensivliyinin artması nəticəsində xeyli insan tələfatı, iqtisadi zərərlər bir çox ölkələri məhz "ölüm-dirim" məsələsi qarşısında qoymuşdur. Buna görə də, risk və təhlükələrin ağırlıq dərəcəsi meyarı ilə məsələyə yanaşılarsa, hazırda ekoloji təhlükəsizlik sisteminə olan risklərin dağıdıcı potensialı getdikcə daha da yüksəlir və bu risklər həm insan tələfatı, həm sosial-iqtisadi bloka neqativ təsirləri, eləcə də dövlətlərarası münasibətlərə ciddi təsir imkanları baxımdan "realist"lərin arqumentlərini heçə endirmiş olur. Belə ki, təkcə Pakistanda 2022-ci ilin iyun-avqust aylarında intensiv yağışlarla əlaqədar baş vermiş daşqınlar nəticəsində ölkənin üçdə biri su altında qalmış, 1100 nəfər həlak olmuş, 33 milyon nəfərə ziyan dəymişdi. Problemin digər paradoksal tərəfi də ondan ibarətdir ki, bu iqlim dəyişmələrinə səbəb olan istixana qazlarının həcmi atmosferdə son 170-180 ildə sürətlə artmış və onların belə böyük miqdarda toplanmasına (təxminən 2,4 trilyon ton $CO_2$ ekvivalenti) görə tarixi məsuliyyət inkişaf etmiş ölkələrin üzərinə düşdüyü halda, hazırda iqlim dəyişmələrindən ən çox əziyyət çəkən dövlətlər isə əsasən kasib və ya inkişaf etməkdə olan ölkələrdir. Qlobal iqlim dəyişmələri ilə mübarizə üzrə hazırda dünyada ən nüfuzlu elmi istinad qurumu olan İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (İPCC) hazırladığı son 6-cı Qiymətləndirmə Hesabatındakı məlumatlara əsasən, hazırda Mərkəzi və Şərqi Afrika, Cənubi Asiya, Mərkəzi və Cənubi Amerika, kiçik ada və inkişaf etməkdə olan dövlətlər və Arktika iqlim dəyişmələrinin təsirlərinə ən çox həssas bölgələr hesab edilir. Bu və digər həssas bölgələrdə hazırda təxminən 3,3- 3,6 milyard insan yaşamaqdadır. Məhz bu bölgələrdə 2010-2020-ci illərdə kəskin daşqın, fırtına və quraqlıq hadisələri nəticəsində tələf olmuş insanların sayı digər bölgələrlə müqayisədə 15 dəfə çox olmuşdur [24].

Beləliklə, günümüzdə öz aktuallığı ilə seçilən ekoloji risklərlə bağlı, ekoloji təhlükəsizlik konsepsiyasında klassik termindən fərqli olaraq, təhlükə mənbəyi, ayrı-ayrı halları nəzərə almasaq, hər hansı dövlət(lər) deyil, müxtəlif qlobal və ya lokal ekoloji proseslər, o cümlədən iqlim dəyişmələri, ekoloji deqradasiyalar, neqativ dəyişmələrdir. Ayrı-ayrı hallar dedikdə, dövlətlər tərəfindən münaqişələr zamanı müxtəlif ekoloji cinayətlərin törədilməsidir ki, nəticə etibarilə, bu lokal və ya qlobal miqyasda ekoloji fəlakətlərə səbəb olur. Konkret olaraq, Ermənistanın misalında bunu Azərbaycan Respublikasına qarşı 2020-ci ilədək törədilmiş və günümüzdə davam etdirilən ekoloji cinayətləri göstərmək olar ki, bu barədə müəllifin əvvəlki araşdırmalarında geniş bəhs edilmişdir [18, 19].

Məsələn, qlobal iqlim dəyişmələri bu proseslər arasında ən aktual, sosial-iqtisadi anlamda böyük dağıdıcı potensiala malik olan və müxtəlif sahələri əhatə edən fenomendir. Belə ki, ekoloji təhlükə mənbəyi kimi bu fenomen hər hansı ayrıca götürülmüş bir dövlətin digərləri ilə münasibətlərinə təsir üsulu kimi hazırlanmış "xüsusi silah" olmadığı kimi, onunla effektiv mübarizə də ayrıca götürülmüş

hər hansı dövlətin imkanları daxilində deyildir və buna görə də, qlobal səviyyədə beynəlxalq əməkdaşlığı zəruri edir.

Ən maraqlısı da odur ki, bir sıra hallarda qeyd olunan qlobal iqlimi dəyişmələri özü də dövlətlərin qonşu dövlətlərlə münasibətlərinə neqativ təsir edə bilər. Məsələn, iləbəil artan quraqlıq zonaları, ekstremal hava şəraiti ilə bağlı bir sıra bölgələrdə transsərhəd çayların istifadəsi və qorunması, meşə örtüyünün yanmasına qarşı qeyri-effektiv adaptasiya tədbirləri və s., nəticə etibarilə qonşu ölkələr arasında beynəlxalq münaqişələrə səbəb ola bilər. Bu da ekoloji təhlükələrin bilavasitə klassik mənada, siyasi, regional təhlükəsizlik sisteminə neqativ təsir potensialının mövcud olduğunu sübut edir.

Qeyd olunduğu kimi, klassik təhlükəsizlik anlayışından fərqli olaraq, ekoloji təhlükəsizlik anlayışında təhlükə mənbəyi konkret dövlət(lər) deyildir, bu təhlükə mənbəyinin ərazisi də qeyri-müəyyəndir, üstəlik siyasi-hərbi interpretasiya anlamında əsas etibarilə dövlətlərarası xüsusiyyətə malik deyildir. Belə ki, klassik mənada "təhlükəsizlik" dövlətlərarası əlaqələr və ya qarşılıqlı asılılıqla formalaşan anlayışdır və məlum "təhlükəsizlik dilemması" ilə xarakterizə olunur [4, s.66], yəni hər bir dövlət öz "suverenliyi" və "müstəqilliyi"ni öz ərazisinin toxunulmazlığı vasitəsilə təmin edir. Amma getdikcə beynəlxalq münasibətlər sisteminə daha geniş inteqrasiya edən ekoloji təhlükəsizlik sistemində "ərazinin toxunlmazlığını" təmin etmək üçün bir çox hallarda, ekoloji təhlükənin mənbəyi, intensivliyi barədə adekvat məlumat əldə etmək olmur, həm də bu səbəbdən onun aradan qaldırılması ayrıca götürülmüş dövlət üçün problematik olur. Məhz bu mənada, Deudney öz məqaləsində qeyd edir ki, ənənəvi təhdid və təhlükə mənbəyi kimi mütəşəkkil cinayət (beynəlxalq hüquq anlamında) belə ekoloji təhlükələrlə analitik cəhətdən müqayisə oluna bilməz [8]. Təsadüfi deyildir ki, Buzan, ekoloji təhlükəsizliyə bütün insan fəaliyyətinin asılı olduğu əsas dəstək sistemi kimi yerli və planetar biosferin qorunması kimi nəzərdən keçirir [9].

Qeyd olunanları nəzərə alaraq, klassik təhlükəsizlik konsepsiyasından ekoloji məsələlərin də daxil edildiyi daha müasir "təhlükəsizlik" anlayışına keçid labüddür və bu keçidin zəruriliyini sübut edən araşdırmalara, nəzəri materiallara misal olaraq Hugh C.Dyer, D.Pirages, R.B.J. Walker və digərləri tərəfindən yazılmış məqalələri [3, 10, 11] misal göstərmək olar.

Digər tərəfdən bölgəsəl və qlobal ekoloji problemlərin dövlətlərarası (məsələn, Pakistan və Əfqanıstanın timsalında – F.H.) münasibətlərin gərginləşməsi və münaqişənin yaranması üçün sövqedivi, hərəkətverici rolunu nəzərə alaraq, NATO Müasir Cəmiyyətin Çağırışları Komitəsi (Committee on the Challenges of Modern Society - CCMS) tərəfindən maliyyələşdirilən "Beynəlxalq Kontekstdə Ətraf Mühit və Təhlükəsizlik" ('Environment and Security in an International Context') adlı pilot tədqiqat layihəsi 1995-ci ildə başlanılmış və 1999-cu ildə başa çatdırılmışdır. Bu layihə barədə hesabatın ana xəttini məhz təhlükəsizlik konsepsiyasına ekoloji problemlərin daxil edilməsi məsələsi təşkil etmişdir [24]. Belə ki, dünyada nüfuzlu hərbi-siyasi alyans, beynəlxalq təşkilat kimi NATO tərəfindən maliyyələşdirilmiş bu tədqiqat işinə aid hesabat qeyd olunur ki, NATO uzun müddətdir qeyri-ənənəvi xarakterli (o cümlədən ekoloji) təhlükəsizlik məsələlərinə maraq göstərir və bu məsələlərdən biri ekoloji stressdir. Ekologiya tarixini öyrənən hər kəsə məlum olduğu kimi, bir sıra alimlər ekoloji stressin insan tarixində bir çox hadisələrin hərəkətverici qüvvəsi olduğunu düşünürlər. Sənəddə eyni zamanda həm irimiqyaslı, həm də yerli ekoloji problemlərin təhlükəsizlik məsələləri üçün eyni dərəcədə risk təşkil etdiyi vurğulanmışdır. Bu nəticələr böyük ölçüdə NATO-nun Müasir cəmiyyətin problemləri (CCMS) üzrə Komitəsi tərəfindən 1995-ci ildə başlanılmış "Beynəlxalq kontekstdə Ətraf mühit və təhlükəsizlik" adlı layihə çərçivəsində araşdırmada istifadə edilmişdir. Qeyd olunan araşdırma ABŞ və Almaniyada tanınmış mütəxəssislər tərəfindən həyata keçiril-

mişdir [14]. Araşdırma qeyd olunan ekoloji mənşəli siyasi qarşıdurma situasiyalarını vaxtında müəyyən edən və potensial münaqişələrin ilkin xəbərdarlıq sistemini təmin edən bir sıra "sindrom"lar adlanan faktorlar çoxluğunu müəyyən etmişdir. Bu çoxluq bir-birləri ilə üzvi, həm də patoloji cəhətdən əlaqəli olan ekoloji, sosial, demoqrafik və siyasi faktorlardan ibarətdir.

Məsələnin digər önəmli tərəfi ondan ibarətdir ki, ətraf mühit, ekoloji təhlükəsizlik məsələlərinə dair risklərin hansı meyarlar əsasında seçilməsi məsələsidir. Qeyd olunan məsələ bəzən ciddi elmi ritorikaya da səbəb olur [3]. Belə ki, məsələn, elmi ədəbiyyatda "məşhur" "su müharibələri" [15, 16, 17] kimi adlandırılan dövlətlərarası qarşıdurmaların obyekti su resursları olmuşdur. Burada nəzəri ritorikaya səbəb olan məqam ondan ibarətdir ki, su resurslarının ətraf mühit elementi olduğu üçün bu tip risklər ekoloji təhlükəsizlik məsələlərinə aid edilməlidirmi, yoxsa burada söhbət yalnız iki dövlət arasında transsərhəd çaylardakı su resurslarının idarəçiliyinin qeyri-effektiv təşkil edilməsi ilə bağlıdır və heç də bunun ekoloji təhlükəsizlik məsələlərinə aidiyyəti yoxdur. Fikrimizcə, transsərhəd su resurslarının idarəçiliyinin qeyri-effektiv idarəçiliyi və ya ədalətsiz bölgüsü məsələləri ilə bağlı olmasından asılı olmayaraq, dövlətlər arasında potensial münaqişə ocağı yaratması potensialı təhlil edilməli və bunun əsasında qeyd olunan məsələ təhlükəsizlik riski kimi qiymətləndirilməlidir.

Fikrimizcə, bu kimi məsələlərdə siyasi təhlükəsizlik sistemi üçün təhlükə mənbəyi olan məsələnin qlobal ekoloji dəyişmələr, ekoloji deqradasiya, o cümlədən qlobal iqlim dəyişmələri ilə bağlılığı da müəyyən edilməlidir. Məsələn, resurs qismində suyun qıtlığına məhz iqlim dəyişmələri və ya hər hansı digər ekoloji deqradasiya prosesləri səbəb ola bilər və bu mənada onu ekoloji təhlükəsizlik sistemi, həm də yuxarıdakı nümunənin misalında ümumən təhlükəsizlik sistemi üçün də risk hesab etmək olar.

Qeyd olunanlarla əlaqədar, bəhs edilən məsələlər, su qıtlığından əziyyət çəkən qonşu ölkələrin diplomatik münasibətlərində xüsusi əməkdaşlıq formatının qurulmasına təkan verə bilər, habelə beynəlxalq təşkilatlar və digər ölkələr tərəfindən dəstəyin genişlənməsini stimullaşdıra bilər. Məsələn, hazırda transsərhəd su hövzələrinin mühafizəsi və istifadəsi məsələsində çətinliklər Azərbaycan Respublikasının Gürcüstan və Ermənistanla münasibətlərində də mövcuddur və iki qonşu ölkədən respublikamıza daxil olan çayların, yeraltı suların məişət və sənaye tullantıları ilə çirkləndirilməsi, həmin su ehtiyatlarının ildən-ilə azalması məsələləri xüsusən iqlim dəyişmələrinin təsiri ilə daha da kəskin hal almışdır. Eyni zamanda, Azərbaycandan fərqli olaraq, Ermənistan və Gürcüstanın qeyd olunan məsələlərin tənzimlənməsi üçün 1992-ci ildə qəbul edilmiş Helsinki Konvensiyasına [26] indiyədək üzv olmaması ölkələrimiz arasında qeyd olunan problemlərin beynəlxalq hüquqi çərçivədə həllini əngəlləyir və bu da yaxın perspektivdə regional ekoloji və xüsusən siyasi təhlükəsizlik sisteminə ciddi risklər formalaşdırmış olur. Halbuki Azərbaycan Respublikası Transsərhəd Su Axınları və Beynəlxalq Göllərinin Mühafizəsi və İstifadəsi Haqqında Konvensiyanı hələ 2000-ci ildə ratifikasiya etmişdir. Ermənistan və Gürcüstan isə beynəlxalq ictimaiyyətin, ekspertlərin tövsiyələrinə məhəl qoymayaraq, qeyd olunan konvensiyaya qoşulmağa məqsədyönlü surətdə tələsmir və Azərbaycana bu ölkələrdən axan çayların sistematik çirkləndirilməsi və ədalətsiz istifadəsini davam etdirir.

Beləliklə, bu nümunələrin təhlili onu göstərir ki, ekoloji təhlükəsizlik məsələləri getdikcə daha çox regional siyasi təhlükəsizlik problemlərini yeni müstəvidə, bəzən də gözlənilməyən tərzdə aktuallaşdırmış olur və faktiki olaraq, onun tərkib hissəsinə çevrilir.

Belə misalların sayını artırmaq olar, məsələn, transsərhəd hava çirklənməsi (Cenevrə Konvensiyası ilə tənzimlənir, 1979-cu ildə qəbul edilmişdir, Azərbaycan Respublikası

2002-ci ildə ratifikasiya etmişdir), təhlükəli tullantıların transsərhəd hərəkəti və yerləşdirilməsi (Basel Konvensiyası ilə tənzimlənir, 1989-cu ildə qəbul edilmişdir və AR 2001-də ratifikasiya etmişdir) və digər bu qəbildən olan məsələlərdir.

Eyni zamanda, yuxarıda qeyd edildiyi kimi, klassik təhlükəsizlik anlayışından fərqli olaraq, ekoloji təhlükəsizlik konsepsiyasında təhlükə mənbəyi təkcə digər ölkə və ya onların birliyi deyildir, bu bir sıra hallarda ətraf mühitdə baş verən qlobal dəyişmələr, qlobal deqradasiya (məsələn, iqlim dəyişmələri və s.) proseslərdir və bu mənada bu təhlükə zaman və sərhəd tanımır, bəzən bir ölkəni deyil, bir neçə və daha çox ölkələrin ərazisini əhatə edə bilir. Bir qayda olaraq, onunla mübarizə ayrıca götürülmüş dövlətin imkanları xaricindədir. Bir növ beynəlxalq münasibətlər sistemində ekoloji təhlükəsizlik anlayışının "universallığı" meydana gəlir və bu da öz növbəsində ekoloji təhlükələrin təsirlərinin hər bir dövlət, əlaqədar beynəlxalq təşkilatlar tərəfindən nəzərə alınması ehtiyacını formalaşdırmış olur [1, 12].

Ekoloji təhlükəsizlik konsepsiyasının ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən istər beynəlxalq münasibətlər, istərsə də ölkələrin idarəçilik sisteminə inteqrasiyası səviyyəsi genişləndikcə, bu istiqamətdə beynəlxalq və lokal səviyyədə müxtəlif orqanlar, yeni institusional mexanizmlər meydana gəlmişdir.

Belə ki, müxtəlif ölkələr tərəfindən bu istiqamətdə atılmış addımlar sırasında hələ 1993-cü ildə ABŞ-da Müdafiə Nazirinin Ətraf Mühitin Təhlükəsizliyi üzrə müavini vəzifəsinin təsis edilməsini misal göstərmək olar. Bir qayda olaraq, bu postu tutmuş şəxs aktiv surətdə ekoloji təhlükəsizlik məsələləri ilə məşğul olur, hətta ölkənin əsas siyasi təhlükəsizlik xidmətləri (Mərkəzi Kəşfiyyat Agentliyi, Dövlət Departamenti və s.) ilə birlikdə ətraf mühitlə bağlı yarana biləcək hər hansı risklər, təhlükəsizlik məsələləri ilə ciddi surətdə məşğul olurlar. Göstərilən misal ABŞ və digər inkişaf etmiş dövlətlərdə xeyli müddət əvvəldən ümumi, universal təhlükəsizlik sisteminin ekoloji təhlükəsizlik məsələlərini də ehtiva etdiyini sübut edir. Bu prosesi önümüzdəki illərdə digər ölkələrdə baş verməsi gözlənilməndir, belə ki, qlobal təhlükəsizlik sisteminin vacib elementi kimi ekoloji təhlükəsizlik sisteminin effektiv qurulması istər ayrı-ayrı ölkələrin təhlükəsizlik mexanizminin transformasiyası, istərsə də beynəlxalq təşkilat və qurumların yenidən şəkillənməsi hesabına baş verəcəkdir. Qeyd edək ki, bu istiqamətdə cəhd kimi hələ 2007-ci ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasında (TŞ) qlobal ekoloji təhlükə mənbəyi kimi iqlim dəyişikliyinin təhlükəsizlik məsələləri baxımdan nəticələrinin müzakirə olunmasını göstərmək olar. Lakin həmin dövrdə BMT TŞ-da təmsil olunan dövlətlərin təmsilçiləri ümumən ətraf mühitin pisləşməsinin təhlükəsizlik məsələsi kimi nəzərdən keçirilməsini, təəssüf ki, fikir ayrılığı ilə qarşılaşmışdılar [6].

Halbuki, qlobal ekoloji təhlükəsizlik məsələlərinin, o cümlədən iqlim dəyişmələrinin hərbi-siyasi təhlükəsizlik məsələlərinə bilavasitə və nəzərəçarpan təsirinin olması ATƏT və digər nüfuzlu beynəlxalq siyasi təhlükəsizlik institutlarının gündəliyinə xeyli müddət əvvəl daxil edilmişdir və bu istiqamətdə konkret layihələr icra olunmaqdadır. Belə ki, məsələn, iqlim dəyişmələrinin milli və qlobal təhlükəsizlik təhlükəsizlik mənbəyi kimi təsirinin artması ilə bağlı ATƏT tərəfindən «Ətraf mühit və təhlükəsizlik» (ENVSEC) adlı təşəbbüs ([27]) qurumun İqtisadi və Ekoloji Forumunda müzakirələrə çıxarılmış və 2003-cü ilin may ayında Kiyev şəhərində keçirilmiş «Avropa üçün ətraf mühit» mövzulu Nazirlər Konfransında və Praqada keçirilmiş ATƏT-in On Birinci Iqtisadi və Ekoloji Forumunda eyni vaxtda bəyan edilərək onun implementasiyasına başlanılmışdır. ATƏT tərəfindən irəli sürülmüş və maliyyəşdirilməsinə başlanılmış bu layihəyə daha sonra Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı (UNDP) və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) və BMT Avropa üzrə İqtisadi Komissiyası

(UNECE) da qoşulmuşlar. Layihənin əsas məqsədi dörd bölgə – Şərqi Avropa, Cənub-Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələri arasında və bölgədaxili ölkələr arasında ekoloji əməkdaşlığı təşviq etməklə təhlükəsizlik baxımdan ekoloji risklərlə və təhlükəsizlik risklərinə qarşı mübarizə aparılmasında ibarətdir. Belə ki, ölkəmizin və ümumən Cənubi Qafqaz regionunun da əhatə edildiyi «Ətraf mühit və təhlükəsizlik» (ENVSEC) təşəbbüsünü ərsəyə gətirən əsas mülahizə iqlim dəyişmələrinin hazırda regional hərbi-siyasi təhlükəsizlik sisteminə müxtəlif yollarla neqativ təsir etməsindən ibarətdir. Belə ki, iqlim dəyişmələrinin artan təsiri ilə su və digər təbii resurslara çıxış üçün dövlətlər arasında rəqabətin güclənməsi müvafiq mübahisələrin həlli üçün səmərəli mexanizmlər yaradılmadığı təqdirdə, ciddi münaqişə mərhələsinə keçə bilər və ya regionda artıq mövcud münaqişələri daha da gücləndirə bilər. Bundan əlavə, iqlim dəyişmələrinin səbəb olduğu ekstremal hava hadisələrinin və təbii fəlakətlərin intensivliyinin və miqyasının getdikcə artması region ölkələrində siyasi qeyri-sabitliyi daha da artıra bilər və əhalinin yaşayış səviyyəsinə ciddi neqativ təsir edə bilər ki, bu da öz növbəsində əhalini kütləvi surətdə miqrasiyaya məcbur edə bilər və ya onları qeyri-formal iqtisadiyyata keçməyə, qanunsuz gəlir mənbələrinə üstünlük verməyə sövq edə bilər. Eyni zamanda, iqlim dəyişmələri nəticəsində kənd təsərrüfatı və digər sektorlarda məhsuldarlığın azalması region ölkələrində ərzaq istehsalı və təminatı zəncirinin pozulmasına, nəticədə ərzaq qiymətlərinin ciddi surətdə artmasına səbəb ola bilər ki, bu da regionda sosial gərginlik, qeyri-sabitlik, şiddətli etirazlar və iğtişaşlara gətirib çıxara bilər. Bununla yanaşı, region ölkələrində, orta temperaturun getdikcə artması və illik yağıntıların qeyri-bərabərliyi və azalması su elektrik stansiyalarında, mümkün yaşıl hidrogen istehsalı müəssisələrində enerji istehsalının azalmasına, enerji təchizatına tədricən neqativ təsir edə bilər. Həmçinin, ekstremal hava hadisələri nəticəsində enerji istehsalı və ötürmə infrastrukturuna vurula bilən zərər və itkilər enerji tədarükü zənciri və ümumən enerji təhlükəsizliyi sisteminə ciddi təhlükə formalaşdıra bilər. Konkret olaraq, iqlim dəyişmələrinin neqativ təsirlərinin güclənməsi Azərbaycanda yaşıl enerjiyə keçid, dekarbonizasiya və yaşıl enerjinin Avropa İttifaqında ixracı məsələlərində problemlər yarada bilər, qeyd olunan ixracla bağlı müvafiq sazişlərin icrası ilə bağlı problemlər tərəfdaş ölkələrlə və digər dövlətlərlə ikitərəfli və çoxtərəfli anlamda neqativ təsir edə bilər. Bundan əlavə, bütün ölkələrdə orta illik temperaturun davamlı artması və quraqlıq zonalarının genişlənməsi fonunda əhalinin artması və iqtisadi fəaliyyətin tədricən genişlənməsi ölkələrdə suya tələbatın artmasına və su ehtiyatlarının idarə edilməsi üzrə mövcud mexanizmlərə etimadın azalması, habelə transsərhəd su hövzələrindən istifadə ilə bağlı qonşu dövlətlərlə siyasi münasibətlərin gərginləşməsinə səbəb ola bilər.

Qeyd olunan aspektlər üzrə Cənubi Qafqaz ölkələri arasında su, kənd təsərrüfatı və enerji məsələləri üzrə münasibətlər xüsusilə həssas xarakter daşıyır. Bu, ələlxüsus su ehtiyatlarının müxtəlif sektorlar üzrə milli səviyyədə istifadəsi və transsərhəd çayların axımından yuxarıda və aşağıda yerləşən ölkələr arasında su ehtiyatlarının koordinasiyalı istifadəsi məsələləri ilə əlaqədardır. Məhz su məsələsi, geniş anlamda regional təhlükəsizlik məsələsinə risk formalaşdıran məqam kimi hazırda regionun hər üç qonşu ölkəsi arasında su ehtiyatlarının əlaqəli istifadəsi və mühafizəsi haqqında ikitərəfli və üçtərəfli formatlarda beynəlxalq müqavilələrin imzalanması məsələsini aktuallaşdırmışdır. Məsələn, Azərbaycan ilə Gürcüstan arasında Kür çayı üzrə ikitərəfli sazişin hazırlanması istiqamətində fəaliyyət hazırda davam etdirilir. Lakin Ermənistan ilə bu istiqamətdə hər hansı müqavilənin imzalanması yalnız Azərbaycan Respublikasının bu ölkə ilə müvafiq sülh sazişinin imzalanmasından sonra mümkündür ki, bu da bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

tərəfindən Münhen Təhlükəsizlik Konfransında qeyd olunan sülh sazişinin imzalanmasının vacibliyi barədə bildirilən fikirlərin əhəmiyyətini artırmış olur. Belə ki, Prezident İlham Əliyev həmin konfransda bu xüsusda açıq mesaj verərək bildirmişdir: "Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər..." [29].

Bundan əlavə, Cənubi Qafqaz regionunda iqlim dəyişmələrinin getdikcə ağırlaşacaq fəsadları kimi intensivləşən torpaq sürüşmələri, daşqınları və digər hallar ayrı-ayrı ölkələrin və ümumən bölgənin infrastrukturuna, əhalinin sosial-iqtisadi vəziyyətinə, mövcud geniş dağ ekosistemlərinin və sahilboyu zonalarının dayanıqlı inkişafına neqativ təsirlər göstərəcəkdir. Beləliklə, ekoloji təhlükəsizlik məsələlərinin beynəlxalq münasibətlər sisteminin önəmli institutu olan beynəlxalq əməkdaşlıq üzrə yeni effektiv institusional mexanizmlərin formalaşmasını da zəruri edir.

Qeyd edək ki, hazırda ekoloji məsələlər üzrə effektiv beynəlxalq əməkdaşlığın qurulması üzrə uğursuzluqların, bu sahədə olan ləngimə və maneələrin əksəriyyəti dövlətlərin bir çox hallarda qlobal xarakter kəsb edən ekoloji təhlükəsizlik məsələlərinə deyil, təəssüf ki, guya "öz milli maraqlarına" cavab verən məsələlərə üstünlük verməsi ilə bağlıdır. Buna misal olaraq, qlobal iqlim dəyişmələri ilə mübarizə sahəsində hazırda müxtəlif ölkələrin beynəlxalq əməkdaşlığa, Paris Sazişi, Kioto Protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinə tam gücü və potensialı ilə səy göstərməməsi, öz "milli maraqlarına", geosiyasi prioritetlərinə üstünlük verməsini (məsələn, Çin, Rusiya və s.) misal göstərmək olar. Lakin nəzərə almaq lazımdır ki, məhz qlobal istiləşmə ilə əlaqədar, hər il müxtəlif bölgələrdə, o cümlədən "milli maraqlarına" üstünlük verən ölkələrdə milyardlarla dollar itki və ziyan baş verir. Belə ki, Ümumdünya Meteoroloji Təşkilatının 2022-ci ildə qlobal iqlimin vəziyyəti ilə bağlı müvəqqəti məruzəsinə əsasən, ekstremal istilik dalğaları, quraqlıq və dağıdıcı daşqınlar milyonlarla insana təsir etmiş və milyardlarla ABŞ dollarına başa gəlmişdir. Məsələ ilə bağlı, «Nature Climate Change» jurnalında 2021-ci ildə aparılmış araşdımaya əsasən, hazırda dünya əhalisinin təxminən 85%-i insan fəaliyyətindən irəli gələn iqlim dəyişikliyindən faktiki əziyyət çəkməkdədir. Bundan əlavə, fırtınaların kəskinləşməsindən artan meşə yanğınlarına qədər təhlükəli hava şəraiti insan sağlamlığına ciddi təhlükə yaradır. Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin Milli Ekoloji Informasiya Mərkəzinin məlumatına görə, yalnız 2021-ci ildə ABŞ-da 18 iqlim fəlakəti baş vermişdir [28].

Beləliklə, dövlətlərin öz "milli maraqları" ilə əsaslandırdıqları bu eqoistik, nihilistik münasibət qlobal ekoloji təhlükəsizlik sisteminin effektiv qurulması prosesini ləngidir və kollektiv səyləri qeyri-effektiv edir. Təəssüflər olsun ki, dövlətlərin əksəriyyəti bəzən geosiyasi proseslər, regional qarşıdurmalar, beynəlxalq münaqişələr, daxili siyasi konyunktura və digər məqamların təsiri ilə qlobal ekoloji təhlükəsizlik sisteminə töhfə vermək əvəzinə, öz siyasi ambisiyalarının girovuna çevrilirlər. Son nəticədə bu dövlətlər ayrı-ayrılıqda ekoloji problemlərlə mübarizə aparmağa nəinki aciz olurlar, üstəlik bəhs edilən qlobal ekoloji təhlükə və risklər fonunda yeni regional və siyasi qarşıdurma mənbələrinin yaranmasına və ya daha da dərinləşməsinə səbəb olurlar. Məsələn, hazırda qlobal iqlim dəyişmələrinə qarşı beynəlxalq əməkdaşlıq formatında ciddi addımlar atılmasa yaxın perspektivsə hər bir ölkədə qida təhlükəsizliyi, sağlamlıq sistemi, insan haqlarının təmini və ümumilikdə dayanıqlı inkişaf məqsədlərinin impementasiyası məsələlərinə ciddi maneələr törədəcək və yuxarıda qeyd edildiyi kimi, ayrı-ayrı qlobal və regional münaqişə ocaqlarını alovlanması

ehtimalını artıracaqdır. Bu da geosiyasi qarşıdurmalar, münaqişələrlə birlikdə qlobal miqyasda siyasi təhlühəsizlik sisteminə ciddi risk formalaşdıracaqdır.

Bununla əlaqədar, qlobal iqlim dəyişmələrinin ekoloji təhlükəsizlik kontekstində yaratdığı risklər, beynəlxalq münasibətlər formatında bu qlobal fenomenlə mübarizə istiqamətində digər ölkələrlə yanaşı Azərbaycan Respublikasında da ötən dövrdə həyata keçirilmiş ekoloji diplomatiya fəaliyyəti, ekoloji siyasət böyük əhəmiyyət daşıyır. Qeyd olunan məsələlər, habelə iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə dekarbonizasiya və iqlim dayanıqlığının təmin edilməsi üzrə tədbirlər müəllifin müvafiq monoqrafiyasında geniş tədqiq edilmişdir [20]. Bundan əlavə, müəllifin digər əsərlərində [21, 22] qlobal energetik və ekoloji təhlükəsizlik məsələlərinin təmin edilməsi üzrə beynəlxalq əməkdaşlıq institutlarının, beynəlxalq təşkilatların fəaliyyəti geosiyasi kontekstdə araşdırılmış, bu əməkdaşlıq formatlarının rolu və siyasi əhəmiyyəti tədqiq edilmiş, ekoloji təhlükəsizlik məsələlərinin təmini ilə bağlı yaranmış müasir çağırışlar, bu çağırışların həlli üzrə effektiv beynəlxalq təcrübə və mexanizmlər araşdırılmışdır.

Qeyd olunan qlobal çağırışlar fonunda, hazırda ənənəvi hərbi-siyasi təhlükəsizlik məsələləri ilə yanaşı, ekoloji təhlükəsizlik məsələləri, müvafiq institutlar, bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişlənməsi, yəni ümumən ekoloji diplomatiyanın əhəmiyyətinin getdikcə artması müşahidə olunmaqdadır. Bununla bağlı, istər qlobal, istərsə də regional siyasi aktyorların ekoloji təhlükəsizlik məsələlərinə və müvafiq risk və təhlükələrə xüsusi önəm verməsinə və doktrinal anlamda bu risklərin gələcək inkişaf dinamikasının modelləşdirilməsinə, o cümlədən ekoloji və siyasi təhlükəsizlik məsələlərinin hazırki və gələcəkdəki korrelyasiyanın ciddi təhlilinə ehtiyac vardır. Belə ki, hazırki məqalədə də bəhs edildiyi kimi, ekoloji təhlükəsizlik məsələlərinin gələcəkdə geosiyasi problemlərdə müəyyənedici və ya ən azından mərkəzi yer oynayacağının, klassik təhlükəsizlik formatını dəyişdiyi kimi beynəlxalq münasibətlər sistemini də xeyli transformasiyaya uğramasının konturları artıq indidən görünməkdədir.

**Ədəbiyyat:**


1. Dyer HC. 2001. Environmental security and international relations: the case for enclosure. Review of International Studies. 27(3), pp. 441-450.
2. Buzan, Barry (1991) P eople, states, and fear: an agenda for international security studies in the post-Cold War era (New York: Harvester Wheatsheaf), p.19-20.
3. Waever, Ole (1995) 'Securitization and desecuritization' in Ronnie Lipschutz (ed) On security (New York: Columbia University Press), p. 46–86.
4. F. Dell'Anna, Energy Policy, 149, 112031 (2021)
5. R. Kumar, Strategic Analysis, 44(5), 479-489 (2020)
6. Maria Julia Trombetta (2008) Environmental security and climate change: analysing the discourse, Cambridge Review of International Affairs, 21:4, 585-602, DOI: 10.1080/09557570802452920
7. Lacy, Mark (2005) Security and climate change: international relations and the limits of realism (London: Routledge)
8. Deudney D., 'Environmental Security: Muddled Thinking', Bulletin of The Atomic Scientists, 47: 3 (April 1991), pp. 22–8.
9. Buzan, Barry (1991) People, states, and fear: an agenda for international security studies in the post-Cold War era (New York: Harvester Wheatsheaf), p.19-20.
10. D. Pirages, 'Environmental Security and Social Evolution', International Studies Notes, 16:1 (1991), p. 8.
11. R.B.J. Walker, 'Security, Sovereignty and the Challenge of World Politics', Alternatives, 15:1 (1990), p. 8
12. H. Dyer, 'Environmental Security as a Universal Value: Implications for International Theory', in J. Vogler and M. Imber (eds.), The Environment and International Relations (London: Routledge, 1996)
13. H. Dyer, 'International Theory and Environmental Security: Values, Interests and Agency', Environment and Security, 1:3 (1998), pp. 133–53.
14. Lietzmann and Vest 1999.
15. Bulloch and A. Darwish, Water Wars: Coming Conflict in the Middle East (London: Victor Gollancz, 1993);
16. P. Gleick, 'Water and Conflict: Fresh Water Resources and International Security', International Security, 18:1 (1993);
17. M. Lowi, 'Transboundary Resource Disputes and Their Resolution', in D. Deudney and R. Matthew (eds.), Contested Ground: Security and Conflict in the New Environmental Politics (New York, NY: SUNY Press, 1998).
18. F.Humbatov. Environmental and regional security issues in the South Caucasus // "İnsan və biosfer" (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri. – Bakı: Təhsil. – 2021. – 352 s., – s.197-214.
19. F.Humbatov, Environmental crimes of Armenia against the Republic of Azerbaijan, South Caucasia in the context of social, economic and political progress in the post-cold war era, Turkey, Iksad Publications- 2021, , p.354, chapter VII, pp. 231-264.
20. F.Humbatov, Low emission development outlook and its role in the environmental security system of the Republic of Azerbaijan". – Baku, "Tuna" PPC LLC. – 256p.
21. F.Hümbətov, Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sistemınə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – 2021. – №3(75). – s.159-176
22. F.Hümbətov, Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası. Baki, 2018, 356 s
23. Кукушкина А.В. Международно-правовые аспекты экологической

безопасности // Московский журнал международного права. 1993. № 2. с. 59.
24. https://apps.ipcc.ch/comments/ar6syr/fgd/chapters.php
25. the NATO/CCMS web site at http://www.nato.int/ccms/pilot.htm
26. https://treaties.un.org/doc/treaties/1992/03/19920317%2005-46%20am/ch_xxvii_05p.pdf
27. https://www.osce.org/oceea/446245
28. http://www.publichealthnewswire.org/?p=climate-update-2021
29. https://president.az/az/articles/view/ 58996

***Açar sözlər:*** *təhlükəsizlik, ekoloji təhlükəsizlik, beynəlxalq münasibətlər, dayanıqlı inkişaf, iqlim dəyişmələri*

**Fuad Humbatov**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Planning and Administration of Sustainable Development*
*Ph.D., Associate Professor*
*Postdoctoral researcher of the political science program in Baku State University*

## ENVIRONMENTAL SECURITY AND MODERN CHALLENGES IN THE CONTEXT OF INTERNATIONAL RELATIONS

### ABSTRACT

The paper studies such important issues as the formation of environmental security institutions and mechanisms influencing political processes in the context of international relations, the role of international cooperation in ensuring global environmental security, actual challenges in this area, as well as the correlation of political security and environmental security risks.

***Keywords:*** *security, environmental security, international relations, sustainable development, climate change*

**Фуад Гумбатов**
*Доцент кафедры “Планирование и управление устойчивым развитием” Академии Государственного Управления при Президенте Азербайджанской Республики, докторант программы доктора политических наук Бакинского Государственного Университета*

## ЭКОЛОГИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ И СОВРЕМЕННЫЕ ВЫЗОВЫ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

### РЕЗЮМЕ

В статье исследованы такие важные вопросы, как формирование институтов экологической безопасности и механизмы влияния на политические процессы в контексте международных отношений, роль международного сотрудничества в обеспечении глобальной экологической безопасности, современные вызовы в этой области, а также корреляция рисков политической безопасности и экологической безопасности.

***Ключевые слова:*** *безопасность, экологическая безопасность, международные отношения, устойчивое развитие, изменения климата*

D A V A M L I  İ N K İ Ş A F I N  İ D A R Ə  E D İ L M Ə S İ
S U S T A I N A B L E  D E V E L O P M E N T  M A N A G E M E N T

UOT 328; 342.5; 351/354; 351

**CƏMİLƏ HÜSEYNOVA**
**Heydər Əliyev Fondunun əməkdaşı**

# HEYDƏR ƏLİYEV FONDU DAVAMLI İNKİŞAF NAMİNƏ DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ ÖRNƏYİ KİMİ

Davamlı inkişaf cəmiyyətin idarəedilməsi sahəsində tətbiq edilən ən müasir konsepsiyadır, hazırkı və gələcək nəsillərin maraqlarını nəzərdə tutur. Bu inkişaf yolunun qlobal perspektiv olması BMT-nin 2015-ci ildə Nyu-Yorkda keçirilmiş 70-ci Yubiley Sessiyasında müəyyən edilmişdi. Davamlı inkişaf nə deməkdir və necə hesablanması barəsində biliklər verilir. Qeyd edilir ki, bu sahədə uğurlu fəaliyyət bir tərəfdən dövlət-özəl əməkdaşlığı nəzərdə tutur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 dekabr 2022-ci ildə "Dövlət-özəl tərəfdaşlıq haqqında Azərbaycan Respublikasının Qanunu" adlı sənədi imzaladı. Qanun davamlı inkişafın vacib amili olan dövlət idarəçiliyində dövlət təşkilatları ilə özəl qurumlar arasında tərəfdaşlığın təşkilatı, hüquqi və iqtisadi tənzimləmənin mexanizmlərini nəzərdə tutur. Digər tərəfdən nəzərə alınmalıdır ki, dövlət-özəl əməkdaşlığı ölkə Prezidenti İlham Əliyev tərəfindən dövlət idarəçiliyində ilk dəfə tətbiq edilən sinergetik texnologiyaların bir elementidir. Vətəndaşın cəmiyyətin dövlət idarəçiliyində iştirakı və tərəfdaşlığı sinergetik texnologiyaların digər vacib elementidir. Azərbaycan Respublikasında 2017-ci ildə ölkənin Birinci Vitse-Prezidenti institutunun formalaşdırılması, bu vəzifədə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti tədqiq olunan mövzunun davamlı inkişaf məqsədlərinə nail olmaq üçün nə dərəcədə əhəmiyyətli olmasını nümayiş edir.

BMT və Dünya Sammiti tərəfindən 2030-ci il üçün hədəflənmiş 17 məqsədə nail olmaq üçün bu prosesi dövlət-özəl əməkdaşlıq ilə yanaşı vətəndaş cəmiyyətin iştirakı olduqca vacibdir. Bu istiqamətdə müxtəlif sahələrdə inkişaf prosesinə uğurla xidmət edən Heydər Əliyev Fondu davamlı inkişaf prosesinə də uğurla xidmət edir. Azərbaycan dünya inteqrasiya proseslərinə daxil olaraq ölkəmizin dövlət siyasətində milli prioritetləri ilə üstünlük təşkil edir. Bununla əlaqədar olaraq, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-cı il 02 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq edilmişdir. Sənəd yaxın və orta perspektivdə ölkəmizin qarşısındakı əsas hədəf və vəzifələrin açıq müzakirə və dinləmələr əsasında müəyyənləşdiril-məsinə, bu zaman cəmiyyətin sosial gözlənti və istəklərinin nəzərə alınmasına imkan verir. Milli prioritetlər əsasında hökumət qarşısında 5 mühüm istiqamətdə islahat, layihə və tədbirlərin reallaşdırılması vəzifəsi qoyulub. Bu baxımdan, bütün istiqamətlər üzrə Heydər Əliyev Fondu geniş miqyasda fəaliyyət aparır.

Azərbaycan xalqının milli mədəniyyətinin, milli-mənəvi dəyərlər sisteminin qorunmasında, habelə cəmiyyətdə saflıq, nəciblik, xeyirxahlıq kimi dəyərlərin təbliğində Heydər Əliyev Fondu müstəsna xidmətlərə malikdir. Məlum olduğu kimi, Heydər Əliyev Fondunun 2004-cü il mayın 10-da müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin doğum günündə açılış mərasimi olmuşdur. Fondun məqsədi Ümum-

milli liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsinə, ölkəmizin tərəqqisi və Azərbaycan xalqının rifahı naminə geniş-miqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, milli-mənəvi dəyərlərin qorunması, Azərbaycançılıq məfkurəsinin və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım etməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu yarandığı gündən Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bir sıra irimiqyaslı layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində mühüm addımlar atmışdır. Fondun həyata keçirdiyi «Uşaq evləri və internat məktəblərinin inkişaf Proqrammı» bilavasitə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanmışdır. Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evləri və internat məktəblərində mövcud olan problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün əməli işlər görülmüşdür. Fond tərəfindən səhiyyə sahəsində həyata keçirilən layihələr içərisində talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanması və həyata keçirilməsi önəmli əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondu az bir müddət ərzində fəaliyyətini genişləndirərək beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinin təşəbbüskarlarından birinə çevrilmişdir. Belə ki, 2004-cü il iyulun 6-da fondun təşəbbüsü ilə Parisdə YUNESKO-nun iqamətgahında «Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları» mövzusunda beynəlxalq konfrans keçirilmişdir [2].

Heydər Əliyev Fondu keçirtdiyi çoxşahəli milli və beynəlxalq layihələri çərçivəsində Azərbaycan Respublikasının davamlı inkişafına çox böyük töhfə vermişdir. Bu baxımdan Heydər Əliyev Fondunun ölkəmizin davamlı inkişafına olan mühüm təsiri mövzunu müasir ölkəmizin elmi üçün daha da aktuallaşdırır.

Ümumiyyətlə, fond tərəfindən icra olunan irimiqyaslı layihələr «Yeniləşən Azərbaycana yeni məktəb», «Uşaq evləri və internat məktəblərinin inkişafı», «Təhsilə dəstək», «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız həyat naminə», «Xocalıya ədalət», «Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması», «Tolerantlığın ünvanı Azərbaycan» və s. Bütün bu layihələrin nəticəsini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın davamlı inkişaf strategiyasının tərkib hissəsinə çevrilib» [3].

Bu gün Azərbaycan sürətlə inkişaf edir və respublikamız nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir. Ölkənin siyasi, iqtisadi, sosial və təhlükəsizlik sahələrində uğurlarının kökündə Prezident İlham Əliyev tərəfindən işlənmiş, elmin ən müasir nailiyyətlərinə əsaslanan yeni idarəetmə texnologiyaları dayanır. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, davamlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndirilməlidir. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ idarəetmə əsasında inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir. İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri

çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır. Bu istiqamətdə inklüziv inkişaf problemləri üzrə mövcud elmi-tədqiqat işlərinin analizi aparılmışdır. Cəmiyyətin inklüziv inkişafını xarakterizə edən çoxsəviyyəli indikatorlar sistemi təklif olunmuşdur. Biliklərə əsaslanan iqtisadiyyat cəmiyyət üzvlərinin hər birinin fəaliyyətindən asılıdır. Bilikli, təhsilli və bacarıqlı vətəndaşlar ölkənin inkişafına, rifah və əmin-amanlığına daha çox fayda verə bilərlər. Cəmiyyətdə inkişafın inklüzivlik səviyyəsinin yüksəldilməsində ən müasir innovativ texnologiyalardan maksimum yararlanmaq mühüm məsələ hesab olunmalıdır. Bu prosesin idarə olunması üçün onun xüsusiyyətlərinin təhlili, formalaşma səviyyəsinin ölçülməsi və müqayisəli qiymətləndirilməsi problemlərinin tədqiqi və metodoloji əsaslarının işlənilməsi çox aktualdır və xüsusi əhəmiyyətə malikdir. Bu imkanlar ölkəmizin 2030-cu ilə qədər olan milli prioritetlərdə öz əksini tapmışdır və bu istiqamətdə islahatlar davam etdirilir. İnklüziv cəmiyyətdə ölkənin bütün əhalisi əmək fəaliyyəti ilə məşğul olmaq, firavan yaşaması üçün zəruri vəsaiti qazanmaq imkanına malik olmalıdırlar. Cəmiyyətdə inklüzivlik səviyyəsinin artması bir çox vacib sahələrdə bilavasitə inklüzivliyə diqqət yetirilməsinin nəticəsində baş verir. Hesab etmək olar ki, cəmiyyətin inklüziv inkişafını ictimai-siyasi və ictimai-iqtisadi sistemin və yeni dövrün innovativ texnologiyalarından bəhrələnməklə təmin etmək olar. Cəmiyyətdə iqtisadi inkişafla yanaşı, sosial məsuliyyət məsələləri, vətəndaşların əməyə və iş yerlərinə münasibətləri, gəlirlərin ədalətli bölgüsü, resurslardan qənaətlə istifadə texnologiyaları kimi məsələlər də araşdırılmalıdır. Sosial yönümlü effektiv idarəetməyə üstünlük verilməlidir. Cəmiyyətdə sosial razılıq mühiti formalaşmalıdır. İnklüziv cəmiyyətdə inklüziv iqtisadiyyat olmalıdır. Cəmiyyət və iqtisadiyyat sosial yönümlü yanaşmalar və texnologiyalar əsasında idarə olunmalıdır. Hər bir kəsin işləməsi, normal əmək haqqı alması üçün ilk növbədə onun fərdi əmək qabiliyyətinin reallaşdırılması istiqamətində müvafiq əmək alətləri, iş şəraiti, istehsal və xidmət sahələri yaradılmalıdır. Hər bir kəsin fiziki vəziyyətindən asılı olmayaraq dəyər yaratmaq imkanı tanınmalı və reallaşdırılmalıdır.

Sadalanan çoxşahəli tədbirlər sayəsində iqtisadiyyat da məhz həmin qrup insanların yaratdıqları dəyərlər hesabına daha da inkişaf edəcəkdir. BMT-nin "inklüziv inkişaf"la əlaqədar tövsiyələrinə müvafiq surətdə inklüziv iqtisadiyyat və inklüziv iqtisadi artım məsələləri Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi bir çox beynəlxalq iqtisadi təşkilatların əsas sənədlərində əks olunmuşdur. Bu problemlər onların əsas işçi orqanlarında dəfələrlə müzakirə edilmişdir [4]. Hazırda milli regional və beynəlxalq səviyyələrdə müvafiq sahələr üzrə qərarlar inklüziv inkişaf indikatorları nəzərə alınmaqla qəbul olunur:

- BMT səviyyəsində (iqtisadi və ekoloji hesabatların uyğunluğu sistemi, insan potensialının inkişaf indeksi);
- İqtisadi Əməkdaşlıq Təşkilatı səviyyəsində (firavan həyat indeksi);
- Dünya İqtisadi Forumu (DİF) səviyyəsində (qlobal rəqabətlilik indeksi, inklüziv inkişaf indeksi).

Bir çox ölkələrin milli strategiyaları davamlı inkişaf üzrə razılaşdırılmış indikatorlara əsaslanaraq işlənilir. Hamı üçün yaşıl iqtisadiyyatın yaradılması inklüziv iqtisadiyyat üçün əsaslı prinsip hesab edilir. Ümumi Daxili Məhsula alternativ kimi işlənilmiş İnklüziv İnkişaf İndeksi müasir dövrün siyasəti üçün ölkələrin iqtisadi inkişafını daha dəqiq ifadə edir [5].

Beynəlxalq metodologiyaya görə, ölkə iqtisadiyyatları iki hissəyə ayrılır: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr. DİF-in ilk dəfə olaraq 2018-ci ildəki hesabatında nüfuzlu indeks sayılan "İnklüziv İnkişaf İndeksi"-nə görə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerdədir-4,69 təşkil edir. Bu dünya ölkələrin arasında 25-ci yerdir və böyük nəticə təşkil edir. İnklüziv indeks üzrə Azərbaycanın ilk üçlükdə qiymətləndirilməsi

ölkədə əhalinin sosial vəziyyətinin digər ölkələrə nəzərən yaxşı olmasını və son illərdə həyata keçirilən sosial-iqtisadi islahatların uğurunu təsdiq edir [6].

Onu da qeyd etmək lazımdır ki, inklüziv artım indeksi yoxsulluq, təhsil, səhiyyə, gender bərabərliyi və s. kimi müvafiq göstəricilər üzrə hazırlanır. Dünya İqtisadi Forumu sərvət və gəlir paylanması, yoxsulluğun səviyyəsi üzrə araşdırmalar aparır. Yuxarıda qeyd edildiyi kimi, inklüziv artım indeksi gəlir, yoxsulluq, səhiyyə və davamlılıq kimi müvafiq göstəricilər üzrə hazırlanır. Son illərdə Azərbaycanda da qeyd olunan məsələlərlə, əsasən də yoxsulluğun minimuma endirilməsi ilə əlaqədar ciddi islahatlar həyata keçirilib və müsbət göstəricilər ilə nəticələnib (şəkil 1).

Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 20 dekabr tarixli "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" sərəncamına etdiyi dəyişikliklər əsasında ölkəmizdə əhalinin gəlirlərinin artırılması və sosial müdafiəsinin təmin olunması istiqamətində tədbirlərin cari ildə də həyata keçirildiyinin əyani təzahürüdür. Qeyd etmək lazımdır ki, əvvəlki illər ərzində dövlət başçısının imzaladığı sərəncamlar və fərmanlar, təsdiq etdiyi dövlət proqramlarının nəticəsi olaraq Azərbaycanın davamlı və hər tərəfli sosial-iqtisadi inkişafı təmin olunub [7].

İnklüziv artım indeksində digər əsas göstəricilərdən biri də təhsilin inkişaf göstəriciləridir. Qloballaşan dünyada insan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri xüsusi əhəmiyyət daşıyır. BMT ekspertlərinin insan inkişafı üzrə apardıqları araşdırmaların nəticəsinə görə, Azərbaycanda əhalinin savadlılıq indeksi 99 faiz təşkil edir.




**Şəkil 1.** Azərbaycan Respublikasında İnklüziv İnkişaf İndeksinin artımını təmin edən amillər.

İnklüziv inkişafın planlaşdırılmasına ictimaiyyətin cəlb edilməsi bir neçə yolla həyata keçirilə bilər. İctimaiyyətlə görüşlər, ictimai dinləmələr, şəxsi görüşlər birinci mərhələnin optimal idarə edilməsi üçün olduqca əhəmiyyətlidir. Bu proseslərə qeyri-hökumət təşkilatlarının, müstəqil ekspertlərin, mətbuat nümayəndələrinin cəlb edilməsi faydalı olur. Ümumiyyətlə, inklüziv inkişaf edən cəmiyyətin formalaşması sahəsində maraqlı olan hər bir şəxsin və ya təşkilatın fikirlərinin öyrənilməsi, zəruri halda deyilənlərin nəzərə alınması müasir idarəetmənin vacib bir üsuludur. İnklüziv inkişaf edən cəmiyyətin formalaşmasının ikinci mərhələsi planlaşdırmadır. Bu mərhələdə ən vacib və məsuliyyətli məqam icraçının seçilməsidir. Bu zaman nəzərə alınmalıdır ki, icraçı bu mərhələni planlaşdırılmış zaman kəsiyində və yüksək keyfiyyətlə yerinə yetirmək potensialına malik olmalıdır. İcraçı, bir qayda olaraq, müstəqil müsabiqə tender nəticəsində müəyyən edilir. Tender də, bir qayda olaraq, bir neçə təşkilatın iştirakı vacib şərtdir. Bu mərhələdə əsas məqsəd texnoloji geriləmə ilə inkişaf fenomeninin qarşısının alınmasıdır. Göstərilən riskin qarşısının alınması inklüziv inkişafın davamlı olması üçün çox önəmlidir. Çox zaman inklüziv inkişafın təmin edilməsi üçün cəmiyyətin tələblərinə cavab verən müvafiq müəssisələrin, yaxud istehsalatın yaradılması zəruri olur. Bu mərhələni həyata keçirən təşkilat tender, yaxud müsabiqə nəticəsində seçilir. İnklüziv inkişafın davamlılığı, bu vəziyyətin gələcək nəsillər üçün təmin edilməsi ən vacib problemlərdəndir. Bu məqsədə çatmağın ən optimal yolu inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində bilik və bacarıqların daim yeniləşdirilməsidir. Bu baxımdan inklüziv inkişaf sahəsində bilik və bacarıqların daim artırılması olduqca əhəmiyyətlidir. Bu, eyni zamanda inklüziv inkişafa yönəldilmiş ehtiyatların optimal idarə edilməsinə xidmət edir. İnklüziv inkişafın səmərəli idarə edilməsi sahəsində Azərbaycan Respublikasının təcrübəsi buna əyani sübutdur. Ölkəmizdə istifadə olunan innovativ texnologiyalar haqqında bilgilər növbəti bölmələrdə təqdim olunur. İnklüziv cəmiyyətin qurulması və onun davamlılığının gələcəkdə də təmin edilməsi dövlətin bu sahədə həyata keçirdiyi inkişaf strategiyasından asılıdır. Dövlətin inkişaf strategiyası ilə yanaşı, uğur qazanmaq baxımından – inklüziv inkişaf məqsədlərinə nail olmaq istiqamətində bu sahədə həyata keçirilən texnoloji siyasət də böyük əhəmiyyət daşıyır. Texnoloji siyasətin həyata keçirilməsi zamanı istifadə olunan idarəetmə texnologiyalarının əhəmiyyəti çox böyükdür. Düzgün seçilmiş idarəetmə texnologiyaları, planlaşdırılmış fəaliyyətin optimal maddi təminatı, in san potensialının səfərbər edilməsi inklüziv inkişaf sahəsində qoyulan məqsədlərə uğurla nail olunmasına zəmanət verir. Eyni zamanda innovativ texnologiyaların istifadəsi insan potensialının formalaşması üçün çox önəmli vasitədir. Ümumiyyətlə, səmərəli idarəetmə şəraitində qəbul edilən qərarlar ən aşağı sərfiyyat nəticəsində keyfiyyətcə ən yüksək nəticəni əldə etməyə şərait yaradır. Son illər davamlı inkişafın idarə edilməsində yeni innovativ texnologiyaların tətbiqi xüsusi yer tutur. Davamlı inklüziv inkişaf prosesində belə texnologiyalardan kompleks şəkildə istifadənin nəzəri əsasları və tətbiqi yolları ilk dəfə Azərbaycan Respublikasında işlənilib. Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə iqtisadi və sosial sahəyə aid milli və beynəlxalq proqramlar həyata keçirilərkən ilk dəfə sinergetik, komplementar və kompensasion texnologiyalar kompleksindən istifadə edilmişdir. İdarəetmədə yüksək səmərə verən belə innovativ texnologiyaların istifadəsi nəticəsində Dünya Bankı, BMT, digər beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan Respublikası bir sıra iqtisadi, sosial və ekoloji göstəricilərinə görə dünya liderləri sırasındadır. İdarəetmədə sinergetik texnologiyaların tətbiqi zamanı layihənin bir neçə iştirakçısı öz səylərini ümumi məqsədlər naminə və vahid plan çərçivəsində birləşdirir. Nəticədə layihənin səmərəliliyi artır, keyfiyyəti yüksəlir, xərcləri isə azalır. İdarəetmədə sinergetik texnologiyaların tətbiqi zamanı layihə iştirakçılarının bilik və bacarıqları daha səmərəli istifadə

edilir. Eyni zamanda sinergetik texnologiyalar əsasında idarə edilən layihələr bu işə cəlb olunan personalın bilik və bacarıqlarının artırılması üçün şərait yaradır. Sinergetik texnologiyalar layihənin icrasına ayrılmış vaxt və vəsaitlərin qənaəti baxımından sərfəlidir. Həyata keçirilən fəaliyyətin xüsusiyyətlərindən asılı olaraq, sinergetik effektin alınması üçün müxtəlif sayda və tərkibdə iştirakçı cəlb edilə bilər. İnklüziv inkişafla əlaqədar layihələrin icrasına, bir qayda olaraq, ilk növbədə, həm dövlət təşkilatları, həm də cari biznes cəlb edilir. Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətinin nümayəndələri də ciddi iqtisadi və sosial problemlərin həllinə cəlb edilirlər.

Sinergetik texnologiyaların istifadəsi ilə həyata keçirilən və inklüziv inkişafa yönəldilmiş iqtisadi və sosial layihələrin iştirakçıları haqqında məlumatlar təqdim olunmuşdur. Sinergetik texnologiyaların idarəetmədə tətbiqinin bir nəticəsi də odur ki, dövlət proqramları milli proqramlara çevrilirlər, eyni zamanda onların həyata keçirilməsi prosesində vətəndaş cəmiyyəti və fərdi biznes iştirak edir. Şəkildən göründüyü kimi, inklüziv inkişaf sahə sində sinergetik texnologiyalarla həyata keçirilən layihələrin əsas iştirakçısı dövlət təşkilatlarıdır. Dövlətin əsas funksiyası, ilk növbədə, inkişaf prosesi üçün əlverişli iqtisadi və hüquqi mühitin yaradılmasıdır. Azərbaycan Respublikasında sinergetik texnologiyaların istifadəsi ilə həyata keçirilən layihələrdə dövlət təşkilatlarının digər funksiyası inkişafın innovativliyini təmin etmək, bu məqsədlə elmin, təhsilin və mədəniyyətin inkişafına zəmin yaratmaqdır. Bu, eyni zaman da beynəlxalq əməkdaşlığa da aiddir. Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətinin nümayəndələri sinergetik texnologiyalarla həyata keçirilən layihələrin önəmli iştirakçılarıdır. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti cəmiyyəti məlumatlandırmaq, inklüziv inkişafla əlaqədar dəyişikliklərə hazırlamaq, ictimaiyyəti bu prosesin fəal iştirakçısına çevirməkdir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti dövlət strukturlarının və vətəndaş cəmiyyətinin ümumi məqsədlər naminə səmərəli fəaliyyətinin parlaq nümunəsidir. Davamlı inklüziv inkişafın idarə edilməsi bu prosesdə fərdi sektorun geniş iştirakını nəzərdə tutur. Onların funksiyaları iki əsas istiqaməti əhatə edir. İnklüziv inkişaf üçün böyük önəm daşıyan sosial məsuliyyətli biznesin inkişafı birinci istiqamətdir. İnnovativ texnologiyaların tətbiqi nəticəsində yaşıl iqtisadiyyatın inkişafı isə fərdi sektorun digər vacib funksiyasıdır.

İşğaldan azad edilmiş torpaqlarımızda bu kontekstdə aparılan yenidənqurma, bərpa və quruculuq işlərində də Heydər Əliyev Fondu yaxından iştirak edir. Xüsusilə, milli dəyərlərimizin, o cümlədən, dini abidələrin bərpasına öz töhfələrini verir. Məlum olduğu kimi, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Mehriban xanımın göstərişi ilə icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olundular. Hazırda bərpa prosesində Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər iştirak edirlər.

Layihənin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir.

Heydər Əliyev Fondu Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Bölgədə sürətlə aparılan quruculuq işlərinə töhfə vermək məqsədilə yeni dini və mədəniyyət obyektlərinin inşası da nəzərdə tutulur. Həmin layihə əsasında fond artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb.

Bu ilin avqust ayında Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşıb və istifadəyə verilib. Kompleksdə işlərə Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin mart ayından başlanıb və abidə tarixi görkəminə uyğun olaraq bərpa edilib. Ötən müddətdə, həmçinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir

Hacıbəylinin heykəli fondun dəstəyi ilə Şuşa şəhərində yenidən ucaldılıb.

Ümumiyyətlə, Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidən qurulması xüsusi həssaslıqla aparılır [7].

Heydər Əliyev Fondu apardığı bütün bərpa işlərində inklüziv yanaşmadan istifadə edir, bu işlərə xarici mütəxəssisləri cəlb edir. Çünki bərpa olunan abidələr təkcə Azərbaycanın deyil, dünyanın mənəvi sərvətidir.

İndiyə qədər minlərlə abidəyə yenidən "nəfəs" verən Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə dini abidələrin bərpası üçün işləri davam etdirir. Fondun həyata keçirdiyi layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış ibadət yerlərinin bərpası üzrə işlərin bir qismi artıq başa çatdırılmışdır.

Birinci vitse-prezidentin tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan məscidlərin, dini-mədəni abidələrin bərpası ilə yanaşı, həm də bu bölgədəki mədəni ənənələrimizi də bərpa edir.

32 ildən sonra, 12-13 may 2021-ci ildə Şuşada, Cıdır düzündə fond tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, Şuşa işğaldan azad edildikdən sonra, avqustun 30-da ilk dəfə Şuşada yenidən təşkil olunan Vaqif Poeziya Günləri, fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunun, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin dünyada tanıdılmasına, qorunaraq gələcək nəsillərə ötürülməsinə dəyərli töhfədir [7].

Ümumiyyətlə, Heydər Əliyev Fondu bu illər ərzində Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Ermənistanın işğalçılıq siyasətinin ifşası, eyni zamanda, ermənilər tərəfindən əzəli torpaqlarından didərgin salınan yüz minlərlə məcburi köçkünümüzün hüquqlarının beynəlxalq müstəvidə qorunması istiqamətində də müstəsna fəaliyyət göstərib. Fond Vətən müharibəsindən sonrakı mərhələdə də Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün var qüvvəsi ilə çalışır.

Eyni zamanda, Heydər Əliyev Fondu Qarabağın dirçəldilməsi, məcburi köçkünlərimizin öz doğma yurdlarına tez bir zamanda qayıdışı üçün görülən işlərə də böyük dəstək verir.

Beləliklə, 2004-cü ildə Ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının işığında yaradılan Heydər Əliyev Fondu və onun rəhbəri Mehriban xanım Əliyevanın milli təəssübkeşlik, vətənpərvərlik, diqqət və qayğısının təzahürü kimi ölkəmizin təhsil sisteminin yeniləşdirilməsi üzrə xoşməramlı missiya Azərbaycana gələcək üçün yüksək səviyyəli, intellektual kadrların yetişdirilməsinə, kamil insan potensialının formalaşdırılmasına və respublikamızın davamlı inkişafına xidmət edir.

Fondun fəaliyyəti çoxşaxəlidir – təhsil, səhiyyə, elm və texnologiya, mədəniyyət, ekologiya, idman, sosial problemlər-bütün bu sahələrdə Heydər Əliyev Fondu tərəfindən müxtəlif proqramlar hazırlanaraq uğurla həyata keçirilir. Ümumiyyətlə, Heydər Əliyev Fondu öz fəaliyyətini müasir zamanın tələbinə cavab verən şəkildə qurmağa – cəmiyyətdə olan, insanları narahat edən problemləri aşkar etməyə, bu problemlərin həlli yolunda lazımi tədbirləri hazırlamağa, həyata keçirməyə və uğurlu nəticələri əldə etməyə çalışır. Bu gün danılmaz həqiqətdir ki, Heydər Əliyev Fondu xüsusilə dünyada Azərbaycanın təbliği, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, habelə, ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması sahəsində gördüyü titanik işlərə, eləcə də milyonlarla insanlara ünvanlanmış xeyriyyəçilik fəaliyyəti ilə ölkənin davamlı xidmət edir, müdrik şəxsiyyət Heydər Əliyev ideyalarının əbədi yaşamasına töhfələr verir.

Həmçinin, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın, təsisatçısı olduğu İDEA hərəkatı davamlı inkişaf məqsədlərinin yerinə yetirilməsi naminə sinergetik yanaşmanın uğurlu nümunəsidir.

Ötən 18 ildə fond Azərbaycanın davamlı inkişafında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə analoqu olmayan qeyri-dövlət qurumu olduğunu sübuta yetirmişdir və bu baxımdan dövlət-özəl tərəfdaşlığının ən gözəl örnəklərindən biridir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq Heydər Əliyev Fondunun məqsədləri sırasında ön yerlərdən birini tutur.

Fondun davamlı inkişaf istiqamətlərindən olan təhsilin, səhiyyənin inkişafı və bir çox bu kimi mühüm sahələrdə həyata keçirdiyi layihələr məhz Azərbaycanın davamlı inkişafına, elminə, böyük töhfə, əvəzsiz qayğıdır. Yeri gəlmişkən qeyd edək ki, bu kimi vacib məsələlərin layiqincə həyata keçirilməsi həm də ümummilli lider Heydər Əliyevin başladığı ideyaların davamıdır və bu ideyalar onun adını daşıyan Fondun prezidenti Mehriban xanım tərəfindən uğurla yerinə yetirilir. Mehriban xanımın gördüyü bu işlər həmçinin ölkə Prezidenti İlham Əliyevin Azərbaycanın davamlı inkişafı istiqamətində reallaşdırdığı layihələrə çox ciddi bir təkandır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə başlanmış genişmiqyaslı abadlıq və yenidənqurma işlərinin reallaşdırılmasına da layiqli töhfələrini verir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihə və tədbirlər barədə ictimaiyyətə müəyyən mesajlar, məlumatlar verir.

Bu gün həm Heydər Əliyev Fondu, həm də "YAŞAT" Fondu tərəfindən şəhid ailələrinin, Qarabağ qazilərinin, eləcə də onların ailə üzvlərinin sosial təminatının gücləndirilməsi ilə bağlı mühüm işlər görülür, sistemli tədbirlər həyata keçirilir. Bütün bunlar deməyə əsas verir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olan şəxslərin, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin apardığı davamlı inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətə əməli dəstək verən Azərbaycanın Birinci vitse-prezidentinin təşəbbüsü ilə gerçəkləşdirilən çoxsaylı layihələr isə cəmiyyətdə yüksək razılıqla qarşılanaraq vətəndaşların dövlətə və onun ali rəhbərliyinə etimadını daha da gücləndirir.

Azərbaycanda tətbiqi müsbət nəticələrə yol açan sinergetik, komplimentar və kompensasion idarəetmə texnologiyaları, onlardan ayrılıqda və kompleks şəklində inklüziv inkişafın idarəedilməsində istifadə ilə bağlı bilik və bacarıqlar formalaşdırılır. Qeyri hökumət təşkilatları, vətəndaş cəmiyyətinin nümayəndələri sinergetik texnologiyalarla həyata keçirilən layihələrin önəmli iştirakçılarıdır. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti cəmiyyəti məlumatlandırmaq, inklüziv inkişafla əlaqədar dəyişikliklərə hazırlamaq, ictimaiyyəti bu prosesin fəal iştirakçısına çevirməkdir. Ölkənin Birinci vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti dövlət strukturlarının və vətəndaş cəmiyyətinin ümumi məqsədlər naminə səmərəli fəaliyyətinin parlaq nümunəsidir.

Ümumilikdə, milli prioritetlər əsasında Azərbaycan hökuməti beş mühüm istiqamətdə islahat, layihə və tədbirlər reallaşdırır və bu baxımından, Heydər Əliyev Fondu bütün bu istiqamətlər üzrə geniş miqyasda fəaliyyət aparır. Bu onu deməyə əsas verir ki, Fondun fəaliyyəti müasir Azərbaycanın dövlət idarəçiliyində tətbiq olunan yeni texnologiyaların tərkib hissəsidir.

Görülən işlər, həyata keçirilən layihələr, real nəticələr isə bir daha belə deməyə əsas verir ki, Heydər Əliyevin adını daşıyan Fond Azərbaycanın bu günü və gələcəyi naminə bundan da artıq işlərə hazır və qadirdir. Bu fəaliyyət isə öz növbəsində, bütün respublikanın davamlı inkişafına töhfə verir.

**Ədəbiyyat:**


1. Abbasov Ə. Heydər Əliyev Fondunun hazırladığı "Azərbaycan" İnternet Portalının təqdimat mərasimi keçirilmişdir: [Rabitə və İnformasiya naziri Əli Abbasovun çıxışı] / Ə.Abbasov // Azərbaycan; Xalq qəzeti. 2005. 23 iyul.
2. Ələkbərov U. K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Bakı, Təhsil, 2013
3. Heydər Əliyev Fondunda Böyük Vətən müharibəsində qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir//Respublika.- 2005.- 8 may. Xalq qəzeti. 2005. 8 may.
4. Heydər Əliyev Fondu: Emblem və loqo müsabiqəsi // Azərbaycan. 2004. 1 iyun. Respublika. 2004. 10 iyun.
5. Heydər Əliyev Fondu / Ön söz: Heydər Əliyev Fondunun prezidenti M.Əliyeva. – B., 2006.
6. Heydər Əliyev Fondu: 2005-2006. – B., 2006.
7. Ələkbərov U. K. "Dinamik davamlı inkişaf əsas prioritetdir // Azərbaycan qəzeti, 14 iyun 2016-cı il
8. Rüstəmli N. Heydər Əliyev Fondu: [Fondun yaranması və fəaliyyəti haqqında] / N.Rüstəmli // Respublika. 2005. 11 dekabr.
9. Ziyafət Həbibova, Məftunə Abdullayeva, "Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi", Bakı, 2018
10. Концепция развития «Азербайджан – 2020: взгляд в будущее». Баку: Закон, 29 декабря 2012.
11. Алакбаров У. К. Основы человеческого потенциала. – Баку: Асполиграф, 2016. – с.280.
12. Воссина А.Е., Кустикова М.А. Экологические, экономические и социальные аспекты функционирования отечественных градообразующих предприятий как фактор устойчивого развития территорий // Научный журнал НИу ИТМО. Серия «Экономика и экологический менеджмент». 2015, N1. C. 18-27.
13. Heydar Aliyev Foundation. (2021). Inclusive Development. Retrieved from Heydar Aliyev Foundation: https://heydar-aliyev-foundation.org/en
14. RİİB. (2021). İnclusive Development. Retrieved from Regional Inkişaf İctimai Birliyi: https://riib.az/
15. Alakbarov U., Lawrence J.E.S. Towards Ecological Civilization: ideas from Azerbaijan. Journal of Human Resource and Sustainability Studies, 2015, 3, 93-100. http://dx.doi.-org/10.4236/jhrss.
16. "Heydər Əliyev Fondu tərəfindən 62 təhsil müəssisəsi istifadəyə verilir" https://edu.gov.az/az/news-and-updates/18973
17. "Heydər Əliyev Fondu", https://azerbaijan.az/related-information/232
18. V Бакинский международный гуманитарный форум (2016). Секция — устойчивое развитие и экологическая цивилизация. Доклад академика Урхана Алакбарова [Электронный ресурс]. — Режим доступа: http://bakuforum.az/ru/ivustojchivoe-razvitie-iekologicheskaya-tsivilizatsiya-2/?fid=2850.
19. Государственный комитет по статистике Азербайджанской Республики [Электронный ресурс]. — Режим доступа: http://www.stat.gov.az/index.php?mode=desktop.
20. Фонд Гейдара Алиева [Электронный ресурс]. — Режим доступа: http://heydar-aliyev-foundation.org/ru.

***Açar sözlər:*** *Heydər Əliyev Fondu, Qarabağ, davamlı inkişaf, inklüziv yanaşma, inklüziv inkişaf indeksi*

**Jamila Huseynova**
*Heydar Aliyev Foundation*

## HEYDAR ALIYEV FOUNDATION AS AN EXAMPLE OF A PUBLIC-PRIVATE PARTNERSHIP FOR SUSTAINABLE DEVELOPMENT

### ABSTRACT

The article talks about the preparation and implementation of multifaceted and large-scale projects of the Heydar Aliyev Foundation for sustainable development on a national and international scale, as well as the use of an inclusive approach in the reconstruction carried out in Karabakh. The factors that ensure the growth of the Inclusive Development Index in the Republic of Azerbaijan are considered. The author shows ways to involve the public in inclusive development planning and the importance of technology policy in this process.

***Keywords:*** *Heydar Aliyev Foundation, Karabakh, sustainable development, inclusive approach, inclusive development index*

**Джамиля Гусейнова**
*Сотрудник Фонда Гейдара Алиева*

## ФОНД ГЕЙДАРА АЛИЕВА КАК ПРИМЕР ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА ВО ИМЯ УСТОЙЧИВОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье говорится о подготовке и реализации многогранных и масштабных проектах Фонда Гейдара Алиева во имя устойчивого развития в национальном и международном масштабах, а также об использовании инклюзивного подхода в восстановительных работах, проводимых в Карабахе. Рассмотрены факторы, обеспечивающие рост Индекса инклюзивного развития в Азербайджанской Республике. Автор показывает способы вовлечения общественности в инклюзивное планирование развития и важность технологической политики в этом процессе.

***Ключевые слова:*** *Фонд Гейдара Алиева, Карабах, устойчивое развитие, инклюзивный подход, индекс инклюзивного развития*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354; 351

**SONA BAYRAMOVA**
**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının əməkdaşı**

## AZƏRBAYCANDA İNSAN POTENSİALININ İNKİŞAFI SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

*"Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur." [1].*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Bu gün ölkəmizin hərtərəfli inkişafında azərbaycançılıq məfkurəsi ilə yetişən, müasir biliklərə yiyələnmiş, yüksək intellektə malik olan gənclərimizin rolu əvəzsizdir. Peşəkar gənclərimizin bütün sahələrdə – hərbi sahədə, idman, elm-təhsil, tibb, innovasiyalar, dövlət idarəçiliyində mühüm mövqelər tutması ölkəmizin bundan sonrakı inkişafı ilə də bağlı nikbin proqnozlar səsləndirməyə zəmin yaradır. Əsas məsələ isə budur ki, Azərbaycan gəncliyi hər zaman vətənpərvərlik ruhunda yetişib, öz fəaliyyətini milli və dövlətçilik maraqlarımızın təmin olunması istiqamətində qurub. Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd edilməyə başlanıb.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007- 2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əsas məqsədi ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, "qara qızılın insan kapitalına çevrilməsi" olmuşdur. Dövlət Proqramının uğurlu icrası cəmiyyət həyatının ən müxtəlif sahələri üçün milli kadrların yetişdirilməsi ilə yanaşı, gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə marağını xüsusilə artırmışdır. Proqram çərçivəsində təhsil almış və Azərbaycana qayıdaraq müxtəlif müəssisə və təşkilatlarda çalışmağa başlamış məzunlar ixtisas sahələrinə uyğun əmək fəaliyyəti ilə bərabər, qazandıqları bilik və təcrübəni ölkənin ali təhsil müəssisələrində paylaşaraq akademik fəaliyyətlə də məşğuldurlar. Proqram çərçivəsində ümumilikdə 3558 nəfər Azərbaycan vətəndaşı dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali

təhsil müəssisəsində təhsil almaq hüququ qazanmış, yüzlərlə gənc Harvard Universiteti, Yel Universiteti, Oksford Universiteti, Bristol Universiteti, Sorbonna Universiteti, Kioto Universiteti, Toronto Universiteti, Heydelberq Universiteti, Bilkənd Universiteti, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu kimi nüfuzlu ali təhsil müəssisələrində ölkəmiz üçün əhəmiyyət daşıyan sahələrdə təhsil almış və ya almaqdadırlar. Həmin gənclər hazırda dünyanın aparıcı təşkilat və şirkətlərində (BMT, NASA, "Microsoft", "Google", "Bloomberg", "Samsung", "LG" və s.) təcrübə keçməyə dəvət edilmişlər. Onlar yaşadıqları ölkələrin ictimai-mədəni həyatında yaxından iştirak etməklə, Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin təbliğində və diaspor işində xüsusi fəallıq göstərirlər. Həmin gənclərin Amerika Birləşmiş Ştatları (ABŞ), Almaniya, Avstraliya, Böyük Britaniya, Fransa, Koreya Respublikası və Yaponiya kimi ölkələrdə azərbaycançılıq məfkurəsi və milli dəyərlər ətrafında təşkilatlanması ölkəmizin maraqlarının həmin ölkələrdə qorunmasına xidmət edir. "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərdən faydalanaraq, müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycan Respublikasının ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" hazırlanmışdır. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Ali təhsil müəssisələrinin inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi vacib prioritetlərdəndir. ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Fransa və Yaponiya kimi ölkələrdə, xüsusilə ötən əsrin sonlarından etibarən aktuallaşmış transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiqi uğurlu nəticənin əldə olunmasına şərait yaratmalıdır. Bu baxımdan beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar, ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili təmin edilməlidir. Beynəlxalq ikili diplom proqramları yolu ilə əcnəbi professor-müəllim heyətinin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb olunması müasir tədris texnologiyalarının daha sürətli yayılmasına şərait yaratmaqla yanaşı, təhsillərini Azərbaycan Respublikasında davam etdirən gənclərimizə də yeni imkanlar açmalıdır. Belə ki, əcnəbi mütəxəssislərin yerli təhsilverənlərlə birgə davamlı fəaliyyətinin qurulması onların ölkəni tərk etdikdən sonra belə təhsil sisteminə töhfə vermələrini təmin etməli, nəticədə ali təhsil müəssisələrinin müasir elmi-tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesi sürətlənməli və onların dünya reytinqində irəliləməsi təmin olunmalıdır. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin dünya miqyasında nüfuzu artdıqca, gələcəkdə onların müstəqil şəkildə əcnəbi tələbə və professor-müəllim heyətini cəlb etməsi imkanları genişlənməli, beynəlxalq reytinq cədvəllərində irəliləməli, ölkənin sürətli inkişaf tempinə uyğun mütəxəssis hazırlığı mümkün olmalıdır. Bununla yanaşı, xaricdə dövlət hesabına təhsil sahəsində əldə edilmiş təcrübə əsasında yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə doktorantura səviyyəsi üzrə Azərbaycan Respublikası vətəndaşlarının seçiminin təkmilləşdirilməsi, onların işəgötürənlərlə birbaşa əlaqələndiril-

məsi və təhsil nailiyyətlərinin monitorinqi sisteminin yaradılması tələb olunur. Bu istiqamətdə işəgötürənlərin, eləcə də elm və ali təhsil sahəsinin tələblərinin müəyyən edilməsi və müvafiq sahələrdə iş təcrübəsinə malik mütəxəssislərin ixtisaslarının artırılmasına dəstəyin göstərilməsi ilə qısa müddətdə müxtəlif sahələr üzrə Azərbaycan Respublikasının ali təhsil və elm müəssisələri üçün peşəkar mütəxəssislər yetişdirilməlidir. Eyni zamanda, Proqram müştərək maliyyələşmə prinsipi əsasında mütəxəssislərin hazırlanmasında işəgötürənlərin iştirakı ilə nüfuzlu xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq arzusunda olanlar üçün imkanların genişləndirilməsinə xidmət etməlidir. Doktorantura səviyyəsi üzrə kadr hazırlığının aparılacağı xarici ali təhsil müəssisələrinin dar ixtisaslaşmalar üzrə dünya reytinqlərinin nəzərə alınması müxtəlif sahələrdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının səmərəliliyini artırmalıdır. Azərbaycan Respublikasında təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiyası, qeyd olunan əsas məqsədlərin yerinə yetirilməsi beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində irəliləyişi təmin etməlidir.

"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunan "Yüksəliş" müsabiqəsi də ölkə həyatı üçün önəmli olacaq idarəçiləri seçir. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə, eləcə də ölkəmizin digər bölgələrində müxtəlif proqramların reallaşdırılmasında "Yüksəliş" müsabiqəsinin qaliblərinin potensialından istifadə edilməsi nəzərdə tutulur. Eyni zamanda Heydər Əliyev Fondu da gənclərimizə dəstək istiqamətində böyük layihələr həyata keçirir.

Təbii ki, Azərbaycan gənclərinin fəaliyyəti yalnız ölkə daxilindəki proseslərlə məhdudlaşmır. Xarici ölkələrdə təhsil alan, müxtəlif beynəlxalq təşkilatlarda çalışan gənc azərbaycanlı mütəxəssislərimiz həm də Azərbaycan diasporunun fəaliyyətində yaxından iştirak edirlər və bu fəallıq daha da artırılmalıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan gəncliyinin inkişafı ilə bağlı fundamental və məqsədyönlü dövlət proqramları reallaşdırılır. Bu proqramlar birbaşa Azərbaycan gəncliyinin hərəkat olaraq təkmilləşməsinə, ictimai-siyasi proseslərdə fəallığına xidmət edir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman qeyd edir ki, peşəkar insan ehtiyatı hər bir ölkənin sərvəti hesab olunur. Yəni "qara qızıl"ın insan kapitalına çevrilməsi olduqca vacibdir. Mən pandemiyanın yaratdığı böhran vəziyyətində gənclərimizin fədakarlığını xüsusi qeyd etmək istəyirəm. COVİD-19 pandemiyasının yaratdığı reallıqlar fonunda ölkəmizdə fəaliyyət göstərən könüllü təşkilatları və hərəkatları tərəfindən yaradılmış Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin (AKƏM) fəaliyyəti əsl nümunə idi. Xüsusilə "Böyüklərimizi qoruyaq!" devizi altında keçirilən aksiya çərçivəsində paytaxt və regionlarda könüllülər minlərlə tənha ahılların, aztəminatlı ailələrin, şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin evlərinə baş çəkir, onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamaların çatdırılmasında birbaşa iştirak edirdilər. Ümumilikdə, ölkəmizin 28 şəhər və rayonunda minə yaxın könüllü fəaliyyətə cəlb olunaraq həssas kateqoriyadan olan 6254 ailəyə dəstək göstərdilər. Bu, bir daha təsdiqləyir ki, hər bir ölkədə gənclər cəmiyyətin əsas hərəkətverici qüvvəsi, gənclər siyasəti isə dövlət siyasətinin əsas istiqamətlərindən biridir və bu siyasətin əsas prioritetləri ilk növbədə gənclərin ictimai fəallığını, onların cəmiyyətin və dövlətin həyatında yaxından iştirakını təmin etməkdir.

Ölkədə inklüziv və dayanıqlı sosial siyasətin həyata keçirilməsi, bu aspektdə məşğulluq sahəsində dövlət siyasətinin günün tələblərinə uyğun şəkildə qurulmasını da zəruri etmişdir. Bu mənada Prezident İlham Əliyevin 9 avqust

2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın [2] xüsusi əhəmiyyəti vardır. Fərmana əsasən yaradılan DOST Agentliyi və mərkəzləri ölkəmizdə məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində idarəçilik və əhaliyə xidmətlər sisteminin innovativ əsaslar üzərində inkişafına, tam keyfiyyətli mərhələyə daxil edilməsinə hesablanıb.

"DOST" mərkəzləri əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə xidmətlərin "bir pəncərə" prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda, bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim etməyə imkan verir. "DOST" mərkəzinə müraciət edən vətəndaşın hansı sosial təminat növü ilə təmin edilmək hüququnun olub-olmadığı elektron məlumat bazalarında onunla bağlı məlumatların operativ araşdırılması nəticəsində dərhal müəyyənləşir. Belə bir hüquq yarandığı halda vətəndaş elə mərkəzdəcə aidiyyəti sənədləri təqdim etməklə təyinat aparılır və müvəkkil banka onun üçün ödəniş kartı sifariş olunur. Yaxud işsiz və işaxtaran şəxsə mərkəzdə onun üçün bütün mümkün məşğulluq xidmətləri təqdim ediləcək və seçiminə uyğun təminat həyata keçiriləcək. Həmçinin reabilitasiya, sosial sığorta münasibətləri, sosial xidmətə cəlbolunma və digər sahələr üzrə belə xidmətlər göstərilir [18].

Ən önəmli məqamlardan biri, 2020-ci ildə ölkəmizin işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası olmuşdur. Şübhəsiz ki, bu tarixi Zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji mərhələyə daxil olmuşdur. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi Zəfərlə tarixi ədalət bərpa olunub, torpaqlarımız işğaldan azad edilib, nəticədə ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni reallıq və imkanlar yaranıb. Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesinə başlanılıb.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq, Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa rayonu mədəniyyət və turizm sənayesi, Zəngilan və Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəzlər kimi qiymətləndirilə bilər.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Milli prioritetlərin icrasının təmin edilməsi məqsədilə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq olunmuşdur. Strategiyada 4-cü Milli prioritetin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı" çərçivəsində icrası nəzərdə tutulmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 3 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması istiqamətində tədbirlərə başlanılmışdır. Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 iyun 2022-ci il 22 iyun tarixli Sərəncamı ilə aşağıdakı prioritet istiqamətləri özündə ehtiva edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi inzibati ərazi vahidində və ya onun hissələrində müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafı təmin etmək, ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək, ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə" təsdiq olunmuşdur. Hazırda Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla), Şuşa rayonunda və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikasının xüsusi nümayəndəlikləri fəaliyyət göstərir.

İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı təsdiq edilmişdir [8]:

- İqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi, sosial siğorta və digər güzəştlərin tətbiqi;
- Özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;
- Sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi;
- İstehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi;
- Ekoloji təmiz texnologiyaları tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;
- Müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;
- İşğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının inkişafına dair daxil olan təkliflərin dəstəklənməsi.

İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və digər mühüm logistika potensialının mövcudluğu nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 28 may tarixli Fərmanı ilə Ağdam Sənaye Parkı yaradılmışdır.

Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması imkanları nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır.

Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istisması ilə bağlı işlərin təşkili məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 may tarixli Sərəncamı ilə Qaşqaçay filiz

yatağı "Eti Bakır A.Ş." şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə öyrənilmə, tədqiq, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilmişdir.

Regionun zəruri infrastruktur üçün tələb olunan tikinti materiallarının təchizatı məqsədilə Ağdam rayonunda yerləşən "Şahbulaq" əhəng daşı yatağının dövlət-özəl tərəfdaşlığı çərçivəsində istifadəyə verilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə, xüsusilə Kəlbəcər və Laçın rayonlarında yerləşən su elektrik stansiyaların bərpası və yenidən qurulması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən müvafiq tədbirlər görülür. Su elektrik stansiyasının bərpası və istismarı üçün İqtisadiyyat Nazirliyi tərəfindən özəl investisiyaların cəlb edilməsi üçün potensial investorların seçiminə dair müsabiqə elan edilib.

Yaşıl Enerji Zonasının yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə Enerji təchizatı infrastrukturunun qurulması, bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisinin istehsalı, enerji səmərəliliyinin təmin edilməsi, yaşıl texnologiyaların tətbiqi, bu sahədə dövlət-özəl sektor tərəfdaşlığının təşviqi kimi tədbirlər nəzərdə tutulmuşdur.

Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələrinin icrası üçün texniki potensial mövcuddur və Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə bp şirkəti arasında Zəngilan/ Cəbrayıl zonasında günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə İcra Müqaviləsi imzalanmışdır.

Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin texniki potensialının olması müəyyən edilmişdir. Bununla bağlı həmin ərazilərdə külək elektrik stansiyası layihəsinin reallaşdırılması planlaşdırılır.

Tərtərçay, Həkəri çayı və bu çayların qollarında hidroenerji potensialı mövcuddur. İşğaldan azad edilmiş ərazilərdə yerləşən su elektrik stansiyaların bərpası və yenidən qurulması çərçivəsində müvafiq tədbirlər həyata keçirilməkdədir.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək səviyyəli həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması çərçivəsində hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işləri davam etdirilir, müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılır.

Əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyəti təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsləri yaradılmışdır.

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Şuşa şəhərlərində çoxmənzilli yaşayış komplekslərinin, Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı, Füzuli rayonun Dövlətyarlı yaşayış məntəqələrinin təməli qoyulmuşdur. Zəngilan rayonunun Ağalı kəndində tikinti işləri davam etdirilir, ötən dövr ərzində kəndə bir qrup sakin köçürülmüşdür.

Ümumiyyətlə, son illər ərzində ölkə qarşısında duran əsas strateji vəzifələrdən biri sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi, həmçinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi və inklüziv cəmiyyətin formalaşması olmuşdur. Bunun üçün Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan potensialının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi prioritet istiqamət kimi diqqətdə saxlanılıb. İnsan potensialının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən

daha səmərəli faydalanması prosesində ən mühüm şərtlərdən olaraq respublikanın təhsil sisteminin başlıca vəzifəsini təşkil etmişdir.

Azərbaycanda davamlı inkişafın təmin olunmasında həyata keçirilən sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan insan potensialının inkişafı və Azərbaycanda inklüziv cəmiyyətin formalaşması naminə böyük əhəmiyyətə malikdir. İnnovasiya fəaliyyəti istehsal və idarəetmə sahələrində əmək məhsuldarlığının və rəqabətqabiliyyətliliyin yüksəldilməsi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi üçün əsas hərəkətverici qüvvədir. Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən bu fəaliyyətin əhəmiyyəti nəzərə alınır. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmaq sahəsində bir çox imkanlara malikdir. Bu müddəaların ardıcıl, mərhələli və davamlı şəkildə icrasının diqqət mərkəzində saxlanılması uyğun və optimal nəticələrin əldə olunması üçün vacibdir.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq edilmişdir. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır. Onların ikisi dissertasiya işinin əsas tədqiqat mənbəyidir: dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət və rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı.

Davamlı inkişafın nəticəsi kimi formalaşan inklüziv cəmiyyət son illərdə dünyanın əsas qlobal prioriteti kimi qəbul edilmişdir. Bu konsepsiya iqtisadi inkişafın ənənəvi modellərini genişləndirir, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir. Beynəlxalq standartlara əsasən, inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi 12 indikator əsasında keçirilir.

Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması məqsədilə nəzərdə tutulan tədbirlər kimi dəstəkləyici sistemin yaradılması, istehsalın və investisiyanın təşviq edilməsi, innovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi, sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması istiqamətində aparılan islahatları qeyd edə bilərik.

İnsan potensialı əmək məhsuldarlığının artırılmasında, davamlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur. Bunu əsas tutaraq, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir.

2030-cu il üçün planlaşdırılmış hədəflər arasında davamlı inkişaf, dayanaqlı iqtisadiyyat və uğurlu sosial siyasətin nəticəsi olan inklüziv cəmiyyətin formalaşması milli prioritet kimi müəyyən edilmişdir. İnklüziv inkişaf dövlət idarəçiliyinin elə bir yoludur ki, bu zaman ölkə hərtərəfli inkişaf edir. Dünya ölkələrində inklüziv inkişafın vəziyyəti və İnklüziv İnkişaf İndeksinin hesablanması

beynəlxalq ekspertlərin tərəfindən ilk dəfə 2018-ci ildə aparılmışdır və Davos Forumunun rəsmi hesabatı kimi təqdim edilmişdir. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 bərabərdir. Dünya ölkələrin arasında Azərbaycan 25-ci yerdədir. İnsan İnkişafı İndeksinə görə isə Azərbaycanın göstəricisi – 0.754-ə bərabərdir.

Müasir dövrdə Respublikanın dinamik sosial-iqtisadi inkişafında və dövlət idarəçiliyi sahəsində yenilikçi idarəetmə təfəkkürünə malik ixtisaslı mütəxəssislərin yetişdirilməsi məsələsi mühüm aktuallıq kəsb edir. “Qara qızıl”ın insan kapitalına çevrilməsi strategiyası uğurlarımızın davamlılığını şərtləndirir. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı” və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” gənclərə öz potensiallarını reallaşdırmaq üçün geniş imkan yaratmışdır.

Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunan “Yüksəliş” müsabiqəsi də ölkənin siyasi həyatı üçün önəmli olacaq gələcəyin dövlət idarəçilərini seçməklə məşğul olur.

Sonda onu qeyd etmək olar ki, Azərbaycan Respublikasında uğurla həyata keçirilməkdə olan sosial siyasət və bu sahədə innovativ və səmərəli idarəetmə tədbirləri ölkədə inklüziv inkişafın təmin edilməsinə gətirib çıxarır. Sosial sahədə inklüziv inkişafı təmin etmək məqsədilə həm normativ, həm də institusional addımlar atılmaqdadır. Həyata keçirilən sosial siyasət cəmiyyətdə insanların bərabər inkişafına, xüsusilə də həssas qrupların cəmiyyətdə bərabər imkanlara sahib olmasına yönəlmişdir. Sosial sfera ilə birbaşa əlaqəli olan inklüziv iqtisadi inkişaf məqsədlərinə nail olunması da uzunmüddətli dövrə hesablanmış iqtisadi strategiyadan asılıdır.

Hazırda Azərbaycanda inklüziv inkişafla bağlı əldə olunmuş uğurlar həyata keçirilmiş məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edən islahatlar strategiyası, xüsusilə qeyri-neft sektorunun inkişafına yönəlmiş addımlar bu gün öz bəhrəsini verməkdədir. Həmçinin regionların inkişafına verilən dəstək mühüm əhəmiyyətə malikdir. Bütün bunların nəticəsidir ki, ölkəmiz artıq inklüziv inkişaf istiqamətində xeyli yol qət edə bilmişdir. Bu isə hazırda müxtəlif nüfuzlu beynəlxalq hesabatlarda öz əksini tapır.

**Ədəbiyyat:**


1. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il.
2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa” dair Milli Prioritetlər.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 20 dekabr tarixli sərəncamı “Sosial müavinətlərin məbləğinin artırılması haqqında”
4. Baxşəliyev R. Strateji Yol Xəritəsi Azərbaycanın davamlı inkişaf modelinə keçid konsepsiyasıdır. – Bakı, 2017.
5. Əhmədov M. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. – Bakı, 2003.
6. Ələkbərov U.K. İnklüziv inkişafın idarəedilməsinin əsasları. Ali məktəblər üçün dərslik, Bakı, 2018.
7. Ələkbərov U.K. Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə

yeni zəfərlərə aparır / Azərbaycan qəzeti. – 2021. 4 mart. – 5 s.

8. Ələkbərov U.K. Azərbaycan Respublikasında inklüziv cəmiyyətin formalaşması davamlı inkişafın məqsədi kimi // "İnsan və Biosfer" (MaB UNESCO) Azərbaycan Milli Komitəsinin Əsərləri. – 2021. – buraxılış 16. –s.5-20.
9. Ələkbərov U. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. – Bakı, 2017.
10. Ələkbərov U. Davamlı insan inkişafının əsasları. – Bakı, 2007. – s.8-10.
11. Əliyev M., Həmidov M. İnsan resurslarının idarəedilməsi. – Bakı, 2002.
12. Hüseynova N.Ş. Dövlət qulluğu və idarəetmə. – Bakı, 2017.
13. Hüseynova N.Ş. Dövlət qulluğu və kadr siyasəti. – Bakı, 2013.
14. Quliyev T.Ə. İnsan resurslarının idarə edilməsi (insan naminə). – Bakı, 2013. – 292s.
15. Quluzadə M.M. İnsan amili: Azərbaycan sosial-iqtisadi inkişafının sürətləndirilməsi. – Bakı, 1994.
16. Muradov Ş. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. – Bakı: – 2004.
17. Nağıyev Ə.T. Sosial iqtisadi inkişafın metodoloji aspektləri. – Bakı, 2002.
18. Rəcəb Rəhimli. Davamlı inkişafın idarə edilməsində sosial müəssisələrin rolu, Elmin İnkişafı Fondu. – B., 2013.
19. Rüstəmli N. Heydər Əliyev Fondu: [Fondun yaranması və fəaliyyəti haqqında] / N.Rüstəmli // Respublika. – 2005. – 11 dekabr.
20. Rzayev Ə.H. Dövlət qulluğu: nəzəriyyə və praktika. – Bakı, 2005.
21. Ziyafət Həbibova. Davamlı inkişafın təmin olunmasında insan kapitalı // Geostrategiya. – №02(32). – mart-aprel. – 2016.
22. Ziyafət Həbibova, Məftunə Abdullayeva. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. – Bakı, 2018.
23. Alakbarov U.K., Lawrence J.E. Energy sufficiency as an indicator of sustainable development policy: Azerbaijan experience. Journal of Suatainable Development (Canada, ISSN 1913-9063), v. 10, № 3, p. 187-193.
24. Amartya Sen. A Decade of Human Development. Journal of Human Development. Volume 1, No. 1, 2007.
25. Amartya Sen. Development as Freedom. OUP: 1998.
26. Barry W. Poulson. Economic Development: Private and Public Choice. West Publishing Company, 1994.
27. Debraj Ray. Development Economics. Princeton, NJ: Princeton University Press, 1998.
28. Desmond McNeil. Human Development: The Power of the Idea. Journal of Human Development. Volume 8, No. 1, March 2007.
29. Giovanni Andrea Cornia, Richard Jolly & Frances Stewart (eds.) Adjustment with a Human Face. Vol. 1: Protecting the Vulnerable and Promoting Growth. UNICEF, Clarendon Press, Oxford, 1987.
30. Khadija Haq & Richard Ponzio, eds. Pioneering the Human Development Revolution: An Intellectual Biography of Mahbub ul Haq. Oxford University Press, 2008.


***Açar sözlər:*** *insan potensialı, dövlət siyasəti, davamlı inkişaf, inklüziv inkişaf, azad edilmiş ərazilər*

**Сона Байрамова**
*Сотрудник Администрации Президента Азербайджанской Республики*

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ ПОЛИТИКИ РАЗВИТИЯ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье анализируются основные приоритетные направления государственной политики в области развития человеческого потенциала в Азербайджане. В ходе успешной политики, проводимой Президентом Азербайджана Ильхамом Алиевым, реализуются фундаментальные и целенаправленные государственные программы, связанные с развитием молодежи Азербайджана. Эти программы служат совершенствованию молодежи Азербайджана и их активному участию в общественно-политических процессах. В этом направлении выделяются успешные результаты таких процессов, как повышение потенциальных возможностей и общественно-политической активности молодежи в стране. В аспекте реализации инклюзивной и устойчивой социальной политики в стране подчеркивается необходимость проведения государственной политики в сфере занятости в соответствии с требованиями дня. Деятельность центров DOST, служащих этим целям, показана как наглядный пример солидарности между государством и обществом в Азербайджане. Отражены основные направления необходимых мероприятий по реконструкции, восстановлению, устойчивому развитию и высокому уровню жизни населения освобожденных территорий.

***Ключевые слова:*** *человеческий потенциал, государственная политика, устойчивое развитие, инклюзивное развитие, освобожденные территории*

**Sona Bayramova**
*Administration of the President of the Republic of Azerbaijan*

## PRIORITY DIRECTIONS OF HUMAN DEVELOPMENT POLICY IN AZERBAIJAN

### ABSTRACT

The article analyzes the main priority areas of state policy in the field of human development in Azerbaijan. In the course of the successful policy pursued by the President of Azerbaijan, Ilham Aliyev, fundamental and targeted state programs are being implemented related to the development of the youth of Azerbaijan. These programs serve to improve the youth of Azerbaijan and their active participation in social and political processes. In this direction, the successful results of such processes as increasing the potential opportunities and socio-political activity of young people in the country stand out. In implementing an inclusive and sustainable social policy in the country, the need for a state policy in the field of employment is emphasized in accordance with the day's requirements. The activities of the DOST centers serving these purposes are demonstrated as a clear example of solidarity between the state and society in Azerbaijan. The main directions of the necessary measures for reconstruction, restoration, sustainable development, and a high standard of living for the population of the liberated territories are reflected.

***Keywords:*** *human potential, state policy, sustainable development, inclusive development, territories freed*

# F Ə L S Ə F Ə
# P H I L O S O P H Y

UOT 321. 01; 340. 11:1

**ƏNTİQƏ PAŞAYEVA**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**
**"Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsinin**
**aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: pashayeva.ph@mail.ru*

## ARİSTOTELİN "NİKOMAXUSUN ƏXLAQI" ƏSƏRİNDƏ TƏBİİ HÜQUQ VƏ ƏXLAQIN NİSBƏTİ

Aristotel etikasının əsas qayəsi – mərkəzi konsepsiyası xoşbəxtlik, müvəffəqiyyətə çatmaq və uğur qazanmaqdır. O, bu əsərində ən üstün keyfiyyətlərin – yaxşılıqların (suprem good) axtarişındadır. Onun əsaslandığı əxlaq elə bir xüsusiyyətdir ki, ancaq insan onu özündə yaratmalı və tətbiq etməlidir; bu keyfiyyətləri başqa vasitələrlə ələ gətirməklə deyil, bunlar insanda olmalıdır. Aristotel bu əsərində ən yüksək dəyərləri axtarır və çalışır ki, bunları insanlara aşılasın. O, xoşbəxt insanı ən fəzilətli insan hesab edir. Aristotelin üstün keyfiyyətlər adlandırdığı fəzilət (virtue) o qədər geniş yayılmış və tədqiqatçılarda təsir qoymuşdur ki, hətta indiki dövrdə də təhlil olunan əxlaq nəzəriyyəsi "fəzilətə əsaslanan əxlaq" (virtue ethics) adı ilə tanınmışdır. Aristotelin nəzərində əxlaq dəqiq elmlərdən hesab olunmur, bu, siyasət elminin bir qoludur; yəni burada məntiqdə və fizikada olan dəqiqlikdən söhbət gedə bilməz, ancaq bu o demək deyil ki, bu elm dəqiqlikdən kənardır, əxlaq elmi bir çox məsələlərin mahiyyətində dəqiqlik dərəcəsini görmək gücünə malikdir. Bu barədə Aristotel yazır: əgər sual etsək ki, yaxşılıq (suprem good) nə deməkdir? Buna belə cavab verilər: hamı qəbul edər ki, bütün yaxşılıqların hədəfi xoşbəştlikdir (happiness) və insanın son hədəfi bu xoşbəxtliyə çatmaqdır. Ancaq soruşsaq ki, xoşbəxtlik özü nə deməkdir? Bu sualın cavabında müxtəlif fikirlər ortaya çıxacaq; bəziləri xoşbəxtliyi şöhrətdə, bəziləri ləzzətdə, digər bir qrup isə sərvətdə olduğunu bildirəcəklər (15, s.2). Aristotelin fikrincə, xoşbəxtlik haqqında bu deyilənlər olduqca süni bir yanaşmadır, çünki şöhrət həmişə mövcud deyil, bir gün aradan gedə bilər, amma yaxşılıq asanlıqla əldən gedə bilməz, yəni onu asanlıqla itirmək mümkün deyil. Əgər istəsək Aristotel fəlsəfəsinə əsasən təbii hüquq və əxlaqın nisbətini təhlil edək, ilk olaraq Aristotelin nəzəri və əməli elmlər arasında qoyduğu fərqə diqqəti yönəltməliyik. Aristotel elmi iki hissəyə ayırır: nəzəri və əməli (theoretical and practical). Nəzəri elmdə əsas məqsəd həqiqəti axtarmaq, əməli elmdə isə məqsəd rəftar və davranışdır. Ümumiyyətlə, Aristotel hüquq və əxlaq arasında olan nisbətə xüsusi diqqət etmişdir. O, hüququn müxtəlif sahələri ilə bağlı, o cümlədən qanunçuluq, mülkiyyət, irs, mal, sərvət, cinayət, cəza, müqavilə və digər mühüm məsələlər barədə fikirlərini bildirmiş və bunların işlənmə mexanizmini arqumentlər əsasında izah etmişdir. Qeyd olunduğu kimi Aristotel təlimlərində hüquqla bağlı olan məsələlərə, o cümlədən hüquq və əxlaq arasında olan nisbətə daha çox diqqət etmişdir, təbii ki, onun əsaslandığı hüquq etik normalarla sıx bağlılığı vardır. Bu məsələlərdə onun fikirləri bəzən Platonun fikirləri ilə uyğun olsa da (xüsusi ilə hüquq və dövlət arasında olan bağlılıqdan bəhs

edərkən), amma bir çox hallarda ciddi fikir ayrılığının şahidi oluruq ki, bu haqda bəhs olunacaq.

**Aristotel və "Nikomaxusun əxlaqı".** Aristotelin təbii hüquq və əxlaq barədə fikirlərini təhlil etməzdən əvvəl yaxşı olar ki, "Nikomaxusun əxlaqı" (Nicomachean Ethics) əsərinə qısa bir nəzər salaq. Bu əsər on fəsildən (book) ibarət olaraq Aristotelin liseydəki şagirdlərinə dediyi dərslərə əsaslanır. Qeyd olunması vacibdir ki, Aristotelin təlimləri əsasında onun əxlaq barədə üç kitabı əlimizə gəlib çatmışdır ki, bunlardan biri "Nikomaxusun əxlaqı"dır (Ethica Necomachea) ki, o bu əsəri atasının (Nikomachos) adına həsr etmişdir. Bu əsər Aristotelin şagirdlərinə dediyi dərslərin qeydləridir ki, onun şagirdi olan Teofrastos (qədim yun: Θεόφραστος, ing: Theophrastos, doğum tarixi: Eresos 371 m.ə., vəfat tarixi: Afina 287 m.ə.) tərəfindən toplanılmış və nəşr olunmuşdur. Digəri "Eudemosun əxlaqı" (Ethica Eudemia) adlanan kitabdır ki, şagirdi olan Eudemos (qədim yun: Ευδημος, ing: Eudemus of Rhodes, doğum tarixi: Rohdes 370 m.ə., vəfat tarixi: Afina 300 m.ə.) tərəfindən ustadının – Aristotelin mülahizələri əsasında hazırlanmışdır. Üçüncü kitabı "Böyük əxlaq" (Magna Moralia) adı ilə məşhur olan kiçik həcmli (traktat) əsəridir ki, bu da Aristotelin əxlaq barədə mülahizələrinin xülasə şəkilində toplanılmasıdır (3, s. 8-9). Ancaq "Nikomaxusun əxlaqı" əsəri digər iki kitabdan daha əhatəli və mükəmməl olduğu üçün təbii hüquq və əxlaq fəlsəfəsinin tədqiqində bu əsərə daha çox istinad olunur.

### "Nikomaxusun əxlaqı" əsərində təbii hüququn əsas müddəaları

Aristotel də Platon kimi xeyir və şər arasında olan şərti ayrılığın əleyhinə olmuşdur; müəyyən bir əməlin yaxşı və pis olması üçün insanların rəyini meyar hesab etmirdi, ancaq buna baxmayaraq Aristotelin təbii hüquq və etik nəzəriyyəsi bəzi hallarda Platonun fikirlərindən tamami ilə fərqlənmişdir. Burada əsas fərq ondan ibarətdir ki, Platon fəlsəfi nəzəriyyəsini ontologiya ilə bağlı olan ideal nəzəriyyə (ideas) ilə əsaslandırırdı, ancaq Aristotel isə bu nəzəriyyəni inkar edərək fəlsəfi – siyasi və etik nəzəriyyəsini dörd amil əsasında möhkəmləndirdi ki, bunlar ibarətdir: maddi (material), forma (formalis), subyekt (agens, subject) və məqsəd (final, cause, ultimate). Bundan əlavə, o, aləmin yaranmasında əsas məqsədə də (final, cause) xüsusi diqqət edirdi (39, p.171). Burda mühüm bir məsələyə də diqqət etmək zəruridir və o, bundan ibarətdir ki, Aristotel varlıqların təbiəti (the nature of existences) barədə işlətdiyi "zat" (entity/essence) kəlməsi dinamikdir, yəni qeyr-sabitdir. Bu mənada ki, bir varlığın iki fərqli zamanda zatən mövcud olması eyni deyil, bunlar fərqlidir (33, p.130-134). Aristotel bütün varlıq aləmini vahid bir canlı varlıqda görürdü və səy göstərirdi ki, bütün varlıqların tam, mükəmməl bir varlıqda (mütləq varlıq) birləşdiyini sübuta yetirsin. Insan mövcud aləmin bir parçası hesab olunur ki, öz zatına əsasən irəli gedir, həmişə kamil, mükəmməl bir dərəcəyə çatmaq üçün hərəkət edir. Aristotel təkcə "Nikomaxusun əxlaqı" əsərində deyil, həm də "Siyasət" (Politics) adlı kitabında da insan təbiətinə dair teleoloji (teleology) nəzəriyyəsini bəyan etmişdir. O, bu barədə yazır: insanların məqsədi xeyrə – yaxşılıqlara nail olmaqdır, məqsədin olması isə bu deməkdir ki, məhz bu məqsədin nəticəsində əməl yerinə yetirilir (25, 3729-4010 p.I. 1-1094 a 2-3). O, dörd mühüm amil (maddi, forma, subyekt və məqsəd) arasında daha çox məqsədi əsas götürərək ən mühüm amillərdən (səbəb) biri hesab etmişdir. Məhz bu amildir ki, insanı öz səadətinə çatmağa şövq edir. Həqiqətən məqsəd (final, cause, ultimate) insanın bütün fəaliyyətini əhatə edərək, onu mükəmməl bir əxlaqa sahib olmağa çatdırır (26, I. 2-1252 b32). Aristotel bu barədə yazır: "insanın könüllü bir hərəkəti zehnində mövcud olan hədəfə əsaslanır ki, bu da yaxşı bir həyata, səadətə çatmaq hədəfidir. Bu hədəf insanın

həm də təbii haqqıdır" (34, p.67). Aristotelin nəzərində etik dəyərləri (əxlaqi fəzilət; ing: moral virtue), xoşbəxt həyatı, təbii haqqları əldə etmək üçün ancaq ağılla hərəkət emək lazımdır, əbədi xoşbəxt həyat ancaq ağıla, müdrikliyə əsaslanır. Burada əxlaqi fəzilət dedikdə bu, nəfsə aid olan bir sifətdir ki, bu sifət insanın seçdiyi, qəsd edəcəyi və görəcəyi hər hansı bir qüvvə (fəaliyyət) ilə sıx bağlılığı vardır. Bu seçilmiş qüvvə gərək həmişə əməli ağılın (experimental intellect or practical reason) nəzarəti altında olsun (27, bII. 6-1107a 1-4); daha aydın desək, insanın istəkləri, tələbləri, ehtiyacları gərək təbii hüququn müddəalarına və əxlaqi dəyərlərə uyğun olsun ki, bunun da nəticəsində insan səadətə və gözəl həyata qovuşsun. Elə bu səbəbdən də Aristotel hüquqa mənsub olan və hüquq vasitəsi ilə yaranan qanunun mövcudluğunda ağılın mühüm olduğunu təkid edirdi. O, bu barədə belə yazır: "qanun elə bir əmrdir ki, əməli ağılın (experimental intellect) vasitəsi ilə yaranır" (həmin mənbə, bX. 9-1180 a 23). Yaxşı olar ki, Aristotel fəlsəfəsinə əsasən ümumi və xüsusi qanunun fərqli cəhətlərinə qısa bir nəzər salaq.

Ümumi və xüsusi qanunun fərqli cəhətləri. Qeyd olunduğu kimi Aristotel qanunun təbii olmasını təkidlə bildirmişdir. Təbii qanunun fərqli cəhətləri "Ritorika" da (yun: Ῥητορική, ing: Rhetoric) belə izah olunur: Ədalətli və ədalətsiz məsələlər iki növ qanunla müəyyən olunur: ümumi və xüsusi qanun. Xüsusi qanun elə bir qanundur ki, insanlar onu öz aralarında yaradırlar, ancaq ümumi qanun yazılmamış qanunlardır ki, təbiətlə bağlıdır. Təbiətdə ədalət və ədalətsizlik haqqında ümumi bir prinsip mövcuddur ki, bütün insanlar öz düşüncəsi əsasında bunlar haqda məlumatları vardır, hətta insanlar bir-birləri ilə əlaqələri olmasa belə yenə bu prinsip mövcuddur (28, b.I.1373b). Burada mühüm bir məsələyə diqqət etmək zəruridir. Aristotel yazılarında Sokrat və Platon kimi təbii qanun adlanan bir termin işlətməmişdir, ancaq ümumi və xüsusi qanunların fərqini izah edərkən məlum olur ki, onun ümumi qanundan məqsədi həmin təbii qanundur. Aristotel israr edir ki, xüsusi qanun həmişə müəyyən bir cəmiyyətlə bağlıdır, sonradan yazılan ya tədqiq olunan bu qanun pozitiv hüquq (positive of law) adlanır. Belə bir qanunu ya insanlar müstəqil olaraq özləri yazırlar, ya da hər bir cəmiyyətin xüsusi adət və ənənələrinə uyğun olaraq yazılır. Ancaq ümumi qanun dediyimiz həmin təbii qanun sabit və yazılmayan qanundur, bu elə bir qanundur ki, bütün bəşəriyyəti öz əhatəsinə almış və bütün insanlar da onun barəsində zatən məlumatlıdırlar. Məhz bu qanun əsasında ədalətli və ədalətsiz məsələlər bir-birindən fərqlənir, ayrılır və bu qanunlara riayət etməklə insanlar səadətə qovuşurlar. Ədalətli qanun (təbii qanun) elə bir qüvvədir ki, bütün yerlərdə eyni gücə malikdir və onun mövcudluğu heç bir iradəyə tabe deyildir (29, ch.V.7, p.23-25).

**Təbii hüquq və ədalətin qarşılıqlı əlaqəsi**

Aristotel "Nikomaxusun əxlaqı" əsərinin bir çox hissəsini demək olar ki, ədalət mövzusuna həsr etmişdir. Bu əsərin beşinci fəsli demək olar ədalət mövzusuna həsr olunmuşdur. O, bu əsərində daha çox ədalətin mahiyyətindən, hüquq və ədalət arasında olan nisbətdən və qarşılıqlı əlaqədən bəhs etmişdir. Lakin "Siyasət" əsərində diqqəti daha çox ədalətin tətbiqinə və xüsusiyyətlərinə yönəltmişdir. Məhz bu səbəbdəndir ki, "Siyasət" əsərində ədalət və təbii hüquq arasında olan nisbətdən daha az bəhs olunur. O, bu əsərində hüquq elmini, onun dili ilə desək təbii qanunları siyasət elmi kimi təqdim etmişdir. Aristotel Platondan fərqli olaraq ədaləti ümumi formada tərif etmir, o, daha çox ədalətin növlərinə diqqəti yönəldir. O bu barədə yazır: "ədalət elə bir qüvvədir (faculty) ki, insanları ədalətli əməllər etməyə sövq edir, onları düzgün hərəkət, rəftar etməyə vadar edir, həmçinin doğru və düzgün işlərin yerinə yetirlməsinə istiqamətləndirir. Ancaq zülm (injustice) bunun əksinədir; digər təbirlə desək, ədalət elə

bir xüsusiyyətdir (character) ki, bizi dürüst əməllərə hazırlayır və onları yerinə yetirməyə vadar edir, ancaq zülm bizi layiq olmayan işlərə sövq edir" (30, b.V,1, p.71).

**Ədalətin növləri, nəzəri və ictimai xüsusiyyətləri.** Aristotelə görə ədalətin müxtəlif növləri vardır və o, ədalətin səkkiz növdən ibarət olduğunu bildirir: ümumi və xüsusi, bölgülü və mübadiləli (mübadilə: əvəz etmək, dəyişdirmək, mübadilə etmək), mütləq və nisbi (və ya siyasi), təbii və qanuni. Nəzərə almaq lazımdır ki, burada ümumi və xüsusi ədalətin digər adı külli (universal) və cüzidir (particular). Ümumi və ya külli ədalət (la justice universelle) mütləq düzlük və doğruluq olaraq qanuna riayət etmək, onun şərtlərinin daim tərəfdarı olmaqdır. Xüsusi və ya cüzi ədalət (la justice particuliere) isə bərabərlik deməkdir. Hər bir insan cəmiyyətdə bu bərabərliyə riayət edərək bir-birlərinə qarşı insafla rəftar etməlidirlər. Aristotelin əsərlərini şərh edən bəzi tədqiqatçılar ədalətin bu növünü (xüsusi – cüzi ədalət) səhmlərin tənzimlənməsi və ya əmlak mübadiləsi hesab etmişlər (4, s.156). Xüsusi ədalət özü də iki hissəyə bölünür: bölgülü (la justice distributive) və mübadiləli ədalət (justice la reparative ou redressment):

a) Bölgülü ədalətdən məqsəd budur ki, cəmiyyət üzvlərinə fərq qoymadan bütün imtiyazlar hər bir insanın ləyaqətinə, istedadına və tutduğu dərəcəyə əsasən verilməlidir. Bölgülü ədalətdə əgər insanlar bərabər olmasalar bu halda onların arasında səhmlərin bölgüsü aparıla bilməz. Ədalətli insan odur ki, həm insanların, həm də veriləcək imtiyazların arasında bərabərliyə riayət etsin. Çünki belə bir halda şəxsin ləyaqəti, tutduğu dərəcə, veriləcək imtiyaz, həmçinin əşyanın vəziyyəti nəzərə alınır.

b) Mübadiləli ədalət isə (müamilə) – ticarət məsələlərini əhatə etdiyi üçün burada da bərabərliyə riayət olunmalıdır. Çünki burda əsas ədədlərin bərabərliyi və mütənasibliyidir (6, s.105). Mübadiləli ədalət bəzən islah edən ədalət də adlandırılır; mübadiləli ədalət insanlar arasında olan çatışmazlıqları, düzgün olmayan qərarları islah edir. Burada mülki hüququn qəsb etmək (başqasına mənsub olan haqqı əlindən almaq, mənimsəmək) barədə qərarını misal göstərmək olar. Bu qərara əsasən şəxs başqasının qəsb etdiyi hər hansı bir şeyi sahibinə qaytarmalıdır (11, s.96). Mübadiləli ədalət məhkəməyə aiddir, yəni məhkəmə sisteminə aid olan bir qüvvədir – prosesdir. Burada hakim (qazi) ədalətə söykənərək, cinayətkarın etdiyi hərəkətdən düzgün və ədalətli nəticə çıxararaq cinayətə məruz qalana yardım göstərməlidir. Bu istər inzibati (yəni iki tərəf arasında olan alış, satış, kredit və s.), istərsə də qeyri-iradi işlərdə (oğurluq, təcavüz, zorakılıq və s.) olsun. Mübadiləli ədalət ona görə belə adlanır ki, burada hakimin vəzifəsi ondan ibarətdir ki, hər iki halda (istər inzibati, istərsə də qeyri – iradi işlərdə) ona verilən səlahiyyətə əsasən qərar çıxartsın (10, s.329). Mübadiləli ədalətdə fərdin hansı təbəqədən olması, həmçinin ləyaqəti, tutduğu mövqeyi əsas deyil, burada əsas məsələ ondan ibarətdir ki, ədalətli hakim gərək hər iki tərəf arasında bərabər şəkildə qərar qəbul etsin, yəni qərəzli fikirləri, qərarları kənara qoysun. Ümumiyyətlə, ədalətin yuxarıda sadalanan bütün növlərində bərabərlik, haqlı qərar çıxartmaq mühüm şərtdir; haqlı qərarın çıxarılmasında təbii ki, inzibati hüquq normalarına xüsusi diqqət olmalıdır. İnzibati hüquq normaları dedikdə bu, icra hakimiyyəti sahəsində yaranan, dəyişən və xitam verilən, ictimai münasibətləri nizamlama məqsədilə dövlət tərəfindən müəyyən edilən davranış qaydalarıdır (1, s.55). Bölgülü və mübadiləli ədalətdən bəhs edərkən mühüm bir məsələyə diqqət etmək olduqca zəruridir. Bölgülü ədalət insanların dövlətlə əlaqəsini, yəni fərd və dövlət arasında olan münasibətləri sistemləşdirir ki, bunların ikisi də vahid bir sistemə daxildir, ancaq mübadiləli ədalət insanların bir-birləri ilə əlaqəsini, onların aralarında olan ünsiyyəti tənzimləyir və bu əlaqələri müəyyən, düzgün bir istiqamətə yönəldir; daha aydın desək, bölgülü ədalətdə insanların haqlarına riayət olunur və hər bir fərd tələblərinə uyğun olaraq ədalətdən

bəhrələnir. Halbuki, mübadiləli ədalətdə haqq və haqsız əməllər mülahizə olunur, yəni hər iki tərəf arasında olan mübahisə və münaqişələr aydınlaşdırılır, əsil səbəbkar cəzasını alır. Burada mübadiləli ədalət hər iki tərəf – cinayətkar və cinayətə məruz qalan arasındadır (10, s.320). Diqqət etsək görərik ki, burada çox mühüm bir fərq mövcuddur; mübadiləli ədalət riyaziyyata (ədədə), amma bölgülü ədalət isə həndəsəyə aiddir, yəni burada həm tək, həm də cəm hökm sürür; ədəd fərdə (şəxsə), cəm isə həndəsəyə (topluya) aiddir. Ədalət insan və dövlət arasında əlaqə yaradır və hüququ rəhbər tutaraq iki tərəf (şəxs və dövlət) arasında olan münasibətlərə riayət olunmasını tələb edir. Ədalətin mütləq növünə gəldikdə isə, Aristotel ədalətin bu növünü tərif etməmişdir, amma onun mülahizələrindən belə nəticəyə gəlmək olar ki, onun nəzərində mütləq ədalət ictimai – siyasi sistemin xüsusi bir növünə aid deyil, bəlkə mütləq ədalətə riayət etmək bütün insanlar – bəşəriyyət üçün vacibdir; daha aydın desək, yəni insanların bir-birləri ilə əlaqələri təkcə xüsusi bir cəmiyyət üzvləri arasında olmamalıdır, bəlkə burada bütün insan kütlələri hakim və islahedici qüvvəyə sahib olmalıdırlar. Ancaq nisbi ədalət isə, Aristotel bəzən nisbi ədaləti siyasi ədalət də adlandırır, çünki onun nəzərində siyasi ədalət ancaq müəyyən siyasi sistemlə bağlı olan xüsusi cəmiyyət üzvlərinə aiddir. Təbii ədalətin əsas ayinlərinə gəldikdə isə onun mənşəyi təbii (natural) və fitridir (instinctive). Bizi əhatə edən hər nə varsa – gecə və gündüz, odun yanması, ayın, günəşin çıxması, baş verən təbii hadisələr və s. bunlar çox aydın və görünən olduğu üçün insanın bunlar haqqında düşünməyə ehtiyacı yoxdur, yəni bunlar bizə tam aydın olduğu üçün bunları dərk etməkdə ağıla ehtiyac duyulmur. Ancaq qanuni ədalət dedikdə isə ədalətin bu növü məhz qanunun hökmü ilə yaranır və icra olunur, yəni burada ağıl mühüm şərtdir (11, s.196). Buna misal olaraq demək olar ki, cərimələrin məbləği və həbslərin müddəti qanunun çıxartdığı hökmə əsasən müəyyən olunur.

Sofistlərin ədalət barədə mülahizələrinə Aristotelin cavabı. Sofistlər (ing: Sophist) ədalət anlayışı barədə bəzən ziddiyyətli, bəzən fərqli arqumentlər irəli sürürdülər, ancaq Aristotel bunlara məntiq əsasında cavab verirdi. Onların fikrincə, təbiətdə ədalətin mövcudluğundan söhbət gedə bilməz, yəni təbiətdə ədalət yoxdur, çünki təbiət eyni ilə bir-birinə oxşayan və həmahəngdir, halbuki, ədalət zati olaraq nisbi və dəyişən bir məfhumdur. Aristotel onların bu fikirlərinə cavab vermişdir: "hüquqla bağlı qanunlar və sistemləşmiş məhkəmə qərarları təbii ki, təbiətdə mövcud deyil, bəlkə bunlar insanların iradəsinə bağlıdır və bütün məkanlarda da eyni formada deyildir. Səbəbi odur ki, hökumət sistemi hər yerdə eyni olmadığı üçün hökumətlər arasında digər bir hökumət mövcuddur ki, onların ən üstünü hesab olunur. Məhz bu səbəbdən də qanuni ədalət təbii ədalətlə (başlanğıc, ibtidai) fərqli xarakter daşıyır" (4, s.58,157). Aristotel Sofistlərin qarşısında bəşəri qanunu müdafiə etmişdir. Onun nəzərində təbiət anlayışı mükəmməl bir məfhum və potensial qüvvəyə malik olaraq hər bir şeydə mövcuddur. İnsan təbii olaraq ağıllı, əxlaqlı və mədəni bir varlıqdır. Təbii ki, insana aid olan haqlar da bu xüsusiyyətlərin fəaliyyət səviyyəsinə əsasən dəyərləndirilməlidir. Məlum olur ki, Aristotel ədaləti bərabər insanlarla bərabər münasibət, həmçinin bərabər olmayan insanlarla qeyri-bərabər münasibət kimi tərif edir. Aristotelin belə nəticəyə gəlməsinin səbəbi budur ki, onun nəzərində bəzi insanlar zatən qul və kölə xüsusiyyətlərinə sahibdirlər, belə insanlarla alicənab insanlar kimi rəftar etmək olmaz; belə xislətli insanlara bərabər deyil, qeyri-bərabər münasibət olmalıdır, çünki onların təbiəti alicənab münasibət deyil, məhz kölə münasibət tələb edir. Burada qeyri bərabər münasibət dedikdə ədalətə uyğun olan münasibət nəzərdə tutulur, yəni hər iki təbəqə (alicənab və kölə) layiq olduğu ədalətli münasibətə sahib olmalıdır. Aristotel təkid edir ki, bütün hallarda ədalətə riayət olmalıdır, ancaq bəzi insanların malik olduqları təbii xüsusiyyətlər nəzərə alı-

naraq həmin xüsusiyyətlərə uyğun münasibət göstərilməlidir.

**Platondan fərqli olaraq Aristotelin ədalət barədə fərqli düşüncələri.** Platon və Aristotelin ədalət barədə fikirlərini təhlil etdikcə Aristotelin fərqli düşüncələrinin şahidi oluruq, yəni Platondan fərqli olaraq Aristotel ədaləti özünə xas şəkildə təqdim etmişdir; Aristotelin ədalət barədə düşüncələri daha aydın, əhatəli və təbii xarakter daşıyır. Onun nəzərində, ədalət insanlar arasında bərabərlik, tarazlıq yaratmaqdır; hər şeyin daha yaxşı, fəzilətli olması orta həddir və orta hədd təbii bir həddir; təbiət özü də qeyri-bərabər hesab olunur və ədalət bu qeyri-bərabərliklərin davamındadır, yəni təbiətdə olan bütün bərabər və qeyri-bərabərliklərdə ədalətin öz funksiyası vardır. Belə olan halda, yuxarıda da qeyd olunduğu kimi ədalətə bu cür tərif vermək olar: istənilən baxımdan ədalət bərabər insanlarla bərabər rəftar etmək və qeyri-bərabər insanlarla qeyri-bərabər rəftar etmək deməkdi, çünki təbiətdə insanlar həm təbəqə və həm də cins baxımından müxtəlifdirlər; məsələn, kişilər, qadınlar, aşağı təbəqələr, kölə insanlar, qullar və digər vətəndaşlar bərabər deyillər. Məhz buna görə də onlarla qeyri-bərabər rəftar etmək ədalətə uyğundur; yəni hər bir şəxsin təbiətinə, tutduğu dərəcəyə və ləyaqətinə uyğun olaraq onunla rəftar etmək ədalətin tələbidir. Çünki maddə və surətin (external form) təbii inkişaf mərhələsində kişi, qadın, kölə, qul və digər insanlar özlərinə xas dərəcəyə sahibdirlər və nəzərə almaq lazımdır ki, təkcə dərəcə deyil, həm də cins və digər xüsusiyyətlər baxımından bir-birlərindən tamami ilə fərqlidirlər. Buna misal olaraq demək olar ki, yuxarıda qeyd etdiyimiz təkamül prosesində (təkcə maddə və surət – forma baxımından deyil, həm də əqli və ruhi baxımından) qadın kişidən bir addım geridədir. Beləliklə, Aristotel ədalətdə bərabərliyin tələb olunmadığını, bölgüdə isə zəruri olduğunu bildirir. Çünki bölgünün düzgün aparılması bəzən bərabərliklə eynidir və nəticədə Aristotel ədalətin növləri arasında yalnız bölgülü ədaləti ədalətin digər növlərindən daha üstün hesab edir. Məlum olur ki, Aristotel ədaləti bərabərlik deyil, bəlkə uyğunluq və ya müvafiqlik (nisbət) hesab edir. O, bu barədə yazır: cəmiyyətdə hər bir fərdin dərəcəsi, hüquqları və imtiyazları gərək onun ləyaqəti, səviyyəsi, bacarıq və biliyi əsasında müəyyənləşsin (5, s.20-21). Aristotelin ədalət barədə düşüncələrini təhlil edərkən digər bir ədalətin də şahidi oluruq ki, o, ədalətin bu növünü qanunun ədalətindən daha üstün hesab edərək onu insaf adlandırmışdır. Aristotel bəzən bunu qayda olaraq həm ədalət, həm də insaf adlandırır. O, bu qaydanı (insafı) xüsusi olaraq hakimlərə, qazilərə nisbət verir; bu mənada ki, hakim insafa riayət etməklə gərək qanunun çatışmayan tərəflərini aradan qaldırsın. Çünki insafla icra olunan hər hansı bir fəaliyyət ədalətli fəaliyyətdən daha üstündür. Onun nəzərində, insaf ədalətlə eyni kateqoriyadandır, ancaq növ baxımından insaf ədalətdən daha üstündür (11, s.97). Aristotelin nəzərində insafın ən əsas cəhəti bundan ibarətdir ki, insaf qanuna düzəliş edərək ictimaiyyətdə işlənməsini tətbiq edir; insaflı hakim (qazi) qanunun qeyri-səhih məsələlərində özünü qanunvericiliyin varisi, bəzən isə vəkili kimi tanıtdırır, digər tərəfdən isə qüsurlu qanunun qarşısını almaq üçün insafa əsaslanaraq bundan ilham alır; məhz insafa riayət etməklə qanunvericilikdə ümumi qanunları islah edir. Platondan fərqli olaraq Aristotelin ədalət barədə digər arqumenti ədaləti müəyyən bir hədd hesab etməməsidir, yəni Aristotel ədaləti ifrat (excess) və təfrit (neglect) arasında hədd hesab etmir. Çünki Aristotel insana mənsub olan ifrat və təfriti pisləmiş, yalnız ifrat və təfrit arasında olan həddin ədalətlə birlikdə olduğunu qəbul etmiş, ədaləti insan üçün ən yaxşı fəzilət hesab etmişdir. Platon isə fəzilətə mənsub olan sifətlərin ifrat və təfrit tərəfləri olduğunu qəbul etmir; məsələn, hikmət elə bir xüsusiyyətdir ki, nə qədər öyrənilsə də insan yenə onu öyrənməyə can atır və daha da dərindən öyrənilməsini istəyir. Bu isə pis deyil, əksinə yaxşı və bəyənilən hesab olunur.

Platonun fikirlərindən belə nəticəyə gəlmək olar ki, ədalət insanın nəfsi ilə bağlı olan bir xüsusiyyətdir ki, topluda özünü göstərir. Ədalət o zaman insanda özünü göstərməyə başlayır ki, üç qüvvə – ağıl, qəzəb və şəhvət qüvvələri öz yerində olsun və xüsusi bir əmr onların münasibətlərini idarə etsin; bu üç qüvvənin hər biri özünün xüsusi vəzifəsini yerinə yetirsin. Bununla belə, nəfsin bütün qüvvələri, o cümlədən qəzəb və şəhvət qüvvələri də gərək ağılın nəzarəti altında olsun. Burada hökumət layiqli və müdrik insanlardan təşkil olunmalıdır. Amma Aristotelə gəldikdə isə o, ədaləti insana verilən təbii bir haqq hesab edir; yəni insan bu haqqa layiq olduğu və özünün haqqı olduğu üçün bu fəzilət – ədalət ona verilir. Onun nəzərində ədalət hər bir şeyin arasında mövcud olan xüsusi bir həddir və bu hədd təbii bir həddir; çünki təbiət adətən qeyri-bərabər olaraq dərk olunur və düşünülür, ədalət bu qeyri-bərabərliyi aradan qaldıran bir vasitədir. Burada mühüm bir məsələyə diqqət etmək olduqca vacibdir. Əgər baxsaq görərik ki, Platon ədalət barədə bəhs edərkən müxtəlif gözəl sözlərdən istifadə edir, baxmayaraq ki, Aristotel ədalət anlayışında gözəl, xoşagələn, bəyənilən sözlərdən istifadə etməmiş, lakin əxlaqın bütün kateqoriyalarını, o cümlədən ədaləti elmi və nəzəri olaraq izah etmişdir; daha aydın desək, Aristotel Platondan fərqli olaraq ədaləti ümumi formada deyil, hər birinin növlərini və bunların ictimai-siyasi, etik funksiyalarını ayrı-ayrılıqda izah etmişdir. Bu onu göstərir ki, Aristotel ustadından fərqli olaraq, ümumi fikirlərdən uzaqlaşaraq daha çox təcrübi metodlara istinad etmiş, hər bir məsələni detallarına kimi bəyan etmişdir.

### Təbii hüquq və etik dəyərlərin nisbəti

Təbii hüquq və etik dəyərlər arasında olan bağlılıq təkcə filosofların deyil, hüquqşünas filosofların və siyasi xadimlərin də bəhs etdiyi əsas mövzulardan biri olmuşdur. Aristotel fəlsəfəsinə əsasən təbii hüquq və etik dəyərlərin nisbətindən bəhs edərkən filosoflarla yanaşı ictimai-siyasi alimlərin fikirlərini də təhlil etmək zəruridir. Ümumiyyətlə, təbii hüquq və etik dəyərlər arasında olan nisbət bütün dövrlərdə öyrənilmiş, hər bir mütəfəkkir əsaslandığı dəlilləri (sübut) bəyan etmişdir. Bu mənada, filosoflar arasında təbii hüququn əsas mənbəyinin haradan gəldiyi barədə ciddi fərqli fikirlər mövcuddur. Təbii hüquq nəzəriyyəsi ilə bağlı fikirlərin müxtəlif olmasına baxmayaraq əldə olunan nəticə o qədər də fərqli deyil, demək olar ki, oxşardır. Bunun üçün iki böyük filosofun fikirlərinə diqqət etmək kifayətdir. Bunlardan biri İmmanuel Kant (1724-1804), digəri isə Herbert Spenserdir (1820-1903). Bu iki nəhəng filosof baxmayaraq ki, məsələyə fərqli aspektdə yanaşmışlar, ancaq ümumi nəticə demək olar ki, oxşardır. Kant praktiki ağılın (practical mind) əsaslarını təbii hüquq üçün başlanğıc hesab etmişdir (14, c.1.s.27). Kant bu barədə yazır: sizin davranışınız elə olmalıdır ki, azad iradənizi həyata keçirmək üçün ümumi qanuna əsasən başqalarının da azadlığı nəzərə alınsın, yəni hər bir davranışda, rəftarda ümumi qanun (məqsəd təbii hüquqdur) nəzərə alınmalı və buna əməl olunmalıdır (8, s.13). Ancaq Spenserin təbii qanunlara dair empirik mülahizələri təbii hüquq qaydaları ilə demək olar ki, eynidir. Spenser də Kantın bu fikrinə oxşar digər fikir söyləmişdir: "hər bir şəxs başqalarının azadlığına zərər verməmək şərti ilə istədiyini etməyə haqqı vardır" (həmin mənbə). Təbii hüquq və etik dəyərlərin nisbətindən bəhs edərkən, digər mülahizəni Fransanın tanınmış filosofu və antropoloqu Lusien Levinin (Lucien Lévy-Bruhl: 1857-1939) fikirlərində müşahidə edirik. O, təbii hüquq və etik dəyərlərdən bəhs edərkən Hollandiyanın tanınmış filosofu, hüquqşünas filosof, siyasətçi alim, dövlət xadimi, hakim (həm də şair) olan Hüqo Qrotsinin (Hugo Grotius: 1583-1645) "Müharibə və Sülh qanunu haqqında" (latın: De iure belli ac pacis; eng: On the Law of War and Peace) əsərindən sitat gətirmişdir: "hətta əgər fərz edək ki, Tanrının varlığı mövcud deyil, ya mövcud aləmlə əlaqəsi yoxdur, buna

baxmayaraq təbii hüququn varlığını inkar etmək olmaz" (17, s.9-10); sonra o, Hüqonun fikrini tamamlamaq üçün yazır: "Hüqonun məqsədi o deyil ki, təbii hüquq ilahi və digər iradə ilə əlaqəsi yoxdur, əksinə təbii hüquq nəinki ilahi və digərlərinin iradəsi ilə, hətta bütün hallarda mövcud aləmlə sıx bağlılığı vardır. Məhz bu bağlılıq nəticəsində insanlar arasında ictimai-siyasi, etik dəyərlər yaranır" (həmin mənbə). Qeyd etmək vacibdir ki, Qrotsi təbii hüquqa heç bir nəzəriyyədə mövcud olmayan yeni bir məna vermişdir; yəni o, yeganə hüquqşünas filosofdur ki, təbii hüququ beynəlxalq münasibətlərlə əlaqələndirmişdir. Hüqo Qrotsinin beynəlxalq hüquq nəzəriyyəsi məhz təbii hüquqa əsaslanır. Onun fikrincə, dünyada yaşayan bütün millətlərin ortaq bir qanunu olmadığını nəzərə alaraq, bunların hamısının bir-biri ilə münasibətdə təbii hüquqa riayət etmələri zəruridir. Qrotsinin nəzərində təbii hüquq o hüquqa deyilir ki, İlahi varlıq bəşər övladını yaradanda bu hüququ onun təbiətində – zatında qoymuşdur və buna görə də hər bir insan öz ağlı və bacarığı əsasında bunu özündə aşkar və kəşf edə bilər. Təbii hüququn əsasını təşkil edən yaşamaq haqqı və azadlıq, pozitiv hüquq nəzəriyyəsinin tərəfdarları olan filosof və hüquqşünasların da əsas bəhs etdiyi mövzulardandır. Bəzi filosof və hüquqşünas filosoflar təbii hüquqa diqqət edərək yaşamaq və azadlıq hüququnu iki ali prioritet hesab etmişlər. İngilis filosofu və hüquqşünası Herbert Hart (Herbert Lionel Adolf Hart: 1907–1992) belə nəticəyə gəlir ki, əgər haqq varsa onda azadlıq deyilən bir hüquq da olmalıdır, çünki bundan sonra hər nə varsa məhz bu azadlıq deyilən hüquqa bağlıdır. İngilis filosofu və siyasi islahatçı, İngilis İdealist Hərəkatının üzvü olan Tomas Hillin (Thomas Hill Green:1836-1882) fikrincə isə əgər hüquq deyilən bir məfhum mövcuddursa onda bu, yaşamaq və azadlıq hüququ ya sadə dillə desək "sərbəst yaşamaq hüququ" olmalıdır (32, p.114). İngiltərənin siyasi filosofu Tomas Hobbsın da (Thomas Hobbes: 1588-1679) təbii hüquq və etik dəyərlər barədə fikirləri maraqlıdır. O, siyasi fəlsəfəsində təbii hüquq və etik dəyərlərdən bəhs etmiş, təbii hüquq və təbii azadlıq arasında olan mühüm bir fərqə diqqəti çəkmişdir. Hobbs yazır: hər bir fərd hər bir şeydə, hətta digərlərinin də həyatında haqqı vardır; digərlərinin həyatında haqqı vardır dedikdə, yəni insan yaşamaq üçün oğurluq, edir, qətl törədir, digər insanlardan qul kimi istifadə edir və başqalarının haqqını mənimsəyir – qəsb edir. Əgər insanlar dinc həyat yaşamaq istəsələr gərək özlərinin təbii haqlarında, təbii ehtiyaclarında, tələblərində güzəştə getməyi bacarsınlar; yəni bəzi məsələlərdə çox tələbkarlıq etməsinlər, bir-birlərinə qarşılıqlı münasibətdə tarazlığı qorusunlar. İnsanlar arasında olan belə münasibətlər etik dəyərlərinin göstəricisidir ki, təbii hüquqda buna təkid olunmuşdur. Belə olan halda mədəni və siyasi bir cəmiyyətin mövcudluğu şübhəsizdir. Bu, dövlətin əsaslandığı ictimai müqavilə adlanan ilk quruluşlarından biridir (13, s.327). Digər məşhur ziyalı alim, siyasi xadim, inqilabçı, idealist və Amerika Birləşmiş Ştatlarının qurucularından biri olan Britaniyalı Tomas Peyndir ki, (Thomas Paine: 1737-1809) təbii hüquq tərəfdarlarından olmuşdur. 1791-ci ildə yazdığı "İnsan hüquqları" traktatında (kiçik həcmli kitab, risalə) mühüm bir məsələyə diqqəti yönəltmişdir. O, insan haqlarından bəhs edərkən hər bir fərdin şəxsi hüquqa sahib olması üçün dövlətin yaranmasını vacib hesab edir. Tomas Peyn bu barədə yazır: hüququ hər hansı bir nizamnamədə təsbit etmək olmaz, çünki qanuna əsasən belə bir nizamnamənin ləğv olunması mümkündür və belə bir şəraitdə ola bilər hüququn imtiyaz və üstünlükləri azalsın, aradan getsin. Təbii hüquq bütün insanların haqqıdır, ancaq əksər insanlarda bu hüquqların ləğv olunması nəticəsində nizamnamələr təkcə bir neçə insana aid olacaq. Deməli, reallıq budur ki, insanların hər biri qarşılıqlı şəkildə özlərinin şəxsi və müstəqil hüquqlarına sahib olmaları üçün yalnız dövlətin yaranmasına səy göstərməli və çalışmalıdırlar (23, s.18-20). Digər mənbədə insan haqları liberal dəyərlərlə əlaqələndirilir: "insan

haqlarının müxtəlif nəsillərə bölünməsi haqqında artıq qeyd edilmişdir. Hüquq ədəbiyyatında birinci nəsil insan haqlarına burjua inqilabları nəticəsində yaranan və ənənəvi liberal dəyərlər kimi formalaşan insan haqları aid edilir” (9, s.40). Göründüyü kimi burada təkcə ictimai tələblərə deyil, ən əsası təbii haqlara və etik normalara ehtiyacın olmasıdır. Çünki insanların bir-birləri ilə ünsiyyətdə olması, sağlam fikir yürütməsi etik münasibətlərin yaranmasına səbəb olur ki, məhz bunun da nəticəsində təkcə sağlam cəmiyyət deyil, həm də möhkəm və davamlı qurum yaranır ki, biz buna dövlət deyirik.

**Təbii hüquq və onun müxalifləri.** Təbii hüquq tərəfdarları ilə yanaşı bu nəzəriyyənin müxalifləri də olmuşdur. Təbii hüquq müxalifləri öz təhlillərində daha çox tədqiqi hüququ (positive law) irəli çəkmişlər; onlar təbii hüququ hissə əsaslanan, emosional, möhkəm sübutları olmayan, metafizik və nəticədə faydasız bir nəzəriyyə hesab etmişlər. Buna misal olaraq Britaniyalı filosof, hüquqşünas, moralist və utilitarizm (ing: utilitarianism, davranışın faydalılığını onun əxlaqiliyinin meyarı kimi qəbul edən estetik nəzəriyyə) nəzəriyyəçisi Ceremi Bentam (Jeremy Bentham: 1748-1832) təbii hüququ xəyal və onu müdafiə edən sübutları isə absurd ritorika adlandırmışdır. Onun nəzərində, zəruri icra səlahiyyəti olmayan belə bir hüquq barədə danışmaq və ona tərəfdar olmaq düzgün deyil. Çünki idarə və icra etmə səlahiyyəti hisslə, emosional yanaşma ilə olmaz, bu, yalnız qanuni bir sistemlə mümkündür (24, internet resursu). Haqq qanunları yaradır və bu, təsviredici bir məfhumdur; burda metafizik məsələlərin olması mümkün deyil (35, pp.82-84). Təbii hüquq nəzəriyyəsinin digər müxalifi məşhur Şotland filosofu, empirizm və aqnostisizmin (aqnostisizm Tanrının, İlahi və ya fövqəltəbii varlığın naməlum və ya bilinməz olduğuna dair baxışdır) nümayəndəsi, ingilis maarifçiliyinin ən məşhur xadimlərindən biri olan Devid Yumdur (David Hume: 1711-1776). Onun nəzərində heç bir zəruri və qaçılmaz prinsip təbii hüquq və ədalətdə mümkün deyil (20, s.184). Devid Yumun təbii hüquqa belə yanaşması onun ümumi mövqeyindən irəli gəlir. Çünki o, ağılla bağlı olan zərurəti və ümumiliyi inkar etmişdir; onun fikrinə əsasən ümumi məlumatlar cüzi (part, particular) məlumatlardan yaranır, ümumi məlumatlar cüzi məlumatların göstəricisi və nişanəsidir. Məhz buna görə də ümumi qayda və prinsiplərin təfərrüatları heç vaxt əldə oluna bilməz. Onun burada ümumi təsəvvür barədə olan inamsızlığı özünü açıq-aşkar göstərir və bu onu deməyə əsas verir ki, o, təbii hüquq və ədalət kimi ümumi qayda və prinsiplərə etiqadı olmamışdır. İngilis filosofu və siyasi islahatçı Tomas Hill (Thomas Hill Green 1836-1882) də baxmayaraq ki, bəzi məsələlərdə təbii hüquqdan sitatlar gətirmiş, amma bütövlükdə təbii hüququn bir çox məsələləri ilə razılaşmamışdır. O, təbii hüququ qəbul etməmək səbəbini belə izah edir: “təbii hüquq nəzəriyyəsi cəmiyyətlə bağlı olmayan hüquqi şəxslərin cəmiyyətə gətirildiyini fərz edir; yəni bu şəxslər müəyyən bir qanunvericilik tərəfindən deyil, məhz təbii qanunlar əsasında cəmiyyətdə yaranmışlar. Bu hüquq (təbii hüquq) cəmiyyətə qarşı istifadə oluna bilər və təbii ki, bu da cəmiyyətdə fərdi hüququ digər fərdlərin vəzifə və öhdəliklərindən ayırır” (18, s.6,26). Həmçinin, XX əsrin məşhur Amerikalı yazarı və tarixçisi Gorcg Sçerger (George Lawrence Scherger: 1874-1941) təbii hüququn müxaliflərindən olmaqdan əlavə, həm də bu nəzəriyyəni qüsurlu hesab etmişdir. O, yazdığı “Müasir Azadlığın Təkamülü” (The Evolution of Modern Liberty) əsərində bunu belə şərh edir: “təbii hüquq nəzəriyyəsi nöqsanlı, qüsurlu bir nəzəriyyədir və nüfuzlu alimlərdən heç biri bu nəzəriyyəni qəbul etməyə hazır deyildir” (31, p.11). Təbii hüquq barədə söylənilən müxalif fikirlərə baxmayaraq bu da faktdır ki, qədim dövrdən başlayaraq hazırki dövrümüzə qədər öyrənilən və tətbiq olunan qanunların kökündə təbii hüququn prinsipləri mövcuddur ki, bu barədə Con Lokkun təbii hüquq nəzəriyyəsinə diqqət etmək kifayət edər.

**Con Lokkun təbii hüquq nəzəriyyəsində təbii haqlar.** Təbii hüquq və etik dəyərlərin nisbətindən bəhs edərkən ingilis filosofu, ictimai-siyasi xadim Con Lokkun (John Locke: 1632-1704) təbii hüquq nəzəriyyəsinə diqqət etmək zəruridir. Çünki Con Lokk təbii hüququ etik dəyər kimi qəbul etməkdən əlavə, həm də təbii hüququn insan həyatında çox böyük təsiri olduğunu bildirmişdir. Bundan əlavə, təbii hüquq, dövlət və mülki məsələlər Con Lokk fəlsəfəsində əhatəli şəkildə bəyan olunmuşdur, ancaq bəzi mənbələrdə bu barədə az bəhs olunduğu iddia olunur. İngiltərənin tanınmış tarixçisi Fransiz Okley (Francis Christopher Oakley: 1931) və Amerikalı hüquqşünas Elliot Urdanq (Elliot W. Urdang) Con Lokkun fikirlərinə istinad edərək yazır: "ola bilər təbii hüquq məfhumu Con Lokk fəlsəfəsində dövlətlə bağlı olan mülkü məsələlərdə daha çox əhəmiyyət kəsb etsin və mühüm iz qoysun, amma çox heyf ki, Con Lokk bu barədə az bəhs etmişdir (36, p.64). Hər halda, Con Lokk bu məsələlərdə Hüqo Qrotsinin ardıcıllarından biridir. O, ilk olaraq haqlardan bəhs edərkən bütün insanları bərabər hesab edir və onun nəzərində insana mənsub olan haqlara əsasən biri digərindən üstün deyildir. O, çalışırdı ki, bütün insanları haqlar baxımından eyni şəkildə dəyərləndirsin və bu dəyərləndirmə onun fikrincə etik dəyərlərin göstəricisidir; müəllif Con Lokkun fikirlərinə istinad edərək bu barədə yazır: "təbii olaraq bütün insanlar bərabər və müstəqildirlər. Təbii hüquq Tanrının tutarlı bir sənədidir və bu həmin sənəddir ki, bəşər varlığında mövcuddur. Belə olan halda bunu ilahi hüquq, ilahi qanun, hətta əzəli və əbədi bir qanun da adlandırmaq olar" (22, s.114). Con Lokk təbii hüququ təbii vəziyyətlə əlaqələndirir və bildirir ki, təbii vəziyyət iki əsas xüsusiyyəti əhatə edir: tam azadlıq və ümumi bərabərlik. Təbii vəziyyət təbii hüququn əmrinə tabedir və heç bir insan digər bir insana əmr vermir; yəni təbii vəziyyət təbii hüquqa əsaslanır ki, bu da hamı üçün məcburidir. Təbii hüququn əsasını təşkil edən ağıldır ki, insanlar məhz ağıl vasitəsi ilə dərk edirlər ki, bütün insanlar bərabər və azaddırlar. Buna görə də insanlar səy göstərməlidirlər ki, bir-birləri ilə münasibətdə etik məsələlərə riayət etsinlər; insanların həyatına, azadlıqlarına, həmçinin sahib olduqları mala, mülkə və sərvətə ziyan verməsinlər (2, s.276). Bundan əlavə, Con Lokkun təbii hüquq nəzəriyyəsində insan və azadlıq məfhumları əsas məsələlərdən biri olaraq öyrənilir; o, azadlığı təkcə insanın sahib olduğu müstəqil vəziyyəti deyil həm də azadlığın nəyə qadir olduğunu aydınlaşdırmağa çalışır ki, bundan sui-istifadə olunmasın. O, insan və azadlıq haqqında yazır: "insanın təbii azadlığı dedikdə, yəni bu o deməkdir ki, insan özündən daha güclü bir qüvvəyə tabe olmamaqla yanaşı həm də insanın verdiyi qanunla idarə olunmasın (12, s.73). Con Lokk təkcə hüququn deyil, dövlətin də təbii olduğuna inanır; dövlətin təbii olduğu dedikdə, yəni belə bir dövlətdə bərabərlik üstünlük təşkil etməlidir. Burada güc və hakimiyyət qarşılıqlı fəaliyyət göstərməlidir; güc dedikdə isə, xüsusi insan kütləsi nəzərdə tutulur ki, məhz bu kütlənin vasitəsi ilə hakimiyyət şərti olaraq həvalə olunur. Belə olan halda heç bir qüvvə hakimiyyətdən öz şəxsi marağı üçün istifadə edə bilməz və bunun da nəticəsində kütlə arasında bərabərlik yaranar. Təbii hüquqda təkcə bərabərlik deyil, həm də azadlıq, ədalət, mülkiyyət hüququ bəşəriyyətin inkişafı və tərəqqisi üçün ilahi tərəfindən insana verilən haqq təbii hüququn əsas sütunlarından hesab olunur. Con Lokkun diqqət etdiyi digər mühüm məsələlərdən biri də mülkiyyət hüququdur. Onun nəzərində mülkiyyət hüququ digər haqlar kimi ilahi tərəfindən insana təbii olaraq verilir, yəni insanlara heç bir fərq qoyulmadan bərabər şəkildə verilir (7, s.193,197). Con Lokk fəlsəfəsində mülkiyyət hüququ o qədər əhatəli və dəqiq tədqiq olunmuşdur ki, bir çox siyasi filosoflar və dövlət xadimləri bu məsələyə diqqət yönəltmişlər. Almaniyanın siyasi fəlsəfə nəzəriyyəçisi və tarixçisi Leo Straus (Leo Strauss: 1889-1973) Con Lokkun fikirlərinə əsaslana-

raq mülkiyyət hüququ barədə belə yazır: “Mülkiyyət hüququ Con Lokkun əsas təlimlərindən, həmçinin təbii hüququn bölmələrindən biridir. Çünki təbii hüquq mülkiyyət hüququnun əsas prinsiplərini təyin edir; vətəndaş cəmiyyəti formalaşmazdan əvvəl insanların sahib olduqları var-dövlət, sərvətlər mövcud olmuşdur və insanlar təbii olaraq əldə etdikləri mülkiyyəti qorumaq üçün vətəndaş cəmiyyətinə daxil olurlar” (21, s.248). Parri Grant (Parry Geraint) da bəşəri azadlıqdan və mülkiyyətdən bəhs edərkən Con Lokka istinad etmişdir. O, bu barədə yazır: Con Lokk azadlıq və mülkiyyət hüququnu ilahi haqq olaraq ən yaxşı haqq hesab edir, onun nəzərində mülkiyyət hüququ Tanrıya məxsusdur və heç bir mülkiyyət hüququ ondan üstün deyil və onu aradan apara da bilməz (37, p.40). Con Lokkun mülkiyyət hüququnu təhlil edərkən məlum olur ki, o, daha çox şəxsə mənsub olan xüsusi mülkiyyəti müdafiə etmişdir. Con Lokk iddia edirdi ki, fərdi mülkiyyət insanların təbii haqqıdır; təbii hüququn mövcudluğu ictimai, etik dəyərdir, yəni hər hansı bir mülki hakimiyyətdən (civil authority) üstündür. Buna görə də dövlət başçısı tərəfindən mülkiyyətin hər hansı bir şəkildə pozulması insanın təbii haqlarının pozulması deməkdir (16, s.137-138). Con Lokkun təqdim etdiyi mülkiyyət hüququnda hüququn insanlar arasında eyni olmadığının da şahidi oluruq; onun nəzərində mülkiyyət hüququ mal-mülk və sərvət baxımından qeyri-bərabər də ola bilər. Amerikalı siyasi filosof və iqtisadçı Karl Viderqust (Karl Widerquist: 1965) Con Lokkun bu fikirlərinə diqqəti yönəldərək yazır: “Lokk təbii hüquq nəzəriyyəsində fərdi şəxslərin xüsusi mülkiyyətdəki bərabərsizliyə necə sahib ola biləcəyini göstərir. Bu o deməkdir ki, o, cəmiyyət üzvləri arasında əmlak və sərvət bərabərsizliyini qəbul etmişdir” (38, p.4). Müəllifin fikrincə, Lokk təbii hüquqdan bəhs edərkən daha çox mülkiyyət hüququnu önə çəkmişdir: “Lokkun kitabında əksər fəsillər mülkiyyət barəsindədir ki, bu da təbii vəziyyətə əlaqədardır, ancaq sonda bir neçə paraqrafdır ki, (45-dən 51-ə qədər) vətəndaş cəmiyyətindəki mülkiyyətə şamil olunur. Bu onu göstərir ki, Lokkun nəzərində, təbii vəziyyətlə bağlı olan mülkiyyət daha çox önəm kəsb etmişdir” (38, p.13).

Yuxarıda qeyd olunduğu kimi təbii vəziyyətin əsas prinsipləri tam azadlıq və ümumi bərabərlikdir. Məhz buna görə də ki, Con Lokk təbii hüquq nəzəriyyəsində haqlı olaraq buna daha çox önəm vermişdir; azadlıq və bərabərlik təbii (zati) bir əmr olaraq təbii hüququn əsasını təşkil edir ki, bu da bütün insanlara şamil olmaqla yanaşı həm də məcburi bir əmrdir. Con Lokkun mülkiyyət hüququna daha çox önəm verməsi təkcə Karl Viderquistinin fikri deyil, buna oxşar digər müddəanı da Con Mikleland (John Mcclelland) bildirir. Onun fikrincə, Lokk nəzəriyyəsinə əsasən mülkiyyət hüququndan bəhs edərkən bu hüququn cəmiyyət üzvləri arasında əhəmiyyətini də qeyd etmək lazımdır. O, Con Lokkun fikirlərinə istinad edərək yazır: “Lokk nəzəriyyəsində təbii hüququ, xüsusi ilə fərdi mülkiyyəti müdafiə edən hər hansı bir hökumət qanuni bir hökumət olaraq qəbul edilir. Çünki Lokk öz təlimlərində mülkiyyəti təbii hüququn əsas məhvəri, digər haqları (azadlıq, yaşamaq və s.) isə mülkiyyət hüququndan sonra hesab etmişdir” (19, s.534). Ümumiyyətlə, Con Lokkun təbii hüquq və ictimai-siyasi fəlsəfəsini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, onun nəzərində etik dəyərlərə əsaslanan hüquq hökumətdən öndə olmalıdır, çünki hökumətin yaranmasında və mövcud olmasında əsas şərt, insanların hüquqlarını müdafiə etməkdən asılıdır. Hökumət və qanun təbii vəziyyətlə bağlı olan tam və mükəmməl bir hüquqa heç bir əlavələr etməməlidir; dövlət və hökumət təbii hüququ müdafiə etməlidir, çünki insana mənsub olan can, mal, mülk, sərvət və azadlıq təbii hüquqla bağlıdır ki, Lokk bunların hamısını mülkiyyət adlandırır.

**Tədiqatın ümumi nəticəsi.** Aparılan tədqiq və təhlillərdən belə nəticəyə gəlmək olar ki, Aristotelin fəlsəfəsində insanın təbii olaraq yaxşı işlər görmək istəyi, sonra xoşbəxtliyə çatmaq üçün müəyyən bir yolda hərəkəti

əqli (rasional) meyara riayət etməklə və ya təbii hüququn məzmununa görə həyata keçirilir. Aristotelin həm təbii hüquq həm də əxlaq nəzəriyyəsi güclü təbiətə (intense nature) söykənir, yəni mövcud aləmdə olan bütün varlıqların yaranmasında bir məqsədin və ya hədəfin olması səbəblərinə əsaslanır; burada ümumi və xüsusi qanunlar mövcuddur, xüsusi qanun elə bir qanundur ki, insanlar onu öz aralarında yaradırlar, ancaq ümumi qanun yazılmamış qanunlardır ki, təbiətlə bağlıdır, ümumi qanun isə sabit və dəyişməyən həmçinin yazılmayan təbii qanundur ki, insanlar onu təbii olaraq dərk edirlər. Nəzərə almaq lazımdır ki, Aristotel təbii qanun dedikdə burada məqsəd təbii hüquqdur ki, bəzən təbii qanun da adlandırılır. Təbii hüquq və ədalətin qarşılıqlı əlaqəsi dedikdə isə, Aristotel Platondan fərqli olaraq ədaləti ümumi formada tərif etmir, o, bu əsərində (Nikomaxusun əxlaqı) ədalətə mənsub olan bir çox xüsusiyyətlərdən bəhs edərək ədalətin növlərinə diqqəti yönəldir. Ədalətin sadalanan bu növləri bir-birindən ayrı deyil, bəlkə bir-birinə həm təsiri, həm də bağlılığı vardır. Bundan başqa, Aristotel ədaləti xüsusi bir formada təqdim edir. Onun nəzərində, ədalət insanlar arasında bərabərlik yaratmaqdır. O, ədalətdə bərabərliyin tələb olunmadığını, ancaq bölgülü ədalətdə isə zəruri olduğunu bildirmişdir. Aristotel digər bir ədalətdən də bəhs edir ki, bunu qanunun ədalətindən üstün hesab edərək insaf adlandırmışdır. İnsaf qanuna düzəliş edərək ictimaiyyətdə işlənməsini tətbiq edir, həmçinin qanun keşikçiləri insafa riayət etməklə qanunvericilikdə ümumi qanunları islah edirlər. Platonun ədalət barədə fikirlərinə gəldikdə isə Platonun nəzərində ədalət insanın nəfsi ilə bağlı olan bir xüsusiyyətdir. Ədalət odur ki, iki digər təbəqə – mühafizəkarlar və insan kütləsi öz mövqelərində sabit olsunlar və bunlara ancaq müdrik insanlar başçılıq etməlidir. Hər bir fərd özünə xas olan işlə məşğul olmalı, tutduğu mövqeyindən sui-istifadə etməməli həmçinin fəaliyyət zamanında həddini aşmamalıdır.

Tədqiqatda digər mühüm məsələ Sofistlərin ədalət barədə mülahizələrinə Aristotelin cavabıdır. Sofistlər iddia edirdilər ki, təbiətdə ədalətin olması mümkün deyil, çünki təbiət eyni və həmahəngdir, halbuki, ədalət təbii bir məfhum olaraq dəyişəndir. Aristotel onların bu fikirlərinə cavab verərək bildirir ki, qanuni ədalət təbii ədalətlə fərqli xarakter daşıyır. O, bəşəri qanunu müdafiə edərək bildirir ki, təbiət anlayışı mükəmməl bir qüvvəyə malik olaraq hər bir şeydə mövcuddur. Burada digər mühüm mövzulardan biri də təbii hüquq və etik dəyərlərin nisbəti və təbii hüquq və onun müxalifləridir. Ümumiyyətlə, filosofların və hüquqşünas filosofların təbii hüququn mənbəyi barədə fərqli fikirləri mövcuddur. Məsələn, Kant praktiki ağılı təbii hüququn əsası hesab etmişdir. Onun fikrincə, insan davranışında ümumi qanunu nəzərə almalı və buna əməl etməlidir. Bu fərqli fikirlər təkcə filosoflar arasında deyil, hüquqşünas filosoflarla yanaşı siyasi alimlərin də diqqətini cəlb etmiş və müəyyən fikirlər irəli sürmüşlər ki, bunlar barədə bəhs olmuşdur. Məqalədə həmçinin Con Lokkun təbii hüquq nəzəriyyəsində təbii haqlara istinad edərək ətraflı təhlillər aparılmışdır. Təbii hüquq ilahi qanunlardır ki, təbii hüquq və təbii qanun adı ilə insana verilmişdir. Onun fikrincə, bəşər övladı məhz ilahi vəhy vasitəsi ilə təbii hüquqla tanış olmuş və bundan sonra onu ağıl vasitəsilə dərk edərək təsdiqləmişdir. Con Lokk həmçinin etik norma və qaydaların dərk edilməsində də ağılın gücünü xüsusilə vurğulayır ki, bu da təbii hüququ təsdiq etmək üçün onun humanist mövqeyidir. Buradan məlum olur ki, Con Lokk təkcə mülkiyyət hüququnu deyil, həm də təbii hüququn əsas üç hissədən ibarət olduğunu bildirir: bunlar yaşamaq hüququ, azadlıq hüququ və mülkiyyət hüququdur ki, bəşər övladına sonrada deyil, məhz doğulduğu andan verilmişdir.

**Ədəbiyyat:**


1. Abdullayev A. İnzibati hüquq. Bakı: Qanun, 2005, 376 s.
2. Alim Əbdülrəhman. Yeni dövr və XIX əsr Qərb siyasi fəlsəfəsinin tarixi. Tehran: Xarici İşlər Naziriliyi, h.ş. 1396/2017 m., 552 s.
3. Aristotel. Nikumaxusun əxlaqı. Fars dilinə tərcümə edən:: Muhəmməd Həsən Lutfi Təbrizi. Tehran: Tərh e-nu, h.ş. 1377/1999 m., 416 s.
4. Bern Jan. Aristotel və Məşşayi hikməti. Fars dilinə tərcümə edən: Seyid Əbulqasim Pur Hüseyni. Tehran: Əmir Kəbir, h.ş. 1373/1995 m., 179 s.
5. Bəhram Əxəvan Kazimi. Platon və Aristotelin siyasi fəlsəfəsində ədalət anlayışının müqayisəli təhlili. Tehran: Elmi və Tədqiqat Jurnalı: Hüquqşünaslıq, c. 10, № 3, h.ş. 1397/2019 m., 27 s.
6. Cavan Musa. Hüququn əsasları. Birinci cild, Tehran: Kamal rəngin şirkəti h.ş. 1336/1958 m., 376 s.
7. Con Look. Hakimiyyət haqqında iki traktat (risalə). Fars dilinə tərcümə edən: Fərşad Şəriət. Tehran: Negah, 1392/2013 m., 366 s.
8. Dell Vikko. Hüququn fəlsəfəsi. Fars dilinə tərcümə edən: Cavad Vahidi. Tehran: Mizan, h.ş. 1380/2002 m., 275 s.
9. Əliyev M. İnsanın yaşamaq hüququ və onun sosial müdafiə sahəsində təminatları. Bakı: Təknur, 2009, 200 s.
10. Haşimi Hairi İlahi. Digər baxımdan yunan fəlsəfəsi. Tehran: Mişkat, h.ş.1374/1996 m., 468 s.
11. Həmid İnayət. Qərbdə siyasi fəlsəfənin əsasları. Efesli Heraklitosdan Tomas Hobbsa qədər. Tehran: Mustafa Qah, Tehran, h.ş. 1398/2020 m., 246 s.
12. Hobbs Tomas, Con Look, Jan Jak Rusu. Sosial məsələlərdə din və dövlət. Fars dilinə tərcümə edən: Ehsan Məktəbi, h.ş.1396/2017 m., 172 s.
13. Hobbs Tomas. Leviafan. Fars dilinə tərcümə edən: Hüseyn Bəşiriyyə. Tehran: Nəşr-e ney, h.ş. 1397/2019 m., 578 s.
14. Kant İmmanuel. Etikanın metafizikası. Fars dilinə tərcümə edən: Mənuçehr Saneyi Dəre Bidy. Tehran: Nəqş və Nəqar, c. 1, h.ş. 1380/2002 m., 172 s.
15. Kalvin Pinkin. Nikumaxusun əxlaqı. Fars dilinə tərcümə edən: Əli Həqqi. Tehran: fəlsəfi-teoloji tədqiqatlar, h.ş, 1381/2003 m., № 13-14, 27 s.
16. Levid Tomas. Lookun hakimiyyəti haqqında. Fars dilinə tərcümə edən: Abbas Eskuiyan. Tehran: Hkmət,1389/2010 m., 197 m., 197 s.
17. Levi Brull, Henri. Hüquq sosiologiyası. Fars dilinə tərcümə edən: Seyid Əbülfəzl Qazi. Tehran: Mizan, h.ş 1385/2006 m., 136 s.
18. Maykıl Feridan. İnsan haqlarının əsasları. Fars dilinə tərcümə edən: Firudin Məclisi. Tehran: Xarici İşlər Nazirliyi, h.ş. 1382/2003 m., 190 s.
19. Mikland Con. Qədim Yunanıstandan Maarifçilik dövrünə qədər Qərbin siyasi fikr tarixi. Fars dilinə tərcümə edən: Cahangir Moini Ələmdari. Tehran: Ney, h.ş. 1393/2014 m., 600 s.
20. Nuyman Frantes və Harbert Markuze. Azadlıq, hakimiyyət və qanun. Fars dilinə tərcümə edən: İzətullah Fuladvənd.Tehran: Xarəzmi, h.ş. 1373/1994 m., 476 s.
21. Ştraus Leu. Siyasi fəlsəfə nə deməkdir? Fars dilinə tərcümə edən: Fərhəng-e Rəcayi. Tehran: Elmi və fərhəngi, h.ş. 1393/2015 m., 304 s.
22. Tamson Gert. Con Look. Fars dilinə tərcümə edən: Əli Həqqi. Tehran: Neqah-e muaser, h.ş. 1394/2015 m., 128 s.
23. Tomas Peyn. Humanitar hüquq. Fars dilinə tərcümə edən: Ramin Mustəqim. Tehran: Ruşəngəran və mutalat-e zənan, h.ş.1395/2017 m., 176 s.
24. https://fa/wikipedia.org/wiki/ təbii və qanuni hüquq.
25. Aristotle. Complete Works of Aristotel. Nicomachean Ethics. Translated by Jonathan Barnes, Oxford 1991, 1991, 3729-4010 p.

26. Aristotle. Politics. Translated by T. A. Singlair. Harmondsworth, Penguin Books, 1962, 319 p.
27. Aristotle. Nicomachean Ethics. Translated by T. A. Singlair. Harmondsworth, Penguin Books, 1962, 325 p.
28. Aristotle. Rhetoric. Trans., G. Kennedy. Oxford, Oxford University Press, 1991, 337 p.
29. Aristotle, Nicomachean Ethics. in C. Rowe trans. Oxford, Oxford University Press, 2002, 480 p.
30. Aristotle, Nicomachean Ethics. Translated by W. D. Ross. Batoche Books, Kanada: Kitchener 1999, 182 p.
31. George L. S. The Evolution of Modern Liberty. New York: Longmans, Green, and Company, 1904. 303 p.
32. Green T. H. Lectures on the Principles of Political Obligation, Kitchener, Ontario 1999 1883, 199 p.
33. Guthrie W. K. The Greek Philosophers. University Press, Cambrige 1985, 538 p.
34. Harry Victor Jaffa. Aristotle, in L. Strauss and J. Cropsey eds., History of Political Philosophy. London: The University of Chicago Press, 2006, 215 p.
35. Jeremy B. The theory of legislation. London: K. Paul, Trench, Trubner & Co. Ltd, 1931. 555 p.
36. Oakley Francis and Elliot W. Urdang. Locke, Natural Law, and God, In John Locke: Critical Assessments, Edited by Richard Ashcraft, London and New York: Routledge Taylor & Francis Group, 1966, pp. 92-109.
37. Parry G. Political Thinkers: From Aristotle to Marx. London and New York: Routledge, 2004, 1476 p.
38. Widerquist K. Article. Lockean Theories of Property Justifications for Unilateral Appropriation. Qatar: Georgetown University. Public Reason, 2010, 2 (1): 3-26 pp.
39. Werner Jaeger,. Aristotle, Fundamentals of the History of His Development, in R. Robinson trans.Oxford, Clarendon Press, 1934, 410 p.

*Qeyd: Fars dilində mənbələr Azərbaycan əlifbası ilə verilib.*

***Açar sözlər:*** *Aristotel, Nikumaxusun əxlaqı, insan, təbii hüquq, təbii qanun, əxlaq, ədalət, qərb filosofları, ictimaiyyət*

**Antiqa Pashayeva**
*Institute of Philosophy and Sociology of ANAS*
*Senior Researcher, Ph.D., Associate Professor*

# THE RATIO OF NATURAL RIGHT AND MORALITY IN ARISTOTLE'S NICOMACHEAN ETHICS

## ABSTRACT

Aristotle's idea of a good and prosperous life differs from Plato's ideal theory. In his view, the criterion that he considers good and evil (bad) is not in another world but maybe in the world in which man exists, within himself, in his essence. People understand this criterion by means of reason. This criterion which they call good, is their natural right; good deeds or good deeds form the basis of natural right. It is for this reason that Aristotle insists that all beings have desires and demands to be perfect according to their nature; to be perfect is a human right, which means a natural right. Man is constantly moving towards his natural needs and natural rights. In Aristotle's view, justice as a natural concept is always stable and unchanging; justice has nothing to do with certain ideas and different beliefs. As for legal justice, it is practiced in all places, including different countries, according to the specific system of those countries, changes due to time and circumstances. The ratio of natural law and morality is one of the important conditions for regulating socio-political issues; ethical values are manifested in issues necessary for human life. That is why it is impossible to consider rights and laws apart from ethical values. In the current study, referring to Aristotle's work "Nicomachus's Ethics," the ratio of natural law and morality, related and essential topics have been studied in a comparative aspect based on the ideas of philosophers, legal philosophers, and socio-political scientists.

***Keywords:*** *Aristotle, Nicomachus' ethics, man, natural right, natural law, morality, justice, western philosophers, society*

**Антига Пашаева**
*Ведущий научный сотрудник Института Философии и Социологии НАНА,*
*доктор философии по философии, доцент*

## СООТНОШЕНИЕ ЕСТЕСТВЕННОГО ПРАВА И МОРАЛИ В РАБОТЕ АРИСТОТЕЛЯ "НИКОМАХОВА ЭТИКА"

### РЕЗЮМЕ

Представление Аристотеля о хорошей и благополучной жизни отличается от идеальной теории Платона. По его мнению критерий, который он считает добром и злом (дурным), находится не в ином мире, а, может быть, в том мире, в котором существует человек, внутри него самого, в его сущности. Этот критерий люди воспринимают посредством разума и называют его добром, есть их естественное право; добрые дела или добрые действия составляют основу естественного права. Именно по этой причине Аристотель настаивает на том, что все существа имеют желания и требования быть чрезвычайно совершенными в соответствии со своей природой; быть совершенным – это право человека, а значит, естественное право. Человек постоянно движется к своим естественным потребностям и естественным правам. По мнению Аристотеля, справедливость, как естественное понятие, всегда устойчива и неизменна; справедливость не имеет ничего общего с определенными идеями и различными верованиями. Что касается судебного правосудия, то юридическое правосудие практикуется во всех местах, в разных странах, в том числе Азербайджане, в соответствии со спецификой системы этих стран и меняется в зависимости от времени и обстоятельств. Соотношение естественного права и нравственности является одним из важных условий регулирования общественно-политических вопросов; этические ценности проявляются в вопросах, необходимых для жизни человека. Вот почему нельзя рассматривать права и законы вне этических ценностей.

В настоящем исследовании, обращаясь к труду Аристотеля «Никомахова этика», соотношение естественного права и морали, важные темы, связанные с ним, изучались в сравнительном аспекте на основе идей философов, философов-правоведов, общественно-политологов.

***Ключевые слова:*** *Аристотель, Никомахова этика, человек, естественное право, естественное закон, мораль, справедливость, западные философы, общество*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 351

**VÜSAL QULİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dissertantı**

## DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞINDA RİSKLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Dövlət-özəl tərəfdaşlığı dövlət orqanları və özəl sektor arasında qarşılıqlı münasibətlərin yeni inkişaf mərhələsinə irəliləməsi üçün şərait yaradan unikal alətdir.

Xarici qanunvericilik özəl sektor istiqamətinin prioritetliyini qeyd edərək dövlət-özəl tərəfdaşlığı anlayışını irəli sürmüş və bu münasibətdə dövlət üzərində məhz özəl sektoru prioritet göstərmişdir. Dövlət-özəl tərəfdaşlığı sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində dövlət və özəl sektorun tərəfdaşlığına faydalı və əhəmiyyətli əməkdaşlıq kimi baxır, lakin bu əməkdaşlıq fərqli formalarda həyata keçirilir.

Geniş mənada dövlət-özəl tərəfdaşlığı dedikdə, təkcə iqtisadiyyatda deyil, həm də siyasətdə, mədəniyyətdə və elmdə hakimiyyət və özəl strukturların istənilən rəsmi konstruktiv qarşılıqlı fəaliyyəti başa düşülür. Dar mənada dövlət-özəl tərəfdaşlığı dedikdə, ümumdövlət əhəmiyyəti olan sosial əhəmiyyətli layihələrin reallaşdırılması prosesində hakimiyyət və özəl sektorun qarşılıqlı fəaliyyəti başa düşülür.

Dövlət hakimiyyəti orqanları ilə özəl sektor arasında qarşılıqlı əlaqələr probleminə olan elmi maraq iqtisadi və siyasi sistemlərdəki əsas təmayüllərlə bağlı bir sıra amillərlə şərtlənmişdir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları və özəl sektor arasında qarşılıqlı əlaqələrin səciyyəvi modellərinin formalaşması iqtisadiyyatda islahatların uğurluluğunun aparıcı amillərindən biridir və nəticədə, iqtisadi artım sürətinin yüksəlməsinə və həmçinin, siyasi sistemin fəaliyyətinin səmərəliliyinə təsir göstərir.

Lakin dövlət hakimiyyəti orqanları ilə özəl strukturların qarşılıqlı əlaqələrinin bu və ya digər modellərinin formalaşması ölkənin əvvəlki inkişaf təcrübəsindən, mövcud siyasi mədəniyyətdən və yaranmış sosial, iqtisadi və siyasi institutlardan asılıdır.

Dövlət-özəl tərəfdaşlığının qarşılıqlı əlaqələri probleminə olan maraq habelə idarəetmə vəzifələri ilə də bağlıdır. Bu qarşılıqlı əlaqələrin səmərəli modelinin yaradılması bu cür qarşılıqlı əlaqələrin müvafiq institusional əsaslarının formalaşdırılmasını, həmçinin onların təcrübədə gerçəkləşdirilməsi mexanizmlərinin işlənilməsini tələb edir.

Tərəfdaşlıq əsasında özəlləşdirmə dedikdə, dövlətə aid əməliyyat xidmətlərinin satışı və ya şirkətdəki səhmlərin və ya mülkiyyət hüququnun satışı nəzərdə tutulur. Dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsini, dövlət və özəl sektorun qarşılıqlı əlaqəsini iki əsas aspektdə göstərmək olar. Bunlardan biri infrastruktur layihələridir; digəri isə sosial sfera üzrə göstərilir. Dünya üzrə dövlət-özəl tərəfdaşlığının ümumi sektorları aşağıdakılardır:

- Nəqliyyat
- Mənzil, tikinti
- Kommunal xidmətlər
- Telekommunikasiya
- Ekoloji xidmətlər
- Dəmir yolları
- Enerji istehsalı və paylanması
- Maliyyə sahəsi
- Təhsil
- Mədəniyyət
- Səhiyyə
- Mənzil-məişət xidmətləri.

Bu sahələr arasında hər bir sektorun özünəməxsus problemləri yaranır. Tərəfdaşlıq zamanı tərəfdaşın seçilməsi, hüquq və qanunvericilik bazasındakı çatışmazlıqlar, müqavilə üzrə şərtlərin müəyyənləşdirilməsi, nəzarət, layihələrin formalaşdırılması və tətbiq edilməsi, digər sahələrdə elmi tədqiqatlara ehtiyac duyulması və bütün sahələrdə aydınlıq və şəffaflığın tam təmin olunmaması bunlara əsas misaldır. Bu məsələlərin həlli üçün sosial sahədə dövlət-özəl tərəfdaşlıq münasibətlərinin formalaşdırılması və elmi-praktik tövsiyələrin hazırlanması məqsədəuyğundur. Bundan əlavə, dövlətin formalaşma xüsusiyyətləri praktiki olaraq nəzərə alınmalı, sosial sahədə özəl tərəfdaşlıq, tərəfdaşlıq formasının seçilməsi və layihələrin maliyyələşdirilməsinin təşkili üzrə kifayət qədər məlumatların toplanması və araşdırılması bu məsələlərin həllində böyük rol oynayacaqdır.

Hökumətləri infrastruktur üçün dövlət-özəl tərəfdaşlıq layihələrinə cəlb edən bəzi ehtiyaclar vardır:

- Özəl kapital qoyuluşunu və ya dövlət resurslarını artırmaq;
- Nəzərdə tutulan sahədə səmərəliliyi artırmaq və həmin resurslardan daha səmərəli istifadə etmək;
- Əlaqələrin, maraqların və maliyyə hesabatlılığının bölüşdürülməsi yolu ilə sektorlarda düzəliş etmək.

Dövlət-özəl tərəfdaşlığında yüksək effektivlik vasitələri kimi çox az olan ictimai resurslardan səmərəli istifadə kritik bir məsələdir və əksər hökumətlər nəzərdə tutduqları məqsədlərdən çox geri qalır. Buna səbəb, dövlət orqanlarının özünəməxsus təşkilati prosesləri daxilində strukturlaşdırılmış səmərəlilik üçün stimullar azdır və ona görə də infrastrukturu səmərəli şəkildə qurmaq və yönləndirmək olduqca zəifdir. Bunlara baxmayaraq, özəl sektor tərəfdaşları investisiya və proseslərdə səmərəliliyin artırılmasına əsasən əldə edilən mənfəəti ən yüksək həddə çatdırmaq məqsədilə investisiya və müqavilə bağlamaq fikrinə düşürlər. Əgər dövlət özəl tərəfdaşları nəzərdə tutulan planları yerinə yetirilə biləcək formada strukturlaşdırarsa, infrastruktur xidmətlərinin səmərəliliyi gözlənilən şəkildə artacaqdır. Göstərilən xidmətlərin və əməliyyatların mənfəət hesablarını ödədikdən sonra, bu kontekstdə davam edərsə, hətta onların sonrakı əməkdaşlıqlarında da şanslarını əsaslı şəkildə artırar. Nəzərdə tutulan yanaşma düzgün tətbiq olunarsa, hökumətlər üçün daha az pul xərcləri və istehlakçılar üçün isə daha yaxşı və daha ucuz xidmətlər əldə edilə bilər.

Dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsi, onların bu proseslər zamanı tərəflər üçün faydaları və riskləri ən çox diqqət edilməli məsələlərdəndir. Buradakı faydalı nəticələr aşağıdakılardır:

Layihələrdə özəl sektor mənbələrindən istifadə edildiyi üçün dövlət mənbələrinin istifadəsinə ehtiyac qalmır. Bu aspektdə dövlətin borclanması azalır və dövlət beynəlxalq kredit reytinqləri üçün müsbət rol oynayır. Həmin sahələrin xərcləmə qaynaqları dövlətin xeyrinə olması ilə birlikdə fərqli sahələrdə də xərclənməsi mümkündür. Dövlət-özəl tərəfdaşlıq layihələri nəticəsində yaradılmış iqtisadi qurumlardan alınan vergi gəlirləri dövlət üçün əlavə gəlir mənbəyi olur. Dövlət-özəl tərəfdaşlıq layihələrinin əsas faydalarından biri də layihədə yaranacaq risklərin həmin riski ən yaxşı şəkildə qaldıra biləcək tərəfin üzərində olmasıdır. Buna misal olaraq, ödəniş, artımlar

və ya çatdırılmanın gecikməsinin özəl sektorun asanlıqla həll edəcəyi bir risk olmasını göstərmək olar: tətbiqetmə standartları və hüquqi tənzimləmələr dövlətin səlahiyyətində olan risklərin həllini asanlaşdırır. Özəl sektorun ticarət təcrübəsi layihənin maddi risklərinin daha operativ həllinə kömək edərkən, dövlət sektorunun hüquq, gömrük və iqtisadiyyat kimi sahələrdəki təcrübəsi yaranan risklərin tərəflər üçün həllini təmin edir. Cəmiyyətdəki əmək xərcləri bazarla qarşılaşdırıldıqda bərabərləşməyən bir şəkildə yüksək olsa da, bəzi məhsullar və ya xidmətlər dövlət müəssisələrinin bazar qiymətindən xeyli yüksəkdir. Bu da dövlət-özəl tərəfdaşlığının ölkədəki iqtisadi şərait üçün layihələrin həqiqi xərclərinin hesablanmasında dövlət orqanlarına köməklik göstərilməsinin bariz nümunəsidir.

Dövlət-özəl tərəfdaşlıq layihələri böyük sahələrdə - beynəlxalq müqavilə, maliyyə, hüquq və bu kimi sahələrdə təcrübəsi olan qurumların, təşkilatların və hüquqi şəxslərin diqqətini cəlb edir. Buna cəlb etməyə səbəb odur ki, həmin qurumların, təşkilatların və şəxslərin uzun və əsaslı təcrübələri, beynəlxalq bilikləri ölkələrin özlərində əldə edə biləcəyi yerli biliklərdən və təcrübədən daha çoxdur.

Beləliklə, dövlət-özəl tərəfdaşları birlikdə əlaqə qurduqda böyük layıhələrin idarə və inkişaf etdirilməsi, beynəlxalq idarəetmə texnologiyaları və qabaqcıl texnikaların inkişaf etdirilməsi məqsədilə yerli işçiləri və yerli firmaları təlim keçmək üçün xarici ölkələrə göndərir. Layihələrin ilkin və sonrakı mərhələlərində texniki-iqtisadi əsaslandırılmalarında xərclər və risklər daha səmərəli irəliləmək üçün yerli və xarici ekspertlər və təcrübəli operatorlar tərəfindən qiymətləndirilir və onların həll yolları göstərilir. Bu da layihələrdə innovativ ideyaları ortaya çıxarır.

Tərəfdaşlıq zamanı yaranan risklər: Dövlət-özəl tərəfdaşlığı dövlət sektorundan özəl sektora həqiqi risklə əlaqələndirildiyindən, tərəfdaşlar üçün riskləri aralarında doğru müəyyənləşdirmək və bölüşdürmək böyük önəm daşıyır. Dövlət-özəl tərəfdaşlıqları dövlət tərəfindən maliyyələşdirilmir. Bu səbəbdən də dövlət investisiyaları ilə qarşılaşdırıldıqda daha riskli investisiyalar sayılır. Buna görə də maliyyə böhranı dövründə dövlət-özəl tərəfdaşlığı böhrandan daha çox təsirlənmiş investisiya modeli olmuşdur. Özəl sektor investorları risklərin proqnozlaşdırıla bildiyi və şərtlərin müəyyənləşdirildiyi bazarlara investisiya yatırılmasına diqqət edirlər. Risklərin artması investisiya üçün artıq gəlir tələb edir. Bəzi qeyri-müəyyən olan məsələlərin və risklərin azaldılması dövlət sektorunda daha az xərcə, özəl sektorda daha çox investisiya əldə etməyə səbəb olacaqdır. Bu da hər iki tərəf üçün daha təhlükəsiz və əlverişli investisiya mühiti yaradır. Beləliklə, risklərin azaldılması həm dövlət sektorunun, həm də özəl sektorun lehinə olur.

Tərəfdaşlıqda ən yaxşı risk paylaşımı layihələrdəki risklər geniş şəkildə təhlil edildikdən sonra mümkündür. Risklərin dövlət sektorundan özəl sektora həvalə edilməsi layihələrin dəyərini yüksək dərəcədə artırır, həmçinin xərc səmərəliliyini ortadan qaldırır. Buna görə də, dövlət-özəl tərəfdaşları ən yaxşı risk bölgüsünü o zaman etmiş olur ki, hansı tərəf riski daha yaxşı idarə edə bilər və ya həmin riskin yaratdığı xərc hansı tərəf üçün daha azdırsa, həmin tərəf riski öz üzərinə götürür. Tərəfdaşlar bir çox risklərə məruz qalır, bunlara misal olaraq: siyasət, müqavilə, texnologiya, bazar, maliyyə riskləri və s. göstərmək olar. Bunlara əlavə olaraq, təbii fəlakətlər və fövqəladə hadisələr də risk yaradır.

Hökumətin qərarlarındakı dəyişiklik dövlət-özəl tərəfdaşlarının investisiyalarına mənfi təsir göstərir, bu da siyasi risklərin yaranmasına səbəb olur. Qərarların dəyişməsi və ya həmin qərarlar ilə əlaqədar olaraq, ictimaiyyətin əvvəllər imzalamış olduğu dövlət-özəl tərəfdaşlıq müqavilələrinə dəyişiklik etmək fikri həm mövcud tərəfdaşlıq investoruna, həm də potensial investorlara mənfi təsir göstərir. Bu qərarlar hətta ölkənin inves-

tisiya imkanları ilə əlaqədar imicini beynəlxalq arenada korlaya bilər. Özəl sektor investorlarının üzləşə biləcəyi ən böyük risk özgəninkiləşdirmək olsa da, hökumətin vergi və digər məsələlərdə kiçik dəyişikliklər etməsi həmin riskləri əsassız edə bilər. Dövlət-özəl tərəfdaşlıq layihələri nə qədər uzunmüddətli olarsa, onların qarşılaşacağı siyasi risklər də o qədər çox olar və həmin risklər maliyyələşdirmə xərclərində öz əksini tapar.

İşgüzar və ya iqtisadi şəraitin pisləşməsi nəticəsində müqavilənin tərəflərindən birinin bilərəkdən və ya istəməyərək şərtlərə əməl etməməsinə görə yaranan risklər müqavilə riskləri adlanır. Geniş infrastruktur layihələri siyasi baxımdan həssas və nəticələri geniş bir seqmentə təsir etdiyinə görə həmin layihələrdə özəl sektor siyasi və ya ictimai təsirə məruz qalır. Bu səbəbdən də müqavilənin şərtlərini vaxtaşırı dəyişmək məcburiyyətində olur.

Bundan başqa, özəl sektor ictimaiyyətlə bağlı böyük layihələrdə ona həvalə olunan öhdəliklərin bir qismini yerinə yetirməsə belə, dövlət qurumlarının layihələrinin tamamlanması üçün müqavilənin ləğvinə şərait yaratmır.

Dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirildiyi dövr ərzində yeni və daha yaxşı texnologiyaların tətbiq edilməsi ilə əlaqədar yaranan risklər texnoloji risklərdir. Buna misal olaraq, sənaye müəssisələrində istifadə edilən cihazlarda əhəmiyyətli bir texnoloji dəyişiklik, müəssisənin əlindəki cihazların tez bir zamanda köhnəlməsinə və ya bu cihazlardakı sürətli dəyişikliyin işçilərə ötürülməməsinə səbəb olur. Bu da istehsal olunacaq məhsulların gecikməsinə gətirib çıxaracaqdır [6].

Dövlət-özəl tərəfdaşlıq layihələrində faktiki gəlirlərin və xərclərin onların gələcək planına uyğun gəlməməsi kommersiya riski yaradır. Tərəflərin təklif etmiş olduğu məhsullar və ya xidmətlər bir çox fərqli səbəblərə görə gözləniləndən daha aşağı olur. Tərəfdaşların qiymət planı gəlir təxminlərindən fərqlənməsi ilə ciddi risk yaradır. Buna səbəb, gələcəklə bağlı proqnozlar tarixi qeydlərə uyğun olaraq hazırlanır. Lakin bu proqnozlarla gələcək müştərilərin qiymətlərə olan həssaslığını müəyyən etmək çox çətindir.

Kapitalın tez-tez dəyərinin dəyişməsinə görə bir çox hallarda maliyyə riskləri ortaya çıxır. Maliyyə risklərinin iki mühüm növü göstərilir ki, bunlar valyuta məzənnəsi və faiz dərəcəsinin dəyişməsidir. Məzənnə riskinin artmasına səbəb layihənin xarici kapitalla maliyyələşdirilməsidir. Dövlət-özəl tərəfdaşlığında qoruma mexanizmləri məzənnə riskinə qarşı alınsa da, nəzərə almaq lazımdır ki, bu mexanizmlərin də ciddi xərcləri var. Faiz dərəcələrinin dəyişməsinin layihələrin gəlirliliyinə birbaşa təsir etməsi ciddi maliyyə riski yaradır. Faizlər aşağı olduğu zaman əksər layihələr özəl sektorun tələb etdiyi gərəkli gəlir dərəcələrindən daha çox qazanc əldə edərək investisiya üçün məqbul olur. Tərəfdaşlar sabit faizlə və ya istiqraz buraxaraq borc götürdükdə qarşılaşdıqları faiz dərəcəsi riski də azalır.

Təbii fəlakətlər, yanğınlar, daşqınlar və terror hadisələri tərəflərin nəzarətindən kənar olan fövqəladə hadisə riskləridir. Həmin fövqəladə hadisələri əvvəlcədən proqnozlaşdırmaq mümkün olarsa, risk sığorta və ya digər təhlükəsizlik tədbirləri ilə azaldıla bilər.

Burada göstərilən faydalar və risklər layihələrin uğurlu olmasında əsas göstəricilərdir və qeyd edilən faydaların maksimumlaşdırılması və qarşısı alına bilən risklərin aradan qaldırılması yalnız dövlət və özəl sektorun ciddi idarəetməsi ilə mümkün olacaqdır.

Dövlət-özəl tərəfdaşlıq layihələri hazırkı dövrdə dünyanın 60-dan çox ölkəsində işlənib hazırlanır. Vahid qayda olaraq, xaricdə geniş çeşiddə özəl sektor nümunələri və münasibətləri dövlət-özəl tərəfdaşlığı adlanır. Bu tərif ictimai əhəmiyyətli tələbatın təmin edilməsi üçün xüsusi kapitalın resurslarından istifadənin hər bir növündə tətbiq edilir. Dövlət-özəl tərəfdaşlıq layihələrinin bütün istifadə edilən formalarının tətbiq edilməsində ilk yerdə ABŞ, Böyük Britaniya, Fransa və Almaniya yer alır [5, s.98].

Son dövrlərdə dövlət-özəl tərəfdaşlıq layihələrinin dayanıqlı inkişaf proqramları daha çox Qərbi Avropa ölkələrində müşahidə olunur. Bununla birlikdə, eyni qarşılıqlı fəaliyyət mexanizmini aktiv icra edən ölkələrin sayı paralel olaraq artır. Dövlət-özəl tərəfdaşlıq layihələrinin xarici təcrübələrinin tətbiq sahələri araşdırıldıqda, həmin ölkələrin hər birinin dövlət-özəl tərəfdaşlığın tətbiqi üzrə ən çox üstünlük təşkil etdiyi sahələr vardır. Bu, Böyük Britaniyada səhiyyə və təhsildir, Almaniyada – təhsil, İtaliya, Kanada və Fransada yalnız səhiyyə sahəsi, ABŞ-da isə avtomobil yolları sahəsidir. İnkişaf etmiş bazar iqtisadiyyatının, əhalinin yüksək həyat səviyyəsinin, yüksək əmək məhsuldarlığının, etibarlı sosial siyasətin olduğu ölkələrdə dövlət-özəl tərəfdaşlıq layihələri əsasən təhsil, səhiyyə, əhalinin sosial müdafiəsi və s. sahələrə yönəldilir.

Dövlət və özəl sektor bütün dünya ölkələrində, əsasən də Qərbdə etimadı doğruldan və xeyirxah tərəfdaşa çevrilirlər. Göstərilən faktlar təsdiq edir ki, inkişaf etmiş ölkələrdə dövlət və özəl sektorun tərəfdaşlığı birinci və aparıcı əməkdaşlar kimi çıxış edir [4].

Tərəfdaşlıq layihələrinin həyata keçirilməsində dövlət orqanlarının xüsusi vəzifəsi ondan ibarətdir ki, ictimai xidmətlər təqdim edilərkən böyük məbləğdə əlavə dəyər yaransın. Planlaşdırmanın yeni metodlarının dəstəyilə və sürətli innovasiyanın tətbiqi və effektivliyin maksimumlaşdırılması nəticəsində bu məqsədə nail olunur.

Dövlət-özəl tərəfdaşlığı aspektində dövlətin digər bir məqsədi odur ki, layihələrin formalaşması zamanı yaranan riskləri bu sahədə daha çox təcrübəsi olan özəl sektorun öhdəliyinə versin.

Beləliklə də, dövlət-özəl tərəfdaşlığına infrastrukturun inkişafı və həyata keçirilməsi üçün özəl sektorun resurslarından istifadə etməklə, göstərilən xidmətlərin səmərəliliyini yüksəltməyə və keyfiyyətini artırmağa və layihələrin icrası ilə bağlı spesifik risklərdən dövlətin azad olunmasına şərait yaradan konsepsiya kimi nəzər yetirilməlidir.

Dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsi ilə əlaqədar xarici təcrübələr sübut edir ki, dövlət-özəl tərəfdaşlıq əsasında göstərilən xidmətlərin keyfiyyəti dövlət tədarükü modelində həyata keçirilməyə nisbətən yüksəkdir. Bu məqsədə xidmət istehsalçılarının inteqrallaşmasını optimallaşdırmaqla, layihənin diqqət çəkən obyektivliliyi və innovasiyanın tətbiq edilməsi ilə nail olmaq olar.

Layihələrin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və həmçinin, proqnozlaşdırılmasında dövlət və özəl sektor imkanlarının uyğunlaşması halları nəzərə alınır. Bu sahədə aparılmış tədqiqatlar göstərir ki, özəl sahibkarlar dövlət orqanları ilə münaqişədə əmtəə bazarını və gəlirli investisiyanı daha yaxından və praktiki cəhətdən daha yaxşı bilirlər. Layihənin həyata keçirilməsində özəl sektorun effektiv situasiyası var. Bu da dövlət orqanlarında narahatlığa səbəb olur. Çünki, dövlət orqanlarının layihənin həqiqi dəyəri haqqında düzgün məlumatı olmaması layihənin daha baha qiymətə başa gəlməsinə səbəb olacaq. Lakin özəl sektor tərəfindən real gəlirin göstərilməsi ilə dövlətin maliyyə yükünün azaldılmasına nail olunur. Bununla da dövlət orqanı maliyyə məsələlərini özəl sektora ötürməklə reqlamentləşdirilmiş fəaliyyətlə məşğul olur, bütün diqqətini planlaşdırma və nəzarətin həyata keçirilməsinə yönəldir.

Dövlət-özəl sektor tərəfdaşlığı aspektində yüksək idarəetmə üzrə Avropa İqtisadi Komissiyasının praktiki rəhbərliyinə uyğun olaraq, dövlət və özəl sektorun motivasiya və yeniliklərinin birləşməsi, həmçinin müzakirə əsasında müqavilələrin bağlanması dövlət-özəl tərəfdaşlığında dövlətin bütün layihələrinin həyata keçirilməsinə imkan yaradacaq.

Dövlət resurslarından istifadə və idarəetmə innovativliyinin təmin edilməsi, özəl sektorun idarəetmə texnologiyaları və bu sahədə olan geniş praktikası birləşdikdə dövlət-özəl tərəfdaşlıq layihələri yüksək effektivliklə reallaşdırılır.

Əhəmiyyətli sayda siyasi və texniki ədəbiyyat mənbələrinin tədqiqi dövlət-özəl tərəfdaşlığı probleminin yaxşı öyrənilmədiyini və bu səbəbdən də ayrıca bir araşdırma tələb etdiyini bildirməyə imkan verir. Belə bir problemə həsr olunmuş xeyli sayda elmi işlərlə tanışlıq onu deməyə əsas verir ki, problemlə qismən məşğul olmuş və tədqiq edilən sferanın tənzimlənməsi məsələlərinin nəzərdən keçirilməsini əhatə edən bu nəşrlər yalnız lazımi şərt qoyulmadan ümumi problemlərə toxunmuşdur.

Qarşılıqlı əlaqə mexanizminin səmərəli olması üçün kommunikasiyaların dəqiq qurulmuş sistemi lazımdır. Heç də bütün özəl assosiasiyalar öz üzvlərinin istədikləri dərəcədə kommunikasiyaların öhdəsindən gəlmir. Özəl sektor cəmiyyətdə çox passivdir, halbuki o, aktiv ictimai institutdur. Birləşmək bütün məsələlərin həlli demək deyildir, informasiya kanalları da yaratmaq lazımdır. Özəl assosiasiyaların fəaliyyətinin səmərəliliyinə mane olan səbəblər var. Bunlar özəl ictimaiyyətin potensialının kifayət qədər ekspertizasının olmaması, vəsait çatışmazlığı, özəl sektor üçün vacib olan layihələrə diqqəti cəmləyə bilməməsidir. Digər tərəfdən bir daha diqqəti tərəfdaşlığa cəlb edərək, onu da vurğulamaq lazımdır ki, kommunikasiya sisteminin uğurlu olması üçün özəl sektorun aktivliyi yetərli deyil, hakimiyyətin sahibkarlıq birliyini bərabərhüquqlu tərəfdaş kimi qəbul etməsi də vacibdir.

**Ədəbiyyat:**


1. Ələkbərov U.K. İnklüziv inkişafın idarəedilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil" nəşriyyatı, 2018, 216 s.
2. Həbibova Z.Z. Abdullayeva M.V. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. Bakı: Təhsil 2018.200 s.
3. Committee for Economic Development. https://www.ced.org/about
4. "Azərbaycan Respublikasında dövlət-biznes əməkdaşlığı imkanları". Qalib Toğrul. Bakı, fevral, 2014. http://edf.az/ts_general/azl/ksid/downloads, 36 s.
5. Iwasaki I. Evolution of Government-Business Relationship and Economic Performance in the Former Soviet States. // Economics of Planning. - 2004. - Vol. 36, pp. 223-257.
6. Sosial Ekonomi Araşdırmalar Dərgisi, Ekim 2019


***Açar sözlər:*** *özəl sektor, dövlət hakimiyyəti, qarşılıqlı fəaliyyət, tərəfdaşlıq, layihələr*

**Вусал Гулиев**
*Диссертант кафедры «Государственная служба и кадровая политика»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ РИСКОВ В ГОСУДАРСТВЕННО-ЧАСТНОМ ПАРТНЕРСТВЕ

## РЕЗЮМЕ

В статье рассматриваются понятия государственно-частного партнерства, приватизации на основе партнерства и перечисляются распространенные во всем мире отрасли государственно-частного партнерства. Исследуются процесс формирования тех или иных моделей взаимоотношений между органами государственной власти и структурами частного сектора, положительные результаты процесса реализации проектов государственно-частного партнерства и основные причины и последствия рисков, возникающих в ходе этого процесса. Кроме того, приведены результаты, полученные на опыте зарубежных стран по реализации проектов государственно-частного партнерства.

***Ключевые слова:*** *частный сектор, правительство, взаимодействие, партнерство, проекты*

**Vusal Guliyev**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Civil Service and Personnel Policy,*
*Ph.D. student*

# THE MAIN FEATURES OF RISKS IN THE STATE-PRIVATE PARTNERSHIP

## ABSTRACT

The paper analyses the main features of risks in the state-private partnership, the concepts of state-private partnership and privatization based on partnership. The author lists the branches of state-private partnership that are standard worldwide. The process of formation of one or another model of relations between state authorities and structures of the private sector, the positive results of the process of implementation of state-private partnership projects and the leading causes and consequences of risks arising during this process are investigated. In addition, the results obtained from the experience of foreign countries in implementing state-private partnership projects are presented.

***Keywords:*** *private sector, government, interaction, partnership, projects*

# G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G  R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L  R E L A T I O N S

UOT 327

**NİSƏ PAŞAYEVA**
**Bakı Slavyan Universitetinin doktorantı**
*e-mail: nisa.pashayeva@mys.gov.az*

# BEYNƏLXALQ GƏNCLƏR HƏRƏKATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ HAQQINDA

Beynəlxalq gənclər hərəkatının təşəkkülü elmi-texniki tərəqqi və texnoloji yeniliklərin bir-birini sürətlə əvəz etməsi nəticəsində fərdlər, cəmiyyətlər və dövlətlər qarşısında yeni-yeni sualların meydana gəlməsi və onların cavablandırılması istiqamətində əlaqələndirilmiş fəaliyyətin vacibliyi, ictimai və siyasi həyatda qeyri-dövlət strukturlarının iştirakının davamlı olaraq genişlənməsi ilə bağlı olub, həm də gənclərin potensialının, məsələlərə yanaşma tərzinin və ünsiyyət qurma qabiliyyətinin təzahürüdür. Əhalinin digər kateqoriyalarından fərqli olaraq, gənclər öz planlarını əsasən gələcəyə ünvanlayır, zamanla səsləşməyən dəyər və yanaşmaları qəbul etmir, mövcud problemlərin həlli istiqamətində təşəbbüs və təkliflərlə çıxış edir və nəhayət, təşkilatlanaraq, fəaliyyətini müxtəlif struktur və birliklər çərçivəsində davam etdirir. K. Manheymin qeyd etdiyi kimi, “gənclər təbiət etibarı ilə nə tərəqqipərvərdir, nə də mühafizəkardır. O, istənilən yeni başlanğıca hazır olan potensialdır” (1, s. 445).

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı nəticəsində milli-dövlət sərhədləri getdikcə şərti xarakter alır, beynəlxalq səviyyədə, konkret məkan və zaman parametrləri xaricində ünsiyyət yaratmaq imkanları davamlı olaraq artır. Əsas iştirakçısı gənclər olan beynəlxalq siyasi, iqtisadi, elmi və mədəni-humanitar xarakterli tədbirlərin dairəsi ildən ilə genişlənir. Eyni zamanda, son onilliklərdə beynəlxalq sülhə və təhlükəsizliyə qarşı yönələn təhdid və çağırışların dairəsinin genişlənməsi, dünyanın müxtəlif regionlarında on minlərlə insanın həyatına son qoyan, sosial-iqtisadi və humanitar fəlakətlərlə müşayiət olunan silahlı münaqişələrin mövcudluğu, qlobal ekoloji problemlərin dərinləşməsi, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinin artması və s. problemlər beynəlxalq səviyyədə səylərin birləşdirilməsini zərurət olaraq ortaya çıxarmışdır və bu istiqamətdə artıq müəyyən addımlar atılmışdır. Şübhəsiz ki, bütün bu proseslərin əsas hərəkətverici və stimullaşdırıcı qüvvəsi məhz gənclərdir. Müasir dövrdə dünyada gənclər hərəkatının geniş vüsət alması və məhz gənclərin təmsil olunduğu təşkilatlar şəbəkəsinin formalaşması da bunu əyani şəkildə sübut edir. Gənclərin öz arzularını reallaşdırmağa, özünüinkişafa, özünütəsdiqə yönələn və dialektik olaraq davam edən fəaliyyəti əsrlər boyu formalaşan təməl üzərində inkişaf edir.

Dünyada gənclərin təşkilatlanmış hərəkatının kökləri XIX əsrin ortalarına, kilsənin himayəsi altında xristian gənclər təşkilatlarının yaradıldığı dövrə gedib çıxsa da, bunun üçün ilkin şərtlər daha əvvəllər, gənclərin bioloji və psixoloji, kulturoloji və antropoloji, sosial xüsusiyyətləri ilə bağlı olaraq meydana gəlmişdir.

Gənclər nəzəriyyəsinin bioloji və psixoloji seqmentinə görə gənclər daha çox gəncliyin psixoloji və fiziki xüsusiyyətlərinin daşıyıcısı kimi nəzərdən keçirilməlidir. Kulturoloji və antropoloji seqment əsas diqqəti gənclərin mövcud olduqları təbii və süni-mədəni mühitdə onların formalaşması və inkişafı ilə bağlı məsələlərə yönəldir. Nəzəriyyənin sosial yönümlü seqmentinə gəldikdə isə, burada gənclər cəmiyyətdə özünəməxsus funksiyalar yerinə yetirən, nəsillərin varisliyinin və dəyişməsinin həm obyekti, həm də subyekti kimi çıxış edən sosial qrup kimi öyrənilir (2, s.7).

Malik olduğu geniş potensiala uyğun olaraq, gənclər cəmiyyətin inkişafını təmin edən sosial funksiyalar yerinə yetirirlər. V.İ.Çuprov bu funksiyaları üç qrupa bölür: təkrar istehsal, innovasiya və translyasiya. Bu yanaşmaya görə, gənclik cəmiyyətin mövcud sosial strukturunu təkrar istehsal edərək, özündən yaşlı nəslin təcrübəsini mənimsəyir və öz təşəbbüsü olan innovasiyaları dövriyyəyə gətirir, zaman keçdikcə isə, özü sonrakı nəsil üçün sosial təcrübə mənbəyinə çevrilir və beləliklə də, translyasiya funksiyasını yerinə yetirir (3, s. 77-78).

Qeyd etmək lazımdır ki, gənclərin öz funksiyalarını yerinə yetirməsi üçün müəyyən tarixi şəraitin, müvafiq inkişaf səviyyəsinin və infrastrukturun mövcudluğu əsas şərtlərdən biridir. Dövlətdə və cəmiyyətdə hər şeyin hökmdarların marağına tabe edildiyi, dini dünyagörüşünün və teoloji sistemlərin hakim olduğu, insan hüquq və azadlıqlarının gündəmdə olmadığı qədim dövrdə və orta əsrlərdə təkcə gənclərin deyil, ümumiyyətlə, cəmiyyətin istənilən kateqoriyasına aid olan insanların konkret maraq və ideyalar ətrafında təşkilatlanaraq, sistemli və məqsədyönlü, cərəyan edən proseslərə təsir edə biləcək fəaliyyət göstərməsi mümkün deyildi. Bunun üçün ilkin şərtlər, insanın şəxsi azadlığı və təbii hüquqları kimi fundamental dəyərlərin diqqət mərkəzinə çıxdığı kapitalizmin meydana gəlməsi və müvafiq sosial münasibətlərinin formalaşması ilə yaranmışdır. Siyasi sistemin transformasiyası, demokratik institutların və azad bazar münasibətlərinin yaranması, sənayeləşmənin və onun nəticəsi olan urbanizasiya prosesinin genişlənməsi, demoqrafik dəyişikliklərin baş verməsi və sosial differensiasiyanın dərinləşməsi, təhsilin forma və məzmun baxımından inkişafı və s. cəmiyyətdə müxtəlif yönümlü təşkilatların, partiyaların və hərəkatların təşəkkül tapması ilə nəticələnmişdi. Bu kontekstdə gənclər hərəkatının və təşkilatlarının yaranması da istisna deyildi.

Gənclər hərəkatının rüşeymləri, burjua münasibətlərinin daha erkən inkişaf etdiyi Qərb ölkələrində meydana gəlmişdir. Uzun müddət müstəmləkə əsarətində olması, kapitalizm elementlərinin nisbətən gec nüfuz etməsi və mühafizəkar düşüncə tərzinin üstünlük təşkil etməsi Şərq ölkələrinin bu sahədə müəyyən qədər gecikməsinə səbəb olmuşdu.

Artıq qeyd olunduğu kimi, dünyada gəncləri birləşdirən ilk təşkilat kilsənin iştirakı ilə yaradılmışdır. Belə ki, XIX əsrin ortalarında Avropada gənclər tərəfindən müxtəlif xristian cəmiyyətləri təsis olunmuşdu. 1844-cü ildə Londonda, bu cəmiyyətlərin vahid mərkəzdə birləşdirilməsi nəticəsində gənc xristianların assosiasiyası – “Gənc İnsanların Xristian İttifaqı” yaradıldı. 1855-ci ildə Fransada İttifaqın birinci ümumdünya konfransı keçirildi. Konfransda təşkilat federativ əsaslarda yenidən təşkil olundu və onun əsas sənədi – “Paris statutu” qəbul edildi. Bu sənədə əsasən, müstəqilliyə və özünüidarəetməyə malik olan bu İttifaqın mövcudluğu ianələr, müxtəlif tədbirlərdən əldə olunan gəlirlər və üzvlük haqları hesabına təmin edilir, o, xristian mənəvi-əxlaqi dəyərlərinin təbliğinə əsaslanan maarifçilik fəaliyyəti ilə məşğul olurdu. Bundan başqa, federasiyaya daxil olan ayrı-ayrı təşkilatların, tək gənc insanlar üçün sığınacaq təşkil etmək, ümumxristian birliyi naminə gənclərin, aid olduqları kilsədən asılı olmayaraq, birləşməsinə nail olmaq və s. kimi özəl məqsədləri də ola bilərdi. Fəaliyyətini tez bir zamanda genişləndirən təşkilat dünyanın bütün qitələrinə nüfuz edə bilmişdi. XX əsrin əvvəllərində onun nümayəndələri Avropanın bütün dövlətlərində, Asiya, Afrika və Latın Amerikası

ölkələrində, Amerika Birləşmiş Ştatları və Avstraliyada fəaliyyət göstərirdi (4, s.55-56).

Avropada gənclərin dini dəyərlərə söykənən hərəkatı XIX əsrin ikinci yarısında da davam etmiş və nəticədə, həmin əsrin sonlarında daha iki təşkilat – "Gənc Qadınların Xristian İttifaqı" və "Ümumdünya Xristian Tələbə İttifaqı" - meydana gəlmişdi.

"Gənc İnsanların Xristian İttifaqı"nın tərkibinə daxil olan "Ümumdünya Xristian Tələbə İttifaqı" özünü konfessiyalararası beynəlxalq təşkilat kimi təqdim edirdi (4, s.55-56). Bu da, təbii bir hal idi, çünki xristian dininin katolik, pravoslav, protestant və s. məzhəbləri arasında əsrlərlə davam edən fikir ayrılığı və qarşıdurma, müəyyənləşdirilən ümumi məqsədlərə çatmağa mane olurdu. Sıralarında tələbələri birləşdirən təşkilat özünü məzhəblərarası qarşıdurma səviyyəsindən yüksək tutaraq, bu maneələri aradan qaldırmağa və ümumxristian həmrəyliyinə nail olmağa çalışırdı.

Ümumilikdə, yuxarıda qeyd olunan təşkilatların əsas məqsədi, böyüməkdə olan nəsli xristian əxlaqı və dəyərləri əsasında tərbiyə etmək idi, lakin istisna olunmur ki, bu təşkilatlar Qərb ölkələrinin müstəmləkə əsarətində saxladıqları qeyri-xristian ölkələrdə missionerlik fəaliyyəti ilə də məşğul olurdular.

Ümumdünya gənclər hərəkatının formalaşmasında növbəti mərhələ XIX əsrin ikinci yarısı-XX əsrin ilk onilliklərində müxtəlif ideologiyaların və bu ideologiyaların daşıyıcısı olan siyasi təşkilatların yaranması ilə bağlı idi. Sinfi mübarizə ideyasına əsaslanan kommunist ideologiyasının təbliği gənclər hərəkatının da ideoloji əsaslarda qütbləşməsinə gətirib çıxarmışdı.

It is for this reason that this castle is known in the historical records as the palace of Ibrahim Khan and the Treasury Castle. Like other palaces, this palace was attacked by the





**Picture 9.** Ibrahim Khan palace castle. Dashalti village. Its condition after the occupation

Armenian invaders and destroyed. The architectural monument has inventory number 348 in the register of monuments of the Ministry of Culture and Tourism of the Republic of Azerbaijan.

**Result**

Finally, I would like to mention that the thirty-year-old military conflict in Nagorno-Karabakh not only caused the expulsion of about a million local residents from their native homes, but also led to the mass loss of the national cultural values of the Turkic world in the form of the Azerbaijani state.

It is known that architectural monuments represent the history, material and spiritual values of a country, its cultural wealth. Protecting these resources with dignity means protecting the future of a country and a nation.

The palaces of the Karabakh Khanate of the XVIII-XIX centuries, which we examined in the framework of the research, today, like other architectural monuments located in Shusha, the capital of the Khanate, have become victims of Armenian provocations and occupations for many years and are in a very sad state. Armenian vandalism threatened the fate of historical architectural monuments in the Karabakh region of Azerbaijan and destroyed them.

Unfortunately, as a result of the research, the lack of scientific works dedicated to the palaces of the Karabakh Khan, especially the lack of knowledge about the architectural history and features of the palaces, has created a kind of gap in the architectural history of this period.

**Bibliography:**


1. Ağamalı Y. İ.P.Petruşevskiy və Leviatov "Qarabağ xanlığının qonşu xanlıqlarla və başqa dövlətlərlə əlaqələri" əsərlərindən əlavə, "Oçerklər. 1948-ci ildə nəşr olunmuş Azərbaycan tarixi XVIII əsrdə.
2. Avalov E."Архитектура города Шуши и проблемы сохранения его историчеcкого облика"
3. Baharlı. Əhvalati Qarabağ. // Qarabağnamələr. II kitab, Bakı, 1991, s.276
4. Əlizadə A. Sarkisov Sat. Azərbaycan memarlıq abidələri. Şuşanın bəzi memarlıqabidələri haqqında. Bakı 1950
5. Fatullayev Ş. "Gradostroitelstvo i Arkhitektura Azerbaycana nachala XIX – XX veka", "Jiliye doma v zastroyke gorodov Azerbaycana na rubeje XIX –XX vekov"
6. Hacıyeva Z. "Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu". 2005
7. Xəzani, Mir Mehdi. [Mir_Mehdi_Xəzani_və_onun__Kitabi-tarixi_Qarabağ__əsəri Kitab-tarixi-Qarabağ. Bakı: Azərbaycan Elmlər Akademiyası nəşriyyatı. 1950.
8. Cənnətin qapısı, Üzeyir bəyin ev muzeyindən tapılan barelyef, https://apa.az/az/art-news/cennetin-qapisi-uzeyir-beyin-ev-muzeyinden-tapilan-barelyef-foto-657445
9. Qarabağ irsimizin ebedi yaddaşıdır. S18
10. Mustafayev C.M. "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq" və "Şuşa şəhərinin yaranma tarixinə dair bəzi fikirlər". Şəhərin tarixi, tikintisi ilə bağlı maraqlı və əsaslı fikirlər irəli sürülüb.
11. Mirza Rehim Fena "Tarihi – i Cedid-i Karabağ" , Hasan Ali İhfanın (1893-1972) "Şuşa Tarihi".
12. Mustafazadə T,(2010). Qarabağ Xanlığı. Azərbaycan: "Sabah" Nəriyyatı, 30
13. Salamzadə A.V. "Azərbaycan XVIII-XIX əsrlər yaşayış binaları", Проблемы сохранения и реконструкции исторических городов.
14. Salamzadə A., Avalov A., Salayev R. Tarixi şəhərlərin qorunması və yenidən qurulması problemləri.

15. Salamzade. A. "Arxitektura narodnoqo jilisha nagornix rayonov Azerbaijana"; Город Шуша. Дворец карабахских ханов //. Азербайджан (Исторические и достопримечательные места) / Под общей редакцией М.А.Казиева. Баку: Издательство АН Азербайджанской ССР. 1960. 92
16. Газета Кавказ, № 58. Тифлис. 1857
17. М.Биберштейн .Описание провинций расположенных на левом берегу Каспийского моря лежащего между реками Терек и Куры .перевод Саламова.

***Keywords:*** *Karabakh Khanate, palaces, Shusha, architectural history*

**Elnarə Mədətova**
*İstanbul Universitetinin doktorantı*

## QARABAĞ XANLIĞI DÖVRÜNDƏ SARAYLAR

## XÜLASƏ

XVIII əsrin ortalarında Azərbaycanda müstəqil xanlıqlar dövründə monumental memarlığın və tikintinin tənəzzülü, ölkənin parçalanması, xanlıqların təsərrüfatlarının təcrid olunması ilə müşahidə olunurdu. Dövrün tikintisi xanların, xüsusi ilə Qarabağ xanlığının banisi Pənahəli xanın, iqamətgahlarının ətrafını möhkəmləndirmək və onlar üçün saraylar tikmək məqsədi daşıyırdı. İqtisadi böhranla əlaqədar olaraq, sosial-ritual xarakterli monumental tikililər tikilməsə də, XVIII-XIX əsrin əvvəllərində tikilmiş binalar xüsusi ilə xan sarayları, dəyər baxımından XVII əsrin strukturlarından geri qalmırdı. Qarabağ xanlığı dövründə xan ailəsi üçün tikilmiş saraylar sırasında yer alan Pənah xanın İbrahim Xəlil xanın,Qara Böyük ağanın və b. sarayları kimi tarixi əhəmiyyət daşıyan binalar Türk-İslam Dünyası memarlıq tarixində iz qoymuş əvəzsiz əsərlərdir.

1828-ci il Türkmənçay müqaviləsi nəticəsində bölgənin Rusiyaya birləşdirilməsi ilə daxili və xarici müharibələrin, feodal pərakəndəliyinin aradan qaldırılmasına,ölkənin memari inşaatın inkişafında önəmli rol oynamasıyla yanaşı, digər tərəfdən erməni göçlərinə, onların ərazi iddialarına və Azərbaycanın mədəni irsi olan memarlıq abidələrinə qarşı mənəvi soyqırımına səbəb olmuşdur. 8 noyabr 2020-ci ildə hörmətli Prezidentimiz İlham Əliyevin və Şanlı Ordumuzun Qarabağ savaşında əldə etdiyi qələbəsi sayəsində həsrətimizə son qoyuldu. Günümüzdə dağıdılmış əsərlər sırasında Qarabağ xanlığı dönəminə aid xan sarayları da mövcuddur. Məqalənin məqsədi, mövcud elmi tədqiqat işləri və arxeoloji məlumatlar əsasında Qarabağ xanlığının memarlığının şah əsərləri olan xan saraylarının formalaşmasını araşdırmaq, bədii xüsusiyyətlərini göstərmək və günümüzdəki, Qarabağ müharibəsindən sonra ermənilər tərəfindən dağıdılmış sarayların durumunu incələməkdir.

***Açar sözlər:*** *Qarabağ xanlığı, saraylar, Şuşa, memarlıq tarixi*

**Эльнара Мадатова**
*Докторант Стамбульского Университета*

## ДВОРЦЫ В ПЕРИОД КАРАБАХСКОГО ХАНСТВА

### РЕЗЮМЕ

В середине XVIII века в Азербайджане, в период независимых ханств, наблюдался упадок монументальной архитектуры и строительства, раздробленность страны, обособление хозяйств ханств. Строительство того периода было направлено на возведение резиденций ханов,в частности Панахали-хана, основателя Карабахского ханства, строительство дворцов и укрепление их окрестностей. В связи с экономическим кризисом общественно-ритуальные монументальные постройки не строились, а постройки XVIII - начала XIX вв., особенно ханские дворцы, по ценности не отставали от построек XVII века. В период Карабахского ханства среди зданий, носящие исторически важную ценностьдворцы, построенные для ханской семьи, такие как дворцы Панах-хана, Ибрагим-Халил-хана, Карабеюк-аги и др., являются незаменимыми произведениями, которые оставили след в истории архитектуры Тюркско-Исламского мира.

В результате Туркменчайского договора 1828 г., с присоединением области к России, ликвидацией внутренних и внешних войн и феодализма, с одной стороны, сыграло важную роль в развитии архитектурного строительства страны, с другой стороны, переселения армян, их территориальные претензии послужили причиной геноцида архитектурных памятников, являющихся культурным наследием Азербайджана. 7 ноября 2020 года, благодаря Победе нашего уважаемого Президента, Главнокомандующего Вооруженными Силами Ильхама Алиева и под его руководством Храброй Азербайджанской Армии во Второй Карабахской войне, восторжествовала справедливость. Среди разрушенных сооружений есть ханские дворцы периода Карабахского ханства.

Цель статьи – на основе имеющихся научных исследований и археологических данных исследовать формирование ханских дворцов, являющихся шедеврами архитектуры Карабахского ханства, показать их художественные особенности и проанализировать состояние дворцов, разрушенных армянами после карабахской войны.

***Ключевые слова:*** *Карабахское ханство, дворцы, Шуша, история архитектуры*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

# B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R T A R İ X İ
# H I S T O R Y O F I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327(091)

**ŞAİQ ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası "Tarix" kafedrasının doktorantı**
*e-mail: aliyev-ays@mail.ru*

## CƏNUBİ QAFQAZIN NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİNDƏ AZƏRBAYCANIN TRANZİT ÖLKƏ KİMİ ƏHƏMİYYƏTİ

Qlobal və regional geosiyasətin daha sıx əlaqədə olduğu müasir dövrdə geosiyasi dinamika sürətlə dəyişir. Belə bir şəraitdə aktual məsələlərdən biri də regional geosiyasətə ciddi təsir edə bilən dövlətlərin müəyyən olunmasıdır. Dünyanın bütün regionlarında bu istiqamətdə proseslər gedir.

Cənubi Qafqazda Azərbaycan Respublikasının bir neçə geosiyasi aspektləri mövcuddur: enerji geosiyasi aspekti (neft boruları), beynəlxalq geosiyasi aspekt (Xəzər dənizinin statusu müəyyənləşməsi və bölüşdürülməsində iştirak), etno-siyasi (bura qonşu dövlətlərlə münasibət və regionun siyasi stabilliyinin qorunub saxlanılması üçün aparılan siyasət: İkinci Qarabağ müharibəsi, İran İslam Respublikası ilə münasibətlərin gücləndirilməsi və s.)

İlkin olaraq geoiqtisadi maraqları: Energetika diplomatiyası Azərbaycanın xarici siyasət xəttinin prioritetlərindəndir. Bu istiqamətdə əldə edilən uğurlar diqqəti daha çox cəlb edir. Məlum olduğu kimi, hələ 1994-cü ildə dünyanın 11 aparıcı şirkətinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının (AÇG) dərinsulu hissəsinin birgə istismarı və neft hasilatının pay bölgüsü haqqında beynəlxalq müqavilə – "Əsrin müqaviləsi" imzalandı. Ardınca xarici tərəfdaşlarla bağlanmış sazişlər digər karbohidrogen yataqlarının istismarına şərait yaratdı. Beləcə, Azərbaycan neftinin tarixində yeni mərhələ başladı, həm də Xəzərdə beynəlxalq əməkdaşlığın əsası qoyuldu. Daha sonra Azərbaycanın "qara qızıl"ının dünya bazarlarına ixracı məsələsi həll olundu. Nəticədə Xəzərin Azərbaycan sektorunda hasil olunan neftin ixracı üçün boru kəmərləri, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri inşa edilib istifadəyə verildi. Beləliklə, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində mühüm mərhələ qət edildi, həm də ölkənin inkişafı üçün geniş üfüqlər açıldı. Bu il sentyabrın 14-də "Əsrin müqaviləsi" yenidən gündəmə gəldi. Bu dəfə müqavilənin müddəti 2050- ci ilədək uzadıldı. Yeni saziş 30 il müddətinə bağlanmış "Əsrin müqaviləsi"nin düzəliş edilmiş və yenidən tərtib olunmuş formasıdır. Müqavilənin icra olunduğu 23 il ərzində layihəyə 33 milyard dollar investisiya qoyulmuş, təxminən 436 milyon ton neft hasil olunmuşdu. Azərbaycanın layihədən əldə etdiyi birbaşa mənfəət 125 milyard dollardan çox idi. "Əsrin müqaviləsi" imzalananda AÇG-də 511 milyon ton neft olduğu ehtimal edilirdi. Amma ehtiyatlar proqnozları üstələdi. Hazırda yataqlar blokunda hələ hasil edilməmiş 500 milyon ton neft olduğu təsdiqlənmişdir. "Yeni əsrin müqaviləsi"nə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin layihədə iştirak payı 25 faiz təşkil

edəcək. Ölkəmizə çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz olacaq. Saziş çərçivəsində qoyulacaq investisiyanın məbləği 40 milyard dolları ötəcək. Bununla yanaşı, xarici tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcək. Beləliklə, milli iqtisadiyyatın lokomotivi olan neft sənayesinın tarixində yeni mərhələ başladı. Saziş Azərbaycanın ixracat potensialını və nəticə etibarilə gəlirlərini artıracaq "İlk vaxtlarda Azərbaycan neftinin Gürcüstan və Türkiyə vasitəsilə Aralıq dənizinə , daha dəqiq desək Avropaya ixrac olunması üçün nəzərdə tutulan Bakı-Ceyhan neft kəmərinin tikilib tikilməməsi haqqında şübhələr mövcud idi. Belə ki, Rusiyanın hələ də Azərbaycana təsirinin mövcudluğundan ehtiyat edən Avropa iqtisadçılarının proqnozu özünü doğrultmadı" [12].

Rəsmi Bakı doğru addım ataraq yeni sazişin bağlanmasına nail oldu. Ölkəmizin gələcək inkişafına əsaslı zəmin yaradan "Yeni əsrin müqaviləsi" Azərbaycan energetika diplomatiyasının möhtəşəm qələbəsi kimi tarixə düşmüşdü. Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayaraq bu missiyanı müvəffəqiyyətlə həyata keçirir. Bu baxımdan ölkəmizin iştirakı ilə "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması həm regional, həm də beynəlxalq ticarətin fəallaşmasına böyük töhfə verəcək. "Şərq-Qərb" dəhlizi artıq fəaliyyət göstərir. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınan yüklərin həcmi ilbəil artır. 2018-ci il oktyabrın 30-da dünyada dəmir yolu nəqliyyatının inkişafı naminə daha bir layihənin icrası başa çatmışdır [5]. Həmin gün Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi keçirildi və yeni polad magistral istifadəyə verildi. Dəmir yolu xəttinin ümumi uzunluğu 846 kilometr təşkil edir ki, bunun da 504 kilometri Azərbaycanın, 263 kilometri Gürcüstanın və 79 kilometri Türkiyənin payına düşür [4]. Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası bir sıra obyektiv səbəblərdən yubanmışdı. Belə ki, Ermənistanın Qərbdəki havadarları işğalçı dövlətin növbəti iri inkişaf layihəsindən kənarda qalmasını istəmir və onun reallaşmasına cidd-cəhdlə mane olurdu. Beynəlxalq maliyyə təsisatları yeni dəmir yolunun inşasına kredit verməkdən boyun qaçırmışdı, Qərb KİV-i isə layihənin perspektivsiz olacağını iddia edərək hər cür dezinformasiya yayırdı. Lakin bütün bunlar əbəs idi. Layihənin təşəbbüskarı olan Azərbaycan Türkiyə və Gürcüstanla birgə qəti iradə nümayiş etdirdi və nəhayət, Bakı-Tbilisi-Qars dəmir yolu – Avropa ilə Asiyanı birləşdirən ən qısa və etibarlı yol işə düşdü. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, daha sonra isə bundan da böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Diqqətəlayiq haldır ki, Bakı-Tbilisi-Qars dəmir yolu Asiya ilə Avropa arasında ən qısa yol olmaqla yanaşı, Avrasiyada bütün polad magistrallarını birləşdirmək imkanına malikdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasında ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Eyni zamanda, bu yol sabitliyə və təhlükəsizliyə xidmət edəcək. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti layihənin iştirakçısı olan ölkələrin geosiyasi əhəmiyyətini artıracaq və onlar üçün əlavə imkanlar yaradacaq. 2017-ci ildə Azərbaycan üçün regional və beynəlxalq əməkdaşlıq baxımından ən çox diqqətçəkən hadisələrdən biri Azərbaycan-İran-Rusiya əməkdaşlıq formatının formalaşması istiqamətində atılmış addımlar oldu. Xatırladaq ki, keçən ilin avqust ayında üç dövlətin başçıları – İlham Əliyev, Həsən Ruhani və Vladimir Putin arasında Bakıda keçirilmiş görüş və üçtərəfli sammit çərçivəsində əldə olunmuş razılaşmalar fövqəladə əhəmiyyəti ilə yadda qalmışdı. Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə irəli sürülmüş yeni regional əməkdaşlıq formatının meydana çıxması üç ölkənin ikitərəfli əlaqələrinin yüksəldiyi səviyyəni əks etdirirdi. Belə ki, həm Rusiya, həm də İranla həmsərhəd olan yeganə ölkə – Azərbaycan milli müstəqilliyini bərpa

edəndən bəri hər iki qonşusu ilə müxtəlif sahələrdə qarşılıqlı əlaqələri yüksək səviyyədə qurmuşdur. Öz növbəsində Rusiya-İran əlaqələri xüsusilə son illər nəzərəçarpacaq şəkildə inkişaf etmişdir. Bütün bunlarla yanaşı, yeni əməkdaşlıq formatının iştirakçısı olan ölkələri bir araya gətirən təkcə sırf coğrafi yaxınlıq – qonşuluq yox, həm də onların oxşar maraqları bölüşməsi, regional və beynəlxalq problemlərə münasibətdə ortaq məxrəcə gəlmək istəyidir. Azərbaycan-İran-Rusiya formatı regional əməkdaşlıqda konkret olaraq bir sıra mühüm nəticələr vəd edir. Söhbət ilk növbədə regional təhlükəsizliyin möhkəmləndirilməsi məsələsindən gedir. Məlum olduğu kimi, beynəlxalq terrorizm və ekstremizm ən əcaib formalarda təzahür etdiyi Yaxın Şərq regionumuzdan çox da uzaq deyil. Burada cərəyan edən hadisələr Azərbaycan, Rusiya və İranı da ciddi narahat edir. Odur ki, yeni regional formatın üzvü olan ölkələr beynəlxalq terrorizmlə mübarizədə uğurun yalnız birgə səylər hesabına təmin ediləcəyinə əmindirlər. Digər tərəfdən, üç ölkə başqa bir mühüm infrastruktur layihəsini – "Şimal-Cənub" nəqliyyat dəhlizini reallaşdırmaq əzmindədir [11].

Qeyd edək ki, beynəlxalq enerji və nəqliyyat layihələrində Azərbaycanın müttəfiqi ABŞ, Avropa İttifaqı, Türkmənistan, Türkiyə və Gürcüstan olsa da Rusiya, İran və Ermənistan isə opponent idi. Təbii ki, Rusiya və İran Azərbaycan neftinin onların ərazisindən keçməsini istəsələr də, Ermənistan Azərbaycanın regionda iqtisadi güclənməsinə qarşı idi. Təbii bir sıra Qərb alimlərinin fikrincə "ABŞ-İran münasibətlərinin stabilləşməsi təqdirində Azərbaycan neftinin İran ərazisindən keçməsi mümkün ola bilərdi" [10].

Növbəti geosiyasi aspekt Xəzərin statusunun müəyyənləşdirilməsi və bölüşdürülməsi. SSRİ dağıldığından İran və Azərbaycanla olan Xəzər dənizi sərhəddi mübahisəli olaraq qalmaqda idi. Hətta mübahisəli ərazilərdə neft ehtiyatlarının mövcud olması da düşünülür. "2001-ci ilin iyul ayından"Britiş Petroleum"un tərəfindən mübahisəli zonada yerləşən Azərbaycanın maraqlarına uyğun fəaliyyət göstərən 18 yatağın işlənməsi, silahlı gəmi diplomatiyasını" tətbiq edərək İranın təşəbbüsü ilə heç bir iş mümkün görmək deyildi" Xəzər dənizinin statusunun muəyyənləşdirilməsində Azəbaycanın müttəfiqləri Rusiya, Qazaxıstan, Türkiyə, Gürcüstan və ABŞ olduğu halda opponentləri isə İran və Türkmənistan dövlətləridir.

Azərbaycan tərəfindən Xəzər dənizində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı məsələdə Avropa İttifaqı neytrallığını saxlayırdı, belə ki, Aİ-İran İslam dövləti ilə enerji sahəsində olan maraqlarını Azərbaycan dövlətini dəstəkləyərək riskə atmaq istəmirdi. Bu məsələdə Azərbaycanın müttəfiqi olan dövlətlər də zidd siyasət yürüdürdülər, belə ki, Rusiya, ABŞ və Türkiyənin Xəzərin statusu məsələsinə qarışmağını istəmirdi.

Uzun illərin gərgin müzakirələrindən sonra beş Xəzəryanı ölkə Qazaxıstanın Aktau şəhərində Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı çox mühüm sənəd imzaladılar. Bu hadisəyə bir sıra dövlət başçıları tarixi qiymət verdilər. Mütəxəssislər və kütləvi informasiya vasitələri də baş verənlərə böyük maraq göstərdilər. Qərb mətbuatı əldə edilən razılıqları daha çox "siyasi mövqe"dən dəyərləndirməyə çalışırdı. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrin bəzi nəşrləri Xəzərin hüquqi statusunun müəyyənləşməsini Rusiyanın böyük qələbəsi kimi təqdim etməyə cəhd göstərirlər [9]. "The Guardian", "Le Monde", "The New York Times" və başqa nəşrlərdə imzalanan Konvensiyanın Moskvaya verə biləcəyi geosiyasi dividendlərdən bəhs edilirdi. Lakin, bu mühüm hadisə Azərbaycan üçün daha geniş geosiyasi və geoiqtisadi kontekstdə əhəmiyyət kəsb edir. Onu hansısa bir region dövlətinin uğuru kimi təqdim etmək reallığa uyğun deyil. Bu məqamı nəzərə alaraq Aktau sammitinin geosiyasi, mədəni, ekoloji, iqtisadi və energetik əhəmiyyəti üzərində geniş dayanmağa ehtiyac görürük. Belə ki, uzun illərdir regionun daha bir geosiyasi problemi də aradan qaldırılmış olur. "Xəzər beşliyi" dövlətlərinin başçıları Qazaxıstanın Aktau şəhərində V Zirvə toplantısında

mühüm sənədlər imzalamışdılar. Çünki Xəzərin hüquqi statusunun qeyri-müəyyən qalması iqtisadi, enerji, siyasi, hərbi, ekoloji və geosiyasi risklər yaradırdı ki, bu da istənilən an regionda gərginliyə yol aça bilərdi. Hətta bir neçə dəfə hövzə ölkələri arasında münasibətlər Xəzərin hüquqi statusunun müəyyən edilməməsi ilə bağlı gərginləşmişdi. Etiraf edək ki, münasibətlərdəki gərginlik Azərbaycan rəhbərliyinin təmkinli və qətiyyətli mövqeyi sayəsində hərbi münaqişəyə çevrilmədi. Həmin hadisələr artıq geridə qalıb Lakin Xəzərin statusunun müəyyən edilməməsinin hansı təhlükəli nəticələr verə biləcəyi faktını da unutmaq olmaz. Hazırkı mərhələdə həm də ona görə ki, supergüclərin müxtəlif regionlarda nüfuz uğrunda mübarizəsi çox intensiv xarakter alıb. Konkret desək, ABŞ, Rusiya və Çin hazırda beynəlxalq miqyasda çox fəal addımlar atırlar. Xəzərin strateji bir məkan olduğunu nəzərə alsaq, burada hər an böyük təsirləri olan qarşıdurmanın meydana gəlmə ehtimalının az olmadığı qənaətinə gəlmək mümkündür. Bu səbəblərdən Aktau sammitini siyasi liderlər haqlı olaraq "tarixi hadisə" kimi qiymətləndirirlər [6].

Prezidentlər sammitdə səkkiz sənəd – "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya", "Beşinci Xəzər sammitinin Kommünikesi", "Xəzər dənizində terrorizmlə mübarizədə əməkdaşlıq haqqında Protokol" və daha beş sənədi imzaladılar. Həmin sənədlərdə mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq, iqtisadi-ticari əməkdaşlıq, nəqliyyat sahəsində əməkdaşlıq, münaqişələrin aradan qaldırılması, sərhəd qurumlarının əməkdaşlığı kimi məsələlər ifadə edilmişdi.

Ekspertlər Xəzər Konvensiyası ilə yanaşı sammitin yekununda qəbul edilən "Beşinci Xəzər sammitinin Kommünikesi"nin əhəmiyyətini də vurğulayırlar. Kommünikedə qeyd olunur ki, Xəzərlə bağlı keçirilən sammitlərdə – 2002-ci il Aşqabad, 2007-ci il Tehran, 2010-cu il Bakı və 2014-cü il Həştərxan tədbirlərindən bugünkü sammitə qədər mürəkkəb yol keçilib. 12 avqust Aktau sammitinin başlıca yekunu isə beş ölkə liderinin baza beynəlxalq müqaviləni – Xəzərin hüquqi statusu haqqında beynəlxalq Konvensiyanı imzalaması oldu. Bu sənəd konsensus və bütün tərəflərin qarşılıqlı maraqlarının nəzərə alınması əsasında ərsəyə gəlib [6].

Kommünikedə ayrıca vurğulanır ki, bu sənəd Xəzərin müasir tələblərə cavab verən və sahilyanı dövlətlərin hərtərəfli qarşılıqlı əlaqələrinin bundan sonra da intensivləşməsinə imkan yaradan hüquqi rejimini müəyyənləşdirir. Bununla yanaşı, ekspertlər vurğulayırlar ki, tərəflər arasında olan fikir ayrılıqları tədricən ciddi diplomatik təşəbbüslər sayəsində aradan qaldırılıb.

Əldə olunan razılıqların səmərəli yerinə yetirilməsi üçün Prezidentlər xüsusi beştərəfli məsləhətləşmə mexanizmlərinin işlənib hazırlanması barədə razılığa gəliblər. Sənəddə qeyd olunur ki, Xəzəryanı dövlətlərin hökumətləri tərəfindən ticari-iqtisadi əməkdaşlıq, nəqliyyat, energetika, innovasiya, turizm, informasiya və başqa sferalarda əlaqələrin gücləndirilməsinə dair razılaşmalar böyük məmnunluq doğurub. Bu bağlılıqda 2019-cu ildə Türkmənistanda Birinci Xəzər İqtisadi Forumunun keçirilməsi haqqında ortaq fikrə gəlinməsi də yüksək qiymətləndirilir.

Kommünikedə dəniz nəqliyyatı üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi barədə ortaq fikrin formalaşmasına da böyük qiymət verilir. Bu sferada beştərəfli müqavilənin işlənib hazırlanması barədə qərar qəbul edilib. Sənəddə Xəzəryanı ölkələr arasındakı anlaşılmazlığın həlli, təhlükəsizlik, ekoloji sferada əməkdaşlıq və hərbi sahədə qarşılıqlı etimadın yüksəldilməsi məsələləri xüsusi vurğulanıb.

Məlumdur ki, bu məsələlər ekspertlərin də çox diqqət yetirdiyi məqamlarla sıx əlaqəlidir. Burada ilk olaraq dövlətlərin təhlükəsizliyi məsələsinin geosiyasi konteksti aktuallıq kəsb edir. Xəzəryanı ölkələr uzun müddət bu aspektdə ortaq mövqeyə gələ bilmirdilər. Onların geosiyasi maraqları bir-birindən fərqlənir. Demək olmaz ki, Aktau sammiti həmin istiqamətdə mövcud çətinlikləri tam aradan qaldırdı. Lakin danılmaz faktdır ki, vurğulanan istiqamətlər üzrə əhəmiyyətli dərəcədə irəliləyiş əldə edilib.

Məsələn, Xəzər dənizində münaqişələrin qarşısının alınması ilə bağlı imzalanan sənəddə Xəzəryanı dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə, təhlükəsizliyinə ziyan vurmamağa, hərbi sferada regional təhlükəsizliyin təmini kontekstində qarşılıqlı etimadın artırılmasına ayrıca diqqət yetirilib. Həmçinin terrorla mübarizədə də birgə fəaliyyət haqqında razılığın əldə olunması ciddi hadisədir.

Ümumiyyətlə, Azərbaycanın Avrasiyada əməkdaşlığın genişləndirilməsi məqsədilə irəli sürdüyü təşəbbüslər, reallaşdırdığı infrastruktur layihələri onu regionun aparıcı dövlətinə çevirmişdir. Ölkəmizin coğrafi mövqeyi onun belə bir rol oynamasına imkan verir. Lakin coğrafiya hər şeyi həll etmir. Əsas məsələ coğrafiyanın verdiyi imkanlardan səmərəli istifadədir. Bu baxımdan Azərbaycanın gördüyü işlər diqqətəlayiqdir. Rəsmi Bakı regional əməkdaşlığın inkişafını təmin etmək üçün heç bir fürsəti fövtə vermir. Elə bu yaxınlarda Azərbaycan paytaxtı daha bir mühüm regional tədbirə evsahibliyi etmişdir. Dekabrın 2-də Bakıda "Asiyanın Qəlbi – İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda VII Nazirlər Konfransı keçirilmişdir. Azərbaycan və Əfqanıstan prezidentləri İlham Əliyev və Məhəmməd Əşrəf Qaninin iştirak etdikləri foruma xarici ölkələrin və beynəlxalq təşkilatların 250-dən çox nümayəndəsi qatılmışdı. 2011-ci ildə təsis edilmiş "Asiyanın Qəlbi – İstanbul Prosesi" platformasının əsas vəzifəsi Əfqanıstanda inkişafa yol açan sülhün və sabitliyin bərqərar edilməsinə dəstək verməkdir [2]. Məlum olduğu kimi, bu dost ölkə uzun illərdir silahlı münaqişədən, terrorizmdən, narkoticarətdən əziyyət çəkir. Aydındır ki, "Asiyanın Qəlbi" kimi geniş bir regionda yerləşən Əfqanıstanın qarşılaşdığı ciddi problemlər həll edilmədən tammiqyaslı regional inkişafdan söhbət gedə bilməz. Odur ki, regionun ölkələri sözügedən problemlərin tənzimlənməsi üçün bütün mümkün səyləri göstərməlidir.

Kommünikedə yer almış digər əhəmiyyətli məqam Xəzərin ekologiyası ilə bağlıdır. Tərəflər bu aspektdə əməkdaşlığa böyük önəm verdiklərini vurğulayıblar. Bu bağlılıqda Azərbaycan Prezidenti İlham Əliyevin Aktau sammitində söylədiyi geniş nitqində ifadə etdiyi aşağıdakı fikri vurğulamaq gərəkdir: "Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, onun bioresurslarının mühafizəsi və artırılması ölkəmiz üçün prioritet məsələlərdən biridir. Son illər Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Xəzər dənizinin çirklənmədən qorunması məqsədilə mövcud sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə irimiqyaslı layihələr icra edilir" [1].

Prezident İlham Əliyev Azərbaycanın ekoloji faktora böyük önəm verdiyini konkret faktlarla göstərib. O cümlədən, ölkə rəhbəri Bakının "Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası"-nın və onun protokollarının, eləcə də "Xəzər dənizində su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında Saziş"in razılaşdırılması prosesində fəal iştirak etdiyini deyib. Dövlət başçısı ifadə edib ki, "bu istiqamətdə aparılan beştərəfli qarşılıqlı fəaliyyətin mühüm nəticəsi kimi cari il iyulun 20-də Moskva şəhərində Xəzəryanı dövlətlər arasında Çərçivə Konvensiyasının Transsərhəd kontekstdə ətraf mühitə təsirinin qiymətləndirilməsinə dair Protokolunun imzalanmasını yüksək dəyərləndiririk [1].

Kommünikedə bu kimi faktorların vurğulanması üzərində dayanmağımız təsadüfi deyil. Bu faktlar onu göstərir ki, Aktauda Xəzərin hüquqi statusunun müəyyənləşməsi məsələsi çox geniş kontekstdə götürülüb. Mütəxəssislər həmin məqamı nəzərə alırlar. Əslində, bu özəllik prinsipial geosiyasi əhəmiyyət kəsb edir. Hər şeydən öncə aydın olur ki, Xəzərin hüquqi statusunun müəyyən edilməsi sırf hüquqi prosedurlarla bağlı deyildi. Qarşıya çıxan müxtəlif çətinliklər daha çox geosiyasi, hərbi və iqtisadi, energetika məsələləri ilə bağlıdır. Aktau sammitinin strateji əhəmiyyətini ilk növbədə məhz bu faktorlar şərtləndirir.

Regionun geosiyasi `aspektlərdən biri Qarabağ problemidir. Vurğulanan səbəblər sırasında Cənubi Qafqazın son 300 ildə dünya siyasəti üçün daha əhəmiyyətli region kimi özünü təsdiqləməsini göstərirlər. Sovetlərin çökməsindən sonra regionda xeyli xaotik mənzərə meydana gəldi. Artıq onilliklərdir ki, bu cür, obrazlı desək, riskli mənzərə regional təhlükəsizliyə ciddi təhdid olaraq qalırdı. Bunun fonunda bir səbəb daha təhlükəli görünürdü. Bu, bəzi geosiyasi güclərin region dövlətlərinə qarşı heç də birmənalı qiymətləndirilməyən mövqe sərgiləməsi ilə bağlıdır. Məsələn, onlar Ermənistanın təcavüzkarlığına müxtəlif bəhanələrlə haqq qazandırmaq işindən hələ də əl çəkməyiblər. Bundan başqa, insan haqları, söz azadlığı, demokratiya kimi təmtəraqlı ibarələri yalnız təcavüzkar Ermənistana aid etməyə çalışırlar. Əlbəttə, bu vəziyyət uzun müddət davam edə bilməzdi. Bunun fonunda daha bir səbəb Cənubi Qafqazda münaqişələrin həll edilməməsi ilə əlaqəli idi. Daha çox Qarabağ problemi əməkdaşlıq və təhlükəsizlik qarşısında əngələ çevrilmişdi. ATƏT-in Minsk qrupu problemi həll etmək əvəzinə erməni işğalının ömrünün uzadılmasına çalışırdı. Bununla da problemin həlli üçün BMT tərəfindən qəbul edilmiş məlum qətnamələrin tələbləri yerinə yetirilmirdi. Bu isə arzuolunmaz presedent yaradırdı. Belə şəraitdə Cənubi Qafqazda risklər çoxalır, əməkdaşlıq və sabitlik üçün müxtəlif maneələr yaradılırdı.

SSRİ dağıldıqdan Cənubi Qafqazda yeni bir münaqişə ocağı yaranmışdı. Azərbaycanla Ermənistan arasında ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibə Cənubi Qafqazda hərbi və siyasi sahələrdə qüvvələr nisbətinə əsaslı dəyişikliklər gətirdi. Azərbaycan 44 gün ərzində yalnız hərb meydanında deyil, siyasətdə, diplomatiyada və informasiya savaşında da əsaslı mübarizə aparıb tarixi qalibiyyətinə qovuşmuşdu. Azərbaycana məğlub olan işğalçı ölkə kapitulyasiya aktı imzalamağa məcbur edildi. Ermənistanın 30 illik işğal siyasətinə son qoyulmuşdu. Bunun nəticəsində regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq dənizi və Xəzər dənizi hövzələrini birləşdirən nəqliyyat dəhlizin yaradılması yeni inkişaf perspektivləri vəd edir. Bu kontekstdə məsələyə geniş geosiyasi aspektdə təhlili yanaşdıqda çox maraqlı və aktual məqamlar üzə çıxır. Xüsusən Azərbaycan Prezidentinin liderlik keyfiyyəti və Ali Baş Komandan kimi fəaliyyəti ön plana çıxır. Həmin kontekstdə regional miqyasda formalaşan yeni geosiyasi reallığı analiz etmək ciddi aktuallıq kəsb edir. Azərbaycan faktiki olaraq konfrontasiya geosiyasi xəttini sındırdı, regionu əməkdaşlıq və təhlükəsizlik geosiyasi müstəvisinə çıxardı. Bunun tarixi, siyasi, sosial, mədəni, iqtisadi və hərbi-strateji nəticələri özünü göstərməkdədir.

Kompleks halda vurğulanan məqamlar Cənubi Qafqazı qlobal geosiyasətin ən həssas məkanlarından birinə çevirmişdi. Burada hər an sabitliyin pozulması, terrorun tüğyan etməsi və bölgə xalqlarının fəlakətlərə düçar olması baş verə bilərdi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək regionda baş verən geosiyasi-hərbi proseslər vəziyyəti kökündən dəyişdi. Cənubi Qafqazın geosiyasi mənzərəsinin formalaşmasında 44 günlük Vətən müharibəsi həlledici rol oynadı. Ekspertlər hesab edirlər ki, Azərbaycan bununla faktiki olaraq Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdı. Doğrudan da, məsələnin bu tərəfinin dərin və geniş mənası vardır. Onun müxtəlif incəlikləri üzərində geniş dayanmaq lazım gəlir.

Bəzi geosiyasi güclərin regiona olan münasibəti risk və qeyri-müəyyənliklə xarakterizə olunan xaos yaradırdı. Belə bir geosiyasi xətt formalaşmışdı ki, inkişaf etdikcə region daha çox təhlükəyə düçar olurdu. Aydındır ki, yaxşı mənada bu xəttin "sındırılması" lazım idi. Ancaq necə?

Bəzi güc mərkəzləri Cənubi Qafqazda "geosiyasi tarazlığı" konfrontasiyanı müəyyən həddə qədər yüksəldib, lakin hərbi toqquşmalara imkan verməmək taktikası ilə saxlayırdılar. Bu cür riskli gedişat kifayət qədər təhlükəli geosiyasi dinamika formalaşdırmışdı. Belə təəssürat yaranırdı ki, Ermənistan bölgədə istədiyi təxribatı törədib, "süddən ağ qaşıq" kimi çıxa bilərdi.

Regional təhlükəsizlik baxımından burada çox təhdidedici geosiyasi məqam meydana gəlmişdi. Ermənistan faktiki olaraq regionun yeni terror qaynağına çevrilmişdi. Bu ölkə nüvə tullantıları ilə də bölgəyə fəlakət gətirirdi. Ekoloji mühitin çirkləndirilməsi üçün əlindən gələni edirdi. İşğal etdiyi Azərbaycan ərazilərində mədəni və dini abidələri dağıdırdı, müsəlman qəbirlərini təhqir etməkdən çəkinmirdi. Xüsusilə məscidlərə qarşı heç bir ölçüyə sığmayan vəhşiliklər edirdi. Aydın görünürdü ki, işğalçı ölkə öz havadarlarından dağıdıcılıq üçün icazə alıb. Onun danışıqlarda qeyri-konstruktiv mövqe tutması və əsassız olaraq yeni şərtlər irəli sürməyə çalışması bunu təsdiq edir.

Beləliklə, Cənubi Qafqazda maraqları olan bəzi xarici qüvvələr regionda konfliktləri sona çatdırmaq əvəzinə, öz maraqlarına uyğun fəaliyyət göstərirdilər. Bu oyunun son məqsədi Azərbaycana ədaləti bərpa etməyə imkan verməməklə Ermənistanın işğalının nəticələrini əbədiləşdirməkdən ibarət idi. Həmin xətti regionun köhnə geosiyasi xəttinin əsas qayəsi hesab edə bilərik. Təbii ki, vəziyyətin köklü dəyişməsi üçün geosiyasi xətt qırılmalı idi. Bunun baş verməməsi üçün həmin supergüclər, demək olar ki, əllərindən gələn hər şeyi edirdilər. Lakin onlar bir məqamı nəzərə ala bilməyiblər. Azərbaycan siyasi rəhbərliyinin qətiyyətini, iradəsini və çox uğurlu dövlət quruculuğu siyasətini davamlı olaraq həyata keçirməsini!

Həqiqətən, Azərbaycan faktiki olaraq geosiyasi aspektdə konfrontasiya xəttini sındıraraq, yeni əməkdaşlıq yolu açıb. Bununla yeni geosiyasi reallığın mərkəzi punktunu əməkdaşlıq və təhlükəsizlik təşkil edir. Bu iki faktoru birləşdirən mexanizm isə dialoqdur. Dialoq İlham Əliyevin mövqeyinə görə yeni regional əməkdaşlıq formatını reallaşdırmağa imkan yaradacaq. Azərbaycan Prezidenti həmin formulu artıq təklif edib, o, ekspert dairələrində “3+3” və ya “5+1” əməkdaşlıq formulu kimi məşhurdur.

Deməli, yeni geosiyasi reallığın siyasi-diplomatik rəmzi “3+3” (“5+1”) formuludur ki, bunun da təşəbbüskarı cənab İlham Əliyevdir. Bu formulun reallaşması üçün konkret təkliflər də artıq hazırdır. Onların bir qismi haqqında Prezident İlham Əliyev fikir bildirib. Dövlət başçısı deyib: “İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri və həmçinin digər layihələr də prioritet təşkil edir. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin” [7].

Buradan görünür ki, Prezident üçün kommunikasiya xətlərinin açılması ilə yanaşı, Azərbaycanın liderliyini saxlaması da ciddi əhəmiyyət kəsb edir, və ya kommunikasiyaların açılması Azərbaycanın regional liderliyini təmin etməkdə böyük rol oynaya bilər. Görünür, məhz bu səbəbdəndir ki, İlham Əliyev Ermənistanın Zəngəzur dəhlizinin işə düşməsinə əngəl törətdiyini, lakin bunun aradan qaldırılacağını ayrıca vurğulayıb. Ekspertlər də Zəngəzur dəhlizinin yalnız regional deyil, beynəlxalq əməkdaşlıq üçün mühüm rol oynadığını vurğulayırlar.

Beləliklə, yuxarıda vurğulanan məqamlar bir daha təsdiq edir ki, Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Bu yeni mənzərənin iki özəlliyi vardır: birincisi, regional əməkdaşlıqla beynəlxalq miqyasda əməkdaşlıq arasında daha uyğun şərait meydana gəlib; ikincisi, Azərbaycan bundan sonra da regionun lideri olaraq qalacaq.

Verilmiş təhlil göstərir ki, qeyd olunan bütün geosiyasi aspektlərdə Ermənistandan başqa Azərbaycana qarşı mövqedə olan dövlətlər yoxdur. Cənubi Qafqaz regionunda regional və böyük dövlətlərin geosiyasi maraqlarının

toqquşduğu bir halda Azərbaycanın həmin dövlətlərlə ikitərəfli münasibətləri mühüm əhəmiyyət kəsb edir. Təbii qeyd olunan qarşıdurmaların fonunda regionun en stabil iqtisadi və siyasi dövləti olan Azərbaycanın belə daxili və xarici siyasətində risklərlə üzləşməkdədir.

Azərbaycan beynəlxalq müstəvidə mühüm nəqliyyat-logistika qovşağıdır. Dünya təcrübəsi göstərir ki, transmilli nəqliyyat layihələri əhatə etdiyi coğrafiyada təhlükəsizliyin qarantına çevrilir. Azərbaycanda da Vətən müharibəsindən sonra regionda qalıcı sülhün bərqərar olması və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində maraqlı tərəf qismində çıxış edir. Bu mənada sözügedən nəqliyyat layihələri regionda hərbi təhdidlər aradan qalxması, dialoq və əməkdaşlıq mühitinin yaradılması baxımından da mühüm əhəmiyyətə malikdir. Qeyd edilən nəqliyyat layihələri qarşılıqlı əməkdaşlığı gücləndirməklə yanaşı, Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasətinin uğurunun praktiki göstəriciləridir. Bütün bunların faktiki təzahürü sonuncu Avropa İttifaqı-Azərbaycan biznes forumunda özünü bir daha göstərdi. Forumda Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko nəqliyyat-logistika sahəsində yeni layihələrin icrasının tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyini qeyd edib. Peter Mixalko Azərbaycanın əlverişli coğrafi mövqeyinin, nəqliyyat-tranzit potensialının Avropa İttifaqı şirkətlərini cəlb etdiyini və onların ölkəmizdə fəaliyyətdə, eləcə də işğaldan azad olunmuş ərazilərimizin bərpası və quruculuq işlərində iştirakda maraqlı olduqlarını bildirib [8]. Avropa İttifaqı ilə yanaşı, hazırda dünyanın bir sıra ölkələri tərəfindən Azərbaycanın tranzit imkanları yüksək qiymətləndirilir. Bu fonda Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi ölkəmizin geosiyasi, geoiqtisadi mövqelərini qarşıdakı dövr ərzində daha güclü hala gətirəcək. Avropada qəbul edilir ki, Azərbaycan bu gün regional və beynəlxalq müstəvidə mühüm nəqliyyat-logistika qovşağıdır.

**Ədəbiyyat:**

1. “Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkisafına dair” (2006–2015-cu illər) Dövlət Proqramı
2. “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”-Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Azərbaycan diplomatiyası
4. Avropa – Qafqaz – Asiya (TRACECA) beynəlxalq nəqliyyat dəhlizi” https://www.mfa.gov.az/az/content/332/avropa-qafqaz-asiya-traceca-beynelxalq-neqliyyat-dehlizi
5. Hacızadə E.M. Energetik kompleks yeni islahatlar ərəfəsində, Bakı, Elm, 2012.
6. Xəzərin hüquqi statusu: Aktau sammitinin tarixi və geosiyasi özəllikləri. http://newtimes.az/az/economics/5728
7. Prezident: İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. https://azertag.az/xeber/Prezident_Indi_bolgede_neqliyyat_kommunikasiya_sahesinde_boyuk_layiheler_muzakire_edilir-1697185

8. Uğurlu nəqliyyat-logistika siyasəti Azərbaycanın beynəlxalq tərəfdaşlarının sayını sürətlə artırır // https://www.baki-xeber.com/siyaset/139620.html
9. Frederick L. Schuman, International Politics: The Western State System in Transition (New York: McGraw-Hill, 1941), p. 59.
10. Robert M. Cutler, "[Russian Imperial and] Soviet Policy toward Greece and Turkey: A [Comparative International] Systems Perspective," pp. 183-206 in The Greek-Turkish Conflict in the 1990s, Dmitri Konstasın redaktəsi ilə (London: Macmillan, 1991) http://www.robertcutler.org/download/html/ch91dc.html saytında tapıla bilər (30 may 2010-cu ildəki vəziyyətə görə).
11. Абдуллаев К. Н. Участие Азербайджанской Республики в международных транспортно-транзитных проектах: реалии и перспективы. // Внешнеэкономическая деятельность. №37 (79) – 2011 с. 61-65
12. Маршруты транспортировки азербайджанской нефти (Баку-Новороссийск, БакуСупса)// http://www.azerbaijan.az/_Economy/_Oil Strategy/ oilStrategy_05_r.html

***Açar sözlər:*** *Cənubi Qafqaz, tranzit, kommunikasiya, tranzit layihə, geosiyasi aspekt*

**Shaiq Aliyev**
*Ph.D. student, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THE IMPORTANCE OF AZERBAIJAN AS A TRANSIT COUNTRY IN THE TRANSPORT AND COMMUNICATION SYSTEM OF THE SOUTH CAUCASUS

### ABSTRACT

The importance of Azerbaijan as a transit country in the transport and communication system of the South Caucasus has increased in the post-pandemic period. This article substantiates the rapid change in the dynamics of geopolitics in the modern era when global and regional geopolitics are closely connected. After the second Karabakh war, the level of transport and communication potential of Azerbaijan has been noted.

***Keywords:*** *South Caucasus, transit, communication, transit project, geopolitical aspect*

**Шаиг Алиев**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ЗНАЧЕНИЕ АЗЕРБАЙДЖАНА КАК ТРАНЗИТНОЙ СТРАНЫ В ТРАНСПОРТНО-КОММУНИКАЦИОННОЙ СИСТЕМЕ ЮЖНОГО КАВКАЗА

### РЕЗЮМЕ

Значение Азербайджана как транзитной страны в транспортно-коммуникационной системе Южного Кавказа еще более возросло в постпандемический период. В данной статье обосновывается стремительная смена динамики геополитики в современную эпоху, когда глобальная и региональная геополитика более тесно связаны. После Второй Карабахской войны отмечается уровень транспортно-коммуникационного потенциала Азербайджана.

***Ключевые слова:*** *Южный Кавказ, транзит, коммуникация, транзитный проект, геополитический аспект*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyasının "ASAN xidmət"lə həyata keçirdiyi layihənin növbəti təlimləri olub*

Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"dən irəli gələn tapşırıqların icrası ilə bağlı olaraq Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") ilə Əməkdaşlıq Memorandumu çərçivəsində fəaliyyətini davam etdirir. Bununla əlaqədar sentyabrın 30-dan oktyabrın 5-dək "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün daim yenilənən "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" adlı təlimlər keçirilib.

Təlimlərdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov mövzu üzrə məruzə ilə çıxış edib. Rektor çıxışına müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin əhəmiyyətini xatırladaraq başlayıb. U.Ələkbərov vurğulayıb ki, dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində respublikamız sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramları həyata keçirir, Avropanın enerji təhlükəsizliyində sözünü deyir.

Akademik iştirakçıların diqqətinə çatdırıb ki, inklüziv cəmiyyətin qurulması ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasındadır və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu məsələdə ardıcıl fəaliyyəti respublikamızın müvafiq sahədə lider olmasına töhfə verir.

Təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğu, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycanda yüksək rifah cəmiyyətinin qurulmasının, azad edilmiş bölgələrə tarixi qayıdışın təmin edilməsinin vacibliyi vurğulanıb.

Rektor Urxan Ələkbərov təlimləri işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik əldə etdikdən bu günədək qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin nailiyyətlər barədə geniş məlumat verməklə yekunlaşdırıb.

Təlimlər diskussiya formatında davam edib və uğurla başa çatıb.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri "Əlaçı" proqramı çərçivəsində PAŞA Holding tərəfindən təqaüd şansı əldə edib*

Gənc nəslin peşəkar inkişafına önəm verən və bu istiqamətdə müxtəlif layihələr həyata keçirən PAŞA Holdinq tərəfindən bu il ilk dəfə olaraq "Əlaçı" təqaüd proqramı təşkil olunmuşdur. "Əlaçı" proqramı akademik göstəriciləri yüksək olmaqla yanaşı, təcrübə proqramlarında, sosial layihələrdə və könüllü fəaliyyətlərdə aktiv iştirak edən 3 və 4-cü kurs bakalavr tələbələrini əhatə edən bir illik təqaüd proqramıdır. Proqram çərçivəsində seçilmiş tələbələr üçün 1 akademik il ərzində aylıq təqaüddən əlavə, onların peşəkar və fərdi inkişafına yönəlmiş tədbirlər təşkil olacaq, eləcə də karyera məsləhətləri, mentortorluq və digər xidmətlər göstə-

riləcək. Təqaüd proqramına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil alan 2400 tələbə müraciət etmiş, 3 mərhələdən ibarət olduqca rəqabətli seçim prosesinin nəticəsində 115 tələbə təqaüd proqramının qalibi elan edilmişdir. Proqramının qaliblərinin 6 nəfəri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələridir. Dövlət İdarəçilik Akademiyasının 4-cü kurs hüquqşünaslıq ixtisası üzrə təhsil alan H-191 qrupunun tələbəsi Səbinə Zülfiyeva, H-192 qrupunun tələbəsi Gülçin Mustafayeva, 3-cü kurs hüquqşünaslıq ixtisası üzrə təhsil alan H-202 qrupunun tələbəsi İsmayıl Süleymanov, 4-cü kurs beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan BM-191 qrupunun tələbəsi Sevil Abdullazadə, 3-cü kurs iqtisadiyyat ixtisası üzrə təhsil alan İ-201 qrupunun tələbəsi Şəbnəm İbrahimova və 4-cü kurs kompüter elmləri ixtisası üzrə təhsil alan K-191 qrupunun tələbəsi Ləman Xəlilova qaliblər sırasındadır. Paşa Holdinqin rəhbər şəxslərinin və qaliblərin iştirakı ilə layihənin açılış tədbiri təşkil olunaraq qalibləri təbrik etmişlər.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunu dünyada hüquq və texnologiyanın qarşılıqlı öyrənilməsi üzrə ən yaxşı universitetə qəbul olub***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunu dünyada hüquq və texnologiyanın qarşılıqlı öyrənilməsi üzrə ən yaxşı universitetə qəbul olub. Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisası üzrə 2018-ci il məzunu Əli Ələkbərli dünyanın ən yaxşı 10 universitetindən 7-sinə qəbul olaraq hüquq üzrə magistr təhsili almaq şansı əldə edib və universitetlərin əksəriyyətindən akademik və professional göstəricilərinə görə təqaüd qazanıb. Əli Ələkbərlinin seçimi dünyada hüquq və texnologiyanın qarşılıqlı öyrənilməsi üzrə ən yaxşı universitet olan Stanford Universiteti (LLM in Law, Science and Technology) olub. Qeyd edək ki, Prezident təqaüdçüsü olmuş Əli 2018-ci ildə DİM tərəfindən keçirilən magistraturaya qəbul imtahanında, 2021-ci ilin fevralında isə doktoranturaya qəbul imtahanında ölkə birincisi olub.

***Dövlət İdarəçilik Akademiyasında dövlət qulluqçuları üçün təlim keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Dövlət Miqrasiya Xidmətində çalışan dövlət qulluqçuları üçün “Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi texnologiyaları yeni inkişaf mərhələsində” mövzusunda təlim keçirilib. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov mövzu üzrə təqdimatla çıxış edərək Azərbaycanın sürətli və innovativ inkişaf etdiyini bildirib. Rektor qeyd olunan uğurların təməlində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının və tətbiq edilən yeni idarəetmə texnologiyalarının olduğunu xüsusi vurğulayıb. U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbə və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsində böyük roluna diqqət çəkib. Akademik bildirib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir. Rektor beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsində lider olduğunu qeyd edib. U.Ələkbərov inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya

liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətlərini vurğulayıb. Eyni zamanda qeyd edib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl islahat və dəyişikliklərin məntiqi yekunudur. Akademik milli və beynəlxalq inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğundan söz açıb. Təlim müddətində müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğu, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə respublikamızda yüksək rifah cəmiyyətinin qurulmasının, azad edilmiş bölgələrə tarixi qayıdışın təmin edilməsinin vacibliyi qeyd olunub. Rektor Urxan Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verməklə yekunlaşdırıb. Təlimlər diskussiya formatında davam edib.

***Dövlət İdarəçilik Akademiyasında 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü ilə əlaqədar konfrans keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 18 Oktyabr – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası Günü ilə əlaqədar elmi praktik konfrans keçirilib. Tədbirdə bu ali məktəbin rektoru akademik Urxan Ələkbərov ötən 30 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və siyasi gücümüzün artdığını bildirib. Qeyd edilib ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib. U.Ələkbərov vurğulayıb ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşib. Xalqımızın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə



qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkəmiz parçalanma təhlükəsindən xilas oldu. Akademik Urxan Ələkbərov 44 günlük Vətən müharibəsindən, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun düşmən üzərində qazandığı parlaq Qələbədən söz açıb. Vətən müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlığını, mübarizliyini xüsusi qeyd edib. Rektor bildirib ki, Qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun müddət ərzində həyata keçirdiyi güclü dövlət, güclü xalq və güclü ordu strategiyası olub. Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyev, Qarabağ Arasdırmalar Mərkəzinin rəhbəri, professor Elçin Əhmədov, Tarix kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova və digərləri çıxış edərək dövlət müstəqilliyimizin bərpası uğrunda gedən mübarizələrdən, əldə olunan uğurlardan bəhs ediblər. Çıxış edənlər Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini xalqımızın tarixində böyük hadisə kimi qiymətləndirib, ölkənin əldə etdiyi nailiyyətlər barədə fikirlərini bölüşüblər. Bildirilib ki, müstəqilliyi qoruyub saxlamağın onu qazanmaqdan qat-qat çətin olduğunu tarix dəfələrlə sübut edib. Azərbaycan xalqı bu il bu bayramı öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

### *DİA əməkdaşı Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Berlində keçirdiyi "Şərq Tərəfdaşlığı ölkələrində yaxşı idarəçilik üzrə payız məktəbi"ndə iştirak edib*

26-30 sentyabr 2022-ci il tarixlərində Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsinin ikinci mərhələsi çərçivəsində Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinin nümayəndələri üçün "ŞT ölkələrində yaxşı idarəçilik üzrə payız məktəbi" təşkil olunub.

GİZ, Hertie Məktəbi və Alterbridge Beynəlxalq İdarəetmə və Kommunikasiya Universitetinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə DİA-nın Elektron idarəetmə şöbəsinin müdiri Sərxanbəy Xudiyev iştirak edib.

Payız məktəbi "Beynəlxalq münaqişələrin idarə edilməsi", "Siyasətçilər üçün effektiv yazı", "Dövlət sektorunda innovasiya və transformasiya", "Dövlət sektorunda siyasi ünsiyyət və süni intellekt", "Süni intellekt və insanların idarə edilməsi" və digər mövzuları əhatə edib. Təlimlər Almaniyanın dövlət qulluğu sahəsinin mütəxəssisləri tərəfindən aparılıb.

Payız məktəbi çərçivəsində 28 sentyabr tarixində İqtisadiyyat və İqlim Fəaliyyəti üzrə Federal Nazirliyə səfər təşkil olunub.

"Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" regional layihəsinin mənşəsini dövlət sektorunda müntəzəm qarşılıqlı təcrübə mübadiləsi yolu ilə müasir təlim yanaşmalarını inkişaf etdirmək və praktiki dəstək verməkdir.

2022-ci ilin yanvar ayından başlayan layihənin 2024-cü ilin oktyabr ayınadək davam etməsi planlaşdırılır. 2 illik regional layihə çərçivəsində müxtəlif təlimlər nəzərdə tutulub və layihə 6 təlim modulu ilə beş gün davam edən təlimi əhatə edir.

### *Ağdamda dövlət qulluqçuları üçün ixtisasartırma təlimi keçirilib*

Ağdam şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən Prezidentin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəliyi və Ağdam Rayon İcra Hakimiyyətinin əməkdaşları (dövlət qulluqçuları) üçün ixtisasartırma təlimi keçirilib. Təlim Ağdam Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa




rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda interaktiv təqdimatla çıxış edib. Urxan Ələkbərov təqdimatda Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. U.Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. O, qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi






vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Akademik qeyd edib ki, 8 noyabr 2020-ci il Azərbaycan tarixinə ən şanlı gün kimi yazıldı. Eyni



zamanda, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, 30 ildən artıqdır yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun region üçün yaratdığı ciddi təhdidləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələrin informasiya məkanında düşmənin yalan üzərində qurulmuş təbliğatına ciddi zərbə vurduğunu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndiyini qeyd edib. Rektor U.Ələkbərov təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da qeyd edib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Təlimin sonunda dinləyicilərin sualları cavablandırılıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti Ağdam şəhərində olan abidələri ziyarət ediblər.

### *Azərbaycan dünyada inklüziv inkişaf sahəsində resurslardan ən səmərəli istifadə edən ölkədir*

Azərbaycanın inkişafında azad olunmuş ərazilərin bərpası və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan bir sıra sahələrdə dünya lideridir. Ölkəmiz öz inkişaf səviyyəsinə və texnologiyalarına görə bir çox ölkəni qabaqlayır. Ağdam şəhərində və bu ərazidə inkişafın innovativ yolla aparılması təqdirəlayiq haldır. Bu sözləri oktyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə Xüsusi Nümayəndəliyinin və Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə Ağdamda keçirilən səyyar təlimdə iştirak edən DİA-nın rektoru akademik Urxan Ələkbərov jurnalistlərə müsahibəsində deyib.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Texnologiyaların transferi və Elmin kommersiyalaşdırılması platformasının təqdimatı keçirilib*

13 oktyabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Texnologiyaların transferi və Elmin kommersiyalaşdırılması platformasının (TTCP) təqdimatı keçirilib. Təqdimatda DİA-nın rektoru, professor-müəllim heyəti və tələbələr iştirak etmişdilər. Tədbiri giriş sözü ilə açan DİA-nın Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimli AMEA-nın Yüksək Texnologiyalar Parkı (YT Park) və Cənubi Koreyanın Elm və Texnologiya Siyasəti İnstitutu (STEPİ) tərəfindən həyata keçirilən “Azərbaycanda texnologiya transferi və elmin kommersiyalaşdırılmasının təşviqi” layihəsi çərçivəsində ərsəyə gələn TTCP platformasının Dövlət İdarəçilik Akademiyasında təqdimatının keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi. Natiq vurğuladı ki, bu gün DİA-nın alimləri öz innovativ ideyaları və layihələri ilə respublikanın iqtisadiyyatına və o cümlədən, dünya elminə töhfələr verməkdədirlər. Sonra tədbirdə çıxış edən DİA-nın “Davamlı inkişafın



planlaşdırılması və idarə edilməsi" kafedrasının baş müəllimi, aqrar elmləri üzrə fəlsəfə doktoru Vüqar Babayev Texnologiyaların transferi və Elmin kommersiyalaşdırılması platforması (TTCP) barədə tədbir iştirakçılarına məlumat verdi və qeyd etdi ki, keçirilən tədbirin əsas məqsədlərindən biri də elm-istehsalat əlaqələrinin genişlənməsi və multidissiplinar innovativ layihələrin hazırlanması, elmin kommersiyalaşdırılmasının təşkilində patent və lisenziyaların rolu, bu istiqamətdə beynəlxalq təcrübələr, o cümlədən DİA-da həyata keçirilən innovativ layihələrlə tanışlıqdır. Daha sonra tədbirdə çıxış edən AMEA-nın YTP İnkubasiya və Texnologiyaların Transferi Mərkəzinin rəhbəri Bünyamin Seyidov "AMEA-nın Yüksək Texnologiyalar Parkının (YTP) Əməliyyat proqramı: tətbiq və potensialın gücləndirilməsi" layihəsi haqqında danışdı. O, qeyd etdi ki, AMEA YT Parkı ilə Koreyanın Elm və Texnologiya Siyasəti İnstitutunun (STEPI) birgə layihənin həyata keçirilməsi Azərbaycanın innovasiya ekosisteminin inkişafında Koreya təcrübəsindən bəhrələnmək, həmçinin ölkəmizin ali təhsil müəssisələrinin bilik və təcrübə mübadiləsi aparmaq üçün geniş imkanlar açmışdır. Tədbirdə çıxış edən BMU Sənaye mühəndisliyi kafedrasının dosenti, c.e.f.d. İsa Qasımov TTCP və onun təklif etdiyi xidmətlər haqqında və "CODDERS" MMC-nin həmtəsisçisi Seymur Həmidov TTCP platformasının təqdim etdiyi imkanlardan danışmışlar. Qarşılıqlı diskussiya şəraitində keçən tədbirdə iştirakçıların sualları cavablandırılmışdır.

### *DİA-nın tələbələrinə sertifikatlar təqdim edilib*

Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsinin tələbələri Azərbaycan Layihə İdarəetmə Assosiasiyası tərəfindən təşkil olunan "Layihə menecmenti" üzrə kursu uğurla başa vuraraq sertifikatla mükafatlandırılıblar. Tədbirdə iştirak edən Azərbaycan Layihə İdarəetmə Assosiasiyasının vitse-prezidenti Fərid Kazımov kurs müddətində DİA tələbələrinin xüsusi aktivlik göstərdiklərini və 10 nəfərin beynəlxalq imtahanda iştirak edərək Beynəlxalq sertifikat qazandıqlarını, 20 nəfər tələbənin isə yerli sertifikatla mükafatlandırıldığını qeyd etmişdir.

### *Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq Humanitar Hüquq: Hərbi Əsirlər və İtkin Düşmüş Şəxslər" mövzusunda tədbir keçirilib*

20 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq Humanitar Hüquq: Hərbi Əsirlər və İtkin Düşmüş Şəxslər" mövzusunda Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Şərqi Avropa və Mərkəzi Asiyadakı missiya və nümayəndəliyinin üzvü Andrey Kozikin seminarı baş tutmuşdur. Əsir və itkin düşmüşlər, hərbi əsirlər, minalanmış ərazilər mövzusunda baş tutan seminarda spiker bu istiqamətdə BQXK-nin gördüyü işlər haqqında məlumat vermiş, bu sahədə təşkilatın hüquq və funksiyalarına aydınlıq gətirmişdir.

Öz növbəsində, akademiyanın tələbələri bu mövzuların azərbaycanlılar üçün həssas olduğunu, bu istiqamətdə beynəlxalq hüququn işlək olmasının vacibliyi ilə bağlı fikirlərini bildirmişlər.

### *“İstedadlı Tələbələrin Təhsil Haqqının ödənilməsi” müsabiqəsi ilə əlaqədar olaraq DİA-nın tələbələri ilə görüş keçirilib*

25 oktyabr tarixində Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən elan edilən “İstedadlı Tələbələrin Təhsil Haqqının ödənilməsi” müsabiqəsi ilə əlaqədar olaraq Dövlət İdarəçilik Akademiyasının tələbələri ilə görüş baş tutmuşdur. Görüşün giriş hissəsində təhsil müəssisəsinin müşaviri Zaur Məmmədov Gənclər Fondu və Dövlət İdarəçilik Akademiyası arasında ötən il imzalanmış memoranduma diqqət çəkərək Azərbaycanda gənclərə dövlət qayğısından bəhs etmiş, bu kimi layihələrin sosial istiqamətdə mühüm xarakter daşıdığını qeyd etmişdir. Daha sonra Gənclər Fondunun nümayəndəsi Rahim Rəhimov geniş şəkildə çıxış edərək Təhsil haqqının ödənilməsi müsabiqəsi ilə bağlı prezentasiya nümayiş etdirmişdir. Rahim Rəhimov çıxışı zamanı gənclərə bu vacib müsabiqənin məqsədləri, şərtləri və istiqamətləri haqqında məlumat vermişdir. Tələbələrin aktiv sualları ilə davam edən görüşdə gənclərin Gənclər Fondunun bu və digər layihələri ilə bağlı onları sualları cavablandırılmışdır. Müsabiqədə iştirak etmək istəyən gənc tələbələr 1 noyabr 2022-ci il, saat 18:00- dək müraciət edə bilərlər.

### *Dövlət İdarəçilik Akademiyasının “ASAN xidmət”lə həyata keçirdiyi layihənin növbəti təlimi olub*

Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər”lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (“ASAN xidmət”) ilə əməkdaşlıq memorandumu çərçivəsində fəaliyyətini davam etdirir. Bununla əlaqədar oktyabrın 26-dan noyabrın 3-dək “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün təlimlər keçirilib. Təlimlərdə DİA-nın rektoru akademik Urxan Ələkbərov “Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” mövzusunda təqdimatla çıxış edib.

Rektor U.Ələkbərov təqdimatda ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyasından, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksindən bəhs edib. O vurğulayıb ki, bu yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanda davamlı inklüziv inkişafın əldə olunmasında və bu məqsədlə resurslardan səmərəli istifadə edilməsində önəmi danılmaz faktdır. Bu siyasətin nəticəsidir ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi uğurla yerinə yetirildi və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış ərazilərimiz azad edildi. Akademik bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlət başçısının innovativ inkişaf strategiyasının təntənəli nəticəsi kimi dəyərləndirib.

U..Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

Rektor təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da bildirib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq

ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb.

Sonda dinləyicilərin sualları cavablandırılıb.

***Dövlət İdarəçilik Akademiyasında 8 Noyabr – Zəfər Günü ilə əlaqədar elmi-praktik konfrans keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 8 Noyabr – Zəfər Günü ilə əlaqədar “İkinci Qarabağ müharibəsi: hərbi–diplomatik uğurlar” adlı elmi konfrans keçirilib. Əvvəlcə şəhidlərin əziz xatirəsi anılıb. Elmi-praktik konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov “Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” adlı məruzə ilə çıxış edib. Rektor, ötən 30 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi, siyasi, hərbi gücümüzün artdığını bildirib. Qeyd olunub ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib. U.Ələkbərov diqqətə çatdırıb ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşib. Xalqımızın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində ölkəmiz parçalanma təhlükəsindən xilas oldu. Akademik 44 günlük Vətən müharibəsindən, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən söz açıb. O, Vətən müharibəsində əsgər və zabitlərimizin qəhrəmanlığını qeyd edib. Rektor bildirib ki, Qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun müddət ərzində həyata keçirdiyi güclü dövlət idarəetməsi strategiyası olub. Konfransda Milli Məclisin deputatı, DİA-nın “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının dosent Aydın Mirzəzadə “Tarixi Qələbənin siyasi – ideoloji əsasları”, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru professor Vüsal Qasımlı “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post–model quruculuq modeli”, Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər kafedrasının professoru “Qarabağ Araşdırmalar Mərkəzi”nin rəhbəri professor Elçin Əhmədov “44 günlük müharibə zamanı tarixi atributlarımızın bərpa olunmasının milli-mənəvi və siyasi-tarixi tərəfləri” və başqaları Vətən müharibəsində qazandığımız tarixi Qələbənin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən Şuşanın işğalçılardan azad edilməsi, eləcə də son iki ildə Qarabağın, o cümlədən Şuşa şəhərinin əsl tarixi siması, ənənələri və qədim mədəni abidələrinin bərpası istiqamətində aparılan işlərdən bəhs edilib. Qeyd olunub ki, Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə qədim Şuşa şəhərinin rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya





meydanında da uğurlarımızı şərtləndirdi. DİA-da Şuşa dövlət rəsm qalereyasının “Şuşanın mədəni irsi” adlı rəsm əsərlərinin sərgisi nümayiş etdirilib.

### *Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq Biosfer Qoruqları Gününə həsr edilmiş tədbir keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq biosfer qoruqlari günü"nə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış edib. Akademik U.Ələkbərov təqdimatda Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. Daha sonra akademik U.Ələkbərov "Beynəlxalq biosfer qoruqları günü"nə həsr edilmiş tədbirin əhəmiyyətini qeyd etmiş, təbii mühitlə münasibətlərin keyfiyyətini yaxşılaşdırmaq üçün ilk növbədə biosferin vəziyyətinə nə dərəcədə təsir etdiyimizi və biosferin özümüzə olan təsirini daha dərindən dərk etməli olduğumuzu bildirmişdir. Ümumdünya Biosfer Qoruqları Şəbəkəsinin – dünyanın 134 ölkəsində yerləşən 738 təbiət ərazisini əhatə edir. Daha sonra Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov "Beynəlxalq Biosfer Qoruqları Gününün yaranmasının əhəmiyyəti", DİA-nın "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının baş müəllim Vüqar Babayev "Biosfer Qoruqlarının Ümumdünya Şəbəkəsi" adlı məruzə ilə çıxış etmişlər. Onlayn formatda keçən görüşdə beynəlxalq biosfer qoruqları günü münasibətilə YUNESKO-nun baş direktoru xanım Odri Azulenin müraciəti səslənmişdir.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nümayəndə heyəti Qırğızıstan Respublikasında səfərdə olub*

30 oktyabr – 2 noyabr 2022-ci il tarixlərində Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 30 illik yubiley tədbirləri keçirilib. Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorunun dəvəti ilə Bişkek şəhərində keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və DİA-nın Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimli iştirak etmişlər. Tədbirdə Qırğızıstan Respublikası Prezidenti Administrasiyasının və nazirliklərin rəhbər işçiləri, müxtəlif ölkələrin Qırğızıstan Respublikasında akkreditə olunmuş səfirləri, Qazaxıstan, Türkmənistan, Özbəkistan Respublikalarının Dövlət İdarəçilik Akademiyalarının rektorları, Almaniyanın Hanns Zaidel Fondunun rəhbər heyəti, Varşava, Şimali Makedoniya Universitetlərinin, Bavariya Dövlət İdarəçilik Məktəbinin nümayəndələri və Qazaxıstan Regional XAB-ın Rəhbər Komitəsinin sədri iştirak ediblər. Tədbirdə



Azərbaycan Respublikasının Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov da iştirak edib. Tədbir çərçivəsində 31 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması üçün dövlət idarəçiliyinin





yeni texnologiyaları" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə ölkəmizin innovativ iqtisadi, sosial, humanitar inkişafı ilə bağlı BMT və digər nüfuzlu beynəlxalq qurumların 2022-cı il üçün qiymətləndirmələri diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycan Respublikası qlobal miqyasda prioritet kimi qəbul edilən inklüziv inkişafın səmərəli planlaşdırılması və idarə edilməsi üzrə dünya lideridir. İnklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsinin təməlində Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi strategiyasının olduğu xüsusi vurğulanıb. Qazanılan uğurların 44 günlük Vətən mühari-bəsindəki parlaq Qələbədə böyük rolunun olduğuna diqqət çəkilib. Bildirilib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir. Yubiley tədbirində DİA-nın Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, siyasi e.f.d., dos. Rəcəb Rəhimli insan resurslarının idarə edilməsi sahəsində müasir modellərin tətbiqi, dövlət qulluğunda insan resurslarının idarə edilməsi, insan resurslarının fəaliyyətinin qiymətləndirilməsi mövzularında aparılan müzakirələrdə iştirak edərək bu sahədə Azərbaycanda həyata keçirilən islahatlar haqqında məlumat vermişdir. Qırğızıstan Respublikasının Baş naziri Alıbek Japarov yubileydə iştirak edən rəhbər nümayəndə heyətini qəbul edib.

### *Dövlət İdarəçilik Akademiyasının müəllimi "Universitet müəllimləri üçün beynəlxalq peşəkar müsabiqə"sində qalib olmuşdur*

10 noyabr 2022 il tarixində Rusiyanın paytaxtı Moskva şəhərində Universitet müəllimlərinin "University teacher-2022" adlı VIII Beynəlxalq Peşə Müsabiqəsi keçirilmişdir. Xatırladaq ki, sözügedən müsabiqəyə Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müəllimi, h.ü.f.d. Reyhan Cəfərova "Multikulturalizm – Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir" adlı məqaləsi ilə qatılmışdır. Hər il müxtəlif elm sahələri üzrə keçirilən müsabiqəyə dünyanın bir sıra ölkələrindən yüzlərlə elmi işlər göndərilir.

Müsabiqənın məqsədi müəllimlərin fəaliyyətinin və yaradıcılıq qabiliyyətlərinin inkişafına, pedaqoji səriştələrinə, özünü ifadə etmək üçün imkanları təmin etməyə, təhsilin optimal səviyyəsinə çatmaq üçün şərait yaratmaqdır. Bu il müsabiqədə iştirak edən elmi müəssisələrin sayı 418 çatmışdır. İştirakçılar arasında ali və orta ixtisas təhsil müəssisələrinin (universitetlər, institutlar, akademiyalar, kolleclər) müəllimləri və elmi işçilərdır. İştirakçılar bir neçə istiqamətlərdə və nominasiyalarda layihələrini təqdim etmişdilər. Müsabiqənin nəticələri karyera yüksəlişi, müxtəlif istiqamətlər, nominasiyalar və müsabiqə işlərinin təqdimat formaları, habelə iştirakçı – təhsil müəssisələrinin reytinqləri əsasında formalaşdırılmışdır. Hüquq üzrə fəlsəfə doktoru Cəfərova Reyhan Fərhat qızının təqdim etdiyi elmi əsər elmi-pedaqoji səviyyəyə görə 125-dən çox balla qiymətləndirilərək müəllimlər nominasiyasında I yerə layıq görülmüşdür. Həmçinin, müsabiqənin nəticəsi olaraq bir müsbət məqamı da qeyd etmək lazımdır ki, müsabiqədə iştirak edən 418 tədris müəssisəsindən yalnız 10 tədris müəssisə top–onluğa daxil olmuşdur və onların sırasında Dövlət İdarəçilik Akademiyası da vardır. Müsabiqədə qalıb olan və top-onluğa daxil olan əsərlər Dövlət Elektron Depozitariyasında, Google Books, ЛитРес, on-line Elm və Təhsil Depozitariyasında, e-library, B.N.Yeltsin adına Prezident Kitabxanasında yerləşdirilmişdir.

### *“Müasir dövrdə dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi” mövzusunda növbəti təlim keçirilib*

22 noyabr 2022-ci il tarixində Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər heyəti üçün növbəti onlayn təlim keçirmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müdiri, siyasi elmlər doktoru, dosent Rəcəb Rəhimli “Müasir dövrdə dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi” adlı mühazirə ilə çıxış etmişdir. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən 24 noyabr 2020-ci il tarixində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu və Qanunun tətbiqi ilə bağlı 26 dekabr 2020-ci il tarixində Fərman imzalanmışdır. Dəyişikliklər dövlət qulluqçusunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması, dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsini nəzərdə tutur. Məhz təşkil olunmuş təlimin əsas məqsədi bu dəyişikliklərin izahı və həyata keçirilməsi metodlarının rəhbər heyətin diqqətinə çatdırılması olmuşdur. Rəcəb Rəhimli təlim iştirakçılarına ölkəmizdə dövlət qulluğunun formalaşması, qanunverici bazası haqqında məlumat verərək qeyd etmişdir ki, Azərbaycanda dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu və Nazirlər Kabinetinin 6 aprel 2021-ci il tarixli “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası”na əsasən aparılır. Mühazirəçi həmçinin təlim iştirakçılarına dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin beynəlxalq təcrübəsi, qiymətləndirmənin məqsədi, qiymətləndirilməyə hazırlıq, qiymətləndirilmə dövrü, qiymətləndirilmənin nəticəsinə əsasən tətbiq edilən tədbirlər, dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsində rotasiyanın rolu barədə məlumat vermişdir. Natiq qeyd etmişdir ki, Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyada da dövlət orqanlarının struktur bölmələrinin və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi mühüm məsələ kimi qeyd olunur. Strategiya dövlət qulluğu

sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi və bir sıra əlaqəli sahələrdə əsaslı islahatların həyata keçirilməsini nəzərdə tutur. Rəcəb Rəhimli həmçinin ölkə prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci ildə imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamı qeyd edərək növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetin reallaşdırılmasında dövlət qulluqçularının qarşısında duran mühüm vəzifələri vurğuladı. Təlimin sonunda iştirakçıların sualları əhatəli şəkildə cavablandırıldı.

### *Zəngilan rayonu üzrə nümayəndəliyin və Zəngilan Rayon İcra Hakimiyyətinin əməkdaşları üçün ixtisasartırma təlimi keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu üzrə nümayəndəliyin və Zəngilan Rayon İcra Hakimiyyətinin əməkdaşları (dövlət qulluqçuları) üçün ixtisasartırma təlimi keçirilib. Təlim Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu üzrə nümayəndəliyin, Zəngilan Rayon İcra Hakimiyyətinin və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb.






Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda interaktiv təqdimatla çıxış edib. Urxan Ələkbərov təqdimatda Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli



istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. U.Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. O, qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Akademik qeyd edib ki, 8 noyabr 2020-ci il Azərbaycan tarixinə ən şanlı gün kimi yazıldı. Eyni zamanda, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, 30 ildən artıqdır yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun region üçün yaratdığı ciddi təhdidləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələrin informasiya məkanında düşmənin yalan üzərində qurulmuş təbliğatına ciddi zərbə vurduğunu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndiyini qeyd edib. Rektor U.Ələkbərov



təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da qeyd edib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Təlimin sonunda dinləyicilərin sualları cavablandırılıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti Ağalı kənd orta məktəbinin müəllim və şagirdləri ilə görüşüb, onlara “Prezident İlham Əliyevin uğur düsturları” mövzusunda dərs keçiblər. Həmçinin Zəngilanda aparılan quruculuq işləri ilə tanış olub, abidələri ziyarət ediblər.

### *DİA-nın İnzibati idarəetmə fakültəsində Azerbaijan Trading Academy ilə birgə “Birja və Maliyyə Bazarlarında ticarət” adlı seminar keçirilmişdir*

25 noyabr 2022 Tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsində Azerbaijan Trading Academy ilə birgə “Birja və Maliyyə Bazarlarında ticarət” adlı seminar keçirilmişdir. Seminarda fakültə dekanı dosent Elnur Əliyev, Azerbaijan Trading Academy-nin rəhbəri Fərid Cabbarov, icraçı direktoru Qurban Abbasov və təlimçi Əmrah Əhmədov tərəfindən tələbələrə Birja və maliyyə sahələrində yeni iş imkanları ilə bağlı məlumat verilmişdir. Sonda tələbələrin sualları cavablandırılmışdır.

### *DİA-da Elektron hökumət laboratoriyasının açılışı olub*

Noyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Dünya Bankı Qrupu ilə birgə əməkdaşlıq çərçivəsində Elektron hökumət laboratoriyasının açılışı olub və əməkdaşlıq haqqında protokol imzalanıb. Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov geniş təqdimatla çıxış edərək Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətləri diqqətə çatdırıb. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Bu Zəfərin cəmi 44 günə



qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. U.Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. O, qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi qeyd edib. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Akademik qeyd edib ki, 8 Noyabr 2020-ci il Azərbaycan tarixinə ən şanlı gün kimi yazıldı. Eyni zamanda, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, 30 ildən artıqdır yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun region üçün yaratdığı ciddi təhdidləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələrin informasiya məkanında düşmənin yalan üzərində qurulmuş təbliğatına ciddi zərbə vurduğunu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələn-

diyini qeyd edib. Rektor U.Ələkbərov müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da deyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını qonaqların diqqətinə çatdırıb. Qeyd olunub ki, bu gün Azərbaycanın hər bir sahədə sürətlə inkişaf etməsi dövlət idarəçilik sahəsində ixtisaslaşan gənclərin qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələri uğurla və səmərəli icra etmək üçün dünyada sürətlə yeniləşən nanotexnologiyalardan, yüksək bilik və təcrübədən geniş istifadə olunmalıdır. Bu mövzuda isə böyük maraqlarımızdan biri təcrübəli şirkətlərlə əməkdaşlıqlardır. Rektor Dünya Bankı Qrupu ilə əməkdaşlığın uğurlu olacağına inandığını, gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsi üçün müxtəlif tədbirlər görməyi planlaşdırdıqlarını qeyd edib. U.Ələkbərov çıxışını işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Görüşdə birgə həyata keçiriləcək layihələrin perspektivi, əməkdaşlıq imkanları müzakirə olunub. Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri xanım Sara Maykl çıxış edərək Dünya Bankı ilə Azərbaycan arasında səmərəli əməkdaşlığı vurğulayıb, ölkəmizdə aparılan bütün sahələrdə islahatların dəstəkləndiyini bildirib. O, Dövlət İdarəçilik Akademiyası ilə əməkdaşlıqdan məmnun olduğunu qeyd edib. Sara Maykl bildirib ki, müxtəlif dövrlərdə Dünya Bankı və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə əməkdaşlığı çərçivəsində görüş və seminarlar təşkil olunub. Bu, "Dövlət investisiyaları sahəsində potensialın gücləndirilməsi" layihəsinin reallaşmasına öz töhfəsini verib. Birgə uğurlu fəaliyyətin davamı olaraq aparılan danışıqlar nəticəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə DİA-da Dünya Bankının dəstəyi ilə kompüter laboratoriyasının yaradılması layihəsi müzakirə edilib. DİA-nın kompüter elmləri ixtisası üzrə maddi-texniki bazasının yaradılması, eyni zamanda, rəqəmsal Azərbaycan sistemi sahəsində yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə kompüter laboratoriyasının yaradılması qərara alınıb. Laboratoriya il ərzində 3000-dən çox dövlət qulluqçusunun müxtəlif sahələrdə təlim aldığı və canlı və distant şəkildə əlavə ali təhsilin təşkil olunduğu nəzərə alınmaqla, praktik vərdişlərin yalnız bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələr üçün deyil, eyni zamanda, dövlət qulluqçuları üçün müvafiq təlimlərin təşkili zamanı xüsusi əhəmiyyət kəsb edəcəkdir. Görüşdə Dünya Bankının əməliyyatlar üzrə baş mütəxəssisi Səidə Bağırlı, Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı daimi nümayəndəsi Aliya Azimova, Dünya Bankının Azərbaycan üzrə ictimaiyyətlə əlaqələr üzrə müşaviri Zaur Rzayev, Dünya Bankının Azərbaycan üzrə ölkə menecerinin icraçı köməkçisi Lalə Talibova, Dünya Bankının informasiya texnologiyaları üzrə mütəxəssisi Məmməd Cəfərzadə iştirak ediblər. Memorandumu Sara Maykl və rektor Urxan Ələkbərov imzalayıblar.

### *DİA-da təlim: insan resurslarının idarə edilməsi*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda onlayn formada növbəti təlim keçirilib. Təlim zamanı Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi Anar Həsənov insan resurslarının strateji planlaşdırılması və idarə edilməsinin məqsədlərindən, metodlarından, prosesin müxtəlif mərhələlərində qarşıya çıxan problemlərdən və həll yollarından danışıb. O, müasir praktikada insan resurslarının idarə edilməsi sahəsində istifadə olunan əsas anlayışları dinləyicilərə xatırladıb və bildirib ki, kadrların idarə edilməsi işə qəbulun rəsmiləşdirilməsi, işdən azad etmə, əmrlərin verilməsi, əməkhaqqının təyin edilməsi kimi fəaliyyətləri, həmçinin insan resurslarının idarə edilməsi iş analizi, insan resurslarının planlaşdırılması, işə uyğun kadrların tapılması və seçilməsi, adaptasiya, təlim və inkişaf, karyeranın idarə edilməsi, fəaliyyətin qiymətləndirilməsi, motivasiya və s. kimi funksiyaları əhatə edir. Bu gün təcrübə onu göstərir ki, bir təşkilatın digər qaynaqları nə qədər güclü olursa olsun, insan resursları kifayət qədər səmərəli deyilsə, müvəffəq olmaq şansı da azdır. A.Həsənov təşkilatların kadr siyasətinin quruluşunda səmərəliliyin artırılması üçün digər sosial, iqtisadi, elmi-texniki, informasiya və təşkilati-istehsalat siyasətləri ilə uyğunlaşdırılmasının vacibliyini diqqətə çatdırıb. Təlim zamanı insan resurslarının idarə edilməsinin əsas istiqamətləri, funksiyaları, əsas funksiyalardan olan motivasiyanın önəmi, motivasiyanın prinsipləri və s. barədə geniş məlumat verilib. Sonra təlimdə insan resurslarının idarə edilməsi sahəsində kadrların fəaliyyətinin qiymətləndirilməsi mövzusu üzrə müzakirələr aparılıb.

### *DİA-da Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunan tədbir keçirilib*

Tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ulu öndər Heydər Əliyevin və Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov YAP-ın yaradılmasının 30 illiyi münasibətilə iştirakçıları təbrik edərək, ulu öndər Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP-ın əldə etdiyi uğurlardan haqqında danışıb. Dövlətçiliyimizin möhkəmləndirilməsinə və dinamik inkişafına mühüm töhfələr verən YAP-ın qısa müddətdə hakim partiyaya çevrilməsinin əsasında xalqın ulu öndərə sevgisinin və inamının dayandığını bildirib. Rektor Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətləri diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində keçdiyi uğurlu yola nəzər salıb, dövlətimizin suverenliyi uğrunda mübarizədə verdiyi töhfələrdən, əldə etdiyi nailiyyətlərdən söhbət açıb. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yaranmış Yeni Azərbaycan Partiyasının xalqımızın müstəqilliyi naminə mübarizəsində layiqli aparıcı siyasi qüvvə olduğunu vurğulayıb. Rektor U.Ələkbərov Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib






çıxardığını vurğulayıb. YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev partiyanın keçdiyi şərəfli yoldan, gələcək hədəflərindən söz açıb. 30 illik zəngin və şərəfli inkişaf yolu keçən YAP-ın ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək, ölkəmizin inkişafı və formalaşmasında misilsiz rol oynadığını, partiyanın irəli sürdüyü hər bir təşəbbüsün, qəbul etdiyi qərarların dövlətimizin daha da qüdrətlənməsinə, xalqımızın yüksək rifah şəraitində

yaşamasına xidmət etdiyini vurğulayıb. Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aydın Mirzəzadə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının daha da inkişaf etdiyini diqqətə çatdırıb. Vətən müharibəsində əldə olunan parlaq qələbənin partiyanın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyduğunu bildirən A.Mirzəzadə, YAP-ın dövlətin qətiyyətli siyasəti, xalqın sarsılmaz həmrəyliyi ilə öz üzərinə düşən vəzifələri layiqincə davam etdirdiyini bildirib. Ulu öndər Heydər Əliyevin partiyanın qurulmasında və möhkəmlənməsində göstərdiyi fədakarlıqlardan, qarşıya çıxan maneələri cəsarətlə dəf etməsindən danışıb. Bildirilib ki, partiyada hər zaman mənəvi və humanist dəyərlər yüksək tutulub, gənclərə diqqət və qayğı ilə yanaşılıb. Tədbirin sonunda YAP ərazi təşkilatının sədri prof. Elçin Əhmədov ictimai fəallığı yüksək olan bəzi üzvlərin adlarını oxuyub və onlara YAP Səbail rayon təşkilatı tərəfindən təşəkkürnamələr təqdim olunub.

### *Ümummilli Lider Heydər Əliyevin zəngin irsi gələcək nəsillər üçün iftixar mənbəyidir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Heydər Əliyev Mərkəzinin dəstəyi ilə fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi"ndə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan anım tədbiri keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi anılıb. Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müasir siyasi tarixindəki əvəzsiz xidmətlərindən danışıb. Rektor bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev



Ulu Öndərin siyasətini yeni müstəvidə uğurla davam etdirir. Bu gün Azərbaycan dünyada tanınan, beynəlxalq münasibətlərdə öz sözü və yeri olan, inklüziv inkişaf edən modern və güclü dövlətə çevrilib. U.Ələkbərov qeyd edib ki, Azərbaycanın müasir tarixində Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərinin ictimai-siyasi mahiyyəti hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacaq. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi daim ürəklərdə yaşayacaq, zaman keçdikcə biz Heydər Əliyev dühasının əzəmətini, böyüklüyünü daha çox hiss edir, həyata keçirdiyi çoxşaxəli işlərin, xalqımız və müstəqil dövlətçiliyimiz üçün ən çətin, taleyüklü anlarda yerinə yetirdiyi xilaskarlıq missiyaların nəhəngliyini daha dərindən dərk edirik. Tədbirdə DİA-nın Tarix kafedrasının professoru Musa Quliyev, Dövlət idarəetməsi və menecment kafedrasının müdiri professor Xatirə Hüseynova və başqaları çıxış edərək qeyd ediblər ki, Ümummilli Lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişaf və tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Ulu Öndər Heydər Əliyev irsini öyrənmək və təbliğ etmək bizim hər birimizin şərəfli borcudur. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Həyata keçirilən qlobalmiqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu artırıb, ölkəmiz regionda və dünyada lider dövlətə çevrilib.

## *DİA Tələbə Elmi Cəmiyyəti virtual elmi konfrans keçirmişdir*

DİA Tələbə Elmi Cəmiyyəti 03 noyabr 2022-ci il tarixində magistrant və tələbələrin geniş iştirakı ilə 8 noyabr – Zəfər Gününə həsr olunmuş elmi konfrans keçirmişdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azad olunması uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov konfransı açaraq, 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində Azərbaycanın Böyük Qələbəsinin memarı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev olduğunu göstərmiş, onun rəhbərliyi altında işğala cəmi 44 gündə son qoyan rəşadətli Ordumuzun qəhrəmanlığından geniş söhbət açmışdır. Rektor ölkəmizdə Qələbəyə aparan nəhəng işlərdən danışaraq, bu işlərin təməlində Ulu öndər Heydər Əliyevin gələcəyə hesablanmış güclü dövlət strategiyasının müvəffəqiyyətlə reallaşması və bu strateji kursun Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsinin, onun sərkərdəlik məharəti, apardığı siyasi-diplomatik mübarizənin, müdrik və qətiyyətli qərarlarının, eləcə də sarsılmaz xalq – iqtidar birliyinin durduğunu göstərmişdir. Natiq Ermənistanın təcavüzkar və terrorçu dövlət kimi törətdiyi insanlığa sığmayan faşist əməllərinə görə beynəlxalq hüquq əsasında ağır cəza alacağına əminlik bildirmiş, postmüharibə reallıqları və Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi Qarabağın dirçəlişi strategiyasından geniş bəhs etmiş, Tələbə Elmi Cəmiyyətinin konfransının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, onun işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru Sevil Məmmədova ətraflı məruzə etmiş, tarix elmləri doktoru, professor Havva Məmmədova, siyasi elmlər

doktoru, professor Elçin Əhmədov, magistrant və tələbələrdən Zemfira Həsənova, Murad Həsənov, Etibar Babayev, Hüseyn Hacıyev, Cahangir Həsənov, Aytac Rəhimova, Nigar İbrahimova, Nəzrin Quluzadə, Elxan Ramazanov, Adilə Məmmədova, Sura Həsənova və b. maraqlı çıxışlar etmiş, geniş fikir mübadiləsi aparmışlar.

***Dövlət İdarəçilik Akademiyasının "ASAN xidmət"lə 2022-ci üçün nəzərdə tutulan son təlim keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) "ASAN xidmət"lə həyata keçirdiyi layihənin növbəti təlimi təşkil olunub. Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər"lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") ilə əməkdaşlıq memorandumu çərçivəsində fəaliyyətini davam etdirir. Bununla əlaqədar oktyabrın 26-dan noyabrın 3-dək "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün təlimlər keçirilib. Təlimlərdə DİA-nın rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda təqdimatla çıxış edib. Rektor U.Ələkbərov təqdimatda ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyasından, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksindən bəhs edib. O vurğulayıb ki, bu yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanda davamlı inklüziv inkişafın əldə olunmasında və bu məqsədlə resurslardan səmərəli istifadə edilməsində önəmi danılmaz faktdır. Bu siyasətin nəticəsidir ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi uğurla yerinə yetirildi və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış ərazilərimiz azad edildi. Akademik bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlət başçısının innovativ inkişaf strategiyasının təntənəli nəticəsi kimi dəyərləndirib. U.Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Rektor təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da bildirib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Sonda dinləyicilərin sualları cavablandırılıb. Bununla da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "ASAN" Xidmət ilə 2022-ci il üçün nəzərdə tutulan Əməkdaşlıq Memorandumu çərçivəsində olan təlimlər uğurla başa çatib.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Əhməd Cavadın 130 illiyinin həsr edilmiş tədbir keçirilib***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 aprel 2022-ci il tarixli Sərəncam imzalamışdır. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Əhməd Cavadın 130 illiyinin həsr edilmiş tədbir keçirilib. 2022-cidə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın anadan olmasının 130 illiyi tamam olur. Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəstxətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilmişdir. DİA-da keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Şəhidlərin xatirəsi sükutla anılıb. Açılış sözü ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycan xalqının vətənpərvər şairi Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün qeyd olunmasının, bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev imzaladığı Sərəncamın əhəmiyyətini qeyd etmişdir. Sonra Əhməd Cavadın 130 illiyinin həsr edilmiş tədbirdə DİA-nın Tarix kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova "Əhməd Cavadın ictimai-siyasi fəaliyyəti", "Dillər" kafedrasının müəllimi filologiya üzrə fəlsəfə doktoru Günay Maqsudova "Əhməd Cavadın ədəbi fəaliyyəti", İnzibati idarə etmə fakültəsinin II kurs tələbəsi Elmira Əliyeva "Əhməd Cavadın ömür yolu" adlı məruzə ilə çıxış etmişlər. Daha sonra DİA-nın tələbələrinin ifasında Əhməd Cavad irsindən nümunələr ifa edilmişdir.

***Dövlət Qulluğu üzrə Astana Regional Xabın Rəhbər Komitəsinin sədri Alixan Baimenov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında olub***

19 dekabr 2022-ci il tarixlərində Dövlət Qulluğu üzrə Astana Regional Xabın Rəhbər Komitəsinin sədri Alixan Baimenov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında qonaq olub. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış edərək davamlı inkişaf, inklüziv cəmiyyətin formalaşması üçün dövlət idarəçiliyinin yeni texnologiyaları sahəsində ölkənin əldə etdiyi uğurları qeyd edib. Rektor diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası qlobal miqyasda prioritet kimi qəbul edilən inklüziv inkişafın səmərəli planlaşdırılması və idarə edilməsi üzrə dünya lideridir. İnklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından



dünya liderinə çevrilməsinin təməlində Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi strategiyasının olduğu xüsusi vurğulanıb. Qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük rolunun olduğuna diqqət çəkilib. Bildirilib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir. Daha sonra çıxış edən Dövlət Qulluğu üzrə Astana Regional Xabın Rəhbər Komitəsinin sədri Alixan Baimenov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında çalışan və təhsil alanlarla görüşündən məmnunluq duyduğunu bildirib. Belə bir görüşün təşkili üçün Akademiyanın rəhbərliyinə minnətdarlıq edib. Qeyd edib ki, aparılan müzakirələrin Xaba üzv dövlətlər arasında mövcud əməkdaşlığa, gələcək islahatlara müsbət töhfə verəcəyinə inandığını bildirib. İnsan potensialının dövlət idarəçiliyində səmərəli istifadə olunması və əhəmiyyəti, onların potensialından səmərəli istifadə və keyfiyyətli ictimai xidmətlərin göstərilməsində insan resurslarının rolunu qeyd edib. Eyni zamanda interaktiv vasitə ilə keçmiş və gələcək inkişaf mərhələlərinin müqayisəli təhlilini verib. Dövlət Qulluğu üzrə Astana Regional Xabın Rəhbər Komitəsinin sədri Alixan Baimenovun məruzəsi çox maraqla qarşılanıb və iştirakçıların sualları cavablandırılıb. Qeyd edək ki, Dövlət Qulluğu üzrə Astana Regional Xab isə 25 iştirakçı ölkə və 5 beynəlxalq təşkilat tərəfindən yaradılan effektiv tərəfdaşlıq və şəbəkə platformasıdır.

## *Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasının tələbələri Ədliyyə Nazirliyinin Baş İdarəsində təcrübədə olmuşlar*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının təşəbbüsü ilə Hüquqşünaslıq ixtisasının 4-cü kurs tələbələri 20.12.2022-ci il tarixində Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində Xidmətlər Baş İdarəsində

olmuşlar. Tələbələr idarənin əməkdaşları tərəfindən oxunan mühazirədə müxtəlif vətəndaşlıq aktlarının qeydiyyatı haqqında nəzəri və praktiki məlumatlar əldə etmiş, şəxsin ad və soyadının dəyişdirilməsi ilə bağlı proseduru icra etmişlər. Daha sonra tələbələr ölkədəki ən geniş istifadə olunan arxivlə tanış olmuşlar. İdarənin əməkdaşları tərəfindən ölüm və doğum haqqında qeyd-aktlarla və informasiya sistemi ilə əyani tanış olmaq üçün şərait yaradılmışdır. Beləliklə, hüquq tələbələri nəzəriyyədə öyrəndikləri bilikləri dərinləşdirərək, əyani şəkildə tətbiqinin icrasında iştirak etmişlər. Tədbir zamanı hüquq elminin, təhsilin mühüm rolundan danışılıb, Prezident İlham Əliyevin bu sahənin inkişafına xüsusi əhəmiyyət verdiyi vurğulanıb. Qeyd edilib ki, DİA-nın Hüquq fakültəsi tələbələrinin, gənc hüquqşünasların təcrübə keçdikləri qurumlarda onlara daim dəstək veriləcək.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Mediasiya Şurası arasında Memorandumunun imzalanıb***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Mediasiya Şurası arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması ilə əlaqədar tədbir keçirilib. Memorandum nəzəri və təcrübi biliklərin artırılmasını, tələbələr üçün təcrübə imkanlarının yaradılmasını, birgə tədqiqatların aparılmasını və digər məsələləri ehtiva edir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov digər ixtisaslarla yanaşı, hüquqşünaslıq ixtisası üzrə kadr hazırlayan və tələbələrin praktik bacarıqlarının inkişaf etdirilməsinə xüsusi önəm verildiyini qeyd edib və Mediasiya Şurası ilə əməkdaşlığın səmərəli olacağına inamını ifadə edib. İmzalanma mərasimində rektor Urxan Ələkbərov bildirib ki, son 30 ildə Azərbaycan böyük inkişaf yolu keçib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasətinin əhəmiyyətini vurğulayan rektor qeyd edib ki, ölkəmizdə



yaradılan innovativ idarəetmə sistemi nəticəsində respublikamız inklüziv inkişafa nail olub. İndi hər kəs öz həyatında bunu hiss edir. U.Ələkbərov Azərbaycanın inkişaf tendensiyasını nüfuzlu beynəlxalq qurumların yaydığı statistik göstəricilərlə əsaslandırıb. İdarəetmənin innovasiyaya təsirini və inkişafın əsas amillərini diqqətə çatdırıb. Rektor deyib ki, 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətçiliyi tarixində xüsusi mərhələ kimi qalacaq. Müstəqillik illərində Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən U.Ələkbərov ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını bildirib. Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov bildirib ki, Dövlət İdarəçilik Akademiyasının ölkəmizin nüfuzlu ali təhsil ocaqlarından biri olduğunu vurğulayıb, DİA-nın məzunlarının müxtəlif dövlət və özəl qurumlarda aparıcı və rəhbər vəzifələr tutduqlarını bildirib. O, imzalanan memorandumun əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli sənəd olduğunu və hər iki təşkilat üçün faydalı olacaq bir sıra sahələrdə əməkdaşlığın və mühüm layihələrin həyata keçirilməsini nəzərdə tutulduğunu qeyd edib. Tədbirdə Mediasiya Şurası İntizam Komissiyasının sədri Mayıl Əhməd, 14 saylı mediasiya təşkilatının rəhbəri Gəray Məmmədtağıyev, Hüquq kafedrasının müdiri prof. İsaxan Vəliyev iştirak etmişlər.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Vəkil günü” peşə bayramı ilə əlaqədar görüş keçirilib*

28 dekabr 2022-ci il tarixində “Vəkil günü” peşə bayramı ilə bağlı Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri ilə görüş təşkil edilmişdir. Tədbirdə çıxış edən DİA-nın Tədris işləri üzrə prorektoru Əlikram Abdullayev insan hüquqlarının müdafiəsinin təmin edilməsi sistemində vəkillik institutunun rolundan bəhs etmiş və 19 mart 2021-ci il tarixində Vəkillər Kollegiyası ilə Prezident yanında Dövlət İdarəçilik Akademiyası arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini vurğulamışdır. Prorektor əlavə etmişdir ki, bu səmərəli əməkdaşlıq nəticəsində hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrimiz Vəkillər Kollegiyasının struktur bölmələrində və Vəkil bürolarında təcrübə keçmişlər, nəzəri və praktiki biliklərin inteqrasiyası prosesi təmin edilmiş və yüksək ixtisaslı gənc kadrların hazırlanmasında mühüm addımlar atılmışdır. Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədr müavini, Hüquqi Yardım və Tədris Mərkəzinin direktoru Şahmar Məmmədov “Vəkillər və vəkillik fəaliyyəti haqqında” 28 dekabr 1999-cu il tarixli Qanununu nəzərdən keçirərək vəkillik fəaliyyətinin fəlsəfi və praktiki aspektləri barədə dinləyicilərə məlumat vermişdir. Qeyd edilmişdir ki, hər il dekabrın 28-nin “Vəkil günü” peşə bayramı kimi təsis edilməsi Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin 25 dekabr 2019-cu il tarixli Sərəncamına əsasən həyata keçirilir. Daha sonra görüş interaktiv formada davam etmiş, Şahmar Məmmədov tələbələrin vəkillik institutu ilə əlaqədar onları maraqlandıran suallarını cavablandırmış və vəkilliklə bağlı maarifləndirmə tədbirinin DİA-da keçirilməsi məsələsinə dəstək göstərildiyi üçün Akademiya rəhbərliyinə təşəkkürünü bildirmişdir.

***Dövlət İdarəçilik Akademiyasının nümayəndələri Türkiyədə Beynəlxalq İnsan Resursları Forumunda iştirak etmişlər***

05-06 dekabr 2022-ci il tarixlərində Türkiyənin İstanbul şəhərində Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisi və Türk Dövlətləri Birliyinin təşkil etdiyi İnsan Resursları Forumunda iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimli və Akademiyanın "İntellektual sistemlərin idarə olunması" kafedrasının müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elvin Əzizbəyov Türkiyəyə ezam olunmuşdur. Dünyanın 40 ölkəsindən mütəxəssislərin, Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin rəhbərliyinin, şöbə və sektor müdirlərinin, layihə rəhbərlərinin, müxtəlif nazirliklərin, o cümlədən Türk Dövlətləri Birliyinin nümayəndələrinin qatıldığı Forumda dos. Rəcəb Rəhimli "Rəhbər dövlət idarəçiliyi kadrlarının hazırlanması" adlı məruzə ilə çıxış etmişdir. Məruzədə dos.Rəcəb Rəhimli son illər ölkəmizdə dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində həyata keçirilən islahatlardan və əldə edilən uğurlardan danışaraq qeyd etmişdir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə müasir, çevik dövlət qulluğu sistemi qurulmuş, kreativ düşüncəli dövlət qulluqçuları korpusu formalaşdırılmış, dövlət xidmətlərinin keyfiyyəti yüksəldilmişdir. Məruzəçi çıxışında Azərbaycan Respublikasının Konstitusiyasında edilən dəyişikliklərdən, Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyadan, Nazirlər Kabinetinin 2021-ci ildə təsdiq etdiyi "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"ndan danışmışdır. O, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsini və dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyada dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqini, o cümlədən bir sıra əlaqəli sahələrdə əsaslı islahatların həyata keçirilməsinin vacibliyini mühüm



məsələ kimi qeyd etmişdir. Bundan əlavə dosent Rəcəb Rəhimli rəhbər dövlət idarəçiliyi kadrlarının hazırlanması sahəsində Dövlət İdarəçilik Akademiyasının rolu, “Yüksəliş” müsabiqəsi və kadr ehtiyatı bankı haqqında tədbir iştirakçılarına məlumat vermişdir. DİA-nın “İntellektual sistemlərin idarə olunması” kafedrasının müdiri, dos. E.Əzizbəyov isə Beynəlxalq Forumda dövlət idarəçiliyində İT texnologiyaların tətbiqi, rəqəmsal iqtisadiyyatda texniki-informasiya üsulları (Crowdsourcing, Project management, İT-management), risklərin idarə olunmasında Big Data sistemlərinin rolu və digər mövzularda Forum iştirakçıları ilə səmərəli müzakirələr aparmışdır.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**............................17

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................33

Bolqarıstan Respublikasına rəsmi səfər ....................................................................33
Ağdam rayonna səfər ..................................................................................................39
Çex Respublikasına səfər ............................................................................................42
Rusiya Federasiyasına işgüzar səfər..........................................................................45
Qırğızıstan Respublikasına dövlət səfəri...................................................................46
Qazaxıstan Respublikasına işgüzar səfər .................................................................56
Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfər .....................................................61
Gürcüstana işgüzar səfər ............................................................................................69
Rusiya Federasiyasına işgüzar səfər..........................................................................72
Əlcəzair Xalq Demokratik Respublikasına səfər ......................................................73
Füzuli və Şuşaya səfər.................................................................................................77
Özbəkistan Respublikasına səfər................................................................................81
Albaniya Respublikasına dövlət səfəri.......................................................................85
Serbiya Respublikasına rəsmi səfər ...........................................................................88
Şəki və Oğuz rayonlarına səfər ..................................................................................93
Türkmənistan Respublikasına işgüzar səfər..............................................................99
Rumıniya Respublikasına işgüzar səfər ..................................................................102
Rusiya Federasiyasına işgüzar səfər........................................................................104

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri,
çıxışları və müsahibələri** ......................................................................................105

Azərbaycan və Türkiyə prezidentləri Cəbrayıl şəhərində
mətbuata birgə bəyanatlarla çıxış ediblər...............................................................105

İlham Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının
30 illiyi münasibətilə keçirilən tədbirdə çıxış edib ..................................................107

Bakıda keçirilən "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda
beynəlxalq konfransda İlham Əliyevin nitqi ...........................................................112

## DÖVLƏT İDARƏÇİLİYİ

**Rəcəb Rəhimli.** İnsan resurslarının idarə edilməsi dövlət idarəçiliyində islahatların amili kimi ....................................................113

**Elnur Əliyev.** Dövlət qulluğu üzrə qlobal çağırışlar və şəbəkə idarəetməsinin perspektiv inkişafı ....................................................127

## KULTUROLOGİYA

**Фуад Мамедов.** Концепция развития духовной культуры Азербайджана..........................135

## İQTİSADİYYAT

**Khatira Huseynova.** Interaction between technological and economic transformations..........151

**Yusif Zeynalov.** Azərbaycanda dövlət maliyyəsi və onun icrasına nəzarətin vəziyyəti ...........157

**Адиль Султанов.** Формирование эколого-ориентированного управления как новый фактор развития экономики Азербайджана ....................................................165

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Fuad Hümbətov.** Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlar ....................................................177

**Cəmilə Hüseynova.** Heydər Əliyev Fondu davamlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığının örnəyi kimi ....................................................189

**Sona Bayramova.** Azərbaycanda insan potensialının inkişafında dövlət siyasətinin əsas prioritet istiqamətlərinin təhlili....................................................199

## FƏLSƏFƏ

**Əntiqə Paşayeva.** Aristotelin "Nikomaxusun əxlaqı" əsərində təbii hüquq və əxlaqın nisbəti..209

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R

### DÖVLƏT İDARƏÇİLİYİ

**Vüsal Quliyev.** Dövlət-özəl tərəfdaşlığında risklərin əsas xüsusiyyətləri.................................225

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Nisə Paşayeva.** Beynəlxalq gənclər hərəkatının təşəkkülü və inkişaf mərhələləri haqqında.....233

**Шамс Нагиева.** Роль Гейдара Алиева в формировании внешнеполитической стратегии Азербайджанской Республики ...................................................................................241

### SİYASİ NƏZƏRİYYƏ

**Şahmar İbadov.** Qloballaşmanın siyasi proseslərə təsiri.........................................................251

**Фарида Алиева.** Геополитическая специфика современных международных миграционных процессов...........................................................................................261

### TARİX

**Pərvin İsmayılov.** AXC-nin dövlət və din siyasəti: tolerantlıq və multİkulturalizm ənənələri...271

**Elnara Madatova.** Palaces in the period of the Karabag Khanate .........................................277

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**Şaiq Əliyev.** Cənubi Qafqazın nəqliyyat-kommunikasiya sistemində Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti ...................................................................................287

**Dövlət İdarəçilik Akademiyasında** .......................................................................297

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2022, №4(80)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş ... Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2022, №4(80)**


The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*


Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order ........ Number of copies printed 500